Azərbaycan Milli Elmlər Akademiyası
akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

# AMEA AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

# 60 ildə

BAKI – 2018

*Kitab Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilir.*

**Redaksiya heyəti:**

**Gövhər Baxşəliyeva** - *akademik*
**Şahin Mustafayev** - *akademik*
**Səbinə Səlimova** - *filologiya üzrə fəlsəfə doktoru, dosent* (məsul katib)
**Ruhəngiz Cümşüdlü** - *filologiya üzrə fəlsəfə doktoru, dosent*
**Vüqar Məmmədov** - *filologiya üzrə fəlsəfə doktoru*

**AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu 60 ildə.**
Bakı, "Papirus NP", 2018, 272 səh.

*Kitab "AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun 60 illik yubileyi haqqında" Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 14 fevral 2018-ci il tarixli qərarı əsasında hazırlanmışdır.*

**İSBN 978-9952-8086-3-6**

© *akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2018*

# AMEA AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU 60 ildə

Çoxəsrlik Azərbaycan şərqşünaslıq elminin təşəkkülü və inkişafı islam sivilizasiyası, türk dünyası, Yaxın və Orta Şərq ölkələrinin mədəniyyəti ilə sıx əlaqədə olan Azərbaycan mədəniyyətinin tarixi təkamülü ilə bağlıdır.

Böyük Azərbaycan mütəfəkkir və alimləri Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, Nizami Gəncəvi, Mahmud Şəbüstəri, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və digərləri öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat, fəlsəfə, coğrafiya və etnoqrafiyasının inkişafına və bütövlükdə dünya elminə əvəzsiz töhfələr vermişlər.

XIX yüzillikdə zəngin milli mədəniyyətin təməlində və Avropa və rus elminin təsiri ilə Azərbaycanda şərqşünaslığın inkişafına təkan vermiş bir sıra parlaq alim və ədiblər yetişmişlər. Həmin dövrdə yaşamış Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov kimi mütəfəkkir və alimlərimizin Azərbaycanın elm və mədəniyyətinin inkişafındakı xidmətləri misilsizdir. Eyni zamanda, onların Rusiyada və Avropa ölkələrində şərqşünaslıq elminin təşəkkül və inkişafında mühüm rolu olmuşdur.

Sovet dövründə, 1935-ci ildə SSRİ EA-nın Azərbaycan filialının, 1954-cü ildə isə Tarix İnstitutu nəzdində Xarici Şərq ölkələri tarixi şöbəsinin yaradılması ilə Azərbaycanda Şərqin sistemli şəkildə tədqiqi başlandı.

Azərbaycan MEA Şərqşünaslıq İnstitutu (1967-1984-cü illərdə Yaxın və Orta Şərq xalqları institutu) 1958-ci ildə Respublika Nazirlər Sovetinin qərarı ilə EA-nın digər institutlarında fəaliyyət göstərən müvafiq şöbə və qrupların əsasında yaradılmışdır. Həmin vaxtdan etibarən Azərbaycan şərqşünaslığının inkişafında keyfiyyətcə yeni dövr başlandı, coğrafi region və əsas tədqiqat istiqamətləri



müəyyənləşdi. İnstitutun qarşısında duran başlıca vəzifə Yaxın və Orta Şərq ölkələrinin tarixi, ictimai-siyasi, iqtisadi və mədəni inkişafının qanunauyğunluqlarını və xüsusiyyətlərini tədqiq və təhlil etmək idi. Eyni zamanda, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə çoxəsrlik mədəni-tarixi əlaqələrini nəzərə alaraq Respublika üçün konkret tətbiqi əhəmiyyəti olan aktual tədqiqatlara da önəm verilirdi.

İnstitutun yüksək ixtisaslı kadrlarının və elmi potensialının artması nəticəsində tədricən şərqşünaslığın tematikası genişləndi və zənginləşdi. Kollektivin səyi əsasən Yaxın və Orta Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi fikri və filologiyasının aktual problemlərinin kompleks şəkildə öyrənilməsinə, Şərq xalqlarının yazılı abidələrinin tədqiqi və nəşrinə, həmçinin Azərbaycan xalqının ərəbdilli və farsdilli abidələrinin tərcümə və araşdırılmasına yönəldi.

Azərbaycan müstəqillik əldə edənə qədər respublikamızda şərqşünaslıq elmi bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edirdi. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemləri ilə bağlı bir sıra mövzular, hakim marksizm təliminin tələblərinə uyğun şəkildə tədqiq edilir və Sovet İttifaqının

şərq siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Lakin, eyni zamanda, keçmiş İttifaqın aparıcı şərqşünaslıq mərkəzləri ilə daimi sıx əlaqə, elmi təcrübə mübadiləsi, müxtəlif elmi və elmi-informativ məlumatların əldə edilmə imkanı Azərbaycanda bu sahənin inkişafına güclü təkan vermişdir. Təsadüfi deyil ki, keçən əsrin 70-80-ci illərində Azərbaycan şərqşünaslıq elmi keçmiş İttifaqda aparıcı mövqelərdən birini tutmuş və dünyada bu sahənin mütəxəssisləri arasında geniş şöhrət tapmışdır. Azərbaycan şərqşünaslığının beynəlxalq nüfuzu akademiklər Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Ziya Bünyadov, müxbir üzv Böyükağa Hüseynov, professorlar Aida İmanquliyeva, Rüstəm Əliyev, Əkrəm Cəfər, Rauf Seyidov və bir çox digər aparıcı alimlərin yorulmaz əməyi ilə qazanılmışdır.

1991-ci ildə Azərbaycanın öz istiqlaliyyətini bərpa etməsi və müstəqil Azərbaycan Respublikasının yaranması institutun önündə yeni üfüqlər açdı və qarşısında mühüm vəzifələr qoydu.

Yeni şəraitdə Azərbaycan şərqşünaslığının məqsəd və problematikası əsaslı şəkildə yenidən işlənmişdir. Xarici siyasət xəttini müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi hal-hazırda olduqca mühüm bir məsələdir. Azərbaycanın xarici siyasət





strategiyası baxımından Şərq ölkələrinin ictimai-siyasi və iqtisadi vəziyyətinin öyrənilməsinə ciddi ehtiyac vardır.

Məlumdur ki, Yaxın Şərq bu gün dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir. Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər böyük dövlətlərin və beynəlxalq güc mərkəzlərinin diqqətini daim bölgəyə cəlb edir. Davam edən İsrail-Fələstin qarşıdurması, İraq müharibəsi, bir sıra ərəb ölkələrində baş verən ictimai-siyasi hadisələr, müxtəlif ölkələrdə özünü göstərən etnik münaqişələr, dini-fundamentalist cərəyanlar, hərbi qarşıdurmalar, beynəlxalq terrorizm təhlükəsi və s. problemlər bütün dünyanın diqqətini bu regiona yönəldir. Təsadüfi deyil ki, son illərdə Amerika və Avropada yeni-yeni "Şərq araşdırmaları mərkəzləri" yaranır, region ilə bağlı nəşrlərin sayı artır. Elmi və siyasi ədəbiyyatda geniş müzakirə edilən ABŞ-ın "Böyük Yaxın Şərq" layihəsi yaxın gələcəkdə bu regionda hələ də sabitliyin bərpa olunmamasına və gərginliyin artmasına dəlalət edir. Müstəqil Azərbaycanın milli və dövlət maraqları burada baş verən və gələcəkdə baş verə biləcək hadisələri ciddi təhlil edib nəzarətdə saxlamağı tələb edir.

Eyni zamanda, bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan üçün iqtisadi islahatlar və özəlləşdirmə, habelə bir sıra təbii ehtiyat-



*Akademik Əbdülkərim Əlizadə*



*Akademik Əlisöhbət Sumbatzadə*



*Akademik Həmid Araslı*



*Akademik Ziya Bünyadov*



*Professor Aida İmanquliyeva*

ların istismarı və istehsalı sahəsində Şərq ölkələrinin təcrübəsinin öyrənilməsini zəruri edir. Bu sahədə Avropa ilə yanaşı, mentalitet və milli-mənəvi dəyərlər baxımından bizə daha yaxın olan Şərq ölkələrinin təcrübəsinin müsbət və mənfi tərəflərinin tədqiqi aktuallıq kəsb edir. Bundan əlavə, Şərq ölkələri ilə iqtisadi əməkdaşlığı genişləndirən respublikamız üçün bu sahənin prioritet istiqamətlərini aydınlaşdırmaq lazımdır.

Bütün bunlarla əlaqədar, müstəqillik dönəmində institutun elmi fəaliyyət dairəsi daha da genişlənmiş, bir sıra yeni istiqamətlər müəyyənləşdirilmişdir. Hazırda institutda elmi tədqiqat işləri, əsasən, aşağıdakı istiqamətlər üzrə aparılır:

Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarının öyrənilməsi;

Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsinin tədqiqi; yazılı abidələrin araşdırılması, tərcüməsi və nəşri;




Şərq-Qərb sivilizasiyalararası münasibətlərinin öyrənilməsi;

Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrinin tədqiqi;

Müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlərin araşdırılması və onlara dair proqnoz və tövsiyələrin işlənib hazırlanması.

İnstitutun ilk direktoru görkəmli mənbəşünas və mətnşünas alim, akademik Ə.Ə.Əlizadə (1958-1963) olmuşdur. Sonralar instituta akademik Ə.S.Sumbatzadə (1963-1970), akademik H.M.Araslı (1970-1981), akademik Z.M.Bünyadov (1981-1986, 1988-1991, 1992-1997), professor A.N.İmanquliyeva (1991-1992) kimi görkəmli alimlər başçılıq etmişlər. Hal-hazırda institutun direktoru akademik G.B.Baxşəliyevadır.

Azərbaycanda mətnşünaslıq elminin yaranması akademik Ə.Ə.Əlizadənin adı ilə bağlıdır. O, Nizami Gəncəvi, Fəzlullah Rəşidəddin, Məhəmməd ibn Hinduşah Naxçıvaninin irsinin toplanması, əsərlərinin elmi-tənqidi mətnlərini tərtib etməklə Azərbaycan elminə əvəzsiz xidmət göstərmişdir.

Akademik Ə.S.Sumbatzadə Azərbaycan xalqının etnogenezinin öyrənilməsinə və formalaşmasına, bu sahədə yeni konsepsiyanın yaradılmasına əvəzsiz töhfələr vermişdir. O, instituta rəhbərlik etdiyi



dövrdə elmi-tədqiqat işlərinin müəyyənləşdirilməsində, elmi-təşkilati işlərin istiqamətləndirilməsində, bütövlükdə şərqşünaslıq elmimizin müxtəlif sahələrinin inkişafında böyük rol oynamışdır.

Özünün bütün yaradıcılıq qüvvəsini, çoxcəhətli istedadını Azərbaycan ədəbiyyatşünaslığının inkişafına və klassik ədəbi irsin öyrənilməsinə sərf edən akademik H.Araslının elmi-tədqiqat fəaliy-





İnstitutun direktoru,
akademik Gövhər Baxşəliyeva

yətində Azərbaycan və Şərq xalqları ədəbiyyatının orta əsrlər dövrünə aid problemləri mühüm yer tutmuşdur. Alimin Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasındakı xidmətləri xüsusi qeyd olunmalıdır.

Akademik Z.M.Bünyadovun elmi əsərləri Azərbaycanın və Yaxın Şərq ölkələrinin Ərəb xilafəti və orta əsrlər dövrü tarixinin tədqiqinə həsr edilmişdir. Azərbaycan elm və mədəniyyəti tarixində dərin iz qoymuş görkəmli alim orta əsr müəlliflərinin Azərbaycan, Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair əsərlərinin öyrənilməsi, şərhli tərcüməsi və nəşrinə böyük əmək sərf etmiş və bu sahədə tarixçi-mediyevistlər məktəbi yetişdirmişdir.

F.ü.e.d., prof. A.N.İmanquliyeva Azərbaycanda ərəb ədəbiyyatşünaslığı məktəbinin yaranmasında müstəsna xidmətlər göstərmişdir. Keçmiş Sovet İttifaqında ərəb məhcər ədəbiyyatının aparıcı tədqiqatçısı olmuş A.N. İmanquliyeva fundamental araşdırmaları ilə Azərbaycan ərəbşünaslığını xeyli zənginləşdirmiş və inkişaf etdirmişdir. Onun əsərləri bu gün də dünya şərqşünaslığında geniş istifadə olunur.

Hal-hazırda instituta rəhbərlik edən akademik G.B.Baxşəliyeva ərəb ədəbiyyatının müxtəlif məsələlərinə və Azərbaycan-ərəb ədəbi əlaqələrinə dair çoxsaylı əsərlərin müəllifidir. G.B.Baxşəliyeva elmi və təşkilatçılıq fəaliyyəti ilə yanaşı, ölkənin ictimai-siyasi həyatında da yaxından iştirak edir. O, II, III, IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilib.

İnstitutun kollektivinin elmi fəaliyyəti şərqşünaslığın ən aktual problemlərinin tədqiqinə yönəlmişdir. Şərq ölkələrinin tarixi, ictimai-siyasi və iqtisadi inkişafı, Şərq xalqlarının filologiyası, islam tarixi, müasir Şərqdə din və ictimai fikir cərəyanları və digər sahələr institut əməkdaşlarının diqqət mərkəzindədir. Son illər xüsusi aktuallıq kəsb edən Güney Azərbaycanın iqtisadi, ictimai və mədəni inkişaf problemləri, habelə islam fundamentalizmi və s. bu kimi məsələlərin tədqiqi də daha geniş vüsət almışdır.

Ötən müddət ərzində institutda 600-dən çox monoqrafiya, məqalələr məcmuəsi, kitab və yeddi mindən çox elmi məqalə nəşr edilmişdir.


İnstitutun elmi işlər üzrə direktor müavini, akademik Şahin Mustafayev

Hazırda akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda çalışan elmi əməkdaşların sayı 138 nəfərdir. Bunlardan 2 nəfəri akademik, 12 nəfəri elmlər doktoru, 59 nəfəri isə fəlsəfə doktorlarıdır.

İnstitutda 16 şöbə fəaliyyət göstərir: Türkiyə tarixi və iqtisadiyyatı, İran tarixi və iqtisadiyyatı, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, Türk filologiyası, İran filologiyası, Ərəb filologiyası, Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri, Din və ictimai fikir tarixi, Cənubi Azərbaycan, Şərq-Qərb, Mərkəzi Asiya ölkələri, Asiya Sakit okean regionu ölkələri, Nəşriyyat və elmi informasiya təminatı və 3 köməkçi şöbə - Təhsil, Beynəlxalq əlaqələr və İctimaiyyətlə əlaqələr şöbələri.


İnstitutun elmi katibi, dosent, f.ü.f.d. Səbinə Səlimova

# İRAN TARİXİ VƏ İQTİSADİYYATI ŞÖBƏSİ

Şöbə yaradılarkən onun qarşısında İranın yeni dövr tarixi inkişafını, sosial, siyasi, iqtisadi, mədəni problemlərini araşdırmaq vəzifəsi qoyulmuşdu. Qeyd etmək lazımdır ki, şöbə İran tarixinin bir sıra problemlərinin öyrənilməsində keçmiş SSRİ elmi məkanında prioritet mövqeyə malik idi. Bu problemlərə, ilk növbədə, İranda aqrar münasibətlər, İran cəmiyyətinin yeni struktur komponentləri və İranın xarici münasibətləri aid edilə bilər.

Şöbədə İranda XIX əsrin sonu - XX əsrin əvvəllərində aqrar münasibətlər kompleksi, fəhlə sosial qrupunun meydana gəlib formalaşma prosesi, İranda sahibkar təbəqəsinin, həmçinin ziyalı təbəqəsinin formalaşması prosesi, İranda siyasi-ictimai təşkilatların meydana gəlməsi, İranın xarici münasibətləri, bu ölkənin iqtisadi inkişaf problemləri, həmçinin Əfqanıstan tarixi ilə bağlı məsələlər və s. öyrənilib.

Müstəqilliyin ilk illərində əsas diqqət şöbənin elmi istiqamətlərinə yenidən baxılmasına və mövcud elmi qüvvə ilə tədqiqat işlərinin davam etdirilməsinə yönəldilmişdir. Şöbənin elmi fəaliyyəti, əsasən,






ən yeni dövr İran tarixinin, xüsusən İslam Respublikası dövrünün siyasi, hüquqi, iqtisadi problemlərinin, Azərbaycan Respublikası ilə qonşu dövlət arasında genişlənməkdə olan əlaqələrin tədqiqinə yönəlmişdir. İnstitutun iranşünas alimlərinin qeyd edilən sahələrdə bir sıra maraqlı və mühüm kitabları işıq üzü görmüşdür.

Hazırda İran tarixi və iqtisadiyyatı şöbəsinə t.ü.f.d. V.Mustafayev başçılıq edir. O, müasir İranda müxtəlif siyasi cərəyanların meydana gəlməsi və ölkənin ictimai-siyasi həyatına təsiri problemini araşdırır. Bu sahədə tədqiqatların nəticəsi V.Mustafayevin 2010-cu ildə işıq üzü görmüş "İran İslam Respublikasında hakimiyyət daxili münasibətlər (islahatçı-mühafizəkar qarşıdurması)" adlı kitabda öz əksini tapmışdır. Son illərdə V.Mustafayev Cənubi Azərbaycan problematikası ilə bağlı da iki kitab çap etdirmişdir. "Cənubi Azərbaycan: Milli şüur (XX əsrin I yarısı)" (Bakı, 1998) adlı əsərdə ilk dəfə olaraq cənubi azərbaycanlıların milli şüurunun formalaşması problemi hərtərəfli və dərindən araşdırılmışdır. Həmin əsər 2000-ci ildə Almaniya Federativ Respublikasında yenidən çap olunmuşdur. İkinci kitab (2002) Cənubi Azərbaycan məsələsinin öyrənilməsinin tarixşünaslığına həsr olunmuşdur.

Şöbənin baş elmi işçisi, t.ü.e.d., prof. S.Rüstəmova-Tohidinin "Kominternin Şərq siyasəti və İran" (Bakı, 2001) mövzusunda monoqrafiyası həm ölkəmizdə, həm də xarici ölkələrdə mütəxəssislərin xüsusi diqqətini cəlb etmişdir. Prof. S.Rüstəmova-Tohidi eyni zamanda 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım və terror hadisələrini orijinal arxiv materialları əsasında işıqlandıran bir neçə sanballı kitab hazırlayıb müxtəlif dillərdə çap etdirmişdir. Onların arasında "Mart 1918. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə" (Bakı, 2009), "1918-ci il Quba hadisələri - Azərbaycanın müsəlman əhalisinin kütləvi məhv edilməsi planlarının tərkib hissəsi

kimi. Müsəlmanların soyqırımı sənədlərdə. Sənədlər toplusu" (Bakı, 2010), "1918-ci il Azərbaycanlıların soyqırımı foto və sənədlərdə" (rus, ingilis və türk dillərində) (Bakı, 2012), "Şamaxı. 1918-ci il mart-iyul. Azərbaycanlıların soyqrımı sənədlərdə (2 cilddə)" (Bakı, 2013), "1918-ci il Göyçay, Cavad, Ərəş. Azərbaycan qırğınları sənədlərdə" (Bakı, 2017) və digərlərinin adını çəkmək olar. S.Ə.Rüstəmova-Tohidi İngiltərə, Rusiya, İran, Makedoniya, Özbəkistanda Şərq ölkələrinin tarixi, mədəniyyəti, sosial tarix, azərbaycanlıların soyqırımı və s. məsələlərə aid keçirilmiş beynəlxalq elmi konfranslarda məruzə və məqalələrlə çıxış etmişdir.

Şöbənin əməkdaşı h.ü.f.d. S.Q. Mirzəzadə İran İslam Respublikasının hüquq sistemini araşdırmışdır. Mövzu ilə əlaqədar elmi məqalələri çap olunmuşdur. İnstitutun elmi-ictimai həyatında fəal iştirak etmiş, 1993-cü ildən 2015-ci ilədək AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Həmkarlar Komitəsinin sədri vəzifəsində çalışmışdır.

Son illərdə şöbə əməkdaşlarından S.T. Dostəliyevin "İran İslam respublikası" (Bakı, 2012) məlumat kitabı, Hüseyn Əlizadə (Barış Mərəndi), "21 Azər" soyqırımı, (1946-1947-ci illərdə Cənubi



Azərbaycanda kütləvi qırğınlar), (fars dilindən tərcümə), (Bakı – 2017, 376 s.) kimi kitabları işıq üzü görmüşdür.




Şöbənin aparıcı elmi işçisi Ə.H. Şəfiyeva "Seyid Həsən Tağızadənin İranın modernləşməsində rolu" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir. Ə.Şəfiyeva mövzu ilə bağlı elmi jurnallarda, beynəlxalq elmi konfranslarda məruzə və məqalələrlə çıxış etmişdir. Müəllifin tədqiq etdiyi mövzu XIX əsrin II yarısı, XX əsrin son rübünə qədər İranda modernləşdirmə uğrunda hərəkat, modernləşdirmə cərəyanları, ölkənin modernləşdirilməsində Azərbaycan ziyalısı Seyid Həsən Tağızadənin roluna həsr olunmuşdur. "Seyid Həsən Tağızadə və İranın modernləşməsi" adlı monoqrafiyası (Bakı, 2016) işıq üzü görmüşdür.

Şöbənin baş laborantı F. Məhərrəmova yeni və müasir dövr İran tarixinin müxtəlif mövzularının öyrənilməsi və araşdırılması ilə məşğuldur və həmin mövzularda iki elmi məqaləsi çap olunmuşdur.

Şöbənin kiçik elmi işçiləri Məcidova Nərminə "İran-Pakistan münasibətləri (1979-2005-ci illər)" və Məmmədova Sevinc "1917-1922-ci illərdə İranın Şimali Azərbaycan siyasəti" mövzularında dissertasiya işləri üzərində tədqiqat aparırlar.




Hal-hazırda bir neçə yerli və əcnəbi dissertant İran tarixi və iqtisadiyyatının müxtəlif problemlərinə dair yazdıqları dissertasiya işlərini müdafiə etmiş və müvafiq ixtisaslar üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışlar.

Şöbənin əməkdaşları Beynəlxalq və Respublika elmi konfranslarında fəal iştirak edirlər. Hal-hazırda şöbənin qarşısında

öz kadr potensialını tezliklə bərpa etmək, zəngin iranşünaslıq irsini nəşr etmək, bu irsə yenidən baxmaq, iranşünaslığın informasiya təminatı məsələsini həll etmək, xarici iranşünaslıq mərkəzləri ilə elmi əlaqələri genişləndirmək, öz elmi fəaliyyətini dövrün tələbləri səviyyəsində qurmaq kimi mühüm vəzifələr durur.

# CƏNUBİ AZƏRBAYCAN ŞÖBƏSİ

1976-cı ildə AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi strukturunda Cənubi Azərbaycan tarixi şöbəsi yaradılmış və ona Ş.Tağıyeva rəhbərlik etmişdir. Hazırda isə şöbəyə t.ü.f.d. Bayramzadə Səməd Zülfəli oğlu rəhbərlik edir.

Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun mövcud olduğu uzun illər ərzində Cənubi Azərbaycan problemləri, əsasən, İran tarixi və iqtisadiyyatı şöbəsi daxilində öyrənilmişdir. Cənubi Azərbaycanla bağlı tədqiqatlarda 1941-1946-cı illər milli-azadlıq hərəkatı və xüsusən, Azərbaycan Milli hökumətinin yaranması, onun müxtəlif sahələr və istiqamətlər üzrə fəaliyyəti, həmçinin həmin dövrdə meydana gəlmiş müxtəlif ictimai-siyasi təşkilatların işi, Azərbaycanda mövcud olan mədəni və mənəvi həyat geniş şəkildə araşdırılmış, hərəkatın meydana gəlmə səbəbləri, hərəkatverici qüvvələri, məğlubiyyət səbəbləri əsaslı şəkildə öyrənilmişdir Bu cəhətdən T.A. İbrahimov, Ə. Agahi, Ə. Əminzadə, M. Rəbizadə, M.V. Dəvəli, İ.Q. İbrahimi, K. Məm-



mədov, M.M. Çeşmazər, S. Mirzəzadə, F. Dəstqoşadə, H. Bülluri və M.R. Vilai kimi alimlərin tədqiqatları diqqətəlayiqdir.

Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının əvvəlki mərhələləri də İran şöbəsində tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Gərgin elmi axtarışların nəticəsində Ş.Ə.Tağıyeva tərəfindən Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə 1920-ci il Təbriz üsyanının tədqiqinə həsr edilmiş "İran Azərbaycanında milli-azadlıq hərəkatı. 1917-1920-ci illər" adlı namizədlik dissertasiyası 1956-cı ildə uğurla müdafiə edilmiş və 1990-cı ildə "1920-ci il Təbriz üsyanı" adlı monoqrafiya şəklində işıq üzü görmüşdür. Əsərdə Cənubi Azərbaycandakı 1917-1920-ci illər milli-azadlıq və demokratik hərəkat, ölkədəki sosial-iqtisadi və siyasi zəmin üzərində meydana gələn Təbriz üsyanı, üsyan nəticəsində yaranan Milli Hökumətin fəaliyyəti tədqiq edilir.Əsərdə üsyana rəhbərlik etmiş Azərbaycan Demokrat Partiyasının və onun başçısı Ş.M. Xiyabaninin İran irticasına və İngiltərə imperializminin ölkədə işğalçı siyasətinə qarşı yönəlmiş mübarizədəki rolundan danışılır.

Cənubi Azərbaycan şöbəsinin yaradılmasından keçən qısa müddət ərzində, xüsusilə 1978-1979-cu illərdə, bir sıra istedadlı gənc tədqiqatçılar həmin şöbə ətrafında cəmləşdi və bu şöbənin sonrakı fəaliyyəti dövründə neçə-neçə bacarıqlı Cənubi azərbaycanşünas alim və tədqiqatçılar hazırlandı (N.L. Nəsibzadə, S.Z. Bayramzadə, C.M. Vəkilov, V.K. Mustafayev, N.R. Bayramlı, S.Gəncəliyeva). Odur ki, Cənubi Azərbaycan tarixi problemlərinin kompleks şəkildə öyrənilməsində və aparılmış tədqiqatların nəticələrinin geniş oxucu kütləsinə çatdırılmasında, ümumiyyətlə, Güney mövzusunu qabartmaqda bu şöbənin böyük fəaliyyəti olub.

Cənubi Azərbaycan tarixinin müxtəlif problemlərinin ardıcıl, sistemli və əsaslı şəkildə araşdırılması və tədqiq edilməsinin nəticəsi olaraq 1828-1917-ci illər dövrünə həsr olunmuş və bu sahədə ilk fundamental əsər olan "Cənubi Azərbaycan tarixinin oçerki" adlı kitab Ş.Ə. Tağıyevanın redaktorluğu ilə 1985-ci ildə işıq üzü gördü. Kitabda göstərilən dövr üzrə Cənubi Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni vəziyyəti, onun Şimalı Azərbaycan ilə iqtisadi-mədəni

və inqilabi-siyasi əlaqələrinin gedişi öz əksini tapmışdır. Kitabın ayrı-ayrı fəsilləri Ş.Ə.Tağıyeva, T.Ə. İbrahimov, Ə.M. Həbibov O.S.Məlikov, N.R.Məmmədzadə, Q.Kəndli, M.İ.Şəms və A.Z.Zunuzi kimi tanınmış alimlərimiz tərəfindən yazılmış və bu zaman tədqiqatın daha dərindən və hərtərəfli aparılması, dəqiq elmi nəticələrin əldə edilməsi məqsədilə Azərbaycanın görkəmli tarixçi-şərqşünas alimləri Z.Z.Abdullayev, R.Ə.Seyidov, Ə.M.Agahi və Ə.Əminzadənin təqdim etdikləri müvafiq materiallardan istifadə edilmişdir.




1988-ci ildə 1914-1918-ci illər I Dünya müharibəsi illərində Cənubi Azərbaycanda azadlıq hərəkatının tədqiqinə həsr edilmiş eyni adlı monoqrafiya – "Cənubi Azərbaycanda azadlıq hərəkatı" kitabı (Ə.M.Həbibov) çapdan çıxdı.

1989-cu ildə şöbənin elmi əməkdaşları tərəfindən hazırlanmış "Cənubi Azərbaycan tarixi məsələləri" (Ş.Ə.Tağıyevanın və N.Nəsibzadənin redaktorluğu ilə) məqalələr toplusunun ilk nəşri işıq üzü gördü.

Akademik Z.M.Bünyadov və Y.B.Yusifovun redaktorluğu ilə ilk dəfə 1994-cü ildə ali məktəb tələbələri üçün çap edilmiş "Azərbaycan tarixi" dərsliyinin I cildində getmiş "Cənubi Azərbaycan (1828-1917)" adlı fəsil (S.Z.Bayramzadə) bu şöbənin məhsuludur.




XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində keçmiş Sovet İttifaqının dağılması, müstəqillik uğrunda keçmiş sovet respublikalarında baş verən milli hərəkatlar çərçivəsində baş verən münaqişə və qarşıdurmalar, xüsusilə həmin dövrlərdə baş vermiş və günümüzə qədər davam edən Azərbaycan-Ermənistan Dağ-




lıq Qarabağ münaqişəsi fonunda formalaşan yeni beynəlxalq münasibətlər, qonşu dövlətlərlə, o cümlədən İran İslam Respublikası ilə əlaqələr, nəhayət, 1991-ci ildə Cənubi Azərbaycan tarixi şöbəsinin ləğvi barədə qərarın verilməsinə gətirib çıxardı. Onun yerində İran tarixi və iqtisadiyyatı şöbəsi nəzdində "Cənubi Azərbaycan elmi araşdırmalar qrupu" yaradıldı. Bundan sonra "Cənubi Azərbaycan elmi araşdırmalar qrupu"nun elmi əməkdaşları "Cənubi Azərbaycan tarixi oçerki"nin sonrakı cildi üzərində işi davam etdirmişlər və həmin əsər yaxın zamanlarda öz çapını gözləyir. Elmi qrupun səyi ilə "Güney Azərbaycan" məlumat kitabı (Ş.Ə.Tağıyeva, Ə.Bije, S.Bayramzadə) və "Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946)" adlı monoqrafiya (Ə.Rəhimli-Bije) nəşr olundu. "Cənubi Azərbaycan tarixi məsələləri" məqalələr toplusu işlənilərək yenidən ikinci dəfə çap edildi (1991). Bundan əlavə İran tarixi və iqtisadiyyatı şöbəsi Cənubi Azərbaycan tarixi ilə bağlı daha iki əsər – "Cənubi Azərbaycan: milli şüur (XX əsrin I yarısı)" və "Cənubi Azərbaycan məsələsinin öyrənilməsi" (V.K.Mustafayev) adlı kitabları nəşr etdirmişdir. Birinci əsərdə milli şüurun formalaşmasının siyasi, iqtisadi, sosial və mədəni amilləri, mərhələləri, əsas xüsusiyyətləri, milli şüurun məzmunu və birlik proseslərində rolu və digər məsələlər, ikinci əsərdə isə Cənubi Azərbaycan məsələsinin tarixşünaslığı öz əksini tapmışdır.




Son illərdə şöbə əməkdaşları Cənubi Azərbaycan tarixinin müasir ictimai-siyasi, iqtisadi və mədəni vəziyyəti ilə əlaqədar müxtəlif aspektlərdə öz tədqiqatlarını uğurla davam etdirirlər. Belə ki,




1941-1946-cı illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatının öndəri, tanınmış mütəfəkkir-ziyalı, inqilabçı-demokrat S.C.Pişəvərinin həyat və mübarizəsinə həsr olunmuş kitablar işıq üzü görüb. Onların arasında Ə.R.Bijenin "Seyid Cəfər Pişəvəri. Həyatı və ictimai-siyasi fəaliyyəti" (Bakı, 2009), yenə də eyni müəllifin Türkiyədə çap olunmuş "S.C.Pişeveri" (Trabzon, 2013), S.C.Pişəvəri. "Məşəl-e Cavid" (Qum, 2014), "Seyid Cəfər Pişəvəri. Zindan xatirələri" (Bakı, 2014) adlı kitablarını qeyd etmək olar.

Şöbə əməkdaşları həmçinin tanınmış tarixçi alim doktor Səməd Sərdariniyanın "Arazın hər iki sahilində soyqırım" əsərini (tərcüməçi A.Maralanlı, Bakı, 2006), "Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı - 90" elmi məqalələr toplusunu (elmi redaktoru Ə.Rəhimli, Bakı, 2011) nəşr etmiş, cənublu tarixçi-alim Tohid Məlikzadə Dilməqaninin "Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım" kitabını fars dilindən Azərbaycan dilinə çevirərək (C.Mirzəyeva) çap etdirmiş (Bakı, 2011) və həmin müəllifin "Azərbaycan Pəhləvilər dövrünün ilk illərində" kitabını da fars dilindən dilimizə tərcümə edərək (C.Mirzəyeva) çapa təqdim etmişlər.

Son illərdə Cənubi Azərbaycan şöbəsinin elmi potensialı, kadr bazası gücləndirilmiş, şöbəyə istedadlı gənc tədqiqatçılar cəlb edilmiş, onların elmi fəaliyyətlərinin istiqaməti və həmçinin elmi tədqiqat işlərinin mövzuları günün tələblərinə, tariximizin hazırkı mərhələsində işlənilib üzə çıxarılması daha aktual sayılan məsələlərə uyğun olaraq müəyyənəşdirilmiş, dissertasiya mövzuları kimi təsdiq edilmişdir.

Böyük elmi işçi R.Rüstəmov "III-XIV əsrlərdə Azərbaycanın Muğan bölgəsinin maddi mədəniyyəti (İmişli rayonunun materialları əsasında)" adlı dissertasiya mövzularını uğurla müdafiə etmişdir. Elmi işçi C.Mirzəyeva "Güney Azərbaycanın Qərb bölgəsinin etno-










demoqrafik durumu (çağdaş dövrdə)" və elmi işçi Ş.Rüstəmova "İran İslam İnqilabından sonra Cənubi Azərbaycanda milli şüurun inkişafı" adlı dissertasiya mövzuları üzərində işlərini davam etdirirlər. Tədqiqatçılar tərəfindən elmi ədəbiyyatlarda mövzuları əhatə edəcək bir sıra yazı və məqalələr dərc edilmişdir.

Şöbə əməkdaşlarının hazırladıqları "Güney Azərbaycan: tarix və müasirlik" toplusu (məsul redaktor S.Bayramzadə, redaktor Ş.Rüstəmova) və "Güney və Quzey Azərbaycan: ensiklopedik təqvim (başlıca tarixi olaylar, siyasi və ədəbi şəxsiyyətlər)" adlı kitabları (Ə.Rəhimli-Bije, S.Bayramzadə) çapdan çıxmışdır.

1941-1945-ci illər Cənubi Azərbaycanda milli-demokratik mübarizənin zirvəsi hesab olunan 21 Azər hərəkatının və Azərbaycan Milli Hökumətinin qurulmasının (12 dekabr 1945) 70 illiyi ilə bağlı şöbə əməkdaşlarının yaxından iştirakı ilə "21 Azər-70" elmi məqalələr toplusu (redaksiya heyəti: S.Bayramzadə-sədr, Ə.Rəhimli, Ş.Rüstəmova, Bakı, 2015), "21 Azər-70" fotoalbomu (tərtib edən və məsul redaktor: S.Bayramzadə, Bakı, 2015) nəşr edilmiş, bu münasibətlə də Ə.Rəhimlinin (Bijenin) "Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1945-ci illər)" adlı əsəri işlənərək yenidən "21 Azərə gedən yol" (Bakı, 2015) adı ilə çap olunmuşdur.

Həmçinin t.ü.f.d. S.Bayramzadənin, t.ü.f.d. S.Talıblının və t.ü.f.d. H.Səfərinin monoqrafiyaları işıq üzü görmüşdür.

S.Bayramzadənin rus dilində nəşr edilmiş "Cənubi Azərbaycan: "21Azər"dən "ağ inqilaba"a kimi" (Bakı, 2016) adlı monoqrafiyasında 1945-1946-cı illər milli-demokratik hərəkatın məğlubiyyətindən İrandakı ağ inqilaba qədərki dövr ərzində ölkədəki mövcud şəraitdə Azərbaycanın, azərbaycanlıların bir çox siyasi, sosial, iqtisadi, demokratik problemləri və müvafiq tələbləri ortaya qoyulur, İran daxilində Azərbaycan məsələsinin mahiyyəti beynəlxalq münasibət və şəraitin mərkəzi İran hökumətinin bu məsələ ilə bağlı siyasətinə təsiri fonunda araşdırılır, dövlətin Azərbaycan siyasətindəki yeni cəhətləri nəzərdən keçirilir.

S.Talıblının "İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər)" (Bakı, 2016) adlı kitabında İİR hakimiyyətinin Qafqaz siyasətində Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda mövqeyi, eyni zamanda onun həlli istiqamətində göstərdiyi təşəbbüslər və atdığı addımlar maraqlı və əyani faktların qarşılıqlı müqayisəsi fonunda ortaya qoyulmuşdur.

H.Səfərinin "Cənubi Azərbaycan: 1918-ci il soyqırımı" (Bakı, 2016) adlı monoqrafiyasında isə I Dünya müharibəsinin gedişində Qərb dövlətləri və Rusiyanın köməyi sayəsində yaradılan erməni silahlı dəstələri tərəfindən Cənubi Azərbaycanın Urmiya, Salmas və Xoy kimi yaşayış məntəqələrində 200 minə yaxın azərbaycanlının soyqırıma məruz qalması araşdırılır.












Cənubi Azrbaycan şöbəsinin aparıcı elmi işçisi, i.ü.f.d. Əkrəm Rəhimlinin (Bije) tərtibatında (ön soz və şərhlərin müəllifi özüdür) "Seyid Cəfər Pişəvəri. Məqalə və çıxışlarından seçmələr (Təbriz, 1945-1946-cı illər)" (Bakı, "Nurlar", 2016) və "Cənubi Azərbaycan: düşüncələr, problemlər"(Bakı, "Nurlar", 2017) kitabları da çap edilmişdir. Müəllifin "Seyid Cəfər Pişəvəri. Məqalə və çıxışlarından seçmələr (Təbriz, 1945-1946-cı illər)" adlı kitabında 1945-1946-cı illərdə Cənubi Azərbaycandakı xalq hərəkatının, o dövr sosial-iqtisadi və mədəni durumun ayrı-ayrı cəhətləri açıqlanır, "Cənubi Azərbaycan: düşüncələr, problemlər" adlı kitabında isə onun son 17 ildə yazdığı məqalə, müsahibə və rəylərindən seçmələr verilmişdir. Məqalələrdə Cənubi Azərbaycanda baş vermiş olayların elmi-siyasi və tarixi-ədəbi səpgidə şərhi verilir.

Y.Hacıyevanın "İran İslam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər)" adlı monoqrafiyası İnstitutun Elmi Şurasının müvafiq qərarı ilə 306 səhifədə çap olunmuşdur (Bakı, "Adiloğlu" nəşriyyatı, 2017). Kitabda 1979-2005-ci illərdə İran İslam Respublikası hakim qüvvələrinin Azərbaycan türkcəsini sıxışdırmaq və azərbaycanlıların milli şüurunu kosmopolitləşdirmək cəhdlərinə qarşı Cənubi Azərbaycan türklərinin mübarizəsinin tarixi araşdırılmışdır. Müəllif panfarsist siyasi sistemin və ideologiyasının təsirinə məruz qalan cənubi azərbaycanlıların həm İran daxilində, həm də xaricdə Azərbaycan dilinin statusunun yüksəldilməsi və funksiyalarının genişləndirilməsi uğrunda mübarizəsinin tarixi şəraitə uyğun olaraq formalaşması prosesini tədqiq etmişdir.

2017-ci ildə şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadənin tərtibçisi və məsul redaktoru olduğu 4 cildlik (ümumilikdə 1400 səhifə) "Azərbaycan" qəzeti, Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1945-1946-cı illər, Təbriz) adlı




kitabın 1-ci cildi 292 səhifədə çapdan çıxmışdır. Birinci cildi nəşr olunan kitabda "Azərbaycan" qəzetinin 5 sentyabr -11 dekabr 1945-ci ildə Təbrizdə çıxmış 90 sayı toplanıb. Məsul redaktor kitaba yazdığı ön sözdə qeyd edir ki, "Azərbaycan" qəzeti cənubi azərbaycanlıların milli şüurunun formalaşması və inkişafında əvəzsiz rol oynamışdır. Dünya elmi ictimaiyyəti sözügedən nəşri böyük bir tarixi abidə, bir dərslik, nəsildən-nəslə ötürülə biləcək nadir ədəbiyyat nümunəsi kimi xarakterizə etmişdir.

S.Bayramzadənin tərtibatında nəşrə hazırlanmış Firudin İbrahiminin "Sülh uğrunda (Paris Sülh Konfransı barədə qeydlər. 1946)" adlı kitab AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə 2018-ci ildə "Elm və təhsil" nəşriyyatında 132 səhifədə çap olunmuşdur. Kitabda 1945-ci ilin dekabr ayının 12-də (21 Azər) Cənubi Azərbaycanda qurulmuş Milli Hökumətin baş prokuroru Firudin İbrahiminin Avropaya, xüsusilə də Paris şəhərinə səfəri, onun 29 iyul – 15 oktyabr 1946-cı il tarixləri arasında Parisdə 21 dövlətin iştirakı ilə təşkil olunmuş Sülh Konfransında Azərbaycan Milli Hökumətinin mətbuat nümayəndəsi kimi iştirakı zamanı bu mötəbər toplantı barədə qeyd və mülahizələri toplanmışdır. F.İbrahiminin bu kitabı Azərbaycanın diplomatiya tarixini, milli ideologiyamız olan azərbaycançılığın formalaşması və inkişafını izləmək və öyrənmək baxımından çox faydalıdır.




Hazırda "İran İslam Respublikasının regional siyasətində Cənubi Azərbaycan" (S.Bayramzadə), "Dağlıq Qarabağ münaqişəsi İran mətbuatı və elmi ədəbiyyatında

(1979-2009-cu illərdə)" (S.Talıblı) kimi mövzular üzərində tədqiqat işləri davam etdirilir.

Həftənin cümə günlərində şöbədə Güney Azərbaycanın aktual sosial-siyasi, iqtisadi və mədəni məsələlərinə aid dəyirmi masa keçirilir. Burada olan söhbət və müzakirələr gənc güneyşünasların region haqda məlumat və biliklərinin artmasına kömək edir.

# TÜRKİYƏ TARİXİ VƏ İQTİSADİYYATI ŞÖBƏSİ

Müstəqillik illərində Azərbaycan türkologiyasının əsas istiqamətlərini Türkiyənin tarixi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafının mühüm məsələlərinin elmi tədqiqi təşkil etmişdir.

Ənənəvi olaraq, uzun illər boyu müasir problemlərlə əsaslı surətdə məşğul olan türkoloq alimlərimiz cümhuriyyət dövrü türk cəmiyyətinin inkişafının bütün sahələrində dərin iz qoymuş Atatürkçülük ideologiyasının öyrənilməsinə xüsusi diqqət yetirmiş, onun cümhuriyyətçilik, dünyəvilik (laisizm), dövlətçilik (etatizm), xalqçılıq, millətçilik kimi təməl prinsipləri ilə bağlı problemlərin hərtərəfli araşdırılmasına böyük əmək sərf etmişlər. Tarix problemlərinə həsr olunmuş tədqiqatlar istər orta əsrlər, istərsə də yaxın tarixi keçmiş və Türkiyə tarixinin ən yeni dövrünü əhatə etmişdir. F.Şabanov, H.Əliyev, İ.Axundov, İ.Əlibəyov, E.Həsənova, N.Əfəndiyeva, E.Zamanova, Y.Bağırov kimi tarixçi alimlərimiz Türkiyədə inqilabi və milli-azadlıq hərəkatı, Türkiyə Respublikasında dünyəvilik prinsipinin bərqərar edilməsi, millətçilik ideologiyasının formalaşması, icti-






mai və bədii-estetik fikrin yaranması, maarif və mədəniyyətin inkişafı, müasir Türkiyədə din və dövlət münasibətləri, ölkənin iqtisadi inkişaf problemlərinin öyrənilməsinə xüsusi diqqət yetirmişlər və bu sahədə bir sıra kitab və monoqrafiyalar nəşr etdirmişdilər.

Müstəqillik illərində Azərbaycan türkologiyasının qarşısında duran vəzifələr yenidən nəzərdən keçirilmiş və dəyərləndirilmişdir. Ölkəmizin beynəlxalq aləmə inteqrasiyası, dünya dövlətləri ilə bərabərhüquqlu siyasi və iqtisadi münasibətlər qurması zərurəti, o cümlədən qonşu ölkələrlə, xüsusilə, Türkiyə Respublikası ilə geniş və hərtərəfli əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsi zərurəti bu sahə ilə məşğul olan alimlərimizin tədqiqat sahəsini genişləndirmiş və şöbənin tematikasını zənginləşdirmişdir.

Belə ki, Türkiyənin iqtisadi inkişaf problemləri ilə əlaqədar elmi araşdırmalar son illərdə şöbə əməkdaşları tərəfindən davam etdirilmiş və bu istiqamətdə bir sıra yeni problemlər tədqiqat mövzusu olmuşdur. Bu sahədə İ.Əlibəyovun "Türkiyə iqtisadiyyatının dövlət sektorunda bazar islahatları", A.Şimiyevanın "Müasir Türkiyənin xarici iqtisadi siyasəti (1980-ci ildən müasir dövrədək)", N.Məmmədovun "Müasir Türkiyənin neft problemi" adlı tədqiqatlarını qeyd etmək lazımdır. İ.Əlibəyovun "Türkiyədə xarici sərmayə" ( "Иностранный капитал в Турции", Bakı, "Elm", 2002) adlı monoqrafiyası bu sırada xüsusi qeyd edilməlidir.

Müstəqillik illərində də şöbə əməkdaşları Yaxın Şərq bölgəsində yaranmış yeni vəziyyət, Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ münaqişəsi və Türkiyənin bu istaqamətdə siyasəti ilə əlaqədar tədqiqatlara xüsusi diqqət yetirmişdilər. Belə ki, A.Məhərrəmzadə "Türkiyə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", Y.Məsimov "Səddam rejimi devrildikdən sonra Şi-

mali İraqda etnik münasibətlər və Türkiyənin siyasəti" problemləri üzrə maraqlı tədqiqat işləri aparmışdılar. Yaxın Şərq və beynəlxalq terrorizm, bu sahədə müasir Türkiyənin siyasəti R.Sevdimalıyev və H.Günəşli tərəfindən tədqiqat mövzuları olaraq seçilmişdir və uğurla davam etdirilir. N.Məmmədovun müasir Türkiyədə siyasi-ideoloji mübarizənin əsas istiqamətləri problemi üzərində apardığı tədqiqat işi təqdirə layiqdir. Türkiyə ilə Azərbaycanın tarixi əlaqələri sahəsində M.Quliyevin "1918-ci ildə Qafqaz-islam ordusunun Naxçıvan əyalətində və Quba qəzasında xilaskarlıq missiyası" mövzusunda son illərdə hazırladığı elmi araşdırması da əhəmiyyətli əsərdir. Qarabağ tarixinə aid Osmanlı arxiv sənədlərinin tərcüməsi və nəşrə hazırlanması da mühüm elmi iş olaraq Z.Vəliyeva tərəfindən aparılmaqdadır.

Orta əsrlər Türkiyə tarixi məsələləri alimlərimizi daim maraqlandıran mövzulardandır. Bu sahədə türkoloq tarixçilərimiz Səlcuq dövrü, bəyliklər dövrü və Osmanlı imperiyası dövrü Anadolu tarixinin, orta əsrlərdə Osmanlı-Azərbaycan münasibətlərinin müxtəlif aspektlərinin öyrənilməsi sahəsində önəmli nəticələr əldə etmiş və bir sıra dəyərli tədqiqat əsərləri hazırlamışdılar. Bu qəbildən olan əsərlər içərisində H.Məmmədovun "XVIII əsrin 20-30-cu illərində






Azərbaycanda Osmanlı vergi siyasəti", Ş.Mustafayevin "Ağqoyunlulardan Osmanlı imperiyasına qədər Şərqi Anadolu" (Moskva, "Наука", 1994) ("Восточная Анатолия: от Ак-Коюнлу к Османской империи") və həmin müəllifin "Anadolunun türk mühitində etno-siyasi proseslər (XI-XV yüzilliklər)" (Bakı, "Elm", 2010), "От сельджуков к османам: этнополитические процессы в тюркской среде Малой Азии в XI-XV вв." (Moskva, "ИВ РАН - МИЦАИ", 2017) adlı tədqiqatları diqqəti cəlb edir.

Şöbənin mediyevist alimləri Azərbaycanın və Cənubi Qafqazın sosial-iqtisadi tarixinin öyrənilməsi üçün mühüm və unikal mənbə bazasını təşkil edən XVI-XVIII əsrlərə aid Osmanlı maliyyə-vergi reyestrlərinin (təhrir dəftərlərinin) elmi dövriyyəyə daxil edilməsi, tədqiqi, tərcüməsi və nəşri istiqaməti üzrə fəaliyyət göstərirlər. Azərbaycan şərqşünaslıq elmində bu istiqamətin başlanması, ilk növbədə, akademik Z.M.Bünyadovun adı ilə bağlıdır. Bu günə qədər türkoloq alimlərimiz tərəfindən Azərbaycanın tarixi bölgələrinə aid aşağıdakı Osmanlı təhrir dəftərləri çap olunmuşdur: "İrəvan əyalətinin icmal dəftəri" (Hazırlayanlar akad. Z.Bünyadov və H.Məmmədov; Bakı, 1996), "Naxçıvan sancağının müfəssəl dəftəri" (Hazırlayanlar akad. Z.Bünyadov və H.Məmmədov; Bakı, 1997), "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" (Hazırlayan H.Məmmədov; Bakı, 2000), "1728-ci il Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax)" (Hazırlayan Ş.Mustafayev; Bakı, 2001), "Lori vilayətinin icmal dəftəri" (Hazırlayan Ş.Mustafayev; Bakı, 2004), "Ərdəbil livasının müfəssəl dəftəri" (Hazırlayan E.Arıklı; Bakı, 2004). Hal-hazırda akademik Ş.Mustafayevin rəhbərliyi ilə şöbə əməkdaşlarından ibarət işçi qrupu (Y.Nəsirova, G.Qafqazlı) Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə yeni elmi tədqiqat üzərində iş aparır. Həyata keçirilən bu layihə çərçi-




vəsində bir sıra yeni Osmanlı arxiv mənbələrinin, o cümlədən XVIII əsrin 20-ci illərinə aid Təbriz, Marağa və Soyuqbulaq, Urmiya və Salmas bölgələrinin təhrir dəftərlərinin elmi dövriyyəyə daxil edilməsi nəzərdə tutulur. Şöbənin bəzi gənc əməkdaşları da qeyd edilən istiqamət üzrə çalışır. Belə ki, F.Məmmədova Xoy livasının Osmanlı təhrir dəftəri əsasında bu bölgənin sosial-iqtisadi vəziyyətini araşdırır.

Son illərdə C.Qasımovun Osmanlı imperiyasında ictimai-siyasi islahatlar layihələri, N.Ağayevanın XIX yüzillikdə Osmanlı cəmiyyətində türk ziyalı təbəqəsinin formalaşması, Z.Vəliyevanın Osmanlı dövlətində Məşrutə hərəkatı və onun Azərbaycan cəmiyyətinə təsiri, M.Ənsərlinin dünya türkologiyasının mühüm simaları mövzuları üzərində apardıqları tədqiqat işləri də təqdirə layiqdir. B.Bəşirovanın "Övliya Çələbinin "Səyahətnamə" əsərinin tərcüməsi və tədqiqi", M.Ənsərlinin "Zəki Vəlidi Toğan və Türkiyə tarixşünaslığı" mövzularında araşdırmaları şərqşünaslıq elmimizdə müvafiq boşluqları doldurmaq məqsədini izləyir.

# ƏRƏB ÖLKƏLƏRİ TARİXİ VƏ İQTİSADİYYATI ŞÖBƏSİ

Şərqşünaslıq İnstitutu tərkibində fəaliyyət göstərən "Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsi" 1964-cü ildə təşkil olunmuşdur. Onun bir şöbə kimi təşkili vaxtilə dövrün ümdə tələbindən irəli gələn və respublikamızda şərqşünaslıq elminin inkişafına böyük təkan verən dövlət əhəmiyyətli vacib bir tədbir idi. İkinci dünya müharibəsindən sonra müstəqil inkişaf yoluna qədəm qoymuş gənc ərəb dövlətləri ilə geniş hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələr qurmaq tələbi tezliklə Ərəb Şərqinin elmi surətdə öyrənilməsini mühüm bir məsələ kimi ortaya çıxardı.

Şöbəyə ilk gündən ölkəmizdə şərqşünaslıq elminin görkəmli nümayəndəsi, böyük ərəbşünas alim, akademik Z.M.Bünyadov rəhbərlik etmişdir. Təxminən otuz il onun başçılığı altında işləyən şöbə qısa bir zamanda respublikamızda geniş tanınaraq, ərəb ölkələri üzrə ixtisaslaşmış mötəbər elmi ocağa çevrilir. 1992-ci ildən indiyə






qədər şöbənin elmi rəhbərliyi t.ü.f.d., dosent F.Əsədov tərəfindən icra edilir.

Qeyd edilməlidir ki, ölkə üzrə yeni tarixçilər nəslinin yetişdirilib hazırlanmasında, onların mütəxəssis alim kimi formalaşmasında bu şöbə mühüm rol oynayır. Şöbə həm Xilafət və ona daxil olan ölkələrin tarixi keçmişini, həm də müasir ərəb dövlətlərinin tarix və iqtisadiyyatını tədqiq etməklə məşğuldur. Orta əsrlərin tədqiqi elmi araşdırmalar arasında üstünlük təşkil etdiyindən bu sahədə görülən işlər, şübhəsiz, şöbə əməkdaşlarının elmi fəaliyyətində xüsusi yer tutur. Yaxın və Orta Şərq bölgəsində müxtəlif tarixi dövrlərdə ayrı-ayrı dövlətlərin yaranması, inkişafı və tənəzzülü, dini-ictimai hərəkatlar, habelə xalq üsyanları – şöbənin uzun müddət başlıca tədqiqat mövzularından olmuşdur. Bu mövzular zaman etibarilə geniş tarixi bir dövrü əhatə edərək, tədqiq olunan ictimai quruluşlarda gedən bir çox mühüm proseslərin, baş verən siyasi hadisələrin təhlilinə həsr edilmişdir. Nəticə etibarilə həmin məsələlərə dair bir sıra məqalə, dissertasiya və monoqrafiyalar qələmə alınmışdır.

Bu yöndə görülən işlər arasında akademik Z.Bünyadovun elmi yaradıcılığı xüsusi qeyd olunmalıdır. Belə ki, onun orta əsrlər üzrə apardığı dərin, eyni zamanda orijinal elmi araşdırmaları, ərsəyə gətirdiyi sanballı tədqiqat əsərləri Azərbaycanda tarixşünaslıq elmini daha da zənginləşdirmiş, onu inkişaf etdirərək keyfiyyətcə yeni səviyyəyə qaldırmışdır. Yalnız bunu göstərmək kifayətdir ki, elmi fəaliyyətində bu xətti özü üçün əsas seçmiş Z.M.Bünyadov qeyri-adi, fədakar əməyi sayəsində qısa bir zamanda bir-birinin ardınca "Azərbaycan VII-IX əsrlərdə" (1965), "Azərbaycan Atabəyləri dövləti" (1978) və "Xarəzmşahlar – Anuştəkinilər dövləti" (1986) kimi sanballı, dünyaşöhrətli monoqrafiyalarını yazıb çap etdirmişdir. Birinci iki əsəri, adlarından göründüyü kimi, bilavasitə Azərbaycanla bağlı olub, onun müəyyən dövrlərdəki tarixindən bəhs edir. Bu da

təsadüfi deyil ki, Z.M.Bünyadov daim ölkəmizin tarixi keçmişinə, onun hərtərəfli tədqiqinə xüsusi qayğı göstərmiş, öz elmi-tədqiqat işləri ilə bu sahədəki mövcud boşluqları aradan qaldırmağa və bu yolla Azərbaycanın orta əsrlər tarixini tam, dolğun şəkildə yazıb, onun elmi şərhini verməyə çalışmışdır. Onun Azərbaycan Atabəyləri dövləti haqqındakı monoqrafiyası bu mənada xüsusi əhəmiyyət kəsb etdiyindən ölkəmizin elmi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmış və yüksək dəyərləndirilərək 1980-cı ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür. Adı çəkilən əsərlərdən başqa Z.M.Bünyadov Xilafət və Azərbaycan, Qafqaz və Orta Asiya xalqlarının tarixinə aid çap olunmuş çoxlu sayda elmi məqalə və rəylərin müəllifidir. Lakin Z.M.Bünyadovun elmi yaradıcılığı təkcə bu növ tədqiqat işləri ilə məhdudlaşmamışdır. Onun maraq dairəsi xeyli geniş olub, şərqşünaslıq elminin digər sahələrini və birinci növbədə mətnşünaslıq sahəsini də əhatə etmişdir. Z.M.Bünyadov Azərbaycan, o cümlədən türk xalqlarının tarixinə aid bir çox qiymətli mənbə və qaynaqları seçib, ərəb dilindən tərcümə etməklə həmin əsərləri yenidən həyata qaytarmış və tarixçi tədqiqatçılara, geniş oxucu kütləsinə onlardan sərbəst istifadə etmək imkanı yaratmışdır.




Ümumiyyətlə, tarixi araşdırmalarla yanaşı ərəbdilli yazılı abidə, mənbə və sənədlərin tədqiqi, tərcüməsi, habelə nəşri şöbənin daim yerinə yetirdiyi digər əsas istiqamətlərdən biridir. Həmin mənbə və sənədlərdə Azərbaycanın orta əsrlər tarixinə, coğrafiya və inzibati bölgüsünə dair çoxlu qiymətli və nadir məlumatlar olduğundan onların tərcümə və nəşri indinin özündə də elmi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Şöbə çərçivəsində mənbəşünaslığın fəallaşması keçən əsrin yetmişinci illərinə təsadüf edir. Bu inkişafın nümunəsi kimi təkcə 1971-1981-ci illər arasında Z.M.Bünyadovun

tərcüməsində əl-Bakuvinin "Kitəb təlxisi-l-əsər" (1971), ən-Nəsəvinin "Sultan Cəlaləddin Mənkburnunun həyatı" (1973), əl-Hüseyninin "Əxbəru-d-davləti-s-səlcuqiyyə" (1980) və İbn Əsəm əl-Kufinin "Fəthlər kitabı" (1981) əsərləri işıq üzü görür. Sonrakı illərdə şöbə işçilərindən N.Vəlixanlı İbn Xordadbehin "Kitəbu-l-məsəlik va-l-məməlik" (1986) və R.Şükürova Fəzlullah Rəşidəddinin "Oğuznamə"sini (1987) tərcümə edib nəşr etdirirlər. F.Əsədov isə ərəb mənbələrində türklər haqqında olan materialları seçib tərcümə edərək, onları "Ərəb mənbələri erkən orta əsr türkləri haqqında" (1993) adlı ayrıca kitab şəklində dərc etdirir. S.Süleymanova Azərbaycanın şimal-qərb bölgəsinə aid olan bir sıra ərəbdilli yerli arxeoqrafik materialları, "Car, Balakən və İlisu qanunnaməsi"ni və Molla Məhəmməd əl-Carinin "Car salnaməsi"ni (1997) ərəb dilindən Azərbaycan dilinə tərcümə edərək çap etdirir.




Bu ənənəni yenə də davam etdirən şöbə işçiləri 2005-ci ildə "Orta əsr ərəb mənbələrində Azərbaycanın tarixinə dair materiallar" adlı toplu hazırlayıb çap etdirmişlər. Bu nəşrdə Vətənimizin tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti olan ərəb orta əsr tarixçilərinin əsərlərindən parçalar Azərbaycan dilində müvafiq şərhlərlə birgə nəşr olunmuşdur. Ət-Təbərinin, əl-Yaqubinin, əl-Bəlazurinin, əl-Qəlqəşəndinin əsərlərindən Azərbaycan tarixinə dair hissələr şöbənin işçiləri C.İsgəndərov, S.Süleymanova, H.Əkbərov, E.Ağayeva tərəfindən tərcümə edilmiş, qeydlər və şərhlərlə birgə çapa hazırlanmışdır. F.Əsədov giriş məqaləsi yazmışdır. Ərəbdilli orta əsr mənbələrinin geniş tədqiqatı və oxucu auditoriyasına çatdırılması şöbədə davam etdirilməkdədir. Ərəb coğrafiyaşünaslarının Azərbaycan, Qafqaz və Mərkəzi Asiya bölgələrindən bəhs edən və indiyədək Azərbaycan dilinə tərcümə edilməmiş əsərlərindən seçilmiş hissələr ayrı-ayrılıqda şöbə əməkdaşları tərəfindən

çap üçün hazırlanmaqdadır. Bunlar İbn Hövqəlin, Əl-Məsudinin, İbn əl-Fəqihin, Əl-Yaqubinin, Əl-İstəxrinin əsərlərindən seçilmiş parçalardan ibarətdir.

Məşhur Azərbaycan şərqşünası, akademik Z.M.Bünyadovun əsərlərinin təqdimatı məqsədilə Azərbaycanın geniş oxucu kütlələrinə müəllifin iki fundamental monoqrafiyası Azərbaycan dilində tərtib olunmuş və nəşr edilmişdir: 1) Z.Bünyadov. Azərbaycan VII–IX əsrlərdə, B. 2004; 2) Z.Bünyadov. Azərbaycan Atabəyləri dövləti.

Son illərdə ərəbdilli mənbələrin oyrənilməsi və nəşri sahəsində şöbənin fəaliyyəti davam etdirilmiş və yeni nailiyyətlər əldə edilmişdir. N.Bayramlı 2007-ci ildə Şihabəddin Məhəmməd ən-Nəsəvinin “Sultan Cəlaləddin Mənkburnunun həyatının təsviri” əsərində Azərbaycanın XII-XIII əsrlər tarixinə aid materialları dərc etdirmişdir. Nüşabə Bayramlının son iri həcmli çap işi “Orta əsrlər Azərbaycan tarixinə aid ərəb mənbələrindən seçmələr” (Tərcümə, qeyd və şərhlərin yazılması və tərtibi), (Bakı, 2016) olmuşdur. Fərda Əsədov İbn əl-Fəqihin “Əxbar əl-buldən” əsərinin XX yüzilliyin ikinci rübündə aşkar edilmiş Məşhəd əlyazmasının türklərə aid iki fəslini Azərbaycan dilinə çevirmiş və geniş şərhlər və giriş, tədqiqat hissəsi ilə birgə 2017-ci ildə dərc etdirmişdir. Şöbə əməkdaşları X.Hacıyev,



S.Bağırov, Ş.Ələsgərov və E.Salahov klassik mənbə hesab olunan İbn Bəlazurinin "Kitəb əl-buldən" əsərinin tam mətnini Azərbaycan dilinə tərcüməsi ilə məşğul olmuşlar. Şöbənin böyük elmi işçiləri E.Əlizadə orta əsr tarixi mənbəsi kimi az istifadə edilən Əl-Kutubinin "Kitab uyun ət-tarix" əsərindən Əməvilər və Abbasilər xilafəti zamanında siyasi hadisələr haqda məlumatları, N.Bayramlı isə Şərq dünyasının Plutarxı şöhrətini qazanmış Şəmsəddin İbn Xəlliqanın "Vafiyyət əl-ə'yən və ənba əbnə əz-zaman" əsərindən Azərbaycan və türk mənşəli dövlət və mədəniyyət xadimlərinin bioqrafik materiallarının ərəb dilindən tərcümələrini başa çatdırmışlar. Hazırda E.Əlizadə IX yüzilliyin müəllifi əs-Suyutinin "Tərix əl-xülafə" əsərininin tərcüməsini üzərinə götürmüşdür. N. Bayramlı X yüzilliyin müsəlman hüququ abidəsi Məhəmməd əl-Xuşaninin "Tərix əl-qudat" əsəri üzərində işləyir.

Şöbədə orta əsrlərdə digər türk xalqlarının tarixinə aid ərəbdilli mənbələrin araşdırılmasına da diqqət yetirilir. Belə ki, F.Əsədov Azərbaycan tarixində əhəmiyyətli rol oynamış Xəzər xaqanlığının tarixinin bilinməyən səhifələri üzərində əhatəli tədqiqat aparır və monoqrafiya hazırlayır. Son illərdə onun bu mövzuda ölkəmizdə və xaricdə bir sıra maraqlı məqalələri və konfrans çıxışları dərc edilmişdir. Böyük elmi işçi C.İsgəndərli orta əsrlər ərəbdilli mənbələr, xüsusilə İbn Rustə və Zəkəriyyə əl-Qəzvininin əsərləri əsasında türk tayfaları və xalqlarının ictimai və mədəni inkişafını tədqiq etmişdir. Hazırda o erkən xilafət dövrünə aid mənbələrdən seçilmiş rəsmi sənədlər toplusunu çap üçün hazırlayır. Aparıcı elmi işçi S.Süleymanovanın araşdırmaları "Avrasiya ticarət yolları şəbəkəsində Qafqazın yeri" mövzusuna, Qədim Şərqlə əlaqələr kontekstində Qafqazın Ön Asiya və Orta Asiya, türk regionu ilə etno-mədəni və tarixi əlaqələrinin öyrənilməsinə həsr edilmişdir.

Xilafət və ərəb-müsəlman cəmiyyətinin, habelə müasir Yaxın və Orta Şərqin ərəb ölkələrinin tarix və ictimai-siyasi durumunun tədqiqi şöbənin hər zaman başlıca elmi istiqamətini təşkil etdiyinə görə, bu sahədə görülən işlər xüsusi qeyd olunmalıdır. Şöbənin mövcud olduğu bütün dövr ərzində bu istiqamətdə ayrı-ayrı mövzular üzrə

müxtəlif tədqiqat işləri yerinə yetirilmişdir. Misal üçün, E.Ağayeva Xilafətin erkən çağlarında meydana gəlmiş əzraqilər təriqətini, E.Əlizadə zəncilər üsyanını, C.Bünyadov qərmatilər hərəkatını, F.Əsədov Xilafətin ictimai-siyasi sistemində ordunun yeri və rolu, N.Bayramlı xəlifə ən-Nasirin dövrünü, C.İsgəndərli də erkən islamda riddə hərəkatını tədqiq etmişlər. J.Vəli isə Xilafətdə ilk vətəndaş müharibəsi – şiə hərəkatı mövzusunu işləmişdir.

Şöbə eyni zamanda ərəb ölkələrinin müasir tarix və iqtisadiyyatı məsələləri ilə də məşğuldur. XX əsrdə Ərəb Şərqindəki milli-azadlıq hərəkatları, ictimai və siyasi təşkilatların fəaliyyəti müasir tarix üzrə aparılan elmi araşdırmalarda vaxtilə üstün mövzulardan olmuşdur. Şübhəsiz, dövrün siyasi tələbləri ilə ayaqlaşan bu kimi mövzular ərəb ölkələrindəki mövcud siyasi durumu, ictimai vəziyyəti araşdırıb təhlil etmək məqsədini güdürdü. C.Ruindejin "İraq xalqının Bağdad paktı əleyhinə mübarizəsi" (1966), K.Müzhərin "İraq Kürdüstanında milli-azadlıq hərəkatı" (1967) və T.Həsənovun "İraq Kommunist partiyası milli istiqlaliyyət və demokratiya uğrunda mübarizədə" (1985) əsərləri bu səpkidə görülmüş işlərdəndir.

Ərəb ölkələrinin müasir tarixi və ictimai-siyasi vəziyyəti ilə bağlı elmi-tədqiqat işləri son illərdə də şöbənin fəaliyyətində öz əksini tapır. Müstəqil Azərbaycanın ərəb ölkələri ilə qurduğu siyasi-iqtisadi, elmi-mədəni əlaqələrinin günü-gündən artıb genişlənməsi bu növ tədqiqatları xüsusilə əhəmiyyətli edir. İ.Əsədovun "Azərbaycan və Fars körfəzi ölkələri", B.Nurinin "Qloballaşma: Ərəb Şərqi və müasirləşmə problemləri", J.Vəliyevanın "Müasir İraqda müxtəlif islam icmaları arasında münasibətlər və onların dövlət siyasəti və institutlarına təsiri", doktorantlar E.Fərzullayevin "Fələstin azadlıq hərəkatında islamçı təşkilatlar və onların fəaliyyəti" və E.Qurbanovun "Müasir İsraildə siyası partiyaların Fələstin məsələsinə münasibətləri" kimi işləri bu qəbil tədqiqatlardandır. Son illərdə Ərəb ölkələrində baş verən mühüm dəyişikliklər və üzə çıxmış siyasi ziddiyyətlər və böhranlı vəziyyət həm təcrübəli şöbə mütəxəssisləri, həm də gənc alimlərin tədqiqat mövzularıdır. İ.Əsədov Tunisdə və Liviyada ərəb baharı hadisələrini izləməkdədir, mövzu ilə əlaqədar

məqələlər dərc etdirmiş, bir sıra məruzələr və çıxışlar etmişdir. Kiçik elmi işçi P.Əfəndiyeva "Müasir Misirin mədəniyyət siyasətinə tarixi-siyasi amillərin təsiri" mövzusunu araşdırır və bu məqsədlə 2007- ci ildə və sonra bir neçə dəfə Misir Xarici İşlər Nazirliyinin yardım proqramı ilə Helvan Universitetində uzunmüddətli ezamiyyətlərdə olmuşdur.

Şöbənin yerinə yetirdiyi mühüm işlərdən biri də dissertantların elmi işlərinə rəhbərlik edib, onların mütəxəssis alim kimi yetişməsinə kömək etməkdir. Bu tədqiqatçılar həm Şərqşünaslıq İnstitutundan, həm də Elmlər Akademiyasının digər institutlarından və Azərbaycanın bir sıra ali təhsil ocaqlarından olmuşlar. Ötən illər ərzində bir neçə dissertant öz dissertasiyasını mərhum akad. Z.M.Bünyadovun və digər tanınmış alimlərin elmi rəhbərliyi altında bitirmiş və müvəffəqiyyətlə müdafiə etmişdir. Hazırda şöbənin gənc tədqiqatçı-doktorantları Aynur Məmmədova "Misirdə 2011-2013-cü illər hadisələri və islam amili", Emiliya Xudiyeva "Müasir İsraildə dövlət və din münasibətləri", Günay Feyziyeva "İsrail tarixşünaslığı və ictimai fikrində Cənubi Qafqaz münaqişələrinə münasibət (1991-2017)", Rəşad Əliyev "Türkmanlar Suriyanın tarixi və gerçək siyasətində" dissertasiya mövzuları üzərində çalışırlar.

Ərəb dünyasının keçmişi və gerçək siyasi və iqtisadi durumu dünya ictimaiyyətinin, o cümlədən Azərbaycan cəmiyyətinin diqqət mərkəzindədir. Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin ekspertləri müasir tələbə cavab olaraq tez-tez dövrü mətbuatda və televiziya kanallarında tarixi məsələlər və cərəyan edən hadisələrlə bağlı şərhlər və müsahibələr verməyi özlərinə borc bilirlər.

Bütün bu deyilənlər, sözsüz, şöbənin Şərqşünaslıq İnstitutu tərkibində göstərdiyi hərtərəfli fəaliyyətinin əhəmiyyətindən, onun əldə etdiyi elmi nailiyyətlərinin miqyasından xəbər verir.

# İRAN FİLOLOGİYASI ŞÖBƏSİ

Şöbədə aparılan tədqiqatlar İran ədəbiyyatı tarixinin demək olar ki, bütün dövrlərini əhatə etmiş, eyni zamanda araşdırmalarda ədəbi təhlilin çeşidli formalarından (ayrı-ayrı sənətkarların həyat və yaradıcılığının, ədəbi inkişafın nəzəri məsələlərinin, ədəbi əlaqə və təsirin öyrənilməsi və s.) istifadə olunmuşdur. Şöbəyə əvvəlcə Azərbaycan EA-nın müxbir üzvü B.Hüseynov, sonralar isə dünya şöhrətli şərqşünas R.Əliyev rəhbərlik etmişdir. Bu iki alimin elmi maraq dairələri də bir növ bir-birini tamamlayır. Belə ki, B.Hüseynov müasir fars ədəbiyyatı üzrə, R.Əliyev isə klassik farsdilli ədəbiyyat üzrə mütəxəssis idi. Hal-hazırda şöbəyə f.ü.f.d. M.Məhəmmədi rəhbərlik edir.

İlk dövrlərdə şöbədə aparılan araşdırmaların mərkəzində əsasən yeni və ən yeni dövr fars ədəbiyyatı dayanırdı. Bu da XX əsrdə fars ədəbiyyatında baş verən yeniləşmənin mahiyyətini, onun ictimai-siyasi proseslərlə əlaqəsini aydınlaşdırmaq zərurətindən irəli gəlirdi. Həmin yeniləşmənin kökləri isə əvvəlki əsrin satirik və maarifçi ədəbiyyatında axtarılırdı.



Bununla belə, əsas diqqət XX əsr fars ədəbiyyatına, xüsusən onun ayrı-ayrı görkəmli nümayəndələrinin bədii irsinin hərtərəfli tədqiqinə yönəlmişdi. Eyni zamanda, klassik farsdilli ədəbiyyatın tədqiqi sahəsində də əhəmiyyətli işlər görülürdü.

Müstəqillik illərində M.Məhəmmədi "Saib Təbrizinin lirikası və farsdilli poeziyada hind üslubu problemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, "Sədi və Hafiz" adlı kitab yazmış, eyni zamanda bir sıra farsdilli abidələri ("Qızılbaşlar tarixi" adlı anonim mənbəni, Yusif Qarabağinin "Yeddi bağ" əsərini, İmam Qəzzalinin "Kimyayi-səadət" əsərindən müəyyən parçaları və s.) Azərbaycan dilinə çevirərək nəşr etdirmişdir.

Şöbədə aparılan elmi işin mühüm bir istiqamətini İran dilçiliyinə aid araşdırmalar təşkil edir. Bu sahədə C.Sadıqovanın, T.Ələsgərovanın, son illərdə f.ü.e.d. Ş.Əlibəylinin, f.ü.f.d. V.Məmmədovun, f.ü.f.d. G.Verdiyevanın, f.ü.f.d. A.Həsənovanın fəaliyyətini qeyd etmək lazımdır.

Son dövrdə şöbənin fəaliyyətində məhsuldarlığın artması hiss olunmaqdadır. *Bunu son 10 ildə şöbədə 40-a yaxın kitabın nəşr olunması, bir neçə əsərin çapa* təqdim edilməsi və daha bir neçə əsərin çapa hazırlanması da təsdiqləyir. Qeyd edilən dövrdə nəşr edilmiş kitablar arasında f.ü.f.d. M.Məhəmmədinin "Rza Bərahəni: şeirlər, müsahibələr, araşdırma" (2009), "Güney Azərbaycan məsələləri"






(2012) kitablarını, P.Kərimovla birgə nəşrə hazırladığı Məczub Təbrizi "Divan"ını (2013), "Şəms və Mövlana" əsərini həm Bakıda latın əlifbası (2010), həm də Təbrizdə əski əlifba ilə (2013) çap etdirməsini, müxtəlif illərdə fars, türk və rus dillərindən etdiyi tərcümələrinin yer aldığı "Tərcümə çələngi"ni (2012), həmçinin Söhrab Sepehridən tərcümələrinin yer aldığı və tərcüməçinin ön sözü ilə təqdim edilən "Suyun ayaq səsi" kitabını (Bakı-2010, Tehran-2016); f.ü.e.d. Ş.Əlibəylinin "Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər" monoqrafiyasını (2008) və "Farsca-rusca-azərbaycanca müxtəsər lüğət"ini (2012); f.ü.f.d. Z.Rəhimovanın kürd dilindən tərcüməsində təqdim olunan "Şirin və Fərhad"ı (2012); f.ü.f.d. V.Məmmədovun "Fars dili qrammatikası terminləri" (2010) və "Şərqşünaslıq İnstitutunda fars dilçiliyi" (2013) kitablarını; f.ü.f.d. A.Həsənovanın fars dilindən tərcümə etdiyi Məhəmməd Sadiq Naibinin "Fars dilində min türk sözü" (2014); f.ü.f.d. Rəna Rzayevanın "Əbubəkr ibn Xosrov əl-Ustadın



"Munisnamə" əsəri" (Bakı, 2016); f.ü.f.d. Günay Verdiyevanın "Fars dilinin sözyaradıcılığında ərəb məsdərlərinin rolu" (Bakı, 2017) monoqrafiyalarını; f.ü.f.d. Şəmsi Pənahoğlunun "Mirzə Müslüm Qüdsi İrəvani və onun "Divan"ı" (Bakı, 2017) və fars dilindən tərcümə etdiyi "URMU dünyanı yandıran müharibədə" (Bakı, 2017) kitablarını xüsusi qeyd etmək olar.

Son dövrdə şöbə əməkdaşlarından Ş.Əlibəyli "Füzulinin farsca divanı: linqvo-poetik özəllikər" mövzusunda elmlər doktorluğu, G.Verdiyeva "Fars dilinin söz yaradıcılığında ərəb məsdərlərinin rolu", Şəmsi Pənahoğlu "Mirzə Müslüm Qüdsi İrəvaninin "Divan"ının filoloji təhlili", Rəna Rzayeva "Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri: mənbələr və paralellər" mövzusunda fəlsəfə doktorluğu dissertasiyalarını müdafiə ediblər. Şöbənin həmçinin bir neçə yerli və xarici dissertantı da son illərdə dissertasiyasını müdafiə edərək, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

Hal-hazırda İran filologiyası şöbəsində farsdilli ədəbiyyatın, fars dilinin tədqiqi üzrə işlər çeşidli istiqamətlərdə davam etdirilir. F.ü.f.d. M.Məhəmmədi "Urfi Şirazi divanının poetikası", f.ü.f.d. Z.Rəhimova "Məsturənin həyat və yaradıcılığı", f.ü.f.d. S.Şıxıyeva "XV əsr hürufi tərcümə ədəbiyyatı", f.ü.f.d. V.Məmmədov "Azərbaycan şərqşünaslığının metodoloji prinsipləri", f.ü.f.d. G.Verdiyeva "Müasir fars dilində









elmi terminologiya", f.ü.f.d. A.Həsənova "Müasir İranda türk mənşəli oronimlər", Ş.Əhmədov "Purya Vəlinin şəxsiyyəti və rübailəri", Flora Hacıyeva "Əbdülhüseyn Zərrinkubun Nizami Gəncəviyə həsr olunmuş "Gəncəli müdrik utopik ölkə axtarışında" əsərinin tərcüməsi", Fidan Nəsirova Müasir İran uşaq ədəbiyyatının ideya-tematik xüsusiyyətləri mövzuları üzrə işlərini davam etdirirlər.

Şöbə əməkdaşları xarici beynəlxalq konfranslarda fəal iştirakları ilə də seçilirlər. Bu sırada f.ü.f.d. S.Şıxıyevanın Türk Tarix Qurumunun XVI Türk Tarix Konqresində "Hurufi Ayaklamaları" (Ankara, 2010), VIII Millətlərarası Türkoloji Konqresdə "Azerbaycan Türkcesinde Çağatayca Leksik Unsurların İntikalinde Divan Şiirinin Rolu"(İstanbul, 2013), "Nizami və Nəvai: tarixi və mədəni əlaqələr" mövzusunda beynəlxalq elmi konfransda "Азербайджано-узбекские литературные связи в XV-XVI вв." (Səmərqənd, 2010); Ş.Əhmədovun "İran və Qafqaz: mədəni və tarixi əlaqələr" mövzusunda beynəlxalq konfransda "Mirzə Müslim Qüdsinin "Divanı" barədə" (Tbilisi, 2010) mövzusunda məruzələrini xüsusi qeyd etmək olar.

Bütün bunlardan başqa, İnstitutda nəşr olunan iki elmi məcmuə – "Elmi araşdırmalar" (f.ü.f.d. S.Şıxıyeva) və "Azərbaycan şərqşünaslığı" (f.ü.f.d. V.Məmmədov) – şöbə əməkdaşları tərəfindən hazırlanır. Həmçinin f.ü.f.d. V.Məmmədov ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaş kimi institutun fəaliyyətinin təbliği ilə məşğul olur.

# TÜRK FİLOLOGİYASI ŞÖBƏSİ

1966-cı ildən başlayaraq Azərbaycan MEA Şərqşünaslıq İnstitutunda Şərq xalqları ədəbiyyatı şöbəsi tərkibində ayrıca qrup, sonra isə müstəqil fəaliyyət göstərən Türk filologiyası şöbəsi türkologiya elmimizin inkişafında mühüm rol oynamışdır. Şöbənin ilk müdiri Azərbaycan EA-nın akademiki, Azərbaycan və Özbəkistan Respublikalarının əməkdar elm xadimi, Türk Dil Qurumunun, İraq EA, İslam sivilizasiyasını öyrənən İordaniya Kral cəmiyyətinin fəxri üzvü H.Araslı olmuşdur.

Ümumtürk mədəniyyətinin inkişafında müstəsna əhəmiyyəti olan qədim yazılı abidələr və türkdilli şairlərin yaradıcılıqlarının tədqiqinə xüsusi diqqət yetirən akad. H.Araslı bu sahədə geniş araşdırmalar aparmışdı. Alim Nizami, Nəsimi, Xətayi, Füzuli, Nəvai və b. şairlərin ədəbi irsini həm yeni qaynaqlara əsaslanaraq əlavə izahlarla tərtib edib oxuculara çatdırmış, həm də bu sənətkarların yaradıcılıqlarını tədqiq yolu ilə Şərq şeirinə təsirini aydınlaşdıraraq onların Şərq ədəbiyyatı, o sıradan türk xalqları ədəbiyyatlarındakı əvəzsiz yerini müəyyənləşdirmək baxımından əhəmiyyətli işlər görmüşdür.












Hal-hazırda Türk filologiyası şöbəsinə f.ü.f.d., dos.S.G.Gündoğdu başçılıq edir. Onun rəhbərliyi altında türk ədəbiyyatı və dili sahəsində tədqiqatlar davam etməkdədir. S.Gündoğdu "Mehmet Akif Ərsoy yaradıcılığında sosial problemlərin bədii təcəssümü" adlı dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib və filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almışdır. S.Gündoğdu 2003-cü ildən bu günə qədər Türkiyənin bir çox şəhərlərində, Misir, Bosniya və Hersoqovina, Tatarıstan, Qazaxstan və Azərbaycanda keçirilən iyirmidən çox beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmiş, otuzdan çox elmi məqalənin müəllifi olmuş, Türkiyə Yazarlar Birliyi və M.A.Ərsoy fikir və sənət vəqfinin keçirdiyi beynəlxalq konfranslarda həm təşkilat komitəsində, həm də elmi heyətində iştirakına görə fəxri fərmanlar almışdır. Bakıda "Yunus Əmrə türk mədəniyyət mərkəzi"ni qurmuşdur. 2012-ci ildə "Mehmet Akif Ərsoy yaradıcılığında sosial problemlərin bədii təcəssümü" adlı monoqrafiyası nəşr olunmuşdur.

"Yücelikte tenhalık", "Soru işareti" və "Vatan, millet, ana dili" adlı B.Vahabzadənin şeir və məqalələrindən ibarət kitablarını türk dilinə tərcümə etmiş və Türkiyədə nəşr olunmuşdur. B.Yazganın "Yağmur Quşları" kitabını Azərbaycan dilinə tərcümə etmiş və Bakıda nəşr olunmuşdur. S.Gündoğdunun Azərbaycan və Türkiyədə

otuzdan çox məqaləsi elmi və beynəlxalq jurnallarda çap olunmuşdur. Hazırda o, "XX əsrin əvvəllərində Türk ədəbiyyatının inkişafında mətbuatın rolu (İkdam, Tanin, Sebilür-rəşad qazet və jurnalı əsasında)" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır.

Gənclərin yetişməsində də mühüm xidmətləri vardır. Bu günə qədər onun rəhbərlik etdiyi magistr və doktorantlar Azərbaycanda və Türkiyədə türkoloji sahədə fəaliyyət göstərirlər. Bu gün də "Türk filologiyası" şöbəsinə gələn gənclərin yetişməsində əlindən gələni əsirgəmir.

F.ü.f.d. X.Quliyeva-Qafqazlı müstəqillik illərində Türkiyə, Şimali Kipr və Hindistanda keçirilən konfrans və simpoziumlarda məruzə ilə iştirak etmişdir. Məruzələrin hamısı Türkiyə, Şimali Kiprdə və Hindistanda çap olunmuşdur.

Fəaliyyətə başladığı gündən bu günə qədər Türk aşıq ədəbiyyatı ilə əlaqədar altmışa yaxın elmi məqalənin müəllifi olan X.Quliyeva-Qafqazlının 2009-cu ildə "Kitabi-Dədə Qorqud Türkiyə ədəbiyyatşünaslığında" adlı kitabı çapdan çıxmışdır. Əsərdə türk ədəbiyyatşünas alimlərindən M.Ergin, N.S.Banarlı, O.Şaiq Gökyay, S.Hisarcı və başqalarının "Kitabi-Dədə Qorqud" əsəri üzərində apardığı araşdırmalardan, Türk Folklor Araşdırmaları jurnalında Dədə Qorqudla əlaqədar yazılardan bəhs olunur.



X.Qafqazlı türk aşıq ədəbiyyatı üzərində apardığı tədqiqatlara görə 2009-cu ildə Türkiyənin “Xalq kültürü araşdırmaları” qurumu tərəfindən “Türk xalq kültürünə xidmət” mükafatı ilə təltif olunmuşdur. Eyni zamanda o, 2008-ci ildə Şərqşünaslıq İnstitutunun yaranmasının 50 illiyi münasibəti ilə AMEA Rəyasət heyəti tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

F.ü.e.d., prof. A.Abıyev şöbədə çalışdığı illərdə Türkiyə ədəbiyyatının müxtəlif problemləri və Azərbaycan-Türkiyə ədəbi əlaqələri məsələləri ilə mütəmadi məşğul olmuşdur. Ən çox “Türkiyə teatrı və dramaturgiyası tarixi məsələləri”, “Milli hekayə və novellanın banisi Ömər Seyfəddinin həyat yolu və yaradıcılığı”, “Türkiyə ədəbiyyatında satirik janrların inkişafı və Azərbaycan ədəbiyyatı ilə əlaqələri”, “İbrahim Şinasinin yaradıcılıq yolu” və s. mövzularda elmi əsərlər yazan A.Abıyev “Türk ədəbiyyatında satira”, “Füzuli və Türkiyə poeziyası”, “Şəxs adları sözlüyü (I, II kitab), “Türk şəxs adları (Türk mənşəli şəxs adları sözlüyü), “Türkiyə ədəbiyyatı tarixi” (I, II cild) “Ziya Gökalp”, “Həsənoğlundan üzü bəri” və “Sərvəti-fünun” kitablarının müəllifidir. A.Abıyevin həm də əllidən çox elmi məqaləsi çap olunmuşdur.

Müasir türk ədəbiyyatına, ədəbi əlaqələrə həsr olunmuş bir çox məqalənin müəllifi olan Q.İsmayılovun tərtib etdiyi “Günəşi içənlərin türküsü” kitabına Nazim Hikmətin şeirləri, məqalələri, Azərbaycanda onun haqqında yazılan şeirlər, poemalar, məqalələr toplanmışdır.

Şöbədə aparılan elmi tədqiqatlar arasında ədəbi əlaqələrlə bağlı mövzular da mühüm yer tutur. Məhz bu mövzuda 2004-cü ildə B.Osmanova ilə S.Qasımlının birgə hazırladıqları “1920-ci illər Azərbaycan mətbuatında Türkiyə ədəbiyyatının tədqiqinə dair materiallar” adlı kitab nəşr olunmuşdur. Şöbə əməkdaşlarından B.Osmanova, S.Qasımlı və E.Xəlilova 1998-2004-cü illər ərzində Əbul-Xeyr Ruminin XV əsrdə yazıya alınmış “Saltuknamə” dastanının tərcüməsi üzərində işləmişlər. Üç cilddən ibarət dastan 2007-2008-ci illərdə çap olunmuşdur.

2013-cü ildə B.Osmanovanın “Maarif və Mədəniyyət” jurnalında elmi araşdırmalar”, 2016-cı ildə isə “Çar Rusiyasının Türkiyədəki siyasəti” (erməni məsələsi) (tərcümə) adlı kitabları işıq üzü görmüş-

dür. Altmış məqaləsi elmi jurnallarda çap olunmuş, beş beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir.

Hazırda həmmüəlliflər (X.Q. Qafqazlı, S.Gündoğdu və E.Xəlilova ilə birlikdə) İ.Hikmətin "Türk ədəbiyyatı tarixi" adlı dörd cildlik kitabının transliterasiya və tərcüməsini başa çatdırmışdır. Dörd cilddən ibarət olan kitab artıq çapa hazırdır.




Şöbənin əməkdaşı E.Xəlilovanın da iyirmi iki məqaləsi elmi jurnallarda çap olunmuş, üç beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir. "Türk mətbuatında "erməni məsələsi" (tərcümə) adlı kitabı 2016-cı ildə çap olunmuşdur.




"Haldun Tanerin bədii nəsri" monoqrafiyasının, Türk ədəbiyyatına aid əlli məqalənin müəllifi olan S.Qasımlı Türkiyə və Azərbaycanda keçirilən doqquz beynəlxalq konfransda iştirak etmişdir. Hal-hazırda o, Ə.Cəfəroğlunun redaktorluğu ilə 1942-43-cü illərdə Türkiyədə nəşr etdirdiyi "Türk amacı" məcmuəsini tərcümə edərək çapa hazırlamışdır. İ.Bozdağın "Lətifə xanım Atatürkün həyat yoldaşı" və H.Tanerin "Hekayələr" kitabını Azərbaycan dilinə tərcümə etmiş və nəşr etdirmişdir.




Şöbənin əməkdaşı R.Quliyevin "Nazim Hikmətin yaradıcılığında Şərq" monoqrafiyası da çapdan çıxmışdır. O, "XX yüzilliyin ikinci yarısında Türkiyə ədəbiyyatında tarixi roman janrı", "Rəşad Nuri Güntəkinin dram yaradıcılığı", "R.N.Güntəkinin bədii nəsrində Türkiyə Respublika-

sının ictimai-siyasi durumunun əksi", "Türk milli azadlıq hərəkatının bədii nəsrdə əksi" (X.Ədib və Y.Qədrinin əsərləri əsasında) mövzularında tədqiqat işləri aparmışdır. Hazırda A.H.Tanpınarın bədii və elmi yaradıcılığını tədqiq edir. R.Quliyevin tərtib etdiyi "Zəngəzur folkloru antologiyası" da nəşr olunmuşdur. Onun yüzə yaxın elmi məqaləsi dərc olunmuşdur. Tədqiqatçı "Dahi Azərbaycan şairi və mütəfəkkiri N.Gəncəvinin 870 illik yubileyi"nin keçirilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə əlaqədar "Azərbaycan Nizami poeziyasında" adlı tərcümə kitabının tərtibini tamamlamışdır.

Şöbənin gənc əməkdaşı, eləcədə dissertantı olan Xanım Abdullayeva "Türk ədəbiyyatında roman janrının təşəkkülü və inkişaf yolları" adlı tədqiqat işi üzərində çalışır. Azərbaycan və Türkiyədə tezis və məqalələri çap olunmuşdur.

Türk ədəbiyyatının müxtəlif problemlərinə dair tədqiqat aparan şöbə əməkdaşları "Türk filologiyası məsələləri", "Elmi araşdırmalar" və "Şərq filologiyası məsələləri" toplusunda da maraqlı elmi məqalələr çap etdirirlər. Şöbə əməkdaşlarının 2003-cü ildən bu günə qədər Azərbaycan və Türkiyənin elmi jurnallarında iki yüzdən çox məqaləsi nəşr olunmuşdur. Eləcə də şərqşünaslıq elmi, o cümlədən türkologiya ilə əlaqədar Türkiyənin bir çox şəhərlərində, Misir, Hindistan, Bosniya və Hersoqovina, Şimali Kipr, Tatarıstan, Qazaxstan və Azərbaycanda keçirilən elmi konfrans və simpoziumlarda fəal iştirak edirlər. Son on ildə şöbə əməkdaşları yetmişə yaxın beynəlxalq simpozium və konfranslarda Azərbaycan şərqşünaslıq elmini tanıtmışlar.

Ümumiyyətlə, Türk filologiyası şöbəsi fəaliyyətə başladığı dövrdən etibarən burada çalışan əməkdaşlar türk ədəbiyyatının aktual problemlərinə həsr olunmuş otuzdan çox kitab, yüzlərlə elmi məqalə, bir o qədər də publisistik yazılar və tərcümə əsərləri çap etdirmişlər.

# ƏRƏB FİLOLOGİYASI ŞÖBƏSİ

Ərəb filologiyası şöbəsi 1976-cı ildə yaradılmışdır və ona həmin dövrdən 1992-ci ilə qədər, o dövrdə istər respublika, istərsə də ümumittifaq səviyyəsində özünün elmi biliyi və təşkilatçılıq fəaliyyəti ilə yaxşı tanınan f.ü.e.d., prof. A.İmanquliyeva rəhbərlik etmişdir. Məhz bu dövrdə Ərəb filologiyası şöbəsi elmi fəallıq baxımından yüksəliş əldə etmişdir. Görkəmli alimin rəhbərliyi ilə bir sıra namizədlik dissertasiyaları müdafiə olunmuş, ərəb ədəbiyyatının müxtəlif sahələrini əhatə edən kitab və monoqrafiyalar həm Azərbaycan, həm də rus dilində çap olunmuşdur. Ərəb filologiyasının aktual məsələlərinə həsr olunmuş müxtəlif elmi konfrans və seminarların keçirilmə faktı da "Ərəb filologiyası" şöbəsinin rəhbəri A.İmanquliyevanın adı ilə bağlıdır. Ərəb ədəbiyyatının qlobal problemlərinin tədqiqi ilə məşğul olan alimlərə başçılıq edən Aida xanım ərəb məhcər ədəbiyyatının tədqiqi sahəsində bir neçə fundamental əsərin müəllifi kimi çıxış












edərək Azərbaycan şərqşünaslıq elminin inkişafına öz töhfəsini vermişdir. Alimin "Qələmlər birliyi" və Mixail Nuaymə" adlı əsəri ərəb məhcər ədəbiyyatının meydana gəlməsindən, xüsusilə XX əsrin 20-ci illərində Nyu-York şəhərində yaşayan mühacir ərəb yazıçıları tərəfindən yaradılan "Qələmlər birliyi" adlı ədəbi birliyin yaranma və inkişaf tarixindən bəhs edir. Əsərin böyük hissəsi "Qələmlər birliyinin" əsasını qoyanlardan birinə – Livan yazıçısı Mixail Nuaymənin yaradıcılığının tədqiqinə həsr olunmuşdur. A.İmanquliyevanın "Cubran Xəlil Cubran" adlanan ikinci əsərində ərəb məhcər ədəbiyyatının digər görkəmli nümayəndəsinin yaradıcılığından bəhs olunur. Bu tədqiqat əsərində Cubran Xəlil Cubranın əsərlərində romantik üslubun inkişaf xətti izlənilir. Görkəmli alimin sonuncu əsəri "Yeni ərəb ədəbiyyatının korifeyləri" ərəb ədəbiyyatının tədqiqi sahəsində əsl töhfədir. Bu fundamental əsər yeni ərəb ədəbiyyatının digər xalqların ədəbiyyatlarında baş verən proseslərlə əlaqələrinə həsr olunmuş xüsusi tədqiqatdır. "Suriya–amerikan məktəbinin" üç görkəmli nümayəndəsinin – C.X.Cubran, Əmin ər-Reyhani və Mixail Nuaymənin yaradıcılıqlarının nümunəsində Qərb romantizminin və rus tənqidi realizminin ərəb ədəbiyyatına təsir xarakteri və əhəmiyyəti araşdırılır. Beləliklə, uzun illər ərzində Ərəb filologiyası şöbəsinə rəhbərlik etmiş

f.ü.e.d., prof. A.İmanquliyevanın yüksək elmi və təşkilatçılıq qabiliyyəti şöbənin bir sıra uğurlarına rəvac vermiş və "Ərəb filologiyası" şöbəsi Azərbaycan şərqşünaslığının inkişafında böyük rol oynamışdır.

Hazırda şöbədə ərəb dilçiliyi və ədəbiyyatı ilə bağlı araşdırmalar davam etdirilir. Bununla belə, yarandığı gündən indiyə qədər burada ərəb dili və ədəbiyyatının tədqiqi ilə yanaşı, ərəb-Azərbaycan ədəbi əlaqələri də kifayət qədər tədqiqata cəlb olunmuşdur.

Məsələn, ötən əsrin 80-90-cı illərində şöbənin əməkdaşları orta əsrlərdə ərəb dilçiliyi sahəsində əsərlər yazmış Azərbaycan alimlərinin əsərlərini tapıb üzə çıxarmış və bu əsərləri tədqiq edərək Azərbaycan dilçilərinin ərəb elminə verdikləri töhfələrin məğzini aça bilmişlər. Bu tədqiqatlar sırasında f.ü.f.d. L.Orucovanın "Əz-Zəncaninin "Mabadiu fit-tasrif" əsəri, "XVIII əsr Azərbaycan alimi İbrahim əl-Əraşinin linqvistik yaradıcılığı", f.ü.f.d. Ç.Mirzəzadənin "Azərbaycan alimi Hübeyş Tiflisinin "Qanuni-l-ədəb" lüğəti", "İbn Firiştə və onun qafiyəli qlossarisi", f.ü.f.d. Z.Rüstəmovanın "Əbu Həyyan əl-Əndəlusi. "Əd-durra əl-mudiyyə fi-l-luğa ət-turkiyyə" əsərlərini xüsusi qeyd etmək lazımdır.

Son illər ərzində şöbənin ərəb dilçiliyi sahəsində çalışan əməkdaşları lüğətlərin tərtibi sahəsində uzun illərdən etibarən mövcud olan ənənəni davam etdirərək, nəinki orta əsrlərin leksikoqrafik əsərlərinin tədqiqi ilə məşğul olmuş, hətta ictimai həyatın müxtəlif sahələrinə aid xüsusi lüğətlərin tərtibinə başlamışlar. F.ü.f.d. L.Orucovanın hazırladığı "Ərəb dilçilik terminləri lüğəti" nəşr olunmuş və ərəbşünas alimlər və tələbələr arasında çox böyük maraqla qəbul olunmuşdur. 2008-ci ildə f.ü.f.d. L.Orucova və f.ü.f.d. Z.Rüstəmova tərəfindən dörddilli (Azərbaycan, rus, ərəb və latın) "Tibb terminləri lüğəti" işıq üzü görmüş və oxucular tərəfindən böyük rəğbətlə qəbul olunmuşdur.

Şöbənin ədəbiyyatşünas alimləri isə bir tərəfdən Misir, Suriya, İraq, Livan və məhcər ərəb ədəbiyyatının, bu ədəbiyyatlarda cərəyan edən ədəbi proses və cərəyanların, dünya miqyaslı ərəb bədii söz ustalarının yaradıcılığının tədqiqi, digər tərəfdən isə Azərbaycan-ərəb ədəbi əlaqələrinin araşdırılması ilə məşğuldurlar. Məsələn, təkcə son

bir neçə il ərzində yuxarıda sadalanan problemlərlə bağlı çap olunmuş əsərlərin adları bu rəngarəngliyin mənzərəsini aydın əks etdirir: "Qələmlər birliyi" və Mixail Nuaymə", "Yeni ərəb ədəbiyyatının korifeyləri" (A.İmanquliyeva), "Əbül-Fərəc əl-İsfahaninin "Nəğmələr kitabı" və klassik Azərbaycan ədəbiyyatı" (G.Baxşəliyeva) "İraqda neoklassik poeziya" (V.Cəfər), "Azərbaycan-ərəb ədəbi əlaqələri" (F.Əliyev).

Ümumiyyətlə, şöbə əməkdaşları fəaliyyətlərinin 40 ili ərzində 30-a qədər monoqrafiya, "Ərəb filologiyası məsələləri" adlı məqalələr məcmuəsinin 3 buraxılışını, ərəb dilçiliyi və ədəbiyyatının bu və ya digər sahələri ilə bağlı 300-dən çox məqalə çap etdirmişlər. Ərəb filologiyası şöbəsinin ədəbiyyatşünas əməkdaşlarının nəzəri tədqiqatlarının nəticələri Azərbaycan dilinə tərcümə olunmuş şeir və hekayələrdən ibarət toplu və antologiyalar şəklində öz praktik təcəssümünü tapmışdır. Məsələn, Misir, Livan, İraq, Sudan, Mərakeş, Əlcəzair, İordaniya, Fələstin kimi ərəb ölkələrinin yazıçılarının hekayələri toplusu "İnsan və quş", "Ağ günlərin sorağında" adlı İraq ədəbiyyatı antologiyası nəşr olunmuşdur. Bundan əlavə akademik G.Baxşəliyeva ilk dəfə olaraq Əbül-Fərəc əl-İsfahaninin "Nəğmələr kitabı" antologiyasından üzri məhəbbət şairi Qeys ibn Müləvvəhin - Məcnunun həyat və yaradıcılığını əks etdirən iki fəsli və ərəbdilli Azərbaycan şairləri Musa Şəhavat, İsmayıl ibn Yassar və Əbu-l-Abbas Əl-Əmadan bəhs edən üç fəsli tam şəkildə tərcümə etmişdir. Bu tərcümələr "Əbül-Fərəc əl-İsfahani "Nəğmələr kitabı" (rus dilində) və "Əbül-Fərəc İsfahani. "Bir Məcnun vardı…" adlı kitablar şəklində nəşr olunmuşdur.

Şöbənin bütün uğurları baş elmi işçilər L.Orucova və Z.Rüstəmovanın rus dilində çap etdirdikləri "Azərbaycanda ərəb filologiyasının inkişafı" adlı kitabda öz əksini tapmışdır.

Ərəb filologiyası şöbəsinə hazırda f.ü.e.d. V.Cəfərov rəhbərlik edir. O, bir neçə monoqrafiyanın, 120-dən çox müxtəlif səpkili məqalələrin müəllifidir. Görkəmli ərəb yazıçısı Cürci Zeydanın "Fərqanə gəlini" ("Ərusu Fərğanə") romanı (20 ç.v.) onun tərcüməsində 1996-cı ildə "Gənclik" nəşriyyatında çapdan buraxılmışdır. "Ağ

günlərin sorağında” adlı kollektiv tərcümə kitabı da onun yaxından iştirakı ilə nəşr olunmuşdur.

Şöbədə ədəbiyyatşünaslıq (f.ü.f.d. Z.Ə.Şıxəlibəyli “Misir modernist məktəbi”), dilçilik (f.ü.f.d. Z.Q.Rüstəmova “Kərkük dialektinin tədqiqi tarixi”, “İraq-Türkman dialektinin tədqiq tarixi və onun dil xüsusiyyəti” (2013), f.ü.f.d. L.M.Orucova “Orta əsrlər Azərbaycan alimlərinin əsərlərində ərəb dilində irab problemi”, “Ərəb dilinin qrammatikasında Nəhvin səciyyəvi xüsusiyyəti” (2013); f.ü.f.d. Ç.H.Mirzəzadə “Nisabüs-subyan” ərəb-türk mənzum lüğətinin leksik və semantik üslubu) (2013)) istiqamətində araşdırmalar aparılmışdır. Ərəb-Azərbaycan ədəbi əlaqələri (İraq tarixçisi M.Ş.Xəttabın “Ərməniyyə islamın fəthindən əvvəl və onun fəthi günlərində” əsərinin Azərbaycan dilinə şərhli tərcüməsi (f.ü.e.d., şöbə müdiri V.A.Cəfərov), B.Levisin “Orta Şərq və Qərb” adlı elmi əsərinin Azərbaycan dilinə tərcüməsi, çapa hazırlanması və ön sözün yazılması (f.ü.f.d. A.B.Barxalov), İ.M.Filştinskinin “Ərəb ədəbiyyatı tarixi. V-X əsrin əvvəlləri” kitabının Azərbaycan dilinə tərcüməsi (icrası-kollektiv f.ü.f.d. Ə.T.Qasımlı, f.ü.f.d. X.E.Ələkbərova, f.ü.f.d. R.A.Cümşüdlü) sahəsində diqqətəlayiq nəticələr əldə edilmişdir.

Ərəb filologiyası şöbəsinin 2008-ci ildəki elmi həyatı da elmi uğurlarla zəngin olmuşdur. Belə ki, ilin əvvəlində, daha doğ-









rusu, yanvar ayının 13-dən 17-dək şöbənin üç əməkdaşı - f.ü.e.d. V.Cəfərov, f.ü.f.d. L.Orucova və f.ü.f.d. Ə.Qasımlı Liviya Ərəb Respublikasına dəvət olunmuş və orada "Yaşıl kitabı" ("Əl-Kitəb əl-Əxdər") müzakirəsi ilə bağlı keçirilən "dəyirmi masa"da iştirak etmişlər. Bu barədə f.ü.e.d. V.Cəfərovun 2009-cu ildə "Elm və həyat" jurnalının 1-2-ci nömrəsində "Yaşıl kitab"ın yaşıl işıqları" adlı məqaləsi çap olunmuşdur.




Bundan əlavə, şöbənin iki əməkdaşı – f.ü.e.d. V.Cəfərov və f.ü.f.d. Ç.Mirzəzadə 2008-ci il may ayının 1 və 2-də Qafqaz Universitetinin Misir səfirliyi və Misir Mədəniyyət Mərkəzi ilə birlikdə keçirdiyi "Qeyri ərəblərə ərəb dilinin tədrisi" adlı beynəlxalq elmi konfransda "Universitetlərin ərəb dili şöbələrində əski Azərbaycan əlifbası tədris olunmalıdır" (f.ü.e.d. V.Cəfərov) və "Tədris prosesində tələbələrə fərdi yanaşma metodu" (f.ü.f.d. Ç.Mirzəzadə) adlı məruzələrlə çıxış etmişlər.




Yeri gəlmişkən qeyd etməliyik ki, f.ü.e.d. V.Cəfərov Şərqşünaslıq İnstitutunun 50 illiyi ilə əlaqədar "Elm və həyat" jurnalının oktyabr nömrəsində "Ərəb filologiyası yubiley ərəfəsində" adlı bir məqalə də çap etdirmişdir.

Şöbədə "Ərəbcə-Azərbaycanca lüğət" adlı iri həcmli bir lüğətin tərtibi başa çatmışdır. (Tərtibçilər f.ü.f.d. L.Orucova, f.ü.f.d. Z.Rüstəmova və f.ü.f.d. Ç.Mirzəzadə). Əslində, bu lüğət X.K.Baranovun "Arabsko-russkiy slovar" lüğətinin tam tərcüməsidir.



Şöbə müdiri f.ü.e.d. V.Cəfərov Aida İmanquliyevanın anadan olmasının 70 illiyi ilə bağlı tərtib etdiyi "A.İmanquliyeva. Məqalələr və tərcümələr" adlı kitabını çap etdirmişdir (2010).

Şöbənin əməkdaşlarının 90 %-i filologiya üzrə fəlsəfə doktorlarıdır. Hazırda şöbənin üç doktorantı, beş nəfər (biri Cənubi Azərbaycan vətəndaşı olmaqla) dissertantı da dissertasiya mövzuları üzərində işlərini davam etdirirlər.

Qeyd etmək lazımdır ki, 2010-cu ildə şöbənin 15 əməkdaşı Misir Ərəb Respublikasına 12 günlük elmi ezamiyyətə gedib, orada MƏRXİN MDB ölkələri ilə texniki Əməkdaşlıq Fondu və Hədayət Ərəb Mədəniyyəti İnstitutunun Qahirədə təşkil etdiyi təlim kursunda iştirak ediblər. Bu barədə V.Cəfərovun təəssuratları Azərbaycan və ərəb dilində çap olunmuşdur.

Şöbənin əməkdaşları İnstitutun cari işlərində, institut və respublika səviyyəsində keçirilən elmi konfranslarda fəal iştirak edirlər.

Şöbənin əməkdaşı f.ü.f.d. Ə.T.Qasımlı görkəmli Misir alimi-publisist Taha Hüseynə həsr edilmiş maraqlı araşdırma aparmışdır: "Taha Hüseyn və müəlləqələrdə sənətkarlıq xüsusiyyətləri" (İmrul-Qeysin yaradıcılığı əsasında) ("Şərq filologiyası məsələləri" IV b., Bakı,



2009); daha sonra "Müasir Liviya nəsrinin təşəkkülü tarixindən" (Bakı, "Elmi araşdırmalar" IX b. 2012).

Şöbənin gənc alimləri filologiya üzrə fəlsəfə doktorları L.M.Bayramova, X.E.Ələkbərova, S.A.Səlimova, F.A.Məcidova ərəb ədəbiyyatına aid bir neçə aktual mövzulara aid çox maraqlı və dəyərli araşdırmalar aparırlar. Bunlardan f.ü.f.d. L.M.Bayramova "Min bir gecə" ümumşərq ədəbiyyatının mədəni-tarixi abidəsi kimi" (Bakı, 2009) və f.ü.f.d. R.A.Cümşüdlünün "Füzulinin ərəbcə poetik irsi" (Bakı, 2012), f.ü.f.d. S.A.Səlimovanın "Ərəb bədii nəsrində ilkin Abbasilər dövrünün təsviri" (Bakı, 2015), f.ü.f.d. S.M. Əhmədovun "Ərəb dilinin dialektləri və İraq dialekti ilə İraq-türkman dili arasında əlaqə" (Bakı, 2017) adlı monoqrafiyaları çap olunmuş, f.ü.f.d. X.E.Ələkbərovanın "Misir reallıqları və bədii ədəbiyyat (XX əsrin sonu – XXI əsrin əvvəllərində)" adlı monoqrafiyası isə çapa təqdim olunmuşdur.

Şöbənin elmi işçisi f.ü.f.d. F.A.Məcidova görkəmli şərqşünas alim ərəb məhcər ədəbiyyatının Azərbaycanda ilk tədqiqatçısı prof. Aida xanım İmanquliyevanın araşdırmaları əsasında "Ərəb məhcər ədəbiyyatı" mövzusunu davam etdirir. Onun "Əmin ər-Reyhani yaradıcılığında Ərəb Şərqi" adlı monoqrafiyası 2014-cü ildə çap olunmuşdur.

Şöbənin elmi işçisi X.Ə.Kərimova "Orta əsrlərdə ərəb ədəbiyyatında "Ədəb" janrı (Əbu Əli əl-Muhassin ət-Tənuxinin "Nişvar əl-Muhadara va əxbər əl-Muzəkəra" əsəri əsasında)" adlı dissertasiyasını müdafiə etmiş və monoqrafiyası 2015-ci ildə işıq üzü görmüşdür.

Şöbənin daha iki əməkdaşı - elmi işçi G.Ş.Həmidliyə dilçilik və kiçik elmi işçi Ə.H.İsmayılovaya ədəbiyyat istiqamətli tədqiqat mövzuları təyin edilmişdir. Hazırda G.Həmidlinin "XI əsr ərəb filologiyasının inkişafında Xətib Təbrizinin rolu və onun "Təhzibul-islahul-mantıq" traktatı adlı dissertasiyası müdafiə ərəfəsindədir, Ə.İsmayılova isə "Curci Zeydan islam mədəniyyəti tədqiqatçısı kimi" adlı mövzunun tədqiqi ilə məşğuldur.

Şöbədə son illər bir dissertasiya işi də uğurla müdafiə olunmuşdur. Bu doktorant Səadət Abdulla qızı İbrahimovanın "Ərəb Məhcər

ədəbiyyatının Cənubi Amerika qolu" adlı dissertasiyasıdır. S.İbrahimovanın bu mövzu ilə bağlı bir neçə məqaləsi ABŞ, Hindistan və Pakistanda ingilis dilində çap olunmuşdur. "Azərtac" informasiya agentliyi onun uğurları barədə "Şərqşünaslıq İnstitutunun əməkdaşının beynəlxalq uğurları" adlı bir məlumat da yayımlamışdır. Orada göstərilir ki, S.İbrahimova A.İmanquliyevanın anadan olmasının 73 illiyi ilə əlaqədar keçirilən məqalə müsabiqəsinin də qalibi olmuşdur.

# MƏNBƏŞÜNASLIQ, YAZILI ABİDƏLƏRİN TƏDQİQİ VƏ NƏŞRİ ŞÖBƏSİ

Şöbə Şərq xalqlarının yazılı abidələrinin öyrənilməsi, tərcüməsi və nəşri sahəsində ciddi və məqsədyönlü tədqiqat işlərini həyata keçirir. Şöbədə mətnşünaslıq sahəsində fundamental işlərin həyata keçirilməsi akademik Ə.Ə.Əlizadənin adı ilə bağlıdır.

1958-ci ildə yaranmış Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda Mətnşünaslıq və mənbələrin nəşri şöbəsində akademik Ə.Ə.Əlizadənin uzunmüddətli rəhbərliyi Şərq ədəbi abidələri, xüsusən farsdilli abidələrin nəşrində yeni dövr yaratmışdır. Bu dövrdə orta əsr müəlliflərinin əsərlərinin elmi-tənqidi mətnləri nəşrə hazırlanmışdır. Onların arasında orta əsr tarixi ədəbiyyatın ən görkəmli əsərlərindən biri Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix"i mühüm yer tutur. Bu əsərin II cildinin I hissəsi və üçüncü cildi bilavasitə Ə.Ə.Əlizadə tərəfindən, I cildin I hissəsi isə onun başqa müəlliflərlə birgə fəaliyyəti nəticəsində hazırlanmış və nəşr edilmişdir.






Akademik Ə.Əlizadə Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur əl-katib fi-təyin əl-məratib" əsərinin elmi-tənqidi mətninin hazırlanmasında fəal iştirak etmişdir. 1977-ci ildə "Dəstur əl-katib"in mətninin hazırlanmasına görə o, Azərbaycan SSR-nin dövlət mükafatı ilə təltif olunmuşdur.

Şöbə əməkdaşları tərəfindən çoxlu sayda digər qiymətli orta əsr farsdilli mənbələri tərcümə edilmiş və nəşrə hazırlanmışdır. Onların sırasına Azərbaycan tarixçisi Bəkr əl-Kutbi əl-Əhərinin "Tarixe-şeyx Uveys" əsəri də daxildir. Bu əsər Azərbaycan və rus dillərinə M.D.Kazımov və V.R.Piriyev tərəfindən Leyden Universiteti kitabxanasında saxlanan yeganə əlyazma nüsxəsi əsasında tərcümə olunmuşdur. Həmin müəlliflər tərəfindən XIV əsrin tarixi hadisələrinə həsr olunmuş, Azərbaycan və qonşu ölkələrlə bağlı olan daha iki əlyazması tərcümə edilmişdir. Bunlar orta əsr tarixçisi, coğrafiyaşünası və dövlət xadimi Həmdullah Mustovfi Qəzvininin "Zeyle-tarixi-qozide" və onun oğlu Zeynəddinin "Zeyle-tarixe-qozide" əsərləridir.

Şöbədə tərcümə olunmuş tarixi xarakterli farsdilli mənbələrə daha bir böyük əsər daxildir. Bu Əbdi bəy Şirazinin "Təkmilat əl-əxbar" əsəridir. Həmin əsər 1570-ci ildə Ərdəbildə yazılmış və dünyanın yaranmasından 1570-ci ilə qədər baş verən hadisələrin təsvirini əhatə edir. Əsərin tərcüməçisi və müqəddimə ilə şərhlərin müəllifi f.ü.f.d. Ə.R.Rəhimovdur.

Şöbədə həmçinin türkdilli tarixi mənbələrin tərcüməsi fəal surətdə həyata keçirilir. Xüsusilə, akademik Z.M.Büynadov və t.ü.f.d. H.Məmmədovun səyləri nəticəsində, İrəvan əyalətinin və Naxçıvan sancağının və Gəncə-Qarabağ əyalətinin icmal dəftərləri müfəssəl araşdırma, qeyd və şərhlərlə Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir. Hazırda bu istiqamətdə araşdırmalar akademik Ş.Mustafayevin işlərində davam etdirilir. Məsələn, "Tiflis əyalətinin müfəssəl




dəftəri" və "Lori vilayətinin icmal dəftəri" Osmanlı türkcəsindən Azərbaycan dilinə onun tərəfindən tərcümə olunaraq çap etdirilmişdir. İnstitutun dissertantı E.Arıklı tərəfindən "Ərdəbil livasının müfəssəl dəftəri"nin nəşr edilməsi bu istiqamətin institutda uğurla aparılmasını bir daha təsdiq edir.

Şərqşünaslıq İnstitutunun alimləri tənqidi mətnlərin hazırlanması və tarixi mənbələrin tərcüməsi ilə yanaşı Şərq xalqlarının ədəbi abidələrinin tədqiqi üzrə də çox böyük və ciddi tədqiqatlar aparmışlar. Orta əsrlər dövrünə aid Şərq ədəbiyyatı dühalarının çoxsaylı əsərləri şərqşünas mütəxəssislərin səyi nəticəsində öyrənilmiş, tərcümə olunmuş və çapa hazırlanmışdır. Bu əsərlər arasında dahi Nizami Gəncəvinin "Xəmsə"si mühüm yer tutur. "Xəmsə" mətnlərinin üçünün – "Məxzən-ül-əsrar", "Həft peykər" və "Şərəfnamə"nin mətnləri Şərqşünaslıq İnstitutunun elmi işçiləri tərəfindən tərtib olunmuşdur.

Məlumdur ki, Nizaminin "Xəmsə"sindən sonra Şərqin müxtəlif bölgələrində və müxtəlif dillərdə bir neçə yüz əsər yaradılmışdır. Onların müəllifləri arasında Əmir Xosrov Dəhləvi, Xacə Kirmani, Əlişir Nəvai, Abdullah Hatifi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli kimi şairlərin adını çəkmək olar. Misal üçün, f.ü.e.d. T.A.Məhərrəmov Hindistanın farsdilli ədəbiyyatının banisi Əmir Xosrovun "Məcnun və Leyli" və "Mətləül-ənvar" poemalarının səkkiz və daha çox əlyazmadan istifadə edərək elmi-tənqidi mətnini tərtib edərək çap etdirmişdir. T.A.Məhərrəmov XIV əsr məşhur Azərbaycan şairi Əşrəf Marağayinin "Xəmsə"sinin tam elmi-tənqidi mətnini də çapa hazırlamış və bu müəllifin həyat və yaradıcılığı haqda kitab yazmışdır.

Əşrəf Marağayinin müasiri, Nizaminin "Xəmsə"sinə nəzirə olaraq beş poema yaradan digər məşhur Azərbaycan şairi Cəmali Təbrizi olmuşdur. Cəmali Təbrizinin "Xəmsə"sinin yeganə əlyazma nüsxəsi Londonun "İndia ofis" kitabxanasında saxlanılır. Şairin poemaların-

dan birinin – "Həft övrəng"in mətni M.D.Kazımovun "Cəmali Təbrizinin yaradıcılıq irsi" monoqrafiyasında verilmişdir.

Nizami ardıcıllarının əsərlərinin çap olunmasında məhsuldar işi Ə.Q.Rəhimov həyata keçirmişdir. O, uzun müddət XVI əsr farsdilli Azərbaycan şairi Əbdi bəy Şirazinin yaradıcılığı ilə məşğul olmuşdur. Bu işin nəticəsi Əbdi bəy Şirazinin on poeması nəşr edilmişdir. Ə.Rəhimov həm də XIV əsr farsdilli ədəbiyyatının tədqiqi üçün böyük əhəmiyyətə malik olan Azərbaycan şairi Bədr Şirvaninin "Divan"ını nəşr etdirmişdir.

Farsdilli klassikanın tərcüməsi sahəsində maraqlı işi f.ü.e.d. Ə.Cəfər görmüşdür. O, ilk dəfə olaraq orijinalın poetik vəznini saxlamaqla Ömər Xəyyamın rübailərini Azərbaycan dilinə tərcümə etmişdir.

Yazılı mənbələrin tərcüməsi Şərqşünaslıq İnstitutunda tarix, ədəbiyyat, fəlsəfə, coğrafiya, dilçilik və s. sahələri əhatə edir. Mənbələrin böyük bir qismi, o cümlədən sufi abidələri ilk dəfə olaraq orijinaldan tərcümə olunmuşdur. Məsələn, 2001-ci ildə XI-XIII əsrlər ərzində yaradılmış və farsdilli sufi nəsrinə aid olan üç əsər şərhlərlə çap olunmuşdur. Abdullah Ənsarinin "Minacat"ı, Nəcməddin Razinin "Eşq və əql" risaləsi və Fəxrəddin İraqinin "Ləməat"ı M.D.Kazımov tərəfindən tərcümə olunaraq, onlara geniş ön söz və şərhlər yazılmışdır.

Orta əsr Azərbaycan fəlsəfəsi üzrə qiymətli abidə XVI-XVII əsr şairi və mütəfəkkiri Yusif N.Qarabağinin "Həft cinan" əsəridir. Onun şərhli tərcüməsi Sankt-Peterburqun Saltıkov-Şedrin adına kitabxanasında qorunan əlyazma nüsxəsi əsasında M.Məhəmmədi tərəfindən həyata keçirilmişdir.

XI əsrdə Nasir Xosrovun yaratdığı "Səfərnamə" əsəri özündə tarixi, coğrafi, dini, ədəbi qaynaqları cəmləşdirən Şərqin ilk nəsr abidələrindən və maraqlı mənbələrdən biri hesab oluna bilər. Bu əsər müəllifin Əfqanıstan, Orta Asiya, İraq, Azərbaycan, Kiçik Asiya və Ərəb ölkələrinə yeddiillik səfərlərinin nəticəsi olmuşdur. "Səfərnamə" tarixi şəxsiyyətlər, dövlət xadimləri, alimlər, şairlər, həmçinin Asiya və Afrika qitəsində yaşayan xalqların məişəti, mənəviyyatı, adət-ənənələri, din, dil və mədəniyyəti, eləcə də memarlıq, təbiət haqqında təfsilatlı və etibarlı məlumatlarla zəngin bir mənbədir. "Səfərnamə"ni Azərbaycan dilinə T.A.Məhərrəmov tərcümə etmişdir.

Şərqşünaslıq İnstitutunun elmi fəaliyyətinin zənginləşməsində mənbəşünaslıq sahəsində çalışan dilçi alimlərin elmi işləri mühüm rol oynamışdır. Belə ki, f.ü.f.d. C.Sadıqova və f.ü.f.d. T. Ələsgərova tərəfindən Fəxrəddin Hinduşah Naxçıvaninin "əs-Sihah əl-əcəmiyyə" adlı fars-türk lüğətinin elmi-tənqidi mətni çap olunmuşdur. "Əs-sihah əl-əcəmiyyə" 1994-cü ildə H.Z.Tağıyev mükafatına layiq görülmüşdür.

XIII əsr istedadlı Azərbaycan şairi Hüsaməddin Xoyi tərəfindən Azərbaycan dilində nəzmə çəkilən, lakin əsrlərlə itkin hesab edilən və uzun axtarışlardan sonra əlyazması əldə edilən "Töhfeyi-Hüsam" dilimizin nadir incisi kimi türkologiya tarixinə yeni bir töhfədir. Bu mənzum lüğətin elmi-tənqidi mətni Qahirənin "Dar əl-kutub" kitabxanasından və Berlindən gətirilən əlyazma nüsxələri əsasında adları yuxarıda çəkilən əməkdaşlar tərəfindən hazırlanmış və 1996-cı ildə çap olunmuşdur.

Şöbə müdiri f.ü.e.d., prof. M.D.Kazımov farsdilli ədəbiyyat, müqayisəli ədəbiyyatşünaslıq, nizamişünaslıq, mənbəşünaslıq sahələrində tanınmış və aparıcı mütəxəssislərdəndir. Orta əsrlər yaradıcılıq üslubunun, normativlik və yaradıcılıq fərdiyyəti nisbətinin, şərq ədəbiyyatlarının janr sisteminin, poetikanın fundamental problemlərinin araşdırılmasında onun xidmətləri təqdirəlayiqdir. O, nəinki İranın, eləcə də Azərbaycan, Hindistan, Əfqanıstan və başqa ölkələrin şair və mütəfəkkirlərinin yaradıcılığı ilə məşğul olmuşdur. Camali Təbrizi, Ruhuləmin Şəhristani, Əhməd Dehdar və başqalarının adı və əsərləri ilk dəfə elmi ictimaiyyətə məhz onun tərəfindən tanıtdırılmışdır.

Müqayisəli ədəbiyyatşünaslıq sahəsində farsdilli ədəbiyyatın regionunda bir sıra janr formalarının tipologiyasının aşkarlanmasında prof. M.D.Kazımovun səyləri az olmamışdır. Bununla belə ədəbiyyatların qarşılıqlı təsiri və əlaqələri, bir şairin yaradıcılığının bütöv bir epoxaya və sonrakı şairlərin nəsrinə təsiri məsələləri də nəzərdən keçirilmişdir. Həmçinin bir sıra məşhur süjetlərin genezisi onun tərəfindən izlənilib, bədii vasitələrin istifadəsində, eləcə də müəlliflərin şəxsi üslublarında oxşar və fərqli cəhətləri müəyyənləşdirilmişdir.

Nizamişünaslıq problemləri prof. M.D.Kazımovun xüsusi elmi maraq dairəsini təşkil edir. Böyük Azərbaycan şairi Nizaminin, eləcə də onun çoxsaylı müaqiblərinin yaradıcılığı alim tərəfindən tədqiq edilmişdir. Nizaminin rolu Şərq ədəbiyyatı və mədəniyyətində geniş tarixi və bədii mühitdə göstərilmişdir. Nizami poetik məktəbinin məsələləri xüsusi qeyd olunmuş, nəzirə kimi hadisənin məziyyətləri, onun bədii-estetik və fəlsəfi əsasları öyrənilmişdir.

XV əsrin əvvələrində ilk dəfə Nizaminin "Xəmsə"sinə nəzirə yazan Azərbaycan şairi Cəmali Təbrizinin əsərləri təhlil olunmuş və həmçinin bu dövrdəki Azərbaycanın ən tanınmış şairlərindən biri Əşrəf Marağayinin və XV-XVIII əsrlərin şairlərindən Abdulla Hatifi, Əbdibəy Şirazi, Fani Kəşmiri və başqalarının məsnəviləri araşdırılmışdır.

Müasir fars ədəbiyyatının tədqiqində də prof. M.D.Kazımovun xidmətləri təqdirəlayiqdir. O, müasir fars poeziyası sahəsində sanballı araşdırma aparmış, bu poeziyanın xüsusiyyətlərini, eləcə də onda baş verən prosesləri hərtərəfli tədqiq etmişdir.

Prof. M.D.Kazımov mənbəşünaslıqla da məşğuldur. O, orta əsrlər İran və Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyətində böyük əhəmiyyəti olan qiymətli əlyazma və mənbələrin tərcümələrinin müəllifidir. Bunların sırasına Əbu Bəkr əl-Qütbi əl-Əhərinin "Tarix-e şeyx Uveys", Həmdullah Qəzvininin "Zeyl-e tarix-e qozide", Zeynəddinin "Zeyl-e tarix-e qozide", Məhəm-









məd bin Münəvvərin "Əsrar ət-touhid" kimi əsərləri daxildir. Bir çox hallarda bu əlyazma və mənbələr İran və Azərbaycanın hadisələrlə zəngin olmuş XIV əsr mənzərəsini təsvir etmək imkanı yaradır.

2016-cı ildə Moskva şəhərində keçirilmiş "İlin kitabı: İslam və İran rusdilli məkanda" birinci beynəlxalq müsabiqədə M.D. Kazımovun "Mirsad əl İbad" mənbəsinin izahlı tərcüməsi üçüncü yerə layiq görülmüşdür.

M.D.Kazımov 11 kitab və 150-yə yaxın məqalənin müəllifidir. M.D.Kazımovun kitablarından "Nizaminin "Həft petkəri"i və XIV-XVI əsrlərin farsdilli ədəbiyyatda nəzirə ənənəsi", "Nizaminin ardıcılları", "Camali Təbrizinin poetik irsi", "Farsdilli ədəbiyyatın yeddi əsri" adlarını çəkmək olar.

2009-cu ildə elm və təhsil sahələrində göstərdiyi xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

F.ü.f.d. L.Q. Əliyeva "İmad əd-Din əl-İsfahanin "Xəridətu-l-asr va cəridətu-l-qasr" əsəri XII əsr ərəb-müsəlman mədəniyyətinin abidəsi kimi" adlı monoqrafiyanın, Qadə əs-Səmmanın "Beyrutda dəniz yoxdur" məqalələr toplusunun və İbrahim Sidqinin məqalələr toplusunun tərcüməsinin müəllifidir. Rumıniyada, Macarıstanda,



Türkiyədə keçirilən beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmiş, 30-dan artıq məqaləsi çap olunmuşdur. Hazırda “Ərəb müqavimət ədəbiyyatı” adlı doktorluq işi üzərində çalışır.

F.ü.f.d. A.Ə.Əlizadə iki cildlik “Ərəbcə-azərbaycanca” lüğətin müəllifidir. Eyni zamanda “Fərədəddin Əttarın “Təzkirətül-övlya” əsəri farsdilli sufi ədəbiyyatının mənbəyi kimi” monoqrafiyasının müəllifidir. Bundan əlavə bir neçə kitabın, Məhəmməd Sadiq Sədrin İmam Mehdi (3 cild) kitabını, Fəridəddin Əttarın “Təzkirətül-övliya” əsərini tərcümə etmişdir. 45-dən çox məqalənin müəllifidir. İran, Türkiyə və Pakistanda keçirilən beynəlxalq elmi konfranslarda məqalə ilə çıxış etmişdir. “Şərq filologiyası məsələləri” toplusunun məsul katibidir.

Elmi işçi İ.T.Qasımlı XV əsrdə yaşayıb-yaratmış Əli ibn Hüseyn əl-Amasi Əlaəddin Çələbinin “Taci-Ədəb” əsərini transfoneliterasiya etmiş, müasir Azərbaycan dilinə tərcümə edərək “Türk mənşəli sözlər”, “Ərəb-fars mənşəli sözlər” lüğəti hazırlanaraq fotofaksimile ilə birlikdə kitab şəklində nəşr edilmişdir. İ.T.Qasımlı 12 məqalə, 11 tezisin müəllifidir. Hazırda “Orta əsrlərdə Türkiyədə yaşayıb-yaratmış Azərbaycan əsilli müəlliflər antologiyası”nın hazırlanması ilə məşğuldur. “Əlaəddin Çələbinin “Kitabi-Taci-ədəb” əsərinin tekstoloji tədqiqi və müqayisəli mətni” mövzusunda fəlsəfə doktorluğu üzrə dissertasiyanı müdafiə etmişdir.

Böyük elmi işçi L.M.Hüseynova Əbu Mənsur əs-Səalibinin X-XI əsrlər “Yətimətud-dəhr” antologiyası üzərində tədqiqat işi aparmışdır. L.M.Hüseynova 2015-ci ildə “Əbu Mənsur əs-Səalibinin “Yətimətud-dəhr” antologiyası X-XI əsrlər ərəbdilli Azərbaycan və İran şairlərinin mənbəyi kimi” dissertasiya işini uğurla müdafiə etmişdir. Bu günədək 15 məqalə və 5 tezisin müəllifidir.

Böyük elmi işçi T.Q.Sadıqov “Ərəb və ibri dillərində müəyyənlik və qeyri müəyyənlik kateqoriyalarının müqayisəli təhlili” (Bakı, 2016), “Сопоставление определенного артикля, слитных местоимений с именами и предлогами, а также употребление имен в сопряженной конструкции в арабском языке и в иврите”. Ərəb və İbri dillərində müəyyənlik artiklın isimlərlə və önlüklərlə işlənən

bitişən əvəzliklərin həmçinin təyini söz birləşməsinin müqayisəli şəkildə istifadə olunması (Tbilisi, 2017) adlı monoqrafiyanın, 20-dən artıq elmi tezis və məqalənin (o cümlədən müxtəlif dillərdə müxtəlif xarici ölkələrdə nəşr edilmiş məqalələrin) müəllifidir. Beynəlxalq elmi konfransların iştirakçısı və məruzəçisi olmuşdur.

Elmi işçi Aygün Yusubova "XVIII əsr Türk Divan şairi Əhməd Nədimin "Divan"ının filoloji-tekstoloji tədqiqi" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir. 20-dən çox elmi məqalə və tezisin müəllifidir. "Nizami əsərlərinin XVI əsr türk ədəbiyyatında tərcümələri (Lami Çələbi yaradıcılığı əsasında" mövzusu üzərində işləyir.

Elmi işçi P.E.Ağayev İmadəddin İsfahanin "Xəridətu əl-Qəsr və Cəridətu əl-Əsr" kitabının tərcüməsi ilə məşğuldur. Müxtəlif mövzular üzrə 20 elmi məqalənin, tezisin müəllifi və üç Beynəlxalq konfransın iştirakçısıdır.

# DİN VƏ İCTİMAİ FİKİR TARİXİ ŞÖBƏSİ

Şərq xalqlarının dini və mənəvi həyatı, Şərqdə müxtəlif ideoloji cərəyanlar, milli-azadlıq hərəkatı şöbə əməkdaşlarının sistematik elmi araşdırmalarının predmeti olmuşdur. Bu sahədə aparılan tədqiqatları düzgün qiymətləndirmək üçün onları üç əsas mərhələdə və mövzular üzrə nəzərdən keçirmək daha münasib olardı. Birinci mərhələ İnstitutun yaradılmasından 1986-cı ilin fevralına qədər olan dövrü əhatə edir. 19 fevral 1986-cı ildə Akademiyanın Rəyasət Heyəti "Xarici Şərq ölkələrinin siyasət və ideologiyasında islamın fəallaşması ilə əlaqədar elmi-tədqiqat və təbliğat işinin təsirliyinin yüksəldilməsi sahəsində əlavə tədbirlər haqqında" qərar qəbul etmişdi. Bu qərarda islamşünaslıq şərqşünaslıq elminin prioritet sahəsi kimi müəyyən edilirdi: islamda baş verən proseslərin, xüsusilə bu dindəki dirçəlişin səbəblərini öyrənmək zərurəti meydana çıxmışdı. 1986-cı ilin əvvəllərindən başlanan ikinci mərhələ 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi ilə başa çatır. Bu vaxtdan etibarən institutun dini-fəlsəfi araş-






dırmalarla bağlı fəaliyyətində metodoloji baxımdan tamamilə fərqli yeni, üçüncü mərhələ başlanır.

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra ölkədə milli-mənəvi dəyərlərin mühüm tərkib hissəsi kimi islama maraq artdı. Bu maraq islam tədqiqatlarının güclənməsinə səbəb oldu. İdeoloji problemlər şöbəsi Din və ictimai fikir tarixi şöbəsi kimi yenidən quruldu, tədqiqatların istiqamətində islama geniş yer ayrıldı.

Müstəqillik illərində şöbənin əməkdaşları bilavasitə islamın ibadətlərinə dair yazılar nəşr etməyə başladılar. "Ziyarət" (1990), "Həcc bələdçisi" (1991), "İslamın ziyarət ibadətləri" (2001) kitablarında həccin əməlləri ətraflı araşdırılır. Şöbənin moskvalı şərqşünaslarla birlikdə hazırladığı "İslam: tarix, fəlsəfə, ibadətlər" (Bakı, 1994) məcmuəsində islam fikir cərəyanları və islam ibadətləri ilə bağlı materiallar, islam istilahları lüğəti oxucular tərəfindən maraqla qarşılandı. 1993-cü ildə Türkiyə ilahiyyatçısı Rəcəb Dikicinin "Böyük övliyalar" kitabı Azərbaycan türkcəsində çapa hazırlandı, kitaba ön söz, qeyd və şərhlər yazıldı. Kitab maraq doğurduğu üçün 1998-ci ildə AMEA-nın müxbir üzvü Məşədixanım Nemətovanın da əlavə materialları ilə yenidən nəşr edildi. 2001-ci ildən şöbəyə A.M.Məmmədov rəhbərlik edir. 2001-ci ildə A.Məmmədovun "İslamda əsas sosial-fəlsəfi anlamlar" kitabı çapdan çıxdı. Kitabda islamın tərəqqi, zaman, əmək, azadlıq və məsuliyyət, vardövlət və yoxsulluq məsələləri ilə bağlı mövqeyi araşdırılır, bu anlayışların müsəlman cəmiyyətinin sosial-iqtisadi durumundan asılı olaraq təkamülü izlənir.

Bu dövrdə R.Mürsəlovun "Millətçilik təfəkkürü – birlik və parçalanma meylləri" (Bakı, 1994) kitabı nəşr edildi. Onun Quranın qiraətləri, Quranda xəlqetmə məsələsi, hədislərin tarixi və digər mövzularda hazırladığı məqalələr mətbuat səhifələrində maraqla qarşıla-

nır. Onun bəzi ərəb alimlərindən etdiyi tərcümələr islama, xüsusilə vəhhabiliyə dair zəngin material ehtiva edir.

Şöbənin son vaxtlar çap edilmiş işləri mühüm və aktual məsələlərə həsr edilmişdir. E.Həsənovanın 2002-ci ildə çapdan çıxmış "Respublika Türkiyəsində dünyəvilik və islam" monoqrafiyasında dünyəvi dövlətdə "laikliyin" din-dövlət münasibətlərində rəhbər prinsip tutulmasına imkan verən tarixi, kulturoloji və sosial-psixoloji amillər araşdırılır, islamın siyasi aktivliyi şəraitində laiklikdə baş verən dəyişikliklər təhlil edilir. Ümid etmək olar ki, kitabın materialları Azərbaycanda din-dövlət münasibətlərinin tənzimlənməsi işində faydalı olacaqdır.

2003-cü ildə M.Kazım bəyin 200 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi konfransın, akad.Z.M.Bünyadovun 80 illiyinə həsr olunmuş "Şərqin aktual problemləri: tarix və müasirlik" konfransının, 2004-cü və 2005-ci illərdə "Qloballaşma və islam" mövzusunda elmi konfransın keçirilməsində şöbə əməkdaşlarının rolu böyük olmuşdur. "Yaxın Şərqin ictimai-siyasi həyatında islam amili" problemi, İslam fundamentalizminin mənşəyi, əsas istiqamətləri, ayrı-ayrı müsəlman ölkələrində təzahür formaları 2005-ci ildə şöbə əməkdaşlarının diqqət mərkəzində olan elmi tədqiqat mövzuları olmuşdur. A.M.Məmmədovun "İslam fundamentalizmi: mahiyyəti, əsas prinsipləri və təzahür formaları" (Bakı, 2004) və R.Ə.Mürsəlovun "Müasir islam fundamentalizmi" (Bakı, 2004) kitabları bu araşdırmaların nəticəsidir.

2005-ci ildə şöbə əməkdaşları "Sinkretik din kimi bəhailikdə müxtəlif dini-fəlsəfi konsepsiyaların müqayisəli təhlili" (L.Məlikova), "XX əsrin 80-90-cı illərində Türkiyədə islamın problemləri" (E.Həsənova), "Ərəb istilasından sonra İranda yaranmış ideya cərəyanları və İranla Azərbaycanın intibah əlaqələri" (B.e.i. B.Bağırov), "İslam və müasir dövrün qlobal hadisələri" (R.Mürsəlov), "XX əsrin sonlarında Misir ictimai-siyasi fikrində islam" (G.Əhmədova), "Məkkə dinlər tarixində" (C.Xıdırov), "Şəhrəsatani mötədil kəlamın nümayəndəsi kimi" (A.Məmmədov) mövzularını tədqiq etmiş, yerli və xarici elmi konfranslarda bir sıra aktual məsələləri əhatə edən maraqlı məruzələrlə çıxış etmişlər. Şöbə əməkdaşlarından C.Xıdırovun

"Məkkə" adlı kitabı da haqqında danışılan ildə işıq üzü görmüşdür (Bakı, "Nurlan" nəşriyyatı, 2005).

2006-cı ildə E.Y.Həsənovanın "XX əsr Türkiyəsində din və islam mistisizmi-təsəvvüf sosiologiyası (ideya mənbələri, əsas problemləri, yeni meyllər)" kitabı nəşr olunur. Bundan əlavə E.Y.Həsənova həmin ildə türkoloq D.Jeltyakovun 80 illiyi münasibətilə Sankt-Peterburqda hazırlanan xatirə məcmuəsi üçün "XX əsrin əvvəllərində Türkiyədə ictimai-siyasi prosesin iki doktrinası haqqında" adlı məqalə hazırlamış, fəl.ü.f.d. A.Məmmədov "Kəlam predmeti kimi peyğəmbərlik məsələsinin fəlsəfi və sufi həlli: İbn Sina və Rumi" adlı məruzə ilə Bakıda Mövlanə Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda iştirak etmişdir.

2007-ci ildə şöbənin elmi işçisi C.V.Xıdırov Şakir Zabitin "İraq türkmənlərinin qısa tarixi" və Ə.Bəndəroğlunun "İraqda türkmənlər" adlı kitablarını tərcümə etmişdir.

Şöbəyə 2008-cı ildən etibarən fəl.ü.f.d. E.Həsənova başçılıq edir. 2008-ci ildə şöbə Yaxın və Orta Şərq ölkələrində fəlsəfə, ictimai fikir, din tarixi, o cümlədən Azərbaycanda islam mövzularını tədqiqat obyekti seçmişdir. Yaxın və Orta Şərq ölkələrində din və ictimai fikir, müasir islam dünyasında Azərbaycanın yeri və rolu, islam alimlərinin Azərbaycanın ictimai-siyasi inkişafına təsirini, şərq ölkələrində və Azərbaycanda dövlət-cəmiyyət-din münasibətlərini müqayisəli təhlil əsasında öyrənən şöbə əməkdaşları "Yaxın Şərq ölkələrində və Azərbaycanda qeyri-ənənəvi dinlərin və yeni dini hərəkatların tarixi-fəlsəfi təhlili" (L.Məlikova), "Müasir Misirdə və Azərbaycanda islam və modernləşmə problemi (müqayisəli təhlil)" (G.H.Əhmədzadə), "Müasir islamda Şərq-Qərb mədəniyyətlərinin sintezi və Azərbaycan təcrübəsi" (R.Ə.Mürsəlov), "Müasir Qərb alimlərinin tədqiqatlarında İbn Ərəbinin dini-fəlsəfi irsi (1960-cı ildən günümüzə qədər)" (Q.B.Səfərov), "Müasir Türkiyədə islamın durumu" (E.Y.Həsənova), "İranda İslam inqilabından sonra mədəni inqilab konsepsiyası" (B.S.Bağırov), "Müasir ərəb ölkələrində islam: əsas meyllər" (R.Ə.Mürsəlov), "Fələstin-İsrail qarşıdurmasında din amili" (G.H.Əhmədzadə), "İslam" ensiklopedik lüğətinin hazırlanması" (Ə.Abbasov), "Ərəb




liderlərinin siyasi görüşləri (XX əsr)" (C.V.Xıdırov), "Nasir Xosrov və ismaililik" (L.F.Məlikova), "Vəhdət-ul-vücud" və panteizm" (Q.B.Səfərov) kimi mövzuları araşdırmışlar. 2008-ci ildə R.Ə.Mürsəlovun "İslam və müasir dövrün qlobal hadisələri" adlı kitabı nəşr olunmuşdur. Həmin ilin may ayında şöbənin aspirantı E.R.Rəhimov İran İslam Respublikasının Tehran şəhərində "Məzhəblərarası yaxınlaşma" beynəlxalq elmi konfransında "Məzhəblərarası yaxınlaşma zamanın tələbi kimi" mövzusu ilə, şöbənin əməkdaşı L.F.Məlikova isə "XIX əsrin sonu XX əsrin əvvəllərində din amilinin Azərbaycanda qadınların vəziyyətinə təsiri" mövzusu ilə "Qadınlar və ictimai sahə" beynəlxalq elmi konfransında (Bakı, iyun, 2008) və "Bəhailiyin bəzi mənəvi-etik aspektləri" mövzusu ilə "İslam bölgəsi fəlsəfəsinin qlobal fəlsəfə kontekstində tədqiq və tədris problemləri" elmi konfransında (Bakı, oktyabr, 2008) iştirak etmişlər. Həmin il şöbə əməkdaşları tərəfindən qələmə alınmış "Erkən islam dövründə vəhy-ağıl münasibətlərinə dair", "Kindi və Farabinin timsalında Şərq peripatetizmində din-fəlsəfə münasibətləri", "Xristianlıqda din-fəlsəfə münasibətləri" (E.Məmmədov), "Əhl-i Sünnə və Şiə mənbələrinə görə Quranın nazil olması, yazılması və kitablaşdırılması", "Quranın yeddi hərf üzərinə nazil olması və qiraətlər məsələsi", "İlk dövr İmamiyyə Şiəsi müfəssirlərinə görə Qurandakı mübhəmlər" (A.Həbibov) kimi mövzuları əhatə edən elmi məqalələr ölkə mətbuatında dərc edilmişdir.

2009-cu ildə şöbə əməkdaşları "Müasir Türkiyənin mütərəqqi ilahiyyatçılarının həqiqi islam uğrunda mübarizəsi və dini irticanın tənqidi" (E.Y.Həsənova), "Türkiyədə dini təhsil və ilahiyyat mərkəzləri" (A.Həbibov), "İslam mədəniyyəti və ümumbəşəri sivilizasiyanın təşəkkülündə onun rolu" (R.Ə.Mürsəlov), "İslam dininin Misir mədəni irsinə təsiri (1980-2007)" (G.H.Əhmədzadə), "Dini təlimlər




və onların fəlsəfi aspektləri" (B.S.Bağırov) mövzularını araşdırmışlar. Həmin ildə fəl.ü.f.d. L.Məlikova "Dünyada gedən sosial-mədəni proseslər və müasir Azərbaycanda ictimai-dini durum" mövzusu ilə "Dünyada yeni inkişaf meylləri və türk dünyası" beynəlxalq elmi simpoziumda (Bakı, 2009) iştirak etmişdir.

"Din-fəlsəfə münasibətlərinin nəzəri aspektlərinə dair", "İşraqilik fəlsəfəsində metodologiya problemi" (E.Məmmədov), "İmam Həsan əl-Əskəri (a) və onun "Təfsir" əsəri" (A.Həbibov) kimi məqalələr 2009-cu ildə şöbə əməkdaşlarının elmi ictimaiyyətə təqdim etdiyi töhfələrin bir hissəsidir.

2010-cu ildə "Yaxın Şərq ölkələrində və Azərbaycanda qeyri-ənənəvi dinlərin və yeni dini hərəkatların tarixi-fəlsəfi təhlili" (L.F.Məlikova), "Müasir islam və modernləşmə problemi" (G.H.Əhmədzadə), "Müasir islamda Şərq-Qərb mədəniyyətlərinin sintezi və Azərbaycan təcrübəsi" (R.Ə.Mürsəlov), "Müasir Qərb alimlərinin tədqiqatlarında İbn Ərəbinin dini-fəlsəfi irsi" (Q.B.Səfərov) kimi elmi tədqiqat mövzuları şöbə əməkdaşları tərəfindən öyrənilmişdir. Həmin il şöbənin əməkdaşı fəl.ü.f.d. R.Ə.Mürsəlovun "Müasir islamdaxili proseslər (Misir müəlliflərinin fikirləri əsasında)" (Bakı, "Bakı Çap Evi" Nəşriyyatı, 2010) adlı kitabı işıq üzü görmüşdür. 2010-cu ildə şöbə əməkdaşlarından A.Həbibovun "İmamiyyə şiəsinin təfsir tarixi və günümüzə qədər gəlib çatmış ən qədim şiə təfsirləri" (Çukurova Universiteti İlahiyyat fakültəsinin jurnalı, Türkiyə, Adana, 2010) və "İlk dövr şiə təfsirinin qaynaqları" (19 May Universiteti İlahiyyat fakültəsinin dərgisi, № 28, Türkiyə, Samsun, 2010), "İmamiyyə alimlərinə görə Qurani-Kərimdəki müqəttə hərfləri"(BDU-nun İlahiyyat fakültəsinin elmi məcmuəsi, № 3, 2010) R.Mürsəlovun "İslamda ölüm və vəsiyyət" ("Azərbaycan şərqşünaslığı" jurnalı" № 2, 2010), E.Məmmədovun "Müasir dövr müsəlman qadınının sosial-

mədəni maarifləndirmə işindəki rolu" ("Dövlət və din" toplusu, iyun, 2010), "Qurani-Kərimdə "ağıl" məfhumuna dair mülahizələr və qeydlər" ("Dövlət və din" toplusu, 2010), "Qurani-Kərimin təfsiri və təfsir növləri" ("Dövlət və din" toplusu, 2010) kimi mövzulara həsr edilmiş məqalələri çap olunmuşdur.

Şöbədə ruh yüksəkliyi yaradan amillərdən biri də, 2010-cu ildə şöbə müdiri, fəl.ü.f.d. E.Y.Həsənovanın elmi fəaliyyətində fərqləndiyinə görə AMEA-nın prezidenti tərəfindən fəxri diplomla təltif edilməsi olmuşdur.

Bu ildə E.Rəhimov "Müasir İslamda məzhəblərarası yaxınlaşma konsepsiyaları" (28 aprel, 2010) və E.Məmmədov "Orta əsr İslam düşüncəsində din-fəlsəfə münasibətləri" (15 oktyabr, 2010) mövzularında fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyalarını müdafiə etmişlər.

2011-ci ildə şöbə əməkdaşlarının təqdim etdiyi məqalələr sırasında "Qədim yunan ictimai fikrində və xristianlıq təlimində fəlsəfə və din" (E.Məmmədov), "Türkiyədə Şiəlik" (A.Həbibov) kimi mövzuları əhatə edən maraqlı məqalələri qeyd etmək olar.

L.Məlikovanın rus dilində nəşr olunan "Bəhailiyin qaynaqları və dünyagörüşünün əsas aspektləri" adlı kitabının işıq üzü görməsi din və ictimai fikir tarixi şöbəsinin elmi bazasının zənginləşməsinə səbəb olmuşdur.

Haqqında danışılan ildə şöbənin dissertantı Q.Səfərov fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "İbn Ərəbinin dini-fəlsəfi görüşləri" adlı dissertasiyasını müdafiə etmişdir (06.07.2011).

Şöbənin böyük elmi işçisi L.Məlikova Zveniqorodda 3-5 oktyabr 2012-tarixlərində Rusiya Elmlər Akademiyasının (REA) Gənc Alimlər Şurası, REA-nın tarix-filologiya bölməsi, REA-nın Şərqşünaslıq İnstitutu, AR-nın Prezidenti yanında SAM-ın birgə təşkilatçılığı ilə keçirilən Rusiya və MDB ölkələri Gənc şərqşünaslarının I Qurultayında iştirak etmiş və "Şərqin neouniversalist dini konsepsiyalarının Qərb qlobalizmi ideologiyası ilə qarşılıqlı əlaqəsi (bəhailiyin nümunəsində)" adlı məruzəsini təqdim etmişdir. Həmin ildə şöbənin aparıcı elmi işçisi, fəl.ü.f.d. R.Ə.Mürsəlovun "Mədinəyə hicrət və erkən

müsəlman icmasının ideoloji və inzibati əsaslarının qoyulması" adlı kitabı işıq üzü görmüşdür. 2012-ci ilin araşdırmaları arasında öz aktuallığı ilə seçilən tədqiqatlardan biri də, şöbənin böyük elmi işçisi, fəl.ü.f.d. İ.Ə.Əlimuradovun araşdırdığı "İslamda "xaricilik" dini-ideoloji cərəyan kimi (Yaranması, inkişafı və müasir forması)" mövzusudur. Tədqiqat əsnasında dini, siyasi və eyni zamanda ideoloji cərəyan olan "Xaricilik" ətraflı şəkildə araşdırılır. Xariciliyin yaranmasına zəmin yaradan səbəblər, bu cərəyanın yarandığı və inkişaf etdiyi ərazilər, ilk xaricilər nəsli və onların ardıcılları, xaricilik ideologiyasının əsasları, İslamın məlum prinsiplərinin xaricilər tərəfindən fərqli şəkildə izah edilib qəbul edilməsi və onlarla həmfikir olmayanlara qarşı kəskin sərt mövqedən çıxış etmələri və s. kimi məlumatlar haqqında danışılan tədqiqat işində öz əksini tapır.

2012-ci ildə şöbə müdiri, fəl.ü.f.d. E.Y.Həsənova ən yaxşı vətənpərvər tədqiqatçı kimi "Azərbaycan Respublikası Avropa Nəşr Mətbu Evi"nin qızıl medal, Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqının Rəyasət Heyətinin 04.10.2012-ci il tarixli qərarı ilə "Azərbaycan bayrağı", "Qızıl qələm" mükafatları və "Xalqın nüfuzlu ziyalısı" fəxri diplomu ilə təltif olunmuşdur.

2012-ci ildə "Müsəlman əxlaqı", "Dini-mədəni islam fikri: tənqidi mülahizələr" və "Şəriətin məqsədləri" adlı kitabların şöbənin böyük elmi işçisi, fəl.ü.f.d. E.Məmmədov tərəfindən ərəb dilindən ana dilimizə tərcümə edilməsi oxucuların böyük marağına səbəb olmuşdur.

2013-cü ildə A.Həbibov Türkiyə Cümhuriyyəti Ankara şəhərində nəşr olunan "Şii Tefsir Geleneği", Tefsire Akademik Yaklaşımlar, (Editör: Prof. Dr. Mehmet Akif - Prof. Dr. İsmail Çalışkan, OTTO Yayınları) toplusunun hazırlanmasında iştirak etməklə ölkə xaricində çap olunan kitaba həmmüəllif olmuşdur.

Bu ildə haqqında danışılan şöbənin ən önəmli nailiyyətlərindən biri də t.ü.f.d. Ə.Abbasovun əməyinin məhsulu olan "İslam. Ensiklopedik lüğət"inin nəşr edilməsi olmuşdur. İslam ensiklopedik lüğəti islamın yaranma və yayılma tarixini, Quranın leksikası və hekayə-

lərini, müsəlman icmaları tarixini, müsəlman ilahiyyatı və fəlsəfəsini, müsəlman dövlətçiliyinin nəzəri və praktiki məsələlərini, orta əsr müsəlman cəmiyyətindəki sosial-siyasi və iqtisadi münasibətləri, sufi təlimlərini, müsəlman hüququnun nəzəri və tətbiqi məsələlərini, islamın və islam fəlsəfəsinin görkəmli şəxsiyyətləri, habelə ölkəmizin bu dinlə bağlılığı, Azərbaycanın şeyxülislamları, müftiləri, axundları və bəzi başqa din xadimləri haqqında məlumatları ehtiva edir.




2013-cü ildə Məhəmməd Ömər Şabranın "İnkişafın islam modeli" ("məqasid" konsepsiyası əsasında), Taha Cabir əl-Ülvaninin "İslam tarixində çoxfikirlilik ədəb-ərkanı", Xalid Məhəmməd Xalidin "Və Əbubəkr gəldi" kitablarının fəl.ü.f.d. E.Məmmədov tərəfindən ərəb dilindən Azərbaycan dilinə müvəffəqiyyətlə tərcümə edilməsi şöbənin elmi məhsuldarlığını daha da artırmışdır. E.Məmmədovun Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində çap olunan "Quran ayələrinin mövzular üzrə təsnifatı – Fehrist" (3 cilddə) kitabı da müəllifin özü ilə yanaşı şöbəsinin də uğurudur.

2014-cü il, 3-4 mart tarixlərində L.Məlikova Azərbaycan Avropa Cəmiyyətinin (The European Azerbaijan Society /TEAS/) təşkilatçılığı ilə Londonda keçirilən "Qafqazda dinlər" mövzusunda Beynəlxalq elmi konfransda iştirak etmiş və "Azərbaycanda İslam" adlı məruzə ilə çıxış etmişdir.

Elmi fəaliyyəti ilə yanaşı, tərcüməçilik fəaliyyəti ilə də məşğul olan şöbənin əməkdaşı, fəl.ü.f.d. E.Məmmədov hal-hazırkı tarixə qədər dini-fəlsəfi mövzulardan bəhs edən otuz kitabı ərəb dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Onun 2014-cü ildə tamamladığı sonuncu tərcümə işi "Əbdülhəmid əbu Süleymanın "İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları" adlanır. Beynəlxalq münasibətlər probleminə islamın baxışını əks etdirən bu kitab islam siyasi fikri ilə maraqlanan hər bir mütəxəssis üçün faydalı mənbədir.

2015-ci ildə AMEA Ümumi yığıncağının 29 aprel 1/1 nömrəli qərarının icrası ilə əlaqədar İnstitutun aparıcı e.i., f.ü.f.d. Elvüsal Məmmədov və aparıcı e.i., i.ü.f.d. A.Həbibov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dinşünaslıq şurasının üzvü olaraq, İsmayıllı, Şamaxı, Oğuz, Zaqatala, Siyəzən və Cəlilabad şəhərlərində tolerantlıq, mötədillik, dini dözümlülük haqqında məruzələrlə çıxış etmişlər. Həmçinin şöbənin aparıcı elmi işçisi fəl.üf.d. Aslan Həbibov cari ilin avqust ayında Lənkəran, Astara və Lerik rayonlarında təşkil olunan 7 tədbirdə iştirak etmiş, "Narkomaniyaya qarşı mübarizə", "Erkən nigah və onun fəsadları", "Cəmiyyətdə vəhdətin qorunmasında din xadimlərinin rolu", "Dini radikalizm və onunla mübarizə yolları", "Vəhdət uğruna məzhəblərarası dialoq" kimi mövzularda məruzələrlə çıxış etmişdir.

2016-cı ildə fəl.ü.f.d. İlkin Əlimuradovun "IX-X əsrlər azərbaycanlı hədisşünas alim Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli)" adlı monoqrafiyası (Bakı, 2016) işıq üzü görmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı 10 yanvar 2017-ci il tarixli Sərəncamının icrası ilə



əlaqədar AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycanda "İslam Həmrəyliyi"nə həsr edilmiş "Birlik və İnkişaf naminə sülhməramlı missiya" mövzusunda elmi konfrans keçirilmiş və "Din və ictimai fikir tarixi" şöbəsinin əməkdaşları (İ.Əlimuradov, A.Həbibov, E.Məmmədov, L.Məlikova) "Qloballaşma dövründə Yaxın və Orta Şərq ölkələrində dinə münasibət, dinin rolu və ictimai fikir məsələləri" mövzusu ətrafında plan işi olaraq nəzərdə tutulmuş "İslam həmrəyliyi və Azərbaycan: reallıqlar və perspektivlər" mövzusunda müştərək elmi tədqiqat işi üzərində çalışmış və yekunlaşdırmışlar. Tədqiqat işinin əsas məqsədi müasir dövrdə aktuallıq və mühümlük kəsb edən islam həmrəyliyi problemini Azərbaycan nümunəsi əsasında tədqiq etməkdir. Tədqiqatda, hər şeydən əvvəl, islam həmrəyliyinin tarixi kökləri və bu istiqamətdə atılmış "pioner" addımlar öyrənilmişdir. Növbəti addım kimi, bu anlayışın dini-ideoloji əsasları tədqiqata cəlb edilmiş, indiki dövrdə hansı hüquqi-siyasi qurumlarda öz əksini tapmağı məsələsi araşdırılmışdır. Bundan sonra islam həmrəyliyinin Azərbaycan nümunəsinə, Azərbaycan respublikasında bu istiqamətdə atılmış addımlara diqqət yetirilmişdir. Nəhayət, sözügedən anlayış yeni dünya sistemi və müasirliyin çağırışları kontekstində araşdırılmış, mövcud təsəvvürlər müxtəlif yanaşmalar prizmasından nəzərdən keçirilmişdir.

2018-ci il şöbə üçün məhsuldar il olmuş, əməkdaşların yerli və xarici elmi konfranslarda bir sıra aktual məsələləri əhatə edən maraqlı məruzələri, çıxışları olmuşdur.

# ŞƏRQ-QƏRB ŞÖBƏSİ

2001-ci ildən etibarən fəaliyyət göstərən şöbənin əsas tədqiqat istiqamətini Şərq-Qərb münasibətlərinin hərtərəfli şəkildə araşdırılması və müqayisəli təhlili təşkil edir.

2001-2011-ci illər ərzində fəlsəfə üzrə fəlsəfə doktoru Anar Əzimov şöbənin ilk müdiri olmuşdur. Sonrakı illərdə şöbəyə dünya iqtisadiyyatı, Türkiyə və Azərbaycan iqtisadiyyatı üzrə tanınmış mütəxəssis, i.ü.e.d. Dünyamalı Vəliyev rəhbərlik edib. 2016-cı ildən şöbəyə i.ü.f.d., dosent Məmmədəli Babaşlı rəhbərlik edir. O, müasir dövrdə islam əxlaqı, qloballaşma, multikulturalizm və Şərq-Qərb münasibətləri kontekstində ünsiyyət mədəniyyəti məsələlərini araşdırır.

Şöbə təşkil olunarkən onun qarşısında Şərq ölkələrinin yeni dövr tarixi inkişafını, sosial, siyasi, iqtisadi, mədəni problemlərini Qərb ölkələri ilə müqayisəli şəkildə araşdırmaq vəzifəsi qoyulmuşdu. Əsas diqqət müasir dövrün ən aktual məsələlərindən olan elmi-fəlsəfi, sosial, həmçinin kulturoloji məsələlərin, şərq və qərb dəyərlər sisteminin qarşılıqlı təsirinin tədqiqinə yönəldilmişdir. Qloballaşma və sivilizasiyalararası dialoq, multikulturalizm, Şərq-Qərb münasibət-



lərinin müasir problemləri haqqında mövzulara xüsusi yer verilir.




İnstitutun ənənəvi istiqamətlərini nəzərə alaraq, həmin tədqiqat problematikası, əsasən Türkiyə, İran və ərəb ölkələrinin timsalında araşdırılır.

Şərq-Qərb çox geniş bir məfhum olduğuna görə həmin araşdırmaları şöbədə çalışan, müxtəlif elmləri və elmi istiqamətləri təmsil edən mütəxəssislər aparırlar.

Şöbə çərçivəsində aparılan araşdırmaların ümumi prinsipi Şərqin və Qərbin bir-birinə tarixən qarşılıqlı təsiri və bu təsirin həm pozitiv, həm də neqativ cəhətlərini araşdırmaqdır. Şöbə tərəfindən hazırlanan tədqiqatların məqsədi Qərb və Şərq mədəniyyətlərini dünya mədəniyyətinin iki müxtəlif və vacib hissələri kimi bir vəhdət şəkilində göstərməkdir. Məlum olduğu kimi, şərq və qərb dəyərlər sistemləri özünəməxsus xüsusiyyətlərlə yanaşı, bir sıra oxşar və fərqli cəhətlərə də malikdir. Bu cəhətlər də ilk növbədə elmi-fəlsəfi dünyagörüşü, etik düşüncə tərzi, sosial və hüquqi normalar, ailə münasibətləri və s. bu kimi elementlərin sintezinin təzahüründə özünü göstərir. Qloballaşan dünyada etnik və dini zəmində baş verən qanlı müharibələr, terrorizm, ekoloji problemlər, yoxsulluq kimi qlobal səciyyə daşıyan problemlər yenidən dəyərləndirmə tələb etdiyindən Şərq-Qərb əməkdaşlığını zəruri edir.

Şöbənin əsas fəaliyyət istiqamətləri bunlardır:

- Şərq və Qərb sivilizasiyalarının ayrı-ayrı cəhətlərinin müqayisəli və çoxtərəfli təhlili;
- Şərq-Qərb sivilizasiyalararası münasibətləri və Azərbaycan;
- Qərb mədəniyyətinin Şərq ölkələri tərəfindən sintez edilərək qavranılmasının, Şərq və Qərb ölkələri arasında münasibətlərin tarixi gedişi və təcrübəsinin təhlili;
- Qərb dəyərlərinin, qloballaşmanın Şərqdə gedən siyasi, iqtisadi, mədəni və sosial proseslərə təsirinin araşdırılması;

- Şərqin zəngin irsinin Qərb ölkələrində gedən mədəni, iqtisadi, sosial və siyasi proseslərə təsirinin təhlili;
- Beynəlxalq əlaqələrin Şərq-Qərb arasındakı qarşılıqlı münasibətlər prizmasından tədqiqi;
- Müasir dövrdə Şərqdə gedən proseslərin Şərq-Qərb münasibətləri prizmasından tədqiqi.

Keçən müddət ərzində şöbədə Şərq və Qərbin fikri, mədəni, ədəbi və s. istiqamətlərinin müxtəlif aspektlərini əhatə edən "Müasir Azərbaycan şüurunda Şərq-Qərb paradiqmasının qavranması", "İşraqilik və XX əsr Qərb fəlsəfəsinin inkişafı", "Dinlərarası münasibətlər və kütləvi informasiya vasitələri", "Şərq-Qərb" paradiqması və gender problemləri", "Müsəlman Şərqində siyasi proseslər və Qərb", "Müasir psixologiya və orta əsrlərin ənənəvi mənəvi praktikası" (f.ü.f.d. A.Əzimov), "Qloballaşma: yaranması, mahiyyəti və nəticələri. Qloballaşma və Şərq dövlətlərinin mənafeləri", "Qloballaşma və inkişaf: Şərq-Qərb münasibətləri prizmasından", "Qloballaşma prosesləri və Şərq mövzusu çərçivəsində "Qlobal maliyyə böhranının Şərq ölkələrinə təsiri" (i.ü.e.d. D.Vəliyev), "Qloballaşma problemlərinin həllində Şərq-Qərb əməkdaşlığı: zərurət və perspektivlər", "Vahid dünya konsepsiyası kontekstində mədəniyyətlərarası dialoqun yeri və əhəmiyyəti", "Beynəlxalq terrorizm və onunla mübarizədə Şərq və Qərb əməkdaşlığının əhəmiyyəti", "Multikulturalizm və Şərq-Qərb etik normaları prizmasından ünsiyyət mədəniyyəti" (i.ü.f.d.M.Babaşlı), "Şərq-Qərb münasibətləri kontekstində Suriyada etnik və dini proseslərin inkişafı" (f.ü.f.d. M.Həmidov), "Mədəniyyətlərarası dialoq prosesində maddi-mədəni irsin qorunması və təbliği", "Qloballaşan dünyada dinlərarası dialoqun mahiyyəti və perspektivləri" (f.ü.f.d.C.Ağayev), "Aida İmanquliyeva Şərq-Qərb ədəbi əlaqələrinin tədqiqatçısı kimi", "Aida İmanquliyevanın "Qələmlər birliyi və Mixail Nuaymə" əsərində Mixail Nuaymə yaradıcılığının səciyyəvi xüsusiyyətləri", "Aida İmanquliyevanın yeni ərəb ədəbiyyatı korifeyləri haqqında tədqiqatları" (f.ü.f.d. X.Əliyeva), "Nizar Qəbbani yaradıcılığında Əndəlüs motivləri", "Ərəb Şərqinin siyasi həyatı Nizar Qəbbani yaradıcılığında", "Müasir ərəb poeziyasına Qərb ədəbiyyatının təsiri

və sərbəst şeir hərəkatı" (f.ü.f.d. K.Şərifov), "XXI əsrin əvvəllərində Amerika-Səudiyyə Ərəbistanı əlaqələri", "Yaxın Şərq probleminin tənzimlənməsi məsələsində Misirin rolu", "XXI əsrin əvvəllərində Əlcəzairin ictimai-siyasi həyatında islam amili", "Tunisdə islam və modernləşmə prosesləri", "Ərəb baharı" və Şimali Afrika ölkələri", "Şərq-Qərb münasibətləri kontekstində Misirdə siyasi islamın yaranması və inkişafı", C.Ə.Nasir və Ə.Sadat dövründə Misirin hərbi əməkdaşlıq məsələləri" (S.İbrahimova), "ABŞ-ın müsəlman ölkələrinə qarşı siyasətinin perspektivləri və Azərbaycanın xarici siyasəti", "Orta əsr Avropasının dini şüurunda islamın təzahürü", "Vatikanın beynəlxalq siyasəti və Avropada islam", "Fransada islam (II Dünya müharibəsindən sonra)" "ABŞ-da islam", "Britaniyada islam", "Avropa İttifaqı və müsəlman Şərqi ölkələrində mühacirət problemləri", "Müsəlmanların Qərb ölkələrinə miqrasiya və inteqrasiya problemləri" (N. Əlizadə), "Tənzimat dövrü türk nəsrinin formalaşmasına qərb ədəbiyyatının təsiri" (Ü.Səmədova), "Türkiyə-Avropa Birliyi gömrük münasibətləri", "Türkiyə Avropa Birliyi arasında iqtisadi münasibətlərə aid elmi ədəbiyyat sənədlərinin biblioqrafyası", "Gömrük Birliyinin Türkiyə iqtisadiyyatına statik və dinamik təsiri" (E.Səmədov), "Müasir Misir cəmiyyətində modernləşmə meyllərinin tarixi kökləri" (N.Hüseynova) mövzularında araşdırmalar aparılmış və əldə olunmuş nəticələr elmi dövriyyəyə buraxılmışdır.

Şöbədə yerinə yetirilən tədqiqatlar arasında Şərq-Qərb paradiqmasının ən universal modelin müəyyənləşdirməsi baxımından "İşraqilik və XX əsrin qərb fəlsəfəsinin inkişafı", həmçinin ərəb və türk dünyaları arasında tarixi münasibətlərin indiki vəziyyəti və bu münasibətlərdə Qərbin rolunun araşdırılması baxımından "Ərəb ölkələrində ictimai rəy və Xəzər ətrafı beynəlxalq əlaqələr" mövzuları Azərbaycan elmi üçün əhəmiyyət kəsb edir. Həmçinin Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri probleminin öyrənilməsi çərçivəsində "Qloballaşma problemlərinin həllində Şərq-Qərb əməkdaşlığı: zərurət və perspektivlər" və "Mutikulturalizm və Şərq-Qərb etik normaları prizmasından ünsiyyət mədəniyyəti" mövzularının əhəmiyyəti qeyd olunmalıdır.

Şöbə əməkdaşlarının elmi və elmi-pedaqoji fəaliyyətinin əsas nəticələri aşağıdakı nəşrlərdə əksini tapmışdır: A. Əzimov. "İşraqiyyə və müasir qərb fəlsəfəsinin genezisi" (2003), D.Vəliyev. "Beynəlxalq iqtisadiyyat" (Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2000, 328 səh., M.Rəhimovla birgə), D.Vəliyev. "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında (məqalələr toplusu)" (Bakı, 2015, 504 səh), M.Babaşlının elmi redaktoru, ön sözün müəllifi, şərhlərin və sözlüyün tərtibçisi olduğu İmam Nəvəvinin "Riyazus-Salehin" əsəri (Bakı, 2011, 575 səh.), həmçinin həmmüəllifi olduğu "Ərəbcə-Azərbaycanca lüğət: siyasi, hərbi terminlər lüğəti və beynəlxalq təşkilat adları" (Bakı, 2012, 280 səh), "ət-Tariq iləl-Arabiyyə (qeyri-ərəblərə ərəb dilinin tədrisi)" adlı dərs vəsaiti I hissə ( Bakı, 2016, 132 səh.), "ət-Tariq iləl-Arabiyyə (qeyri-ərəblərə ərəb dilinin tədrisi)" adlı dərs vəsaiti II hissə (Bakı, 2017, 146 səh.), Mahir Həmidovun "Mixail Nueymənin poetikası və şeirləri", (türkcə, Ankara, 2017, 254 səh.) kitabları işıq üzü görmüşdür.

Eyni zamanda şöbə əməkdaşlarından M.Babaşlı tərəfindən tərcümə edilmiş Əbu Hamid əl-Qəzalinin "Qəlblərin kəşfi" adlı əsəri (Bakı, 2011, 600 səh.), M. Həmidovun tərcümə etdiyi Mixail Nuaymənin "Kipriklərin pıçıltısı" (Bakı, 2014, 236 səh.), Mərakeş Krallığının Azərbaycandakı səfiri, yazıçı Həsən Haminin "Xəzərin nəğmələri (şeirlər toplusu)" (Bakı, 2016, 152 səh.) kitabları nəşr olunmuşdur.

Həmçinin institut səviyyəsində keçirilən elmi konfranslarda yaxından iştirak edən M. Babaşlı Türkiyə Respublikasının elan olunmasının 90 illiyi münasibəti ilə 28 oktyabr 2013-cü il tarixində "Türkiyə Respublikası-90" mövzusunda keçirilmiş beynəlxalq konfransın materiallarını tərtib etmiş və nəşrə hazırlamışdır.

Şöbə əməkdaşlarının elmi tədqiqatlarının ardıcıllığının təmin edilməsi və kadr potensialının gücləndirilməsi məsələsi də qarşıda duran vəzifələr arasındadır. Bununla əlaqədar aşağıdakıları qeyd etmək olar:

Şöbənin əməkdaşı Kamil Şərifov 5718.01 Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı) ixtisası üzrə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Müasir Suriya poeziyası və Nizar Qəbbani"

mövzusunda dissertasiya işini uğurla müdafiə etmiş və təsdiqini almışdır. Həmçinin şöbənin elmi işçisi Xuraman Əliyeva “Aida İmanquliyeva Şərq-Qərb ədəbi əlaqələrinin tədqiqatçısı kimi” (ərəb məhcər ədəbiyyatı əsasında) adlı dissertasiya işini uğurla müdafiə edərək təsdiqini almışdır.

Şöbənin əməkdaşı Əminə Əliyevanın “Xəlvətiyyə: İdeya mənbələri və müasir inkişaf meylləri (Əlcəzair nümunəsində)” mövzusunda fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işi müzakirə edilərək növbəti mərhələyə buraxılmışdır. Şöbənin elmi işçisi Ülkər Səmədova “Tənzimat dövrü türk nəsrinin formalaşmasına qərb ədəbiyyatının təsiri” mövzusunda dissertasiya işini yekunlaşdıraraq ilkin müzakirəyə təqdim etmişdir .

Şöbənin dissertantlarından Elvin Talışınski “Müasir informasiya mübarizəsində Azərbaycanın yeri və rolu” mövzusunda yerinə yetirdiyi dissertasiya işini uğurla müdafiə edərək siyasət üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

Şöbənin dissertantlarından Faranak Bavardeh Mohammad Zadeh “İbn Xəlduna görə sivilizasiyanın inkişafı və tənəzzülü” mövzusunda sosial fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi, Leyla Tağızadə “Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi istiqamətləri (aqrar sənaye timsalında)” mövzusunda iqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işini bitirərək uğurla müdafiə etmişdirlər.

Həmçinin dissertant Gülsən Soltanovanın “Müsəlman şərqində qloballaşma problemləri (metodoloji aspektdə)”, Əfqan Musayevin iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi “Şərq ölkələrinin beynəlxalq maliyyə mərkəzləri”, Mahmud Nurullah oğlu Əsədi “Məhəmməd Hüseyn Təbətəbi və Con Dyuinin pedaqogika sahəsində fəlsəfi fikirlərinin müqayisəli təhlili” mövzusunda dissertasiya işləri müzakirə edilərək müdafiəyə buraxılmışdır.

İ.ü.f.d. M.Babaşlı “Dinin tarixi və fəlsəfəsi” ixtisası üzrə “Şərq və qərb etik fikrində islam əxlaqı məsələləri (ən yeni dövr)” mövzusunda fəlsəfə üzrə elmlər doktorluğu, f.ü.f.d. M.Həmidov “Ərəb mühacirət poeziyasında ənənə və müasirlik” filologiya üzrə elmlər

doktorluğu, C.Ağayev "Müasir dövrə dinlərarası dialoq: Azərbaycan təcrübəsi" mövzusunda fəlsəfə üzrə elmlər doktorluğu üçün dissertasiya işləri üzərində çalışırlar.

Şöbənin əməkdaşlarından Eynulla Səmədov "Türkiyə-Avropa Birliyi Gömrük Birliyi", Nərgiz Hüseynova "II Körfəz müharibəsi: Yaxın Şərqdə böyük dövlətlərin maraqlarının toqquşması və ərəb dünyası" mövzularında dissertasiya işi üzərində tədqiqatlarını davam etdirirlər.

Ümumiyyətlə, hal-hazırda şöbədə Şərq və Qərb münasibətlərinin aktual problemləri üzrə elmi-tədqiqat işləri üzərində tədqiqat aparan 10 doktorant və dissertant fəaliyyətdədir. Dissertantlar üçün müəyyən edilmiş mövzular şöbənin istiqamətinə uyğun olaraq seçilir və məsələnin Şərq-Qərb kontekstində öyrənilməsinə xüsusi diqqət yetirilir. İslamda və xristianlıqda qadının hüquq və vəzifələri, insan sevgisi, dünya anlayışı kimi aktual məsələlər müqayisəli şəkildə elmi tədqiqata cəlb edilir.

7213.01 – "Dinin tarixi və fəlsəfəsi" ixtisası üzrə 4 nəfər dissertantın fəlsəfə doktorluğu dissertasiya işinə elmi rəhbərlik edən M.Babaşlı dəfələrlə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda yaradılmış İxtisaslaşdırılmış Dissertasiya Şurasında üzv qismində iştirak etmişdir. Bir çox dissertasiya işinin müdafiəsində rəsmi opponent olmuşdur.

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi Araşdırmaları" elmi-nəzəri məqalələr toplusunun, Türkiyədə nəşr olunan Akademik Tarih ve Düşünce Dergisinin, "Kalem Uluslararası Eğitim ve İnsan Bilimleri Dergisi" ISSN: 2146-5606 redaksiya heyətinin üzvüdür. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən göndərilən layihələrə ekspert rəyi verir.

Gənc alimlərin yetişməsində yaxından iştirak edən M.Babaşlı 2010-2016-cı illərdə "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin sədri vəzifəsini yerinə yetirmişdir. Bu müddət ərzində gənc tədqiqatçıların maarifləndirilməsi istiqamətində elmi-tədqiqat metodları, elmi nəşrlərin tərtibi və beynəlxalq indeksli jurnallarda nəşri, rəqəmsal kitabxanaların axtarış imkanları, elektron resurslar və

rəqəmsal kitabxanalardan səmərəli istifadə imkanları, elm adamlarının məsuliyyəti, elmi araşdırmalarda əxlaq amili ilə bağlı silsilə təlimlər, aktual mövzularda elmi seminarlar təşkil olunmuşdur. Həmçinin uydurma erməni soyqırımının 100 illiyi ilə əlaqədar ermənilərin yalanlarının əsassız olması və gənc alimlərin Azərbaycan həqiqətlərinin təbliğatçısına çevrilməsi üçün silsilə tədbirlər həyata keçirilmişdir. İlk addım olaraq 2012-ci ildə Xocalı faciəsinin ildönümü ilə əlaqədar Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağın işğalı ilə bağlı həqiqətləri Türkiyənin elmi ictimaiyyətinə çatdırmaq məqsədilə "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin və Türkiyənin Fırat Universitetinin "Orta Doğu Araştırmaları Merkezi"nin ortaq nəşri olan "Qarabağ xüsusi buraxılışı" adlı məqalələr toplusu nəşr olunmuş və Türkiyədə yayılmışdır.

Daha sonra Azərbaycan Universiteti və "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin həmtəşkilatçılığı ilə "Azərbaycanlıların soyqırımı arxiv sənədlərində" mövzusunda I Beynəlxalq Elmi Konfrans (30 mart 2013-cü il), Azərbaycan Yazıçılar Birliyi, Türkiyə Yazarlar Birliyi və "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Müasir Azərbaycan və Türkiyə ədəbiyyatında "erməni məsələsi" mövzusunda Beynəlxalq Elmi Konfrans (24-25 aprel 2014-cü il), Azərbaycan Universiteti, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu, "Səs" qəzeti və "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin həmtəşkilatçılığı ilə "Uydurma erməni soyqırımı: yalanlar, iftiralar. Türk müsəlman soyqırımı: faktlar, həqiqətlər" mövzusunda II Beynəlxalq Elmi Konfrans (18-19 aprel 2015-ci il), Azərbaycan Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının A. Bakıxanov adına Tarix İnstitutunun, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Türkiyənin Anadolu Universitetinin, "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin və "Səs" Media Qrupunun birgə təşkilatçılığı ilə "Türk-müsəlman əhalisinə qarşı soyqırımlar tarixi mənbələrdə" mövzusunda III Beynəlxalq Elmi Konfrans (16 aprel 2016-cı il) keçirilmişdir. Sözügedən beynəlxalq konfransların materialları nəşr olunmuş və elmi ictimaiyyətə çatdırılmışdır.

Həmçinin "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyinin ofisində respublikanın nüfuzlu alimlərinin iştirakı ilə bəşəriyyətə qarşı işlənmiş ən dəhşətli cinayətlərdən biri olan Xocalı faciəsinə həsr olunmuş "Xocalı faciəsi tarixin yaddaşında" mövzusunda seminar (23 fevralın 2013-cü il), "Qarabağ həqiqətləri elmi müstəvidə" mövzusunda seminar (12 oktyabr 2013-cü il), "Azərbaycanlıların soyqırımı həqiqətləri (1918-1920-ci illər)" mövzusunda dəyirmi masa (29 mart 2014-cü il), "Erməni xisləti ədəbi nümunələrdə" mövzusunda elmi seminar (12 aprel 2014-cü il), "XX əsrdə Azərbaycan və Türkiyə ərazisində erməni qətliamları" mövzusunda dəyirmi masa (11 aprel 2015-ci il) təşkil edilmişdir.

Məhz bunun nəticəsidir ki, "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İctimai Birliyi 2015-ci ildə uğurlu fəaliyyətinə görə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən plaketlə mükafatlandırılıb.

Hal-hazırda akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstutunda elmi tədqiqat aparmaqla yanaşı, ixtisası üzrə tədris fəaliyyəti ilə məşğul olan M. Babaşlı Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin Azərbaycan və rus bölmələrində "İslamşünaslıq" fənnini tədris edir.

Şöbə plan işi üzrə elmi tədqiqatların yerinə yetirilməsini və əməkdaşlarının elmi əsərlərinin nəşrini təmin etməklə yanaşı, institut səviyyəsində keçirilən elmi tədbirlərin təşkilinə də öz töhfəsini verir.

Şərq-Qərb əlaqələrinin qarşılıqlı təsirinin müxtəlif problemlərinə dair tədqiqat aparan şöbə əməkdaşları "Elmi araşdırmalar" və "İpək yolu" elmi toplularında maraqlı elmi məqalələr çap etdirirlər. Şöbənin elmi əməkdaşları Türkiyə, Rusiya, Qazaxıstan və Azərbaycanda keçirilən elmi konfrans və simpoziumlarda fəal iştirak edirlər.

Ümumiyyətlə, Şərq-Qərb şöbəsi fəaliyyətə başladığı dövrdən etibarən burada çalışan əməkdaşlar Şərq və Qərb əlaqələrinin qarşılıqlı təsiri mövzusuna həsr olunmuş otuzdan çox kitab, iki yüzdən artıq elmi məqalə (o cümlədən xaricdə) çap etdirmişlər.

# NƏŞRİYYAT VƏ ELMİ İNFORMASİYA TƏMİNATI ŞÖBƏSİ

Müasir dövrdə ölkədə minilliyin ideologiyası olan informasiya cəmiyyəti quruculuğu prosesi uğurla həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı", həmçinin "Azərbaycan Respublikası informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" və "Milli Strategiyanın icrası üzrə Dövlət Proqramı" elmi fəaliyyətin müasir İKT əsasında yenidən qurulması və davamlı inkişafını mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafını və elmin inkişafında informasiya texnologiyalarının geniş tətbiq olun-



masını nəzərə alsaq, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda bir sıra elmi istiqamətlər çərçivəsində aparılan işlərin təbliği müstəsna əhəmiyyət kəsb edir. Bu sahədə texniki bazanı mütəmadi olaraq təkmilləşdirmək məqsədi ilə institutun nəzdində Nəşriyyat və elmi informasiya təminatı şöbəsinin yaradılması zərurəti yaranmışdır. Bununla bağlı AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin vəsatəti əsasında Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 15 aprel 2015-ci il tarixli qərarı ilə AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun strukturunda Nəşriyyat və elmi informasiya təminatı şöbəsi yaradılmışdır.

Nəşriyyat və elmi informasiya təminatı şöbəsinin müdiri f.ü.f.d., dosent Ruhəngiz Cümşüdlüdür. Şöbədə 7 nəfər - 6 kiçik elmi işçi (Faidə Omarova, Aygül Mirzəyeva, Fidan Həmidova, Ülviyyə Eminova, Aynurə Məmmədova, Günel Şəmiyeva), 1 nəfər böyük laborant ( Arzu Məmmədzadə) fəaliyyət göstərir.

Şərqşünaslıq İnstitutunda şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatlar aparılır və nəşr olunur. Eyni zamanda cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili-informatik məlumatlar hazırlanır. Bu tədqiqatların elmi redaktə və nəşri məsələləri Nəşriyyat və elmi informasiya təminatı şöbəsi tərəfindən təmin olunur.

Şərqşünaslıq İnstitutu KİV-lərlə sıx əməkdaşlıq edir. İnstitutun fəaliyyəti, burada təşkil edilən tədbirlər, əməkdaşların elmi yaradıcılığı ilə bağlı materiallar mütəmadi olaraq telekanallara, mətbu orqanlara, elektron KİV-lərə çatdırılır. Bu baxımdan şöbənin fəaliyyət istiqamətlərindən biri də Şərqşünaslıq İnstitutunun elmi fəaliyyəti haqqında zəruri məlumatların təbliğində və ictimaiyyətə çatdırılmasında mühüm rol oynayan www.orientalstudies.az adlı veb-saytın təminatıdır. Bu veb-saytda İnstitutun elmi fəaliyyəti ilə bağlı bütün məlumatlar Azərbaycan, rus və ingilis dillərində öz əksini tapır.

Nəşriyyat və elmi informasiya təminatı şöbəsi Vikipediya virtual ensiklopediyası ilə əlaqədar fəaliyyət göstərir. Şöbənin bir neçə

əməkdaşından ibarət olan Viki-qrup (Fidan Həmidova, Aygül Mirzəyeva) institutda nəşr edilən kitabların, jurnalların və digər çap materiallarının elektron resurslarının Vikipediya ensiklopediyasına daxil edilməsi ilə əlaqədar işləri davam etdirir və təşkil olunan təlim kurslarında davamlı iştirak edir.

Nəşriyyat və elmi informasiya təminatı şöbəsi Şərqşünaslıq İnstitutunun Arxivində saxlanılan kitab və jurnalların vahid elektron kataloqunun yaradılması və AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən hazırlanıb istifadəyə verilmiş Vahid Qeydiyyat Sisteminə qeyd olunması məsələləri ilə aktiv şəkildə məşğuldur. Şöbənin əməkdaşı (Günel Şəmiyeva) Vahid Qeydiyyat Sisteminin tətbiqi ilə əlaqədar treninqlərdə mütəmadi iştirak edir.

Nəşriyyat və elmi informasiya təminatı şöbəsi yeni yaradılmasına və az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda elmi istiqamətlər çərçivəsində aparılan işlərin təbliğində məhsuldar fəaliyyət göstərir.

# MƏRKƏZİ ASİYA VƏ UZAQ ŞƏRQ ÖLKƏLƏRİ ŞÖBƏSİ

Şöbə 2011-ci ildə Azərbaycan şərqşünaslığında Mərkəzi Asiya və Uzaq Şərq ölkələrinin ictimai-siyasi, sosial-iqtisadi və ədəbi-mədəni inkişafının mühüm məsələlərinin hərtərəfli öyrənilməsi zərurətinə əsaslanaraq, fəaliyyətə başlamışdı. Müstəqil Azərbaycanın bir sıra Mərkəzi Asiya və Uzaq Şərq ölkələri ilə artan siyasi, iqtisadi və mədəni əlaqələri bu regionların elmi şəkildə öyrənilməsinə böyük ehtiyac yaratmaqdadır. Məhz bu fakt nəzərə alınaraq Şərqşünaslıq İnstitutunda bu şöbənin yaradılmasına qərar verilmişdir.

Şöbənin profilinin və elmi-tədqiqat tematikasının, inkişaf istiqamətlərinin müəyyənləşməsi prosesində qarşıya qoyulan vəzifələrin səmərəli şəkildə həlli üçün şöbəyə Çin, İndoneziya, Pakistan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan Respublikalarının tarixi, dili və ədəbiyyatı üzrə mütəxəssislərin cəlb olunması zəruri problem olaraq dururdu. Mövcud elmi və kadr potensialına əsasən



şöbə öz elmi fəaliyyətini beynəlxalq münasibətlər sistemi, qloballaşma və mədəni münasibətlər yönündə qurdu.




Dünya siyasətində xüsusi yeri olan Çin Xalq Respublikasının beynəlxalq münasibətlər sistemində ölkəmizlə əlaqələrinin öyrənilməsi üzrə şöbədə iki mütəxəssis fəaliyyət göstərirdi. Şöbə müdiri c.ü.f.d. Rafiq Abbasov və t.ü.f.d. Ülkər Əliyevanın Çinin tarixi və müasir vəziyyətini əks etdirən tədqiqat işləri müasir Azərbaycan şərqşünaslığında yeni istiqamət açdı. Ümumiyyətlə, ölkəmizdə çinşünas mütəxəssislərin sayca hələ az olduğunu nəzərə alsaq, şöbə əməkdaşlarının Azərbaycanda çinşünaslıq istiqamətinin formalaşdırılması sahəsində fəaliyyətlərini təqdirlə qeyd etmək lazımdır.

Belə ki, R. Abbasovun "İlham Əliyev – qədim xalqların dostluğunun müasir davamçısı" (Bakı, 2013) adlı böyük həcmli kitabı 2013-cü ildə Çin dilində çap olunmuşdur. Kitab Azərbaycan-Çin münasibətlərinin müasir vəziyyətinə, Prezident İlham Əliyevin ölkəmizin Çin Xalq Respublikası ilə siyasi, diplomatik, iqtisadi və mədəni əlaqələrinin inkişaf etdirməsi fəaliyyətinə həsr olunmuşdur. Şöbədə, eyni zamanda, dövlətimizin fəaliyyətinin müxtəlif aspektləri ilə əlaqədar mühüm materialların Çin dilinə tərcüməsi də həyata keçirilib. Bunların sırasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqinin R.Abbasov tərəfindən edilmiş tərcüməsini qeyd etmək mümkündür. Eyni müəllifin çinşünas mütəxəssislərin istifadəsi üçün hazırladığı "Azərbaycan-Çin dillərində şəkilli sözlük" (Bakı, 2006) kitabı da çapdan çıxmışdır.

Şöbənin çinşünaslıq sahəsində son araşdırmalarından Ü.Əliyevanın tədqiqat əsərini - "ABŞ-Çin münasibətləri (XXI əsrin əvvəlləri)" - qeyd etmək olar. Bu əsər müasir dövrdə beynəlxalq münasibətlər sistemində dünyanın iki qlobal gücü sayılan və dünya ölkələrinin siyasətinə bilavasitə təsir göstərən Çin Xalq Respublikası ilə Amerika

Birləşmiş Ştatlarının ikitərəfli münasibətlərinin öyrənilməsinə həsr edilmişdir. Ü.Əliyevanın Amerika-Çin münasibətlərinin ayrı-ayrı problemlərindən bəhs edən məqalələri Moskvada, Ukraynada və digər ölkələrin elmi mətbuatında işıq üzü görmüşdür. O, 2014-cü ildə "ABŞ-Çin münasibətləri (XXI əsrin əvvəlləri)" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almış, 2016-cı ildə isə "XXI əsrin əvvəllərində ABŞ-Çin münasibətləri" adlı monoqrafiyasını nəşr etdirmişdir.

Şöbənin mühüm tədqiqat istiqamətlərindən biri də Mərkəzi Asiyanın türkdilli xalqlarının mədəni və ədəbi ənənələrinin, onların Azərbaycanla çoxəsrlik mədəni əlaqələrinin öyrənilməsidir. Mərkəzi Asiya xalqlarının ədəbiyyatının müxtəlif dövr və mərhələlərinin, tarixi inkişaf yolunun, ədəbi-mədəni əlaqələr sisteminin öyrənilməsi üzrə f.ü.f.d. T.Həşimovanın ciddi araşdırmaları vardır. Azərbaycan-Mərkəzi Asiya poeziya əlaqələrinə həsr olunmuş "Poeziya körpüsü" (Bakı, 2004) kitabı, ədəbi əlaqələr tarixinə, müasir problemlərinə həsr olunmuş 50-yə yaxın məqaləsi ölkəmizdə və onun xaricində çap olunmuşdur. İngilis, rus, qırğız dillərində çap olunan məqalələr əsasən ədəbi əlaqələrin, bədii təsir məsələlərinin müasir problemlərinə həsr olunmuşdur. Tədqiqatçı Türkiyə Respublikası, İran İslam Respublikası, Şimali Kipr Türk Respublikası, Türkmənistan və Qırğızıstan respublikalarında keçirilən beynəlxalq elmi tədbirlərdə – forum, qurultay, simpozium, konfranslarda Azərbaycan elmini layiqincə təmsil etmiş və hazırda bu uğurlu fəaliyyətini davam etdirir. "Chingiz Aytmatov in Azerbaijan-Kyrgyzstan literary relationship; universal ideas and nationality", "Совет доорунда жана эгемендик мезгилинде Азербайжан–Кыргызстан адабий байланыштарындагы Айтматовдун көркөм өнөрү жана инсанаты", "Klassik Azerbaycan şairi Nizami Gencevi ve onun "Hüsrev ve Şirin" eserinin Özbek Türkçesi`ne çevirisinde dil ve üslup meseleleri", "Творческие взаимосвязи и параллели: Чингиз Айтматов и Бахтияр Вагабзаде", "Sovet Birliyi dönəmində Azərbaycan–Mərkəzi Asiya Türk xalqlarının ədəbiyyatında Türk birliyi" və digər mövzularda çox sayda məruzələr etmiş, mükafatlara layiq görülmüşdür.

Şöbənin yeni yaradılmasına və nisbətən az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq əməkdaşlar öz ixtisaslarının artırılması üzərində daim çalışaraq, peşəkarlıqlarını yüksəldiblər.

Bilik və təcrübələrinin yüksəlməsi, elmi mübadilənin tənzimlənməsi məqsədilə şöbənin əməkdaşları elmi ezamiyyətlərdə olub və bilik və bacarıqlarını daim təkmilləşdiriblər.

AMEA Rəyasət Heyətinin 29 iyun 2016-cı il № 9/16 saylı qərarı ilə Mərkəzi Asiya və Uzaq Şərq ölkələri şöbəsinin əsasında iki yeni şöbə - Mərkəzi Asiya ölkələri və Asiya Sakit okean regionu ölkələri şöbələri yaradılmışdır.

# MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ ŞÖBƏSİ

AMEA Rəyasət Heyətinin 29 iyun 2016-cı il № 9/16 saylı qərarı ilə Mərkəzi Asiya və Uzaq Şərq ölkələri şöbəsinin əsasında iki yeni şöbə - Mərkəzi Asiya ölkələri və Asiya Sakit okean regionu ölkələri şöbələri yaradılmışdır.

Şöbənin yeni yaradılmasına və nisbətən az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq əməkdaşlar öz ixtisaslarının artırılması üzərində daim çalışaraq, peşəkarlıqlarını yüksəldiblər

Şöbənin əsas tədqiqat istiqaməti Mərkəzi Asiya ölkələrinin tarixi, dini, ictimai-siyasi, mədəni, ədəbi, milli və xarici siyasi əlaqələrinin, iqtisadi əlaqələrinin, iqtisadi inkişaf yolu və xüsusiyyətlərinin araşdırılması və bu ölkələrin Azərbaycan ilə hərtərəfli münasibətlərinin təhlili və onların inkişafına dair təkliflərin hazırlanmasıdır.

Şöbənin müdiri i.e.d. Dünyamalı Əmir oğlu Vəliyevdir. Onun müasir iqtisadi fikir baxımından diqqəti cəlb edən əsərlərinə "Türkiyənin dövlət maliyyəsi və sosial-iqtisadi inkişafı" (Bakı, "Elm", 1991, 235 səh., rus dilində), "Qloballaşma şəraitində Azərbaycanın beynəlxalq bazarlara inteqrasiyası: təmayüllülər, problemlər,



perspektivlər" (Bakı, 2005, 242 səh.), "Türkiyə. Turqut Ozal və iqtisadi möcüzələr" (Bakı, "Elm", 1990) və digərlərini aid etmək olar. D.Vəliyevin "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası" ("Adilolğu" nəşriyyatı, 2008, 428 səh.) və "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında" (Bakı, 2015, 504 səh.) kitabları əvvəlki əsərlərinin davamı, inkişafı və ümumiləşdirilməsi baxımından önəmlidir.

Kitabda respublikamızda ilk dəfə olaraq Azərbaycan iqtisadiyyatının ümumi mənzərəsi, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin elmi konseptual əsaslara söykənən iqtisadi siyasət kursu kompleks şəkildə qloballaşma prizmasından tədqiq edilmişdir. D.Vəliyevin başçılığı və müəllifliyi ilə "Beynəlxalq iqtisadiyyat" (Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2000, 328 səh., M.Rəhimovla birgə), "Vergi hüququ" (Bakı, 2003, 482 səh., Y. Balakişiyev və başqaları ilə birlikdə), "Beynəlxalq iqtisadiyyat" (Bakı, "Avropa" nəşriyyatı, 2012, 400 səh., A. Əsədovla birlikdə) kimi dərsliklər hazırlanmış və Ali Təhsil Nazirliyinin qrifi ilə nəşr olunmuşdur. Hazırda bu dərsliklərdən geniş istifadə edilir. D.Vəliyev təkcə elmi araşdırmalarla kifayətlənmir. O, bir neçə jurnalın, o cümlədən "İpək yolu" jurnalının redaktorudur, konfranslar təşkil edir və xarici simpoziumlarda iştirak edir. BDU-nun iqtiadiyyat üzrə Müdafiə Şurasının üzvüdür. O, kadr hazırlığında fəal iştirak edir. Onun rəhbərliyi ilə müxtəlif İnstitut və universitetlərdə ondan çox aspirant və dissertantlar müdafiə etmişdir. Sumqayıt Dövlət Universitetində elmlər doktoru hazırlığında elmi məsləhətçidir.

Şöbənin baş elmi işçisi Roida Oqtay qızı Rzayeva 2002-2005-ci illər arasında Azərbaycanda fəaliyyət göstərən Türkiyə Təhsil Nazirliyi nəzdində FONO Açıq Öyrətim mərkəzində şöbə müdiri olaraq çalışmış, Türkiyə türkcəsində rus dilini tədris etmişdir.

Eyni zamanda 2003-2004 və 2007-2008 tədris illərində Bakı Dövlət Univesitetinin Şərqşünaslıq fakültəsində dərs demişdir.

2001-ci ildən etibarən dövlət səviyyəsində keçirilən beynəlxalq tədbirlərdə sinxron tərcüməçi olaraq fəaliyyət göstərir.

2004-cü ildə Türkiyə Respublikasının Azərbaycandakı səfirliyində çalışmışdır.




2007-ci ildə AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda “Müasir Türkiyədə modernləşmənin sosial-mədəni təhlili” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri namizədi elmi dərəcəsini almışdır.

2016-cı ildə “Postmodern və Türkiyə ictimai şüurunun inkişaf konseptlərinin təhlili” mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

2005-2010-cu illərdə Şərqşünaslıq institutunun Gənc Alimlər Şurasının sədri, eyni zamanda AMEA-nın Gənclərin İntellektual İnkişaf Mərkəzi Humanitar və İctimai elmlər bölməsinin rəhbəri və mərkəzin büro üzvü, 2013-2017-ci illərdə AMEA Fəlsəfə və Hüquq İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri olmuşdur.

2008-2010-cu illərdə AMEA-nın Gənclərin İntellektual İnkişaf Mərkəzinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin birgə təşəbbüsü ilə nəşr olunan “Gənc alimlərin əsərləri” elmi jurnalının redaksiya heyətinin üzvü, 2011-2017-ci illərdə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda nəşr olunan və AAK-nın elmi nəşrlərinin siyahısında olan “Elmi əsərlər” jurnalının redaktor müavini olmuşdur.

2010-cu ildə Türkiyə Respublikasının Egey Universiteti tərəfindən həmin universitetdə məruzə oxumaq üçün rəsmi dəvət olunmuşdur.

18.01.2011 – 15.02.2017 tarixlərdə AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində işləmişdir.

2012-ci ildə Bakı Beynəlxalq Humanitar Forumunun Elmlər Akademiyasındakı təşkilat komitəsinin üzvü olaraq “Multikulturalizm və mədəni özünüdərk” dəyirmi masasının təşkilatı və işində fəal iştirak etmişdir.

2013-cü ildə “Fəlsəfi antropologiya” ixtisası üzrə dosent elmi adını almışdır.

17 yanvar 2014-cü ildən isə AMEA Gənc Alim və Mütəxəssislər Şurasının idarə heyətinin üzvüdür.

2014-cü ildə 6-8 fevral tarixlərində İtaliyanın Roma şəhərində Sapienza Universitetində, 2016-cı ildə 3-6 fevral Fransanın Paris şəhərində və 19-22 may tarixlərində Bosniya və Herseqovinada Sarayevo Beynəlmiləl Universitetində, 2017-ci ildə 19-22 may Bolqarıstan Sofiya Universitetində və 23-26 avqust tarixlərində Ukraynada, 2018-ci ildə 1-3 fevral tarixlərində Türkiyədə Adnan Menderes Universitetində keçirilən Sosial və Əxlaq Elmləri üzrə III, IX, X, XIII, XIV və XV Avropa Konfranslarının elmi komitələrinin üzvü seçilmişdir.

"American Journal of Educational Research", "European Journal of Research on Education" (EJRE) and "European Journal of Research on Social Studies" (EJRSS) beynəlxalq jurnalların redaksiya heyətinin üzvüdür.

Beynəlxalq İdrak Tədqiqatları Cəmiyyətinin (Cənubi Koreya), Beynəlxalq Sosial Elmlər Assosiasiyasının (International Association of Social Science Research (IASSR), Rusiya Fəlsəfə Cəmiyyətinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin üzvüdür.

Beş kitabın – "The Challenges of Contemporaneity: Postmodernity and Multiculturalism" (Springer, 2016), "Постмодерн и мультикультурализм: междисциплинарный дискурс" (rus dilində, Bakı, 2015), "Незападная современность в дискурсе постмодернизма и культурной полифонии" (rus dilində, Bakı, 2015), "Rus ve Azerbaycan Kaynaklarında Türk Modernleşmesi" (Türkiyə türkcəsində, Ankara, 2012), "Пути развития турецкой литературы" (rus dilində, R.Əhmədov ilə həmmüəlliflik lə, Bakı, 2001) adlı kitabların, 2014-cü ildə isə İngiltərənin Kembric Skolars Pabli şinq nəşriyyatının (Cambridge Scholars Publishing) kitabında və Oksfordda nəşr olunan topluda ingilis dilində fəsillərin, postmodernizm, multikulturalizm, mədəniyyətlərin dialoqu, dialoqun fəlsəfəsi, "Şərq-Qərb", qeyri-Qərb müasirliyi, modernizm, modernləşmə, ictimai şüurun inkişafı, alternativ modernizmlər, ictimai-mədəni transformasiyaların və s. mövzularına həsr olunmuş 130-dan çox elmi əsərin müəllifidir, bunların

yarısı respublikadan kənarda, o cümlədən Thomson Reuters sisteminə daxil olan jurnallarda çap olunub.

Həm respublikamızda, həm də xaricdə (İngiltərə, İtaliya, Fransa, Cənubi Koreya, Yunanıstan, Türkiyə, Rusiya, Litva, Kipr, Belarus, Qazaxıstan, Türkmənistan, Gürcüstan və s.) bir çox ölkədə 100-dən çox beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. 40 sertifikatın sahibidir.

Azərbaycan, rus, Türkiyə türkcəsi və ingilis dillərini bilir, ərəb, fars və əski osmanlıca dillərində elmi terminologiyadan istifadə edir.

Şöbənin aparıcı elmi işçisi, h.ü.f.d., dosent R. M. Qarayevin bir sıra kitabları və monoqrafiyaları vardır. O, "Beynəlxalq hüquq nəzəriyyəsi və praktikasında dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsiplərinin nisbəti" (rus dilində) və "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq" adlı iki monoqrafiyanın müəllifidir. Bununla yanaşı, R.M. Qarayevin "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin beynəlxalq hüquqi aspektləri və prinsipləri" (rus dilində) fundamental xarakterli monoqrafiyası nəşr olunma ərəfəsindədir. O, həm də ilk dəfə Azərbaycanda dərc edilən "Rusca-Azərbaycanca hüquq lüğəti"- nin (birinci nəşri 2000-ci ildə, ikinci nəşri isə 2007-ci ildə işıq üzü görmüşdür) müəllifidir. R.M. Qarayevin "İngiliscə-Azərbaycanca böyük hüquq lüğətini" xüsusi qeyd etmək lazımdır. 2011-ci ildə nəşr olunan və 55 mindən çox müxtəlif terminləri əhatə edən bu lüğətin Azərbaycanda analoqu yoxdur. Bununla yanaşı R.M. Qarayev yenə də ilk dəfə Azərbaycanda nəşr edilən "Azərbaycanca-Rusca-İngiliscə hüquq lüğətinin" və "İngiliscə-Rusca-Azərbaycanca hüquq lüğətinin" müəllifidir. Ümumilikdə R.M. Qarayevin Azərbaycanda, Rusiyada, Ukraynada və Gürcüstanda ən nüfuzlu elmi jurnallarda 55-dən çox müxtəlif xarakterli elmi məqalələri dərc olunmuşdur. Hal-hazırda R.M. Qarayev "Mərkəzi Asiya ölkələrində təhlükəsizliyə olan təhdidlər" problemi üzərində çalışır. R.M. Qarayev AMEA-nın elmi həyatında da fəal iştirak etmişdir. O, müxtəlif illərdə AMEA İnsan Hüquqları İnstitutu-




nun və AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun elmi şuralarının üzvü olmuşdur. R.M. Qarayev bir sıra beynəlxalq və ümumrespublika xarakterli konfranslarda iştirak etmiş və məruzələrlə çıxış etmişdir. R.M. Qarayevin elmi rəhbərliyi altında iki nəfər dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmiş və hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışlar. Hal-hazırda o hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün daha iki doktoranta (1-i əyani, 1-i isə qiyabi) elmi rəhbərlik edir.

Şöbənin mühüm tədqiqat istiqamətlərindən biri də Mərkəzi Asiyanın türkdilli xalqlarının mədəni və ədəbi ənənələrinin, onların Azərbaycanla çoxəsrlik mədəni əlaqələrinin öyrənilməsidir. Mərkəzi Asiya xalqlarının ədəbiyyatının müxtəlif dövr və mərhələlərinin, tarixi inkişaf yolunun, ədəbi-mədəni əlaqələr sisteminin öyrənilməsi üzrə f.ü.f.d., dos. T.Həşimovanın ciddi araşdırmaları vardır. Azərbaycan-Mərkəzi Asiya poeziya əlaqələrinə həsr olunmuş "Poeziya körpüsü" (Bakı, 2004) kitabı, ədəbi əlaqələr tarixinə, müasir problemlərinə həsr olunmuş 50-yə yaxın məqaləsi ölkəmizdə və onun xaricində çap olunmuşdur. İngilis, rus, qırğız dillərində çap olunan məqalələr əsasən ədəbi əlaqələrin, bədii təsir məsələlərinin müasir problemlərinə həsr olunmuşdur. Tədqiqatçı Türkiyə Respublikası, İran İslam Respublikası, Şimali Kipr Türk Respublikası, Türkmənistan və Qırğızıstan respublikalarında keçirilən beynəlxalq elmi tədbirlərdə – forum, qurultay, simpozium, konfranslarda Azərbaycan elmini layiqincə təmsil etmiş və hazırda bu uğurlu fəaliyyətini davam etdirir. "Chingiz Aytmatov in Azerbaijan-Kyrgyzstan literary relationship; universal ideas and nationality", "Совет доорунда жана эгемендик мезгилинде Азербайжан–Кыргызстан адабий байланыштарындагы Айтматовдун көркөм өнөрү жана инсанаты", "Klassik Azerbaycan şairi Nizami Gencevi ve onun "Hüsrev ve Şirin"




eserinin Özbek Türkçesi`ne çevirisinde dil ve üslup meseleleri", "Творческие взаимосвязи и параллели: Чингиз Айтматов и Бахтияр Вагабзаде", "Sovet Birliyi dönəmində Azərbaycan–Mərkəzi Asiya Türk xalqlarının ədəbiyyatında Türk birliyi" və digər mövzularda çox sayda məruzələr etmiş, mükafatlara layiq görülmüşdür.

Şöbənin kiçik elmi işçisi Aslanova Hülya İlham qızı hal-hazırda doktorantura pilləsində təhsil alır və "İraq türkmanlarının müasir ədəbi həyatı və Azərbaycan" adlı dissertasiya işi üzərində çalışır. Aslanova Hülya bir sıra məqalə və tezislər müəllifidir. Müəllifin Türkologiya jurnalında çap olunmuş "Əta Tərzibaşı folklorşünaslıq fəaliyyəti və elmi-ədəbi fikirləri", İpək Yolu jurnalında çap olunmuş "İraq-türkman ədəbiyyatında divan şeiri ənənəsi və Osman Məzlum", Dil və Ədəbiyyat jurnalında çap olunmuş "İraq-türkman ədəbiyyatında sərbəst şeir problemi", Risalə jurnalında çap olunmuş "İraq-türkman şairələrindən Nəsrin Ərbil həyat və yaradıcılığı", "Гуманитарный вектор, филология" jurnalında çap olunmuşdur. Aslanova Hülya "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq konfransda "İraq-türkman ədəbiyyatında nəsr" tezisi və I Türkoloji Qurultayının 90 illiyinə həsr olunmuş "Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər" mövzusunda gənc türkoloqların beynəlxalq elmi konfransında "Türkmanların soyqırımı" tezisləri ilə iştirak etmiş konfransın materialları toplusunda bu tezislər çap olunmuşdur. "Azər-İlmə" MMC və Azərbaycan Milli Elmlər Akademiyasının ortaq layihəsi çərçivəsində "Naxçıvan Xalçaçılığı: Ənənə və Müasirlik" adlı kitabı ərəb dilinə tərcümə etmişdir. Kitab nəşr olunmuş və Naxçıvanın 2018-ci ildə İslam paytaxtı seçilməsi münasibəti ilə təşkil olunmuş simpozium çərçivəsində təqdim olunmuşdur.

Şöbənin kiçik elmi işçisi Vəliyeva Aysel Etibar qızı dissertantura pilləsində təhsil alır. O, bir sıra məqalə və tezislər müəllifidir. Onun

AMEA Dilçilik İnstitutu "Tədqiqlər" jurnalında "Türk ve Türkmen atasözleri üzerine karşılaştırmalı çalışma", Azərbaycan Universiteti "İpək yolu" jurnalında "Türk dilində feli sifətlərin sintaksisdəki mövqeyi" adlı məqalələri çap olunub.

Vəliyeva Aysel "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq konfransda "Türk millətinin ortaq məhsulu kimi atalar sözlərinin günümüzdəki dəyər və əhəmiyyəti" adlı tezislə iştirak etmiş və tezis konfransın materiallar toplusunda çap olunmuşdur. Müəllif Aşık Şenliyin həyat və yaradıcılığı ilə bağlı kitabı Türk dilindən Azərbaycan dilinə uyğunlaşdırıb, çapa hazırlamışdır.

Şöbənin kiçik elmi işçisi Hüseynli Dilbər Fəsi qızı dissertantura pilləsində təhsil alır. O, bir sıra məqalə və tezislərin müəllifidir. Onun "Sivilizasiya" jurnalında "Pakistan və Hindistan arasında Kəşmir münaqişəsinin gedişində on üç günlük müharibənin nəticəsi", "Azərbaycan şərqşünaslığı" jurnalında "Hindistan azadlıq hərəkatında Məhəmməd Əli Cinnah və Mahatma Qandinin rolu" adlı məqalələri çap olunmuşdur. Hüseynli Dilbər "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq konfransda "Müasir dövrdə Pakistan İslam Respublikasının mövcud ictimai-siyasi problemləri haqqında" adlı tezislə çıxış etmiş və tezis konfransın materiallar toplusunda çap olunmuşdur. Hüseynli Dilbər "Həyat fəlsəfəsi" adlı ədəbi-fəlsəfi kitabı və "Azərbaycan qlobal dünya sistemində: reallıqlar, perspektivlər. Məqalələr toplusu" adlı kitabı çapa hazırlamışdır.

Şöbənin baş laborantı Məlikova Nurcahan Rauf qızının "Sivilizasiya"jurnalında "İslam inqilabından sonra Əfqanıstan–İran münasibətlər" adlı məqaləsi çap olunub. Müəllif "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda beynəlxalq konfransında "Çinin İranda geostrateji maraqları" adlı məruzə ilə çıxış etmiş və tezis toplusunda çap olunmuşdur.

Şöbənin əməkdaşları bilik və təcrübələrinin artırılması, elmi mübadilənin tənzimlənməsi məqsədilə elmi ezamiyyətlərdə olub, bilik və bacarıqlarını daim təkmilləşdiriblər.

# ASİYA SAKİT OKEAN REGİONU ÖLKƏLƏRİ ŞÖBƏSİ

Asiya Sakit okean regionu ölkələri şöbəsi AMEA Rəyasət Heyətinin 29 iyun 2016-cı il № 9/16 saylı qərarı ilə Mərkəzi Asiya və Uzaq Şərq ölkələri şöbəsinin əsasında yaradılmışdır. Şöbənin əsas tədqiqat istiqaməti Asiya-Sakit Okean ölkələrinin tarixi, dini, bu ölkələrin ictimai-siyasi, milli və xarici siyasəti, mədəni, ədəbi əlaqələri, iqtisadi inkişafının yolları; həmin ölkələrin Azərbaycanla hərtərəfli münasibətlərinin təhlili və inkişafına dair təkliflərin proqnozlaşdırılmasıdır.

Şöbənin müdiri filologiya üzrə fəlsəfə doktoru Zenfira Ədhəm qızı Şıxəlibəylidir. “Azərbaycanda Ərəb filologiyasının inkişafı” ( Bakı, 2004) adlı kitabın müəllifi olan Zenfira Şıxəlibəyli “Asiya-Sakit okean regionunda Çinin beynəlxalq əlaqələri mövzusunda da tədqiqatlar aparmışdır.

“Misirdə XX əsrin əvvəllərində ərəb ədəbi dilinə və xalq dilinə münasibət” (“Şərq Filologiyası Məsələləri”, Bakı, 2016), “Azərbaycan Böyük İpək yolu layihəsində aparıcı ölkə kimi” (“Sivilizasiya” jurnalı, N 2, 2017), “Dünya nizamının fərqli formatı: Çin modeli”



(“Sivilizasiya” jurnalı, N 4, 2017) və digər çoxsaylı məqalələrin müəllifidir.




“Yeni ədəbi tənqidinin formalaşmasında “Misir Modernistlər Məktəbinin rolu” - Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları” (akademik V.Məmmədəliyevin 70 illiyinə həsr olunmuş Elmi konfrans, Bakı, 2013), “XIX əsrin sonu – XX əsrin əvvəllərində Misir ədəbi tənqidində ənənə və novatorluq” (“Müasir şərqşünaslığın aktual problemləri” (“Ziya Bünyadov qiraətləri”) mövzusunda beynəlxalq elmi konfrans) adlı məqalə və tezislərlə Respublika və beynəlxalq miqyaslı konfranslarda iştirak etmişdir.

Şöbənin aparıcı elmi işçisi, c.ü.f.d. Rafiq İldırım oğlu Abbasov Azərbaycanın Çinlə əlaqələri və Çin dili ilə bağlı bir çox kitab və dərsliklərin (“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi” (Çin dilinə tərcümə R. Abbasov) Bakı, “Oka ofset”, 2004; “Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri”, (Çin dilində), Bakı, “Oka ofset”, 2005; “İlham Əliyev - qədim xalqların dostluğunun müasir davamçısı”, (Çin dilində), Bakı,“Qanun”, 2013; “Azərbaycan-Çin: diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü”, (Çin dilində), Bakı, ADU, 2017; Si Cinpin dövlət idarəçiliyi haqqında, Bakı, “Print Express”, 2017; Azərbaycan çinşünaslığı”, Bakı, “MÜTƏRCİM”, 2016; “Azərbaycan – Çin dillərində şəkilli sözlük”, Bakı, “Oka ofset”, 2006; “Çin dili” dərsliyi, Bakı, “Neostar”, 2015; “Çin dilinin qrammatikası” kursunun proqramı, Bakı, “MÜTƏRCİM”, 2016) müəllifidir.

ADU “Konfutsi” institutunun Azərbaycan tərəfdən direktoru olan Rafiq Abbasov Azərbaycan və Çin arasında mədəniyyət və elm sahəsində əlaqələrin genişlənməsi, qarşılıqlı hər iki ölkənin mədəniyyətlərinin təbliği istiqamətində fəal işlər görür, bu sahədə tədbirlər və seminarların təşkilində fəallıq göstərir.

Rafiq Abbasov çoxsaylı elmi məqalələrin müəllifi olmaqla yanaşı, “Проект “Экономический пояс Шелкового пути” и Азербайджан”




(Müasir şərqşünaslığın aktual problemləri mövzusunda beynəlxalq elmi konfransının materialları, Bakı, 2017), “Опыт создания первого азербайджанского учебника китайского языка” (Xarici Dillərin Tədrisinin aktual problemləri mövzusunda respublika elmi-praktiki konfransının materialları, Bakı, 2017), “Из истории китайского языкознания” (Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktiki konfransının materialları, Bakı, 2016), “Сопостав- ление китайского и тюркских языков в преподавании китайского языка азербайджанским студентам” (“Xarici dillərin tədrisinin aktual problemləri” beynəlxalq elmi-praktik konfransının materialları, Bakı, 2014), “Китайские элементы в уйгурском языке” (“I türkoloji qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfransının materialları, Bakı, 2016), “Из истории китайского языкознания” (Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktiki konfransının materialları, Bakı, 2016) kimi mövzularla bir çox respublika və beynəlxalq miqyaslı konfransların iştirakçısı olmuşdur.

Şöbənin böyük elmi işçisi, t.ü.f.d. Ülkər Ceyhun qızı Əliyeva ixtisasca tarixçidir. “XXI əsrin əvvəllərində ABŞ-Çin münasibətləri” adlı kitabı 2016-cı ildə çap olunmuşdur.

“Çinin Yaxın Şərq siyasəti (İranla münasibətlər)” mövzusunda




tədqiqatın müəllifidir. “Çin kommunistləri və ABŞ arasındakı münasibətlər başlanğıcdan inkişafa doğru”, “Çinin iqtisadi inkişafının səbəbləri və nəticələri”, “Böyük Şərqi Asiyada regional iqtisadi inteqrasiya”, “Qloballaşma prosesində ABŞ-ın və Çinin maraqlarının toqquşması”, “Место тайванской проблемы в отношениях между США и Китая”, “ABŞ-da 2000-ci ilin prezident seçkiləri ərəfəsində Respublikaçıların xarici siyasət platformasında ABŞ-ÇXR müna-




sibətləri", "Политические и экономические противоречия между США и Китаем", "ABŞ və Çin arasında iqtisadi münasibətlər (XXI əsrin başlanğıcında)", "XXI əsrin əvvəllərində ABŞ-Çin iqtisadi əlaqələri (ticarət kəsirinin yaranma səbələri)", "Исламская эстетика и форма в исламском исскустве", "İslam incəsənəti və estetika", "Şimali Koreyanın nüvə proqramı ətrafında müzakirələr. Çinin mövqeyi", "The spiritual beauty in Islamic aesthetics and Islamic art" (Tasfieh journal, India, 2016), "İranın nüvə proqramı. Çin və İran arasında hərbi – texniki əməkdaşlıq" (Azərbaycan Şərqşünaslığı, 1 (15), 2017) və digər mövzularda elmi məqalələri ölkəmizdə və xaricdə elmi jurnallarda nəşr olunmuşdur.

Çində Uyğur məsələsi və problemin səbəbləri (Gənc türkoloqların I türkoloji qurultayın 90 illiyinə həsr olunmuş elmi konfrans, 2016, 21-22 noyabr), "Çin-İran strateji əməkdaşlığının iqtisadi və siyasi əsasları" ("Müasir Şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri"- beynəlxalq elmi konfrans, 16-17 oktyabr, 2017, Bakı) və "Çinin Yaxın Şərq siyasəti" (BDU, Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş respublika elmi konfransı, Bakı 2017, 27-28 dekabr) mövzularında beynəlxalq və respublika miqyaslı elmi konfranslarda iştirak etmişdir. Hazırda "Çinin enerji siyasətində İran" mövzusunda araşdırmalarını davam etdirir.




Şöbənin kiçik elmi işçisi Məmmədova Nərmin Rasim qızının ixtisası Çin dili və ədəbiyyatıdır. Şöbədə çalışdığı müddətdə "Müasir Çin dilinin frazeologiyası", "Azad iqtisadi zonalar Çinin regional siyasətinin mühüm tərkib hissəsi kimi" mövzularda tədqiqat aparmışdır. 2016-cı ildə "Azərbaycan şərqşünaslığı" jurnalında "Классификация китайских иероглифов" adlı məqaləsi çap olunmuşdur. "Müasir şərqşünaslığın




aktual problemləri" mövzusunda beynəlxalq konfransda "Роль СЭЗ (специльных экономических зон) в экономической политике Китая" tezisi ilə iştirak etmişdir.

ADU Konfutsi institutunda keçirilmiş elmi seminarlarda "Neokonfutsiçiliyin banisi Çjou Dunyin" və "Çinin bağ-park mədəniyyəti", "Великие ученые женщины Китая" mövzuları ilə çıxış etmişdir.

Hal hazırda "Çində transmilli korporasiyaların yaranması və inkişafı" və "Опыт Китая в создании особых экономических зон для стран участников проекта один пояс один путь" mövzuları üzrə araşdırmalar aparır.

Şöbənin kiçik elmi işçisi Afaq Ələkbər qızı Nərimanova ixtisasca filoloqdur. Bir sıra məqalələr və tezislərin müəllifidir. AMEA akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərq filologiyası məsələləri məcmuəsinin X buraxılışında dərc olunmuş "Dara Şükuhun həyat və yaradıcılığı", Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbu orqanı Mədəniyyət.az jurnalında çap olunmuş "Cammu-Kəşmir tarixi hind mənbəsində", "Azərbaycanın milli və mədəni sənəti-ipəkçilik Şirvanşahlar dövründə", "Yaponiyanın memarlıq abidələri", "Известные пагоды в Китае" adlı məqalələri vardır. Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin 94 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransında "XXI əsrdə Yaponiya – ASEAN əlaqələri" tezisi ilə iştirak etmişdir. Hal-hazırda "XXI əsrdə Yaponiya – ASEAN əməkdaşlığının əsas istiqamətləri" ilə bağlı tədqiqat işi aparır.

Şöbənin baş laborantı Bunyatova Elnarə Arif qızı ixtisasca politoloqdur. O, bir sıra məqalə və tezislər müəllifidir. Şöbədə çalışdığı müddətdə elmi konfranslarda, seminarlarda iştrak etmişdir. "Исторические особенности становления общественно – политического устройства в Древнем Китае" və "Азербайджано – Китайские отношения на современном этапе развития" adlı məqalələrin müəllifidir.




“Исторические особенности становления общественно-политических отношений Китая с западноевропейскими странами в новейшей истории” məqaləsi ilə Heydər Əliyevin 95 illiyinə həsr olunmuş Bakı Mühəndislik universitetində keçirilmiş Beynəlxalq konfransda iştirak etmiş (I international scientific conference of young researchers, Baku Engineering University (Bakı Mühəndislik Universiteti), 5-6 May 2017) və sertifikata layiq görülmüşdür. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş “Şərqşünaslığın Aktual Problemləri” mövzusunda Respublika Elmi konfransında “Становления государственности в Древнем Китае с 1 по 2 тысячелетие до нашей эры” adlı tezislə iştirak etmişdir.

Hal-hazırda “Особенности политической реформы Гонконга в подготовительный период перехода под юрисдикцию Китая” məqaləsi çapa hazırdır.

Şöbənin böyük laborantı Mürşüdzadə Ceyhun Elşən oğlu ixtisasca Koreya dili üzrə tərcüməçidir. Şöbədə çalışdığı bir il müddətində Cənubi Koreyanın Asiya-sakit okean regionunda mövqeyi ilə bağlı araşdırma aparmış, “Cənubi Koreyanın dünya siyasətində yeri” adlı məqaləsi ilə “Müasir Şərqşünaslığın aktual problemləri” (“Ziya Bünyadov qiraətləri”- beynəlxalq elmi konfrans, 16-17 oktyabr, 2017, Bakı) mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

Şöbənin böyük laborantı Novruzova Günay Xankişi qızı ixtisasca filoloqdur. Azərbaycan şərqşünaslığı jurnalında “Cənubi Koreyanın iqtisadi inkişafında insan faktoru” adlı məqaləsi dərc olunmuşdur. “Müasir Şərqşünaslığın aktual problemləri” (“Ziya Bünyadov qiraətləri”) mövzusunda beynəlxalq elmi konfransda “Cənubi Koreyanın Yaxın Şərq siyasəti” tezisi ilə iştirak etmişdir. Hal-hazırda “Cənubi Koreyanın iqtisadi inkişafı” mövzusu üzərində araşdırmalar aparır.



**Ümumi işlər üzrə direktor müavini**



**Kadrlar şöbəsi**



**Mühasibatlıq**



**Mülki müdafiə qərargahı**



**Arxiv**




**Akad. Ziya Bünyadov kabineti**



Təsərrüfat müdiri




Katiblik



Kompüter otağı

# ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN ELMİ TƏDQİQAT İŞLƏRİ

İnstitutun kollektivi bu yeni şəraiti qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində addımlar atmış və atmaqdadır. İnstitutda aparılan tədqiqat işlərinin bir çoxu Azərbaycan Respublikasının Yaxın və Orta Şərq siyasətində aktuallıq kəsb edən məsələlərin araşdırılmasına həsr edilib. Bunlar Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri, müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətləri, Şərq-Qərb sivilizasiyalararası dialoq, Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu, Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri və sairdir. Göründüyü kimi, elmi tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) yanaşı müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-siyasi, iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, Ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. İnstitut əməkdaşlarının monoqrafiyaları, kitabları, elmi məqalələri və müxtəlif elmi məclislərdə oxuduqları məruzələr bu sahədə xüsusi önəm daşıyır və ölkələrimiz arasındakı münasibətlərin inkişafı üçün stimul ola biləcək faktlardandır.

***Son illər çap olunmuş monoqrafiya və kitablardan aşağıdakılar elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş və bunları şərqşünaslıq elminin nailiyyətlərindən hesab etmək olar:***

**1.** Шихаб ад-Дин Мухаммад ибн Ахмад ан-Насави. Сиратас-Султан Джалал ад-Дин Манкбурны: (Жизнеописание султана Джалал ад-Дина Манкбурны) Критич. текст, пер. с араб., предисл., коммент., примеч. и указатели З.М.Буниятова. – М.: Издательская фирма “Восточная литература” РАН, 1996 – (Памятники письменности Востока. CVII).

Şixab əd-Din ən-Nəsəvi. Cəlal əd-Din Mankburninin həyatının təsviri. Ərəbcədən tərcümə, ön söz, qeydlər və şərhlər akad. Z.M.Bünyadovundur. Moskva, 1996.

Xarəzmşah-Anuştəginlər sülaləsinin sonuncu təmsilçisi sultan Cəlal əd-Din Mankburninin şəxsi katibi Şihab əd-Din Məhəmməd ibn Əhməd ən-Nəsəvinin əsərinin tənqidi mətninin ilk nəşri. Ərəb dilində mətn ilə yanaşı kitabda onun rus dilinə tərcüməsi, şərhlər, mətnin tədqiqinə dair müqəddimə və göstəricilər də yer alır.

**2.** İbn əl-Əsir. Əl-Kamil fi-t-Tarix. Ərəbcədən tərcümə, ön söz, qeydlər və şərhlər akad. Z.M.Bünyadovundur. Bakı, "Şur", 1996.

Ərəb tarixçisi İzzəddin İbn Əl-Əsirin (1160-1233) "Əl-Kamil-fi-t-Tarix" əsəri Azərbaycan oxucusuna tanış olsa da, bu II nəşr tamamilə yenidən işlənmiş, dəqiqləşdirilmiş və xeyli zənginləşdirilmiş orijinal tərcümə kitabıdır.

**3.** İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələr akad. Z.M.Bünyadov və t.ü.f.d. H.Məmmədovundur. Bakı, "Elm", 1996.

İrəvan əyalətinin icmal dəftəri Osmanlı imperiyasının hərbi sosial və iqtisadi strukturunu əks etdirən timar sistemi ilə əlaqəlidir. İrəvan əyaləti ilə bağlı tərtib olunmuş dəftərlər Osmanlı tabeliyində olduqları dövrdə İrəvan, Naxçıvan və Ordubadın şəhər həyatında dəyişimlərini əks etdirir. Dəftər istər tarixçi, istərsə dilçilər üçün maraqlı tədqiqat obyektidir.

**4.** Hüsaməddin Xoyi. Töhfeyi-Hüsam. Elmi-tənqidi mətn, tədqiqat, sözlüklər. C. Sadıqova və T.Ələsgərova. Bakı, 1996.

T.Ələsgərova və C.Sadıqovanın 1996-cı ildə elmi ictimaiyyətə təqdim etdikləri XIII əsr görkəmli Azərbaycan alimi Hüsaməddin Xoyinin leksikoqrafiyamız tarixində ilk mənzum lüğəti olan "Töhfeyi Hüsam" kitabı elmi-tənqidi mətni, transkripsiyası, türkcə sözlüyün əlifba sırası ilə düzümü və dil xüsusiyyətlərini əhatə edir. Kitabın 1-ci fəslində XI-XIII əsrlərdə Azərbaycanda lüğətçilik ənənələrinin yaranması və inkişafından bəhs edilib. 2-ci fəsildə Hüsaməddin Xoyinin həyat və yaradıcılığı yer alır, "Töhfeyi Hüsam"ın dil xüsusiyyətləri araşdırılır, lüğətin əlyazma nüsxələri müqayisə edilir. 3-cü fəsildə "Töhfeyi Hüsam"ın elmi tənqidi mətninin Kiril əlifbası ilə transkrip-

siyası, türkcə sözlük və şərhlər verilib. 4-cü fəsildə "Töhfeyi Hüsam"ın orijinal ərəb əlifbası ilə elmi-tənqidi mətni təqdim olunub.

**5.** Curci Zeydan. Fərğanə gəlini. Ərəbcədən tərcümə, müqəddimə və izahlar V.Cəfərovundur. Bakı, 1996.

"Fərqanə gəlini" tarixi romanı ərəb mədəniyyəti tarixində "Qızıl əsr" ("əl-Asr əz-zəhəbi") kimi tanınan Abbasilər dövrünün (750-1258) məşhur xəlifələrindən biri Mötəsim Billahın xəlifəlik illərindən (833-842) bəhs edir. Roman əsrlərdən bəri ulu babalarımızın məişətində, inam və etiqadında dərin kök salmış atəşpərəstlik, Novruz bayramı kimi mərasimlərin, eləcə də xilafət qoşunlarına iyirmi iki il qəhrəmanlıqla müqavimət göstərmiş Babək əl-Xurrəminin bədii obrazının inikası baxımından Azərbaycan oxucuları üçün xüsusi əhəmiyyət kəsb edir. Roman kiril əlifbasında çap olunmuşdur.

**6.** Əbu Həyyan əl-Əndəlusi. Əl-durra əl-mudiyyə fi-l-luğə ət-Türkiyə. Elmi-tənqidi mətn, tədqiqat, çapa hazırlanması Z.Q.Rüstəmovanındır. Bakı, 1997.

Əbu-Həyyan əl-Əndəlusi dövrünün çoxşaxəli yaradıcılığa malik bir alimi, tanınmış dilçisi, görkəmli tarixçisi, ədəbiyyatşünası, yaxşı hədisçi və Quran oxuyanı kimi tanınır. Əsrlərlə itmiş hesab edilən və çətinliklə əldə edilən "əd-Dürrə əl-mudiyyə fi-l-luğa ət-türkiyyə"nin türkologiya tarixində əvəzsiz rolu vardır.

Əbu-Həyyanın bu lüğətini tarixi ardıcıllığına görə orta əsrlərdə tərtib edilmiş ikidilli ilkin lüğətlərdən hesab etmək olar. Bu lüğət türk dillərinin (o cümlədən Azərbaycan dilinin) qədim dövrünün lüğət tərkibi, dil xüsusiyyətləri, fonetik sistemi haqqında zəngin material verən qiymətli və qədim abidələrdən biridir.

Azərbaycan leksikoqrafiyası tarixinin öyrənilməsində "əd-Dürrə lüğətinin əhəmiyyəti nəzərə alınaraq azərbaycanşünaslıq elminə təqdim edilib.

**7.** Yusif Qarabaği. Yeddi bağ. tərcümə və şərhlər M.Məhəmmədinindir. Bakı, 1997.

Kitaba XVI-XVII əsrlərdə yaşamış məşhur Azərbaycan filosofu Yusif Məhəmmədşahi Qarabağinin "Yeddi bağ" ("Həft cenan") adlı fəlsəfi traktatının Azərbaycan dilinə tərcüməsi daxil edilmişdir. Tərcümə əsərin Sankt-Peterburqdakı M.Saltıkov-Şedrin adına Dövlət

Kütləvi Kitabxanasında saxlanan əlyazması əsasında həyata keçirilmişdir.

Kitabın ön sözündə Yusif Qarabağinin həyat və yaradıcılığına dair mənbələrdə və elmi ədəbiyyatda rast gəlinən məlumatlar ümumiləşdirilmiş, eyni zamanda əsərin mətninə 90-a yaxın şərh yazılmışdır.

"Yeddi bağ" traktatı Yusif Qarabağinin ağıl, ruh, vəhy, yuxugörmə, zahiri və batini hisslər kimi mürəkkəb kateqoriyalar haqqında görüşlərini əks etdirir. Bu görüşlər Şərq peripatetizmi ənənələri ilə təsəvvüfün özünəməxsus sintezinə əsaslanır. Bütövlükdə risalədə Qarabağinin insan haqqında mükəmməl konsepsiyası öz ifadəsini tapmışdır.

**8.** Car Salnaməsi. Tərcümə, ön söz, və şərhlər S.Süleymanovanındır. Bakı, 1997.

1997-ci ildə nəşr olunan "Car salnaməsi" kitabı əsasən XVIII əsr Qafqaz və xüsusilə Azərbaycan tarixinə dair yerli mənbənin ərəb dilindən tərcüməsindən ibarətdir. Bununla yanaşı, kitabın "Giriş", "Qeydlər və şərhlər" bölmələrində mənbənin özü, yarandığı dövr, mənbədə təsvir olunan hadisələr bu dövrə aid digər mənbələrlə qarşılıqlı təhlil olunmuşdur.

Mənbə ilk dəfə 1931-ci ildə H.K.Jüzenin tərcüməsi ilə Bakıda çap olunmuşdur. Lakin bu nəşrdəki nüsxənin tam olmaması və tərcümədəki bəzi qüsurlar səbəbindən mənbənin yeni nəşrinə tələbat yaranmışdır. "Car salnaməsi" mənbəsi İ.Y.Kraçkovskinin sözü ilə desək, Ərəb-İslam mədəniyyətinin Qafqazda özünəməxsus "renessans" dövrünün, ərəbdilli yazı ənənəsinin nümunəsi kimi çıxış edir və bununla yanaşı, tarixi xronika olmaq etibarilə mürəkkəb bir dövrdə - Osmanlı, Səfəvi və Rusiya dövlətləri arasındakı siyasi qarşıdurma şəraitində Qafqazda, xüsusilə, Azərbaycanda baş verən hadisələr haqqında qiymətli məlumatlar verir.

**9.** Nasiri-Xosrov. Səfərnamə. Tərcümə və şərhlər T.Məhərrəmovundur. Bakı, 1997.

Şərqin görkəmli şair və mütəfəkkiri Nasir Xosrovun (1004-1088) "Səfərnamə" əsəri müəllifin ziyarət məqsədilə Xorasandan Məkkəyə qədər olan yolu piyada gedib-qayıtdığı yeddi illik müşahidələrinin məhsuludur. Müqəddəs Məkkə və orada dini ayinləri icra etməyin qaydaları əsərdə ətraflı təsvir olunmuşdur. Əsərdə həmçinin Asiya və

Afrika qitələrində yaşayan bir çox xalqların tarixi, mədəniyyəti, təsərrüfatı, coğrafi şəraiti, iqlimi, dövlət quruluşu, adət-ənənəsi, dili, dini əqidəsi, görkəmli şəxsləri və s. haqqında da maraqlı məlumat verilir.

"Səfərnamə" dünyanın bir çox xalqlarının dillərində tərcümə edilmişdir. Azərbaycan dilinə isə ilk dəfə tərcümə olunub.

**10.** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, 1997.

Bu kitab Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində işıq üzü görmüşdür.

**11.** V.Cəfərov. İraqda neoklassik poeziya, Bakı, 1998.

Monoqrafiya XIX əsrin sonları və XX əsrin əvvəllərində İraqda mövcud olan neoklassik şeir cərəyanının keçdiyi keşməkeşli yolun araşdırılmasına həsr olunmuşdur. Monoqrafiyada göstərilir ki, XX əsr ümumərəb poeziyasının ayrılmaz qollarından birini təşkil edən İraq neoklassik poeziyası yarandığı gündən etibarən öz səhifələrində İraq xalqının real həyatını əks etdirmiş, bu xalqın imperializmə, daxili irticaya, xürafi meyllərə qarşı apardığı mübarizədə daima bir mayak rolunu oynamışdır. Bu poeziya öz mövcudluğu ərzində milli istiqlaliyyət, qadın emansipasiyası, maariflənmə, ictimai-siyasi azadlıqlar uğrunda daima vuruşmuşdur.

**12.** Akademik Z.M.Bünyadov. Seçilmiş əsərləri. 3 cilddə. Bakı, 1999. Birinci cildə "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiya, Azərbaycanın və Ərəb Xilafətinin tarixi və mənbəşünaslığı üzrə bir sıra məqalələr daxil edilib.

İkinci cilddə 1980-ci ildə Azərbaycanın elm və texnika sahəsində Dövlət mükafatına layiq görülmüş "Azərbaycan Atabəylər dövləti: 1136-1225 illər" adlı monoqrafiya və Azərbaycanın XI-XIII əsrlərdə tarixi, mənbəşünaslığı və tarixi coğrafiyasına həsr edilmiş bir sıra məqalələri nəşr olunub.

Üçüncü cildə alimin "Xarəzmşah-Anuştəginlər dövləti (1097-1231)" adlı monoqrafiya, Mərkəzi Asiya, Yaxın və Orta Şərqin tarixi və mənbəşünaslığı üzrə elmi əsərləri, eləcədə akademik Z.M.Bünyadovun əsərlərinin qısa biblioqrafiyası daxil olunub.

**13.** Akademik V.V.Bartold. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Akad. Z.Bünyadovun və tarix elmləri namizədi E.Ağayevanın tərcüməsi. Bakı, 1999.

Əsər əsasən Azərbaycan tarixinə həsr edildiyi üçün görkəmli Azərbaycan şərqşünası Ziya Bünyadovun diqqətini özünə cəlb etmiş və o, həmin əsərin doğma dilimizə tərcüməsinə başlamışdı.

**14.** Orta əsrlər Şərqi. Akademik Z.M.Bünyadovun xatirəsinə həsr edilmiş məqalələr toplusu. Redaktoru t.e.n. Ş.Mustafayev. Bakı, 2000.

Topluda müasir Azərbaycan şərqşünas-mediyevistikasının bütün nəsillərinin nümayəndələri təmsil olunmuşdur. Müəlliflərin bir hissəsi Ziya müəllimlə on illərlə birlikdə çalışmış onun qələm və əqidə yoldaşlarıdır, digərləri onun tələbə və aspirantları olmuşlar, bəziləri isə Ziya Bünyadov məktəbinin elm yoluna yeni qədəm qoyan gənc tədqiqatçılardır. Təqdim edilən məqalələrin mövzuları da istər tədqiqat obyektlərinə, istərsə də xronoloji çərçivələrinə görə çağdaş Azərbaycan şərqşünaslığında araşdırılan mövzuların geniş spektrini əhatə edir. Buna görə topluda məqalələrin düzümü xronoloji prinsip əsasında verilmişdir.

**15.** Şərqin aktual problemləri: tarix və müasirlik. Bakı, 2000.

Akademik Ziya Bünyadovun anadan olmasının 75 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları əsasında tərtib olunmuşdu.

**16.** Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov. Bakı, 2000.

"Gəncə Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə ərazi-inzibati vahidlərə və onlara tabe olan yaşayış məskənlərinə görə vergi mükəlləfiyyəti daşıyanlar haqqında məlumat verildikdən sonra əvvəlcə onların əkib-becərdikləri dənli bitkilərdən alınan natural verginin həcmi və ağca ilə dəyəri, sonra isə bağ-bostan, arı pətəkləri, işləyən dəyirmanlar, heyvanlar üçün ödənən vergilərin və s. dəyərindən bəhs edilir.

**17.** Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə. Güney Azərbaycan. Bakı, 2000.

Bu kitabda 170 ildən artıq bir müddətdə ayrı düşmüş bütöv Azərbaycanın bir parçası olan Güney Azərbaycan yaxın-uzaq tarixi, ərazisi, əhalisi, təsərrüfatı, maarif və mədəniyyəti, ədəbiyyatı barədə və s. bilgilər toplanmışdır.

Kitab yazıb-oxumağı bacaran hər bir türkə ünvanlanmışdır.

**18.** Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax). Hazırlayan Ş.Mustafayevdir, Bakı: Pedaqogika, 2001.

1723-cü ildə Osmanlı imperiyasının Qafqazları yenidən fəthi dövründə imperiya dəftərdarları müvafiq qaydalara uyğun olaraq fəth olunmuş ərazilər üçün vergi dəftərləri tərtib etmişdilər. "Tiflis əyalətinin müfəssəl dəftəri" də məhz həmin dövrdə yazılmışdı. Bir zamanlar vergi yığmaq məqsədilə hazırlanmış sənəd bu gün Borçalı-Qazax ellərinin tarixinə dair dəqiq və qiymətli qaynaqdır. Bu qaynaqdan tarixçilər, coğrafiyaçılar, iqtisadçılar və etnoqraflar bəhrələnə bilərlər.

**19.** Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akad. Z.Bünyadov və t.ü.f.d. H.Məmmədov. Bakı: "Elm", 2001.

1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"nin I nəşri "Sabah" nəşriyyatı tərəfindən 1997-ci ildə həyata keçirilmişdir. Bu nəşrdə Naxçıvan sancağının tarixi daha geniş xronoloji çərçivədə, təqribən 150 illik dövrün hadisələr kontekstində tədqiq edilmiş, tərcümənin mətnində isə cüzi dəyişikliklər edilmişdir.

**20.** Vidadi Mustafayev. Cənubi Azərbaycan məsələsinin öyrənilməsi (XX əsrin 90-cı illərinə qədər) - Bakı, "Nurlan", 2002.

Əsərdə Cənubi Azərbaycan məsələsinin keçmiş Sovet və xarici (ingilis dili) iranşünaslıqda öyrənilməsi xronoloji ardıcıllıqla nəzərdən keçirilir.

**21.** V. Cəfər. Qürbətdə yaranan dostluq. Bakı, "Nurlan", 2005.

Tanınmış İraq şairi Əbdül Vəhab əl-Bəyati şeirlərinin birində məşhur türk şairi Nazim Hikməti özünün "Moskvadakı günəşi" adlandırmışdır. Monoqrafiyada ilk dəfə olaraq bu iki məşhur Şərq şairinin Moskvada mühacirətdə olarkən öz aralarında yaratdıqları dostluq zəngin faktlar fonunda araşdırılmışdır. İki şairin qürbət diyardakı bu dostluğunu XX əsr İraq-Türkiyə ədəbi əlaqələrinin zirvəsi saymaq olar.

**22.** Z.M.Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, "Pedaqogika", 2004.

Monoqrafiyada Azərbaycan Atabəyləri dövlətinin siyasi tarixi, idarəetmə üsulu, vergi sistemi, əkinçilik və torpaqdan istifadə qaydaları, sənətkarlıq və ticarət məsələləri, dövlətin mədəni həyatı təhlil olunur.

Əsərin Azərbaycan dilində yeni bu nəşri orijinal əsasında yenidən işlənmiş və təkmilləşdirilmişdir.

**23.** Ə.Rəhimli. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946). Kanada, 2005. (Azərbaycan dilində, əski əlifba ilə).

Monoqrafiya 1941-1946-cı illərdə Güney Azərbaycanda baş vermiş milli-demokratik hərəkatdan bəhs edir. XX əsrin 40-cı illərində Güney Azərbaycanda sosial-siyasi və iqtisadi vəziyyət tədqiq və təhlil edilir, siyasi cəmiyyət və təşkilatların yaranması və fəaliyyəti oxucuya təqdim olunur, 21 Azər inqilabı və Milli Hökumətin fəaliyyətinə xüsusi yer verilir.

Kitabda İranda, Avropada və Azərbaycanda son illərdə mövzuya aid yazılmış kitablardan, arxiv materiallarından və ədəbiyyatdan yetərincə istifadə olunmuş, bir sıra məsələlərə yeni səpkidə yanaşılmış və ümumiləşdirilib nəticələr çıxarılmışdır.

**24.** L.M.Orucova. Ərəb dilçilik terminləri lüğəti. Bakı, "Nurlan", 2005.

Lüğət ərəb dilinin 1000-dən artıq dilçilik terminini əhatə edir. Ərəb dilçiliyi üzrə mütəxəssislər üçün nəzərdə tutulmuş kitabdan səmərəli istifadə olunmasını təmin etmək məqsədilə qeyd olunan terminlərin rus və Azərbaycan dillərində qarşılığı da verilmişdir.

**25.** Г.Б.Бахшалиева. Абу-л-Фарадж ал-Исфахани. Рассказы о Кайсе ибн Мулаввахе по прозвищу Меджнун и арабоязычных азербайджанских поэтах. Баку , "Елм" , 2006.

Əbül-Fərəc əl-İsfahani. Məcnun adı ilə çağırılan Qeys ibn Mülavvah və ərəbdilli Azərbaycan şairləri haqqında hekayələr. Bakı, "Elm", 2006.

Kitabda ərəb-Azərbaycan ədəbi əlaqələrin və erkən ərəbdilli Azərbaycan poeziyasının mətnşünaslıq baxımından tədqiqi üçün yüksək əhəmiyyət daşıyan X əsrin görkəmli ədibi Əbül-Fərəc əl-İsfahaninin məşhur "Nəğmələr kitabı" adlı poetik antologiyasının 5 fəslinin tam şərhli tərcüməsi təqdim olunur. Bu fəsillərdə ərəb ədəbiyyatının üzri poeziyasının nümayəndəsi, dünyada çox məşhur olan Məcnunun surəti olan Qeys ibn Mülavvahın həyat və yaradıcılığı və VII-VIII əsrlərin ərəbdilli Azərbaycan şairləri Musa Şəhavət, İsmayıl ibn Yəssar və Əbu-l-Abbas əl-Ə`ma haqqında söz açılır.

**26.** Ə.R.Bije. Azərbaycan Demokrat Firqəsi, İİR, Tehran, "Səs" nəşriyyatı, 2007.

Kitabda 1941-1946-cı illərdə Cənubi Azərbaycanda gedən xalq hərəkatından, onun məram və mahiyyətindən bəhs olunur.

Kitab fars, rus, türk və qismən Avropa dillərində çap olmuş mənbələr, kitablar, məqalələr, müsahibələr, xatirələr və eləcə də arxiv materialları əsasında hazırlanmışdır.

Kitabda müəllif keçən əsrin 40-cı illərində Cənubi Azərbaycandakı vəziyyəti və siyasi olayları indiyədək mövcud olmuş "sağ" və ya "sol" təmayüllü yanaşmalardan, eləcə də hər hansı ideoloji təsirlərdən kənar kontekstdə verməyə çalışmışdır. Obyektivlik və qərəzsizlik meyarı əsas götürülmüşdür.

1941-1946-cı illərdə Cənubi Azərbaycandakı xalq hərəkatına, onun mahiyyət və məzmununa aid İranda və onun hüdudlarından kənarda bir sıra məqalələr və kitablar çap olunmuşdur. Bunların bəzisində gedən fikir və mülahizələr çox vaxt oxucunu real həqiqəti bilmək və düz qavramaq imkanından məhrum edir, onu çaş-baş vəziyyətdə qoyur. Kitabın fars dilində Tehranda nəşri farsdilli oxucuları, eləcə də türkcə yazılanları anlamaqda çətinlik çəkən soydaşlarımızın, xüsusən gənc nəslin hərəkat haqqında real həqiqəti bilməsində onlara önəmli kömək olacaqdır.

**27.** Saltuknamə. I-II cildlər. Türk dilindən tərcümə edən və çapa hazırlayanlar: f.ü.f.d. B.R.Osmanova, f.ü.f.d. S.Ə.Qasımlı və E.S.Xəlilova. Bakı, 2007.

"Saltuknamə" dastanı XIII əsrdə yaşamış qəhrəmanlardan olan Sarı Saltukun macəralarından bəhs edən bir əsərdir.

Sultan Mehmedin şahzadəsi Cem Sultan Ədirnədə yaşayarkən Sarı Saltukun müridlərindən onun haqqındakı rəvayətləri eşidir və bu rəvayətləri toplayıb bir kitab halına salması üçün yaxın adamlarından olan Əbül-Xeyri Rumiyə tapşırıq verir. O, Anadolu və Rumelini addım-addım dolaşaraq Sarı Saltuk haqqında rəvayətləri toplamış və 7 il müddətində dastanı tərtib etmişdir.

Dastanda Sarı Saltukun uşaqlıq illərindən başlayaraq ta vəfatına qədər keçdiyi həyat yolu, din, türkçülük və dövlətçilik uğrunda apardığı

qəzalar və qəhrəmanlıqlardan bəhs olunur. Sarı Saltuk hələ sağ ikən əfsanəvi bir şəxs kimi məşhurlaşmış, onun qəhrəmanlığı haqqındakı rəvayətlər xalq içərisində ağızdan-ağıza dolaşaraq geniş yayılmışdır.

Əsər ona görə dastan adlanır ki, Sarı Saltuk tarixi şəxsiyyət olsa da, onun qəzalarında ona cinlər, Xızır İlyas, cin Mənucöhr hər zaman yardımçı olmuşlar.

Bundan başqa dastanda bir çox mifoloji obrazlar da iştirak edir.

Əsər II cilddən ibarətdir.

Birinci cild 250, ikinci cild 197, III cild 456 səhifədən ibarətdir. Dastan bir çox tarixi, coğrafi, mifoloji və dil materialları ilə zəngindir. Bu cəhətdən, zənnimizcə, dastan gələcək tədqiqatçılar üçün zəngin bir mənbədir.

**28.** M.M.Ənsərli. Ə.Z.Toğan. Azərbaycan. Bakı, “Ocaq” nəşriyyatı, 2007.

Əsərdə Azərbaycanın bugünkü coğrafi və etnik vəziyyəti; adı və tarixi sərhədləri; ərəblərin, Səlcuqluların, Elxanilərin dövründə Azərbaycanın siyasi, iqtisadi və mədəni vəziyyəti; XVI-XVIII əsrlərdə Azərbaycana Osmanlıların etdikləri yürüşlər; Azərbaycanın Nadir şahdan sonrakı vəziyyəti və rusların işğalçı yürüşləri; Azərbaycanda son dövr fikir və siyasət cərəyanları mövzuları və biblioqrafiya öz əksini tapmışdır.

**29.** Haldun Taner. Hekayələr. Türkcədən tərcümə edəni: f.ü.f.d. S.Qasımlı. Bakı, “Yom Yayınları” nəşriyyatı, 2007.

Bu kitab Türkiyənin görkəmli nasiri və dramaturqu Haldun Tanerin Azərbaycanda nəşr olunan ilk kitabıdır. Kitabda yazıçının “Yaşasın Demokrasiya”, “Tuş” və “Şişxanəyə yağış yağırdı” və s. kitablarında nəşr olunan hekayələrdən günümüzlə səsləşən nümunələr toplanmışdır. Kitab türkoloqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**30.** İ.V.Əlibəyov. İqtisadi tarix (prof. Q.Əbdülsəlimzadə ilə birlikdə). Bakı, BDU nəşriyyatı, 2008.

Kitabda dünya təsərrüfatının ibtidai icma quruluşundan bu günədək bütün inkişaf tarixi boyunca iqtisadi tarixinin əsas məsələləri zəngin material əsasında işıqlandırılmışdır.

Kitabın bütün bölmələrində Azərbaycanın iqtisadi tarixi ilə bağlı materialın verilməsinə xüsusi diqqət yetirilmişdir.

Ali məktəb tələbələri, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş "iqtisadi tarix" kitabı respublikamızda bu tematikada ilk nəşr kimi qiymətləndirilə bilər.

**31.** Ebul-Hayri-Rumi. Saltuknamə. 3 cilddə. Türk dilindən tərcümə edən və nəşrə hazırlayanlar: f.üf.d. B.R.Osmanova, f.ü.f.d. S.Ə.Qasımlı və E.S.Xəlilova. Bakı, 2008.

XV əsr türk müəllifi Əbü-l-Xeyr Ruminin əsəri Anadoluda və xüsusilə Balkan yarımadasında İslam dininin yayılmasında böyük rolu olan Sarı Saltukun həyatını dastan şəklində əks etdirir.

**32.** Azərbaycan-latın-rus-ərəb tibb terminləri lüğəti. Tərtib edənlər: f.ü.f.d. L.M.Orucova, f.ü.f.d. Z.Q.Rüstəmova. Bakı, 2008.

Lüğət 15 mindən artıq tibbə aid söz və söz birləşməsini əhatə edir. Başqa lüğətlərdən fərqli olaraq, dörd dildə (Azərbaycan, latın, rus və ərəb) tərtib olunan bu lüğətdə həm əski, həm də müasir tibb terminləri öz əksini tapmışdır. Bəzi yeni tibb istilahlarının qarşılığı latın dilində mövcud olmadığından tərtibçilər, əsasən, ingilis, nadir hallarda isə fransız dillərində işlənən tibb istilahlarından istifadə etmişlər.

**33.** Ş.Ə.Əlibəyli. Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər, 2008.

Monoqrafiyada Füzulinin farsca divanı dilçilik üslubiyyatı baxımından araşdırılmışdır. Linqvo-poetik təhlil əsasında şairin farsca poetik dilinin üslubi özəllikləri müəyyənləşdirilmişdir. Konkret dil faktları əsasında fonopoetik hadisələr, fars dilinin qrafikası ilə bağlı üslubi məqamlar, leksik, mifoloji, sintaktik kateqoriyaların üslubi imkanları, linqvo-psixoloji məqamlar tədqiq edilmişdir.

**34.** Ölməzliyə aparan yol. (Ərəb dilindən tərcümə, tədqiqat, şərh və qeydlər G.B.Baxşəliyevanındır). Bakı, 2009.

Onuncu yüzilliyin görkəmli ərəb ədəbiyyatçısı və musiqiçisi Əbül-Fərəc əl-İsfahaninin "Nəğmələr kitabı" Şərqin ən dəyərli yazılı abidələrindən sayılır. Kitabdakı fəsillərdən ikisi Bənu Amir qəbiləsindən olan Qeys ibn Müləvvəh – dünyanın Məcnun kimi tanıdığı şair haqqındadır. Oxuculara "Məcnun haqqında rəvayətlər" sərlövhəsi ilə təqdim etdiyimiz həmin fəsillərdə Məcnunun həyatı, Leyliyə sevgisi haqqında maraqlı rəvayətlər və Məcnunun dildən-dilə düşən şerləri toplanmışdır.

Kitab 1990-cı ildə G.B.Baxşəliyevanın tərcüməsində işıq üzü görmüş “Bir Məcnun vardı” kitabı əsasında və bir sıra yeni əlavələrlə hazırlanıb.

**35.** S.Ə.Rüstəmova-Tohidi. Mart 1918. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə. Bakı, 2009.

Kitabda arxiv materiallarına əsasən 1918-ci ilin mart ayında ermənilərin Bakıda törətdiyi vəhşiliklər açılıb göstərilmişdir.

**36.** Ç.Mirzəzadə. Hübeyş Tiflisinin ərəbcə-farsca “Qanun əl-ədəb” lüğəti. Bakı, “Nurlan” nəşriyyatı, 2009.

Ərəb leksikoqrafiyasının inkişafında Azərbaycan alimlərinin də böyük rolu olmuşdur. Orta əsrlər müsəlman mədəniyyətinin parlaq simalarından biri də görkəmli Azərbaycan ensiklopedist-alimi Əbul Fəzl Hübeyş Tiflisi olmuşdur.

Əbu-l-Fəzl Hübeyş Tiflisi dünyanın müxtəlif kitab xəzinələrində saxlanılan və filologiya, tibb, astronomiya və təbiət elmləri sahəsinə aid olan çoxsaylı əsərlərin tərtibçisi olmuşdur. Alimin filoloji əsərləri içərisində onun fundamental leksikoqrafik əsəri olan “Qanun əl-ədəb” əsəri daha çox maraq doğurur.

Əsər tədqiq olunarkən iki əsas problemə – müəllifin ərəb leksikoqrafiyasının inkişafında oynadığı rola və onun bu sahədəki novatorluğuna diqqət yetirilmişdir.

**37.** Ə.R.Bije Seyid Cəfər Pişəvəri. Həyatı və ictimai-siyasi fəaliyyəti, Bakı, “Nurlan” nəşriyyatı, 2009.

Kitabda İranın və Güney Azərbaycanın tanınmış mütəfəkkir-ziyalısı, inqilabçı-demokrat Seyid Cəfər Pişəvərinin həyatından və mübarizəsindən bəhs olunur. Çoxsaylı mənbələr və sənədlər əsasında S.C.Pişəvərinin 55 illik həyatının çalarları, Güneydəki milli-demokratik hərəkatda onun xidmətləri və rolu, Milli Hökumətin süqutundan sonra həyatının son günləri tədqiq və təhlil olunur.

**38.** X.C.Quliyeva-Qafqazlı. Qaracaoğlan. Bakı, “Əli Nəşriyyat Evi”, 2009.

Monoqrafiya türk aşıq şeirinin inkişaf edib zənginləşməsində böyük rol oynamış XVII əsr aşığı Qaracaoğlanın həyat və yaradıcılığına həsr olunmuşdur.

İstər türk duyğuları, istərsə də ictimai motivləri sadə və səmimiliklə, realist səpkidə tərənnüm edən Qaracaoğlan aşıq ədəbiyyatına məxsus olan müsbət xüsusiyyətləri öz əsərlərində yaşatmış, inkişaf etdirmiş və xalq təfəkkürünün mənəvi ehtiyaclarını ödəməkdə mühüm rol oynamışdır.

**39.** E.H.Quliyev. Türk xalqları ədəbiyyatı. Bakı, “SBN” nəşriyyatı, 2009.

Kitabda türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri daxilində ayrı-ayrı türk xalqlarının klassik və müasir dövrləri öyrənilmişdir. Belə ki, Türkiyə türk, özbək, qazax, türkmən, qırğız, tatar ədəbiyyatlarının ən tanınmış ədəbi simalarının həyat və yaradıcılıqları təhlilə cəlb edilmiş, yeri gəldikcə bu ədəbiyyatların mərhələ, dövr xüsusiyyətləri haqqında da fikirlər söylənilmişdir.

**40.** M.Ə.Məhəmmədi. Rza Bərahəni: şeirlər, müsahibələr, araşdırma. Bakı, “Qanun” nəşriyyatı, 2009.

Kitab görkəmli İran alimi, yazıçı, şair və tənqidçi, «İran ədəbi tənqidinin atası» kimi şöhrət tapmış Rza Bərahəninin ədəbi-tənqidi görüşlərinin təhlilinə həsr olunub. Kitabda istər klassik, istərsə də müasir ədəbi mətnlərin təhlilində R.Bərahəninin əsaslandığı nəzəri müddəalar və çağdaş metodoloji prinsiplər aydınlaşdırılır, onların ədəbi tənqidimiz üçün də önəm daşıdığı vurğulanır. Müəllif Rza Berahəni ilə müsahibəyə və onun şeirlərinə də kitabda yer ayırmışdır.

**41.** L.M.Bayramova. “Min bir gecə” ümumşərq ədəbiyyatının mədəni-tarixi abidəsi kimi. Bakı, “MBM” nəşriyyatı, 2009.

Monoqrafiya bu nəhəng abidənin geniş şəkildə araşdırılmasına həsr olunmuşdur. Müəllif abidənin struktur və məzmun, janr və kompozisiya xüsusiyyətlərini təhlil etmiş, əsərin ərəb və ümumşərq ədəbiyyatında yerini aydınlaşdırmışdır.

**42.** A.İmanquliyeva. Biblioqrafiya (Azərbaycan elm və mədəniyyət xadimləri) – Bakı, “Elm”, 2010.

Biblioqrafiyaya daxil edilmiş materiallar bölmələr üzrə və xronoloji qaydada yerləşdirilmişdir. Biblioqrafik göstəricidə A.İmanquliyevanın həyat və fəaliyyətini əks etdirən oçerklər, həyatının əsas tarixləri verilmişdir.

**43.** A.İmanquliyeva. Məqalələr və tərcümələr. (Elmi redaktor f.ü.e.d., prof. G.B.Baxşəliyeva, tərtib edəni, ön sözün və şərhlərin müəllifi f.ü.e.d., prof. Vilayət Cəfər) Bakı, "Bakı Çap Evi", 2010.

Kitabda görkəmli şərqşünas-alim professor A.İmanquliyevanın mühacirət ərəb ədəbiyyatı, sosial və siyasi hadisələrin ərəb ədəbiyyatında inikası, Mixail Nuaymə və Əmin ər-Reyhani irsinin əhəmiyyəti haqqında məqalələri və ərəb ədəbiyyatı korifeylərinin əsərlərindən tərcümələr yer almışdır.

Filologiya elmləri doktoru Vilayət Cəfərovun toplayıb tərtib etdiyi, ön söz və şərhlərini yazdığı, həcmi 30 çap vərəqindən çox olan bu kitabda Azərbaycan ərəbşünaslığının tanınmış simalarından biri olan professor Aida İmanquliyevanın 1964-cü ildən ta həyatının sonuna qədər yazdığı elmi məqalələri və tərcümələri toplanmışdır.

Kitabın elmi redaktoru f.ü.e.d., professor Gövhər Baxşəliyevadır. Azərbaycan və rus dillərində yazılmış məqalələrin təqribən tən yarısı ərəb məhcər ədəbiyyatının üç məşhur siması – Mixail Nuaymə, Əmin ər-Reyhanı və Cübran Xəlil Cübranın yaradıcılıq yoluna, bir qismi XX əsrin sonları və XXI əsrin əvvəllərində Misir, İraq, Suriya və Fələstində cərəyan edən ədəbi proseslərə və digər bir qismi isə Azərbaycan-ərəb, rus-ərəb ədəbi əlaqələrinə həsr olunmuşdur. Kitabın tərcümələr bölümündə professorun M.Nuaymə də daxil olmaqla müxtəlif ərəb yazıçılarından tərcümə etdiyi ən populyar hekayələr Azərbaycan dilində öz əksini tapmışdır.

Kitabdan şərqşünas alimlər, ali məktəb tələbələri, eləcə də böyük oxucu auditoriyası faydalana bilər.

**44.** Ş.M.Mustafayev. Səlcuqilərdən osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı, "Elm" nəşriyyatı, 2010.

Kitabda XI-XV yüzilliklərdə Kiçik Asiyada baş verən siyasi və sosial hadisələr fonunda türk etnomədəni mühitinin formalaşması və inkişafı prosesləri tədqiq edilir. Səlcuq dövründə Anadoluda türk etnik birliyinin təşəkkülü, monqol işğalı nəticəsində Rum Səlcuq dövlətinin süqutu və siyasi hakimiyyətin parçalanması, türk bəylikləri arasında hərbi-siyasi rəqabət və mübarizənin gedişi, Osmanlı dövlətinin

yüksəlişi və bütün bu tarixi hadisələrin kontekstində türk kimliyinin inkişafı və türk etnik şüurunun təkamül dinamikası araşdırılır.

**45.** M.Məhəmmədi. Şəms və Mövlana. Bakı, "Nurlan" nəşriyyatı, 2010.

Kitaba sufizmin və bütövlükdə Şərq bədii-fəlsəfi düşüncəsinin ən parlaq simalarından olan Şəms Təbrizi və Mövlana Cəlaləddin Rumi haqqında müəllifin məqalələri, eləcə də onların yaradıcılığından tərcümələri daxil edilmişdir.

Məqalələrdə Azərbaycan şərqşünaslığı və ədəbiyyatşünaslığında ilk dəfə olaraq Şəms Təbrizinin gerçək şəxsiyyəti və düşüncələri üzərinə işıq salınmış, onun bioqrafiyasının bəzi qaranlıq və mübahisəli məqamlarına aydınlıq gətirilmiş, eləcə də Mövlananın irəli sürdüyü fəlsəfi-ictimai təlimin yığcam və anlaşıqlı şərhinin verilməsinə çalışılmışdır.

**46.** M.D.Kazımov. Məhəmməd İbn Münəvvər Əsrar ət- tövhid fi maqamat əş-şeyx Əbu Səid Əbu Əl-Xeyr. Bakı, 2010.

Məhəmməd ibn Münəvvərin "Əsrar ət-tövhid" əsəri orta əsr farsdilli sufi ədəbiyyatının parlaq nümunələrindən biridir. XII əsrdə qələmə alınmış bu əsərdə məşhur sufi şeyxi Əbu Səid Əbu-l-Xeyrin (967-1049) həyat tərzi öz əksini tapmışdır. Əsərdə sufizmin ayrı-ayrı konseptual məqamları və dini-fəlsəfi aspektləri ilə yanaşı dövrün ictimai-tarixi şəraiti haqqında zəngin materiallar, sufilərin məişət, mənəviyyat və adətlərini özündə əks etdirərək, həmçinin çoxsaylı tarixi şəxsiyyətlər, o cümlədən, filosof və sufi şeyxləri haqqında geniş məlumatlar vardır.

**47.** G. Baxşəliyeva. Məqalələr, məruzələr, müsahibələr. 2 cilddə. Bakı, "Bakı Çap Evi" 2011.

Kitaba millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyevanın 2003-cü ildə nəşr etdirdiyi "Hamıdan ucadır alimin yeri" kitabına daxil edilməyən və pərakəndə halda müxtəlif mətbu nəşrlərdə işıq üzü görmüş məqalə, məruzə, müsahibə və çıxışları, müxtəlif əsərlərə yazdığı ön söz və resenziyaları daxil edilmişdir. Eyni zamanda kitaba müəllifin çap olunmamış bir sıra məqalə və çıxışları da salınıb.

Kitab elmi işçilər, tələbələr, eləcə də elmi və ictimai həyatın ümumi məsələləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**48.** A.M.Abıyev. Türkiyə ədəbiyyatı tarixi. I cild. II nəşr, Bakı, 2011.

Kitab ali məktəblərin tələbləri üçün dərslik kimi yazılmışdır. Burada Türkiyənin şifahi və yazılı ədəbiyyatının XVIII əsrin sonlarına qədərki dövrü əhatə olunmuşdur. Kitabda ayrı-ayrı dövrlərin qısa tarixi, mədəni və ədəbi icmalı, habelə həmin dövrlərdə yazıb-yaradan görkəmli aşıqların, şairlərin həyatı və yaradıcılığı haqqında ayrıca oçerklər verilmişdir. Kitabda Azərbaycan-Türkiyə ədəbi əlaqələrindən, xüsusilə N.Gəncəvinin, M.Füzulinin türk şairlərinə təsirindən də bəhs olunmuşdur.

**49.** Əbu Hamid əl-Qəzali. Qəlblərin kəşfi. Azərbaycan dilinə tərcümə edən M.Babaşlı. "Fəlsəfi incilər kitabxanası" seriyası. 4-cü kitab. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2011.

Böyük islam alimi və mütəfəkkiri Əbu Hamid əl-Qəzalinin (1058-1111) "Qəlblərin kəşfi" adlı kitabı təsəvvüf elminə, mömininin daxili aləminə, psixologiyasına həsr olunmuş təməl əsərlərdən biri sayılır. Müəllifin mömin insanların daxili aləminin və insan qəlbinin məhrəm sirlərinə münasibəti, zühd, təqva anlayışları ilə əlaqədar məntiqi izahları oxucuda böyük maraq doğurur. İslam aləmində həm də islam psixologiyasının əsasını qoyan alim kimi tanınan İmam Qəzalinin mənsub olduğu dinin min il əvvəl olduğu kimi bu gün də böyük əhəmiyyət kəsb edən problemlərinə və onların həlli yollarına yanaşma tərzi öz yeniliyi ilə fərqlənir.

"Fəlsəfi incilər kitabxanası" silsiləsinin 4-cü kitabı olaraq "Şərq-Qərb" nəşriyyatı tərəfindən 1000 nüsxə tirajla nəşr edilmiş 600 səhifəlik əsərdə tərcüməçinin müvafiq izahları və dini terminlərin qısa sözlüyü də öz əksini tapmışdır.

**50.** Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı - 90. Bakı, "Bakı Çap Evi", 2011.

Kitab Güney Azərbaycanda Ş.M.Xiyabaninin başçılığı altında 1918-1920-ci illərdə baş vermiş xalq hərəkatına həsr edilmişdir. Kitabda güneyli və quzeyli müəlliflərin Xiyabani hərəkatına dair məqalələri toplanılmışdır. Bu məqalələrin bir çoxu "Xiyabani hərə-

katı – 90" elmi konfransında oxunmuş məruzələrdən ibarətdir. Kitabda Xiyabaninin dövrü və şəxsiyyəti, başçılıq etdiyi hərəkatın mahiyyəti, 6 aylıq hakimiyyəti dövründə həyata keçirdiyi tədbirlər, Xiyabani hərəkatının məğlubolma səbəbləri, Güney Azərbaycan milli azadlıq hərəkatı tarixində onun yeri və rolu şərh edilir.

**51.** L.Məlikova. Bəhailiyin qaynaqları və dünyagörüşünün əsas aspektləri (rus dilində) Bakı, 2011.

Monoqrafiya bəzi məqamlarda şiə islamından təsirlənən, lakin yarandığı andan özü ilə islam arasında barışmaz ziddiyyətlər nəticəsində müstəqil inkişaf yolunu axtaran bir dini cərəyanın – bəhailiyin dini-fəlsəfi mahiyyətinin araşdırılmasına həsr olunub. Kitabda bəhai təliminin tarixi, dini-fəlsəfi əsası və ideya mahiyyəti, bəhailiyin Şimali Azərbaycanda yaranma və yayılma tarixi, bəhai icmasının sovet dövründə durumu, müasir Azərbaycanda bəhailiyin inkişaf perspektivləri təhlil edilir. Müəllif belə bir müddəa irəli sürür ki, bəhai təlimini "yeni dünya dini" kimi təqdim etmələri elmi cəhətdən yetərincə əsaslandırılmamışdır. Müasir dinşünaslıqda qəbul olunmuş terminologiyaya müvafiq olaraq, yeni dini hərəkatlar sırasında yer tutmuş bəhailik kitabda sadəcə "yeni dini təlim" kimi qiymətləndirilir.

**52.** G.B.Baxşəliyeva. Taufiq əl-Həkimin ədəbi görüşləri. Bakı, "Elm", 2012.

Kitab müasir ərəb ədəbiyyatının inkişafında misilsiz xidmətləri olmuş XX əsrin görkəmli Misir yazıçısı, dramaturq, publisist və mütəfəkkir Taufiq əl-Həkimin ədəbi görüşlərinin tədqiqinə həsr edilmişdir. Kitaba əlavədə Taufiq əl-Həkimin yaradıcılığından bəzi nümunələrin tərcüməsi verilmişdir.

**53.** M.Kazımov. Farsdilli ədəbiyyatın yeddi əsri. Bakı, "Nafta-Press" nəşriyyatı, 2012.

Kitabda Rudəkidən başlayaraq Vəhşi Bafqiyə qədər X-XVI əsr farsdilli ədəbiyyatın ən məşhur 23 şairi, yazıçısı və mütəfəkkiri haqqında məlumat verilir. Kitab fars ədəbiyyatı üzrə mütəxəssislər, ali məktəblərin şərqşünaslıq və filologiya fakültələrinin müəllim və tələbələri üçün nəzərdə tutulub.

**54.** M.Ə.Məhəmmədi. Güney Azərbaycan məsələləri. Bakı, "Bakı Çap Evi" nəşriyyatı, 2012.

Kitabda müəllifin Güney Azərbaycan probleminə həsr olunmuş məqalə, müsahibə və tərcümələri toplanmışdır. Müəllif Güney Azərbaycan məsələsini xalqımızın perspektivinə birbaşa dəxli olan strateji bir məsələ kimi nəzərdən keçirərək, Güney Azərbaycanın tarixi, mədəniyyəti, ictimai-fəlsəfi fikri, ədəbiyyatı, dili barədə fikirlərini bildirmiş, bununla bağlı qiymətli qaynaqları ilk dəfə oxuculara təqdim etmişdir. Kitabda fars şovinizminin anti Azərbaycan siyasətinin tarixi-ideoloji kökləri açıqlanır, Güneydəki soydaşlarımıza qarşı yürüdülən assimilyasiya siyasətinin müxtəlif yönlərinə işıq salınır. Bütövlükdə kitab Güney Azərbaycanda milli kimlik və mədəni haqlar uğrunda çətin və şərəfli mübarizənin mənzərəsini canlandırır.

**55.** D.Ə.Vəliyev. Beynəlxalq iqtisadiyyat. (A.Əsədovla birlikdə) Ali məktəblər üçün dərslik. Bakı, "Avropa" nəşriyyatı, 2012.

Kitabda beynəlxalq ticarət nəzəriyyələri, beynəlxalq ticarət siyasəti, valyuta bazarı və valyuta sistemləri, maliyyə, kapital və işçi qüvvəsinin beynəlxalq hərəkəti, tədiyyə balansı və beynəlxalq inteqrasiyaya dair müasir nəzəri baxışlar, onların praktikada tətbiqi məsələləri, qloballaşma dövründə beynəlxalq iqtisadiyyatın xüsusiyyətləri kompleks şəkildə xarakterizə edilmişdir. Müasir qloballaşma şəraitində Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sistemində iştirakı, eləcə də beynəlxalq inteqrasiya proseslərində iştirakın daha da səmərələşdirilməsi istiqamətləri faktiki materiallar əsasında ətraflı təhlil edilmişdir.

**56.** M.Babaşlı. Ərəbcə-azərbaycanca lüğət (siyasi, hərbi terminlər lüğəti və beynəlxalq təşkilat adları). Qafqaz Universitetinin nəşriyyatı, Bakı, 2012.

Lüğətdə müasir ərəb dilində işlənən siyasi və hərbi terminlərin Azərbaycan dilində tərcüməsi verilmişdir. Həmçinin ərəb dilində işlənən beynəlxalq təşkilat adlarının tərcümələri təqdim olunmuşdur. Bu, siyasi və hərbi mövzuda nəşr olunmuş ilk terminoloji lüğətdir. Ərəbşünaslar, ərəb filologiyası və ərəb ölkələri üzrə regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün qiymətli mənbə olacaqdır. Müasir ərəb mətnləri, tərcümə nəzəriyyəsi və təcrübəsi dərslərində istifadəsi nəzərdə tutulur.

**57.** Z.T.Rəhimova. Şirin və Fərhad. "P.M.Kompani" nəşriyyatı, Bakı, 2012.

"Şirin və Fərhad" Nizaminin "Xosrov və Şirin" və onun davamçılarından Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov", Əlişir Nəvainin "Fərhad və Şirin", Arif Ərdəbilinin "Fərhadnamə", Mir Əqil Kövsərinin "Fərhad və Şirin" məsnəviləri ilə obraz, motiv, epizod səviyyəsində səsləşən və müəyyən özəllikləri ilə seçilən miniatür bir əsərdir.

Orijinalı əldə edə bilməyən mütərcim əsərin farsdilli müəllifi və onun məzmununun kürdcə tərcüməsində nə dərəcədə qorunub saxlanılması barədə bir söz deməsə də, kürdcə tərcüməyə istinadla əsərdə Nizami ilə yanaşı xalq ədəbiyyatından da geniş istifadə olunduğunu bildirir. Mətndə Arif Ərdəbilinin "Fərhadnamə", Nəvai və Kövsərinin "Fərhad və Şirin" əsərləri ilə səsləşən motivlərin də özünü göstərməsi farsdilli müəllifin mövzunun türk xalqları ədəbiyyatında yayılmış versiyalarından da bəhrələndiyini göstərir. Bu əsər Yaxın və Orta Şərq xalqlarının ədəbi-bədii əlaqələrinin köklərinin üzə çıxarılması, Nizami ənənələrinin kürd ədəbiyyatına təsiri, eləcə də "Fərhad və Şirin" mövzusunun tarixi ədəbi qaynaqlarının tədqiqi işində əhəmiyyətlidir.

**58.** Ş.Ə.Əlibəyli. Farsca-rusca-azərbaycanca müxtəsər lüğət. Bakı, "Nafta-Press" nəşriyyatı, 2012.

Lüğətdə feillər üçüncü şəxsin təkində göstərilmişdir. Ərəb dili flektiv dillərdən olduğu üçün bir sözün kök hərflərini bilməklə müxtəlif formalar əsasında ondan yaranan bəzi sözlərin mənasını ayırd etmək mümkündür. Buna görə də, lüğət bu prinsipə əsaslanaraq tərtib olunmuşdur.

Kitabın mətnindən savayı əlavələr hissəsi də vardır. Əlavələr bunlardır: ərəb əlifbası, ərəb dilinin qrammatikası haqqında qısa məlumat, ərəb ölkələrinin xəritə, bayraq və gerbləri, lüğətdə işlənmiş bir çox sözlərin təsvirləri, klassik ərəb dilçiliyi terminologiyasının izahlı lüğəti, ərəb dilində işlənən deyimlər, Mendeleyevin dövri elementlər sistemi, hərbi terminlər, həndəsi terminlər, coğrafi terminlər, bürclər, insanın anatomiyası, elm adları və onların izahlı tərcüməsi.

11700 sözü əhatə edən bu lüğət Yusif Mirbabayevin 1945-ci ildə tərtib etdiyi lüğət əsasında hazırlanıb. Y.Mirbabayevin lüğətindən

fərqli olaraq, təqdim olunan lüğətdə farsca sözlərin transkripsiyası verilib. Lüğətin sözlüyü fars, rus və Azərbaycan dillərinin tezlik lüğətlərində yüksəktezlikli sözlər əsasında müəyyənləşdirilib. Yeri gəldikdə mövcud farsca, rusca, azərbaycanca lüğətlərə müraciət olunub, bir çox sözlərin tərcüməsi dəqiqləşdirilib, yeni sözlər əlavə edilib. Rusca, azərbaycanca sözlük yeni orfoqrafiya qaydalarına uyğunlaşdırılıb.

Lüğət fars, rus, və Azərbaycan dillərinə maraq göstərən, onları müstəqil öyrənən geniş oxucu kütləsi, tələbələr və orta məktəb şagirdləri üçün nəzərdə tutulub.

**59.** A.Ə.Əlizadə. Ərəbcə-azərbaycanca lüğət (II cild). Bakı, “Nurlar” nəşriyyatı, 2012.

İki cildlik bu lüğət “Əl-Muncid”, “Lisənu-l-arab”, “Maurid”, “Əl-Vasit” kimi mötəbər ərəb mənbələrindən istifadə etməklə tərtib olunmuşdur. Ərəb mənbələri ilə yanaşı, onların tərcüməsində böyük işlər görmüş İran ərəbşünaslarının, məsələn, “Əl-Muncid”i tərcümə edən Əhməd Səyyah və Məhəmməd Bəndərrigi kimi müəlliflərin əsərlərinə də müntəzəm şəkildə müraciət edilmişdir. Lüğətdə müxtəlif elm sahələri, o cümlədən tibb, anatomiya, botanika, zoologiya ilə bağlı terminlərə geniş yer ayrılmışdır. Mötəbər lüğətlərin əksəriyyətində təkcə sözlərin tərcüməsi deyil, həm də onların latın dilində olan mənaları verildiyindən burada elmi terminlərin, latın dilində olan qarşılığı verilmişdir. Tibb və anatomiya ilə bağlı latın mənşəli sözlər mötərizədə kiçik hərflə, botanika ilə bağlı terminlər isə mötərizədə böyük hərflə verilmişdir. Belə bir üsul lüğətin elmi dəyərini artırır.

Bundan başqa, lüğətdə Quran ayələri, hədislər, atalar sözlərindən də istifadə olunub. Belə bir üsul Quran ayələrini dərk etmək baxımından lüğətin dəyərini daha da artırır. İslam ölkələrində, o cümlədən Azərbaycanda müqəddəs Qurana olan marağı nəzərə alaraq, lüğətdə həm ayələr, həm ayələrin nömrələri, həm də aid olduğu surələr dəqiqliklə verilmişdir. Quran ayələrinin tərcüməsində isə akad. V.Məmmədəliyev və akad. Z.M.Bünyadovun tərcüməsindən istifadə olunmuşdur.

**60.** M.Ə.Məhəmmədi. Tərcümə çələngi. Bakı, “Nurlan” nəşriyyatı, 2012.

Kitaba müəllifin müxtəlif illərdə fars, türk və rus dillərindən etdiyi tərcümələr – şeir və nəsr nümunələri, məqalə və müsahibələr daxil edilmişdir. Toplunun "Şeir" hissəsində çağdaş Çin (Ay Kinq), ərəb (Fədva Toqan, Nizar Qəbbani, Qasım Həddad), Türkiyə (Əhməd Ünal Çam, Mehparə Ögüt) şairləri ilə bərabər, İranın farsdilli poeziyasının inkişafında xidmətləri olan cənubi azərbaycanlıların (Məftun Əmini, Hüseyn Münzəvi, Şəhram Şeydayi, Məzahir Şəhamət, Rəsul Yunan) şeirlərinin tərcümələri verilmişdir. "Nəsr" hissəsində Frans Kafka, Xorxe Luis Borxes, Per Lagervist, Qulamhüseyn Saidi, Henrix Böll, Raziyə Tüccar, Fridrix Dürrenmatt, Spujməy Zərrab, Şəhruz Rəşid kimi nasirlərin hekayələri ilə tanış olmaq mümkündür. "Məqalə" bölməsində klassik və müasir ədəbiyyatın müxtəlif problemlərinə həsr edilmiş maraqlı məqalələr toplanmışdır (İren Məlikovanın "Yunus Əmrə və Hacı Bektaş", Katerina Momzenin "Höte müsəlman idimi?", Robert B.Reyin "Postmodernizm nədir?" və s. məqalələr). "Müsahibə" hissəsində rus yazıçısı Vladimir Nabokov, Meksika yazıçısı Karlos Fuentes, Livan şairi Məhəmməd Əli Şəmsəddin, serb yazıçısı Milorad Paviç və digərləri ilə müsahibələr verilir.

Kitab dünya ədəbiyyatı mütəxəssisləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**61.** V.İ.Məmmədov. Şərqşünaslıq İnstitutunda fars dilçiliyi. Bakı, "Bakı Çap Evi", 2013.

1958-ci ildə Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun yaradılmasından etibarən bu elmi müəssisədə fars dilinə aid bir sıra tədqiqatlar aparılıb. İnstitut yaranan vaxtdan ötən 55 ildə burada fars dilinin qrammatikası, sintaksisi, leksikologiyası, leksikoqrafiyası və tarixinə dair dəyərli əsərlər yaradılıb. İnstitutda ilk olaraq, Həsən Zərinəzadə, Cəmilə Sadıqova və Təyyibə Ələsgərova, daha sonra Şəfəq Əlibəyli, Elmira Əlibəyli fars dilçiliyi sahəsində tədqiqatlar aparmağa başlayıblar. Son dövrdə institutun fars dilini tədqiq edən alimləri sırasına Vüqar Məmmədov, Günay Verdiyeva və Aybəniz Həsənova da qatılıblar.

"Şərqşünaslıq İnstitutunda fars dilçiliyi" kitabı institutda bu sahənin öyrənilməsi tarixini tam əks etdirir, nəşr edilən kitablar, müdafiə edilən dissertasiyalar haqqında ətraflı, dolğun məlumat verir.

**62.** İlham Əliyev – qədim xalqların dostluğunun müasir davamçısı. Tərtib edəni: c.ü.f.d. R.İ.Abbasov. Bakı, "Qanun Nəşrlər Evi", 2013.

Kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-2013-cü illər ərzində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafında həyata keçirdiyi fəaliyyəti əks olunmuşdur.

**63.** İslam. Ensiklopedik lüğət. Tərtib edənlər: G.B.Baxşəliyeva, Ə.Abbasov. Bakı, "Elm", 2013.

İslam ensiklopedik lüğəti islamın yaranma və yayılma tarixini, Quranın leksikası və hekayələrini, müsəlman icmaları tarixini, müsəlman ilahiyyatı və fəlsəfəsini, müsəlman dövlətçiliyinin nəzəri və praktiki məsələlərini, orta əsr müsəlman cəmiyyətindəki sosial-siyasi və iqtisadi münasibətləri, sufi təlimlərini, müsəlman hüququnun nəzəri və tətbiqi məsələlərini, islamın və islam fəlsəfəsinin görkəmli şəxsiyyətlərini, habelə ölkəmizin bu dinlə bağlılığını, Azərbaycanın şeyxülislamları, müftiləri, axundları və bəzi başqa din xadimləri haqqında məlumatları ehtiva edir.

**64.** Ə.R.Bije. S.C.Pişəvəri. Türkiyə, Trabzon, "Eser Ofset Matbaaçılık" nəşriyyatı, 2013.

Kitabda İranın və Güney Azərbaycanın görkəmli ziyalısı, inqilabçı-demokrat Seyid Cəfər Pişəvərinin həyatından və mübarizəsindən bəhs olunur. Çoxsaylı mənbələr və sənədlər əsasında S.C.Pişəvərinin 55 illik həyatının çalarları, Cənubi Azərbaycan milli-demokratik hərəkatında onun xidmətləri və rolu, Milli Hökumətin süqutundan sonra həyatının son günləri tədqiq və təhlil olunur.

**65.** A.M.Abıyev. Sərvəti-fünun ədəbiyyatı. Bakı, "Təknur", 2013.

Monoqrafiyada çağdaş Türkiyə ədəbiyyatının tənzimatdan sonrakı "Sərvəti-fünun" dönəminin poeziyası, nəsri, dramaturgiyası, satirası və ədəbiyyatşünaslıq məsələləri tədqiq olunur. T.Fikrət, N.Xanım, C.Şəhabəddin, X.Ziya, Ə.Ə.Bolayır, Ə.H.Müftüoğlu, H.Cahid, M.Rauf, S.Nazif kimi görkəmli sənətkarlar haqqında geniş bilgi verilir. Yeri gəldikcə Azərbaycan ədəbiyyatı ilə əlaqələrdən də söhbət gedir.

**66.** R.A.Cümşüdlü. Füzulinin ərəbcə poetik irsi. Bakı, 2013.

Monoqrafiyada ilk dəfə olaraq Məhəmməd Füzulinin ümumi yaradıcılığı üçün xarakterik olan bir sıra məsələlərin – Füzulinin fəlsəfi-dini görüşləri, etik-estetik qənaətləri, sufizmə münasibəti, məhəbbət konsepsiyası və s. kimi mövzuların dahi söz ustadının ərəbcə poetik irsindəki təcəssüm və bədii təfsiri araşdırılır. Füzulinin ərəbcə şeirləri ərəb poetik ənənələri zəminində tədqiq edilərək mövzu seçimində ənənə və varislik əlaqələri, poetik ifadə tərzi və leksik fonddakı ümumi müştərəklik üzə çıxarılır.

**67.** E.Məmmədov. Quran ayələrinin mövzular üzrə təsnifatı – Fehrist. 3 cilddə, Türkiyə, İstanbul, 2013.

Çoxcildlikdə eyni mövzuya aid "səpələnmiş" ayələr bir yerə toplanmışdır. Fehrist Qurani-Kərimlə daha yaxından tanış olmağa, ondakı hikmət, buyruq və qadağaları, ibrətamiz göstərişləri öyrənməyə imkan verir və Qurandan istifadəni asanlaşdırır. Fehristin sayəsində bir mövzu ilə bağlı bütün ayələrlə tanış olmaq mümkündür.

Ümumilikdə isə Fehristdə dörd minə yaxın mövzu cəm edilib. Fəsillər bölümlərə, bölümlər paraqraflara, paraqraflar da altparaqraflara bölünür. Belə bir tərtibat Fehristdən istifadəni asanlaşdırır. Hər bir fəslin öz mündəricatı olsa da, Fehristin son hissəsində ümumi əlifba indeksi vardır. Bu həm axtardığı mövzunu tapmaqda oxucunun işini asanlaşdırmaq, həm də Fehristin ümumi mündəricatı rolunu oynamaq üçündür.

**68.** M.Kazımov. Nəcməddin Razinin "Mirsadül-ibad" əsəri (tərcümə və şərhlər), "Nafta Press", Bakı, 2014.

Nəcməddin Razinin "Mirsadül-ibad" əsəri ən məşhur və ciddi sufi əsərlərindən biridir. 1223-cü ildə yazılmış bu əsər sufi mühitinin savadlı dairələrində tez bir zamanda məşhurluq qazandı. Beş fəsil və qırx hissədən ibarət olan əsər sufizmin nəzəri və praktik məsələlərinə həsr olunmuşdur. Əsərdə müəllifin dünyanın yaranışı haqqında baxışları verilir, insanın dünyada yeri və təyinatı müəyyənləşdirilir.

Kitab sufizm və islamla, orta əsr fəlsəfəsi, ədəbiyyatı və mədəniyyəti ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

**69.** Güney və Quzey Azərbaycan: ensiklopedik təqvim. (Tərtib edənlər: Ə.R.Bije, S.Bayramzadə) "Apastroff" nəşriyyatı, Bakı, 2014.

Ensiklopedik təqvim Azərbaycan tarixinin qədim dövründən başlayıb günümüzə qədər tarixi olaylar, siyasi, ədəbi və mədəniyyət

xadimləri barədə yığcam məlumatları oxuculara təqdim edir. Təqvim geniş oxucu kütləsi, ali və orta məktəb tələbələri, müəllimlər, informasiya vasitələrində çalışanlar üçün hazırlanmışdır.

**70.** Seyid Cəfər Pişəvəri. Zindan xatirələri. Tərtib edən: Ə.R.Bije. Bakı, "Bakı Çap Evi", 2014.

Cənubi Azərbaycanın görkəmli siyasi xadimi Seyid Cəfər Pişəvəri 1930-1941-ci illərdə Rza şah zindanının siyasi məhbuslarından olmuşdur. O, "Qəsr-Qacar" zindanında məhbus həyatı sürərkən zindan həyatının ağlagəlməz faciələrinin şahidi kimi qeydlər aparmış, sonra onları "Zindan xatirələri" kimi farsca çap etdirmişdir. Adı çəkilən kitab dilimizə tərcümə edilmiş və ön sözlə birlikdə çap olunmuşdur.

**71.** Ə.R.Bije. Güney Azərbaycan: tarix və müasirlik, Bakı, "Zərdabi" nəşriyyatı, 2014.

Topluda Cənubi Azərbaycanın sosial-siyasi, iqtisadi və mədəniyyətinə aid 14 müəllifin məqaləsi yer almışdır. Topludakı məqalələrdə 1918-ci il soyqırımı, Urmiya gölünün indiki durumu, İran türkləri, farslaşdırılmış türk toponimləri, Türkmənçay müqaviləsində təhrif edilmiş coğrafi yer adları, İranda millətçilik, Azərbaycan məsələsi və s. mövzular əks olunmuşdur.

**72.** İ.Qasımlı. Əlaəddin Çələbinin "Taci-Ədəb" əsəri (transliterasiya və şərhlər), Bakı, 2014.

Əlaəddin Çələbi XV əsr türk ədəbiyyatının tanınmış simalarındandır. Onun "Taci-Ədəb" əsəri AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan üç əlyazma nüsxəsi əsasında çapa hazırlanmışdır. Kitab 27 bölümdən ibarətdir. Hər bölüm ayrıca bir mövzunu əhatə edir.

**73.** F.Məcidova. Əmin ər-Reyhani yaradıcılığında Ərəb Şərqi, "Zərdabi" nəşriyyatı, Bakı, 2014.

Monoqrafiya ərəb məhcər ədəbiyyatının korifeylərindən biri olan, Amerikada böyüyüb təhsil almış, lakin Şərq ruhuna daim sadiq qalaraq bütün yaradıcılığı boyu Şərq dəyərlərini tərənnüm etmiş Əmin ibn Faris ər-Reyhaninin (1876-1940) Ərəb Şərqi ilə bağlı ədəbi düşüncələrinin tədqiqinə həsr olunmuşdur. Əsərdə ədibin ərəb ölkələrinə səyahəti zamanı qələmə aldığı poeziya nümunələri, esse, hekayə və oçerkləri, habelə publisist məqalələri şərqşünaslıq baxı-

mından araşdırılıb tədqiq olunmuşdur. Əsər "Şərq-Qərb ədəbi əlaqələri və təsvir dairələrinin öyrənilməsi" kontekstində mühüm əhəmiyyət daşıyır.

**74.** Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri. (Ərəb dilindən tərcümə edən: E.Məmmədov) Bakı, "CBS – Polygraphic Production", 2014.

Kitabda beynəlxalq münasibətlərə dair islam nöqteyi-nəzəri təqdim olunur, orta əsr islam fikrinin indiki dövrdə fəal və səmərəli rol oynaya bilməməyinin gizli səbəblərinə toxunulur. Bununla yanaşı, belə bir suala cavab tapmağa cəhd göstərilir ki, beynəlxalq münasibətlər sahəsində, sülh, əmin-amanlıq, əməkdaşlıq kimi aktual problemlərə baxışda Qərb fikrinin müvəffəqiyyətsizliyə uğramasından irəli gələn çatışmazlıqları aradan qaldırmada islam fikri nə üçün yeni alternativlər təqdim edə bilməyib. Kitabda islama görə yeni beynəlxalq münasibətlər modelləri müəyyənləşdirilmişdir.

**75.** Salim əl-Bəhnəsavi. Dialoq və fikir ayrılığı ədəb-ərkanı. (Ərəb dilindən tərcümə edən: E.Məmmədov) Bakı, "CBS – Polygraphic Production", 2014.

Kitabda dialoq və fikir ayrılığı probleminin metodoloji həllinə cəhd göstərilmişdir. Müəllif müsəlman dünyasında fikir plüralizminin doğurduğu müsbət nəticələr, çoxfikirliliyin tərəqqiyə rəvac verməsi, həyatın dəyişkən təbiəti ilə səsləşməsi, sosial-mədəni, siyasi-iqtisadi, həm də məişət sahələrində yüngülləşdirici faktor olması məsələlərinə toxunmuşdur. İslam coğrafiyasında "kafirlikdə, bidətdə, fasihlikdə günahlandırma" problemindən çıxış yolu göstərilmiş, islamın dialoq üslubu (qeyri-müsəlmanlarla), fikir plüralizminin səbəbləri və digər mövzular işlənmişdir. Kitab tarixi-müqayisəli metodologiya əsasında yazılmışdır.

**76.** Əbdülhəmid Əbu Süleyman. Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası. Ərəb dilindən tərcümə edən: E.Məmmədov, Bakı, "CBS – Polygraphic Production", 2014.

Kitabda islamın etiqad azadlığına verdiyi əhəmiyyətdən, fərdin şəxsi seçiminə ehtiramından danışılır. Müəllif etiqad azadlığı fonunda dönüklərin cəzalandırılması faktının doğurduğu bir sıra ziddiyyətlərdən söz açır, problemə müxtəlif aspektlərdə toxunur.

**77.** Əbdülhəlim Əbu Şəqqə. Peyğəmbər dövründə qadın azadlığı. (Ərəb dilindən tərcümə edən: E.Məmmədov), Bakı, "CBS – Polygraphic Production", 2014.

Misirli müəllif Əbdülhəlim əbu Şəqqənin (1924-1995) qələmə aldığı bu kitabda Peyğəmbərin yaşadığı dövrdə qadınların hüquq və vəzifələrindən bəhs edilir. Kitabdakı müddəalar mötəbər hədislərlə əsaslandırılır. Kitabın əsas məzmunu həmin dövrdə qadınların sosial fəaliyyətin əsas fiqurlarından olduqlarını təsdiqləyir. Onlar yeni yaranmış müsəlman icması və cəmiyyətinin işində yaxından iştirak etmiş, qurub-yaratma, təlim-təhsil, tərbiyə işinə töhfələr vermişlər.

**78.** Əbdülhəmid Əbu Süleyman. Quranda evlilik münasibətlərinin həlli. Ərəb dilindən tərcümə edən: E.Məmmədov, Bakı, "CBS – Polygraphic Production", 2014.

Kitabda ailədaxili münaqişələrə Quranın baxışı göstərilmiş, qadın-kişi münasibətlərinin, qadına islamda verilmiş əhəmiyyətin psixoloji-sosial tərəflərinə toxunulmuşdur.

**79.** Süleyman Dərgahın "Səfərnamə" əsəri (fars dilindən tərcümə edən: Ş.Əhmədov). "Zərdabi" nəşriyyatı, Bakı, 2014.

Əsər əlyazmadır. Onun əsli İran Milli Şura Məclisinin Kitabxanasında 2311 saylı şifrə ilə saxlanılır. Süleyman xanın "Səfərnamə"si 1881-ci ildə qələmə alınmışdır. Adından da göründüyü kimi, bu əsər səfərnamə janrında yazılmışdır. Müəllif dövrün ziyalılarından biri və həm də qələm əhli olmuşdur. O, Təbrizdə açılan mədrəsəyə müəllim təyin edilmiş və bunun üçün Tehrandan Təbrizə getmiş, bir müddət orada yaşamış, mədrəsədə dərs demiş və sonra yenidən Tehrana geri qayıtmışdır.

Yazıçı həyatının bu dövrünü və başına gələnləri, gördüklərini və təəssüratlarını əsərində təsvir etmişdir. Əsər o dövrün həyatı, məişəti haqqında maraqlı məlumatlar verir və mükəmməl təsəvvür yaradır.

**80.** Məhəmməd Sadiq Naibi. Fars dilində min türk sözü. Fars dilindən tərcümə edən: A. Həsənova. Bakı, 2014.

"Fars dilində min türk sözü" adlı bu əsər qonşu xalqın ədəbiyyatında rast gəlinən türk sözləri haqqında geniş bir tədqiqat işidir. Bu tədqiqatda fars dilinə daxil olmuş türk mənşəli min sözün etimologiyası verilmiş, qədim türk mənbələri əsasında onların mənaları aşkarlanmış-

dır. Türk dilində sözlərin çoxu fars dilindən fərqli olaraq feil kökünə malikdir. Feillər bu dildə qrammatik qayda-qanuna tabedir. Məhz bu kriteriyaya əsasən sözün türk mənşəli olmasını sübut etmək olar.

**81.** F.ü.f.d. S.A.Səlimova. Ərəb bədii nəsrində İlkin Abbasilər dövrünün təsviri. Bakı, "Araz" nəşriyyatı, 2015.

Monoqrafiyada ilk dəfə olaraq ədəbi, elmi-mədəni, eləcə də xarici sahələrdə Azərbaycanla yaxından bağlı olan Abbasilər dövrünün ilk yüzilliyində mühüm qlobal məsələlərin ərəb folkloru və bədii nəsrində inikası əhatəli şəkildə araşdırılır. Abbasi xəlifələrinin dövlətin idarəçilik və mədəni sahələrdəki mühüm tədbirlərinin ölkənin çiçəklənməsindəki müsbət rolu real faktlar fonunda şərh edilərək təsbit edilir.

**82.** İ.ü.f.d. Ə.Rəhimli (Bije). "21 Azər"ə gedən yol. Bakı, "Araz" nəşriyyatı, 2015.

Kitabda 1941-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkatdan bəhs olunur, 21 Azərə (12 dekabr) gedən mübarizə yolu tədqiq və təhlil edilir.

Müəllifin oxucuların diqqətinə təqdim olunan bu əsərində keçən yüzilliyin 40-cı illərində Güney Azərbaycandakı sosial, siyasi, iqtisadi və mədəni durum, baş vermiş olayların məzmun və mahiyyəti, 21 Azərin qələbəsindən sonra yaradılmış Azərbaycan Milli Hökumətinin fəaliyyəti yetərincə öz əksini tapmışdır.

Eyni zamanda da kitabda Azərbaycan Milli Hökumətinin süqutunun səbəbləri, Azərbaycanda irticanın yenidən baş qaldırması və şah rejiminin qanlı olayları ilkin mənbələrdəki faktlar və sənədlər əsasında təqdim edilir.

**83.** T.ü.f.d. S.Z.Bayramzadə. "21 Azər – 70". Fotoalbom. Bakı, "Araz" nəşriyyatı, 2015.

"21 Azər – 70" fotoalbomu tarixi fotoşəkillər və sənədlər əsasında tərtib edilmişdir və təqdim olunan bu albomda 1945-1946-cı illərdə Cənubi Azərbaycanda baş vermiş milli-demokratik hərəkat, Azərbaycan Milli Hökuməti, onun birillik fəaliyyəti, dövlətçilik tariximizdə bu hərəkatın yeri və rolu, qoyduğu izlər və təsirlər yetərincə öz əksini tapmışdır.

1945-1946-cı illərdə Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi altında yaradılmış Azərbaycan Milli Hökumətinin fəaliyyəti, gördüyü işlər və məğlubiyyəti ilə bağlı hadisələri əks etdirən bu albomun

tərtibatında o dövrə aid müxtəlif sənədlər və fotoşəkillərdən, hərəkatda fəal iştirak etmiş və onun canlı şahidi olmuş şəxslərin xatirələrindən, eləcə də arxiv sənədlərindən istifadə edilmişdir.

Albom bugünkü və gələcək nəsli tariximizin şanlı bir səhifəsi ilə tanış etmək, onlara vətənpərvərlik hislərini aşılamaq məqsədilə tərtib edilmişdir.

**84.** Orta əsrlər Şərqi: tarixşünaslığın və mənbəşünaslığın aktual məsələləri (Sovet İttifaqı qəhrəmanı, akademik Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş məqalələr toplusu). Bakı, "Elm", 2015.

Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığının aktual məsələlərinə aid məqalələr toplusu görkəmli şərqşünas-tarixçi, Sovet İttifaqı qəhrəmanı, akademik Z.M.Bünyadovun xatirəsinə həsr edilib, beynəlxalq alimlər kollektivinin iştirakı ilə hazırlanmışdır. Topluya Azərbaycan mediyevist-tarixçilərinin əsərləri ilə birlikdə, Rusiya, Gürcüstan, Tacikistan, Kanada və ABŞ alimlərinin məqalələri də daxil edilmişdir.

**85.** G.B.Baxşəliyeva. Əsassız erməni iddiaları və tarixi faktlar. Suallar və cavablar. Bakı, "Elm", 2016.

Tərcümə 2011-ci ildə Ankarada Strateji Araşdırmalar Mərkəzi tərəfindən ingilis dilində nəşr edilən "Armenian allegations and historical facts. Questions and answers" ("Əsassız erməni iddiaları və tarixi faktlar. Suallar və cavablar") kitabının əsasında edilmişdir.

**86.** H.Səfəri. Cənubi Azərbaycan: 1918-ci il soyqırımı. "Araz" nəşriyyatı, 2016.

Monoqrafiyada Birinci Dünya müharibəsinin gedişində (1914-1918-ci illər) Qərb dövlətləri, eləcə də Rusiyanın köməyi sayəsində yaradılan birləşmiş erməni silahlı dəstələri tərəfindən Cənubi Azərbaycanın qərb bölgəsində (Urmiya, Salmas, Xoy və ətraf yaşayış məntəqələrində) 200 minə qədər azərbaycanlının soyqırıma məruz qalması araşdırılır. Oxuculara təqdim olunan kitabda bəzi Qərb dövlətləri və çar Rusiyası nümayəndəliklərinin, eləcə də missioner təşkilatların Azərbaycan və Türkiyə ərazisində dənizdən dənizə "Böyük Ermənistan" yaratmaq məqsədilə erməniləri təşkilatlandırıb silahlandırmaları mötəbər mənbələr əsasında araşdırılıb təhlil edilir.

Monoqrafiya tədqiqatçılar, müəllim və tələbələr, geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**87.** İ.Əlimuradov. IX-X əsrlər azərbaycanlı hədisşünas alim Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli). "Araz" nəşriyyatı, 2016.

Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli) hədisşünas alim, öz dəsti-xətti, elmi üslubu və metodu ilə hədis tarixinin "Qızıl dövrü" adlandırılan hicri III (miladi IX) əsrə yenilik gətirməyə nail olmuş azərbaycanlı din alimlərindən biridir.

Monoqrafiyada, ümumiyyətlə İslam, Qurani-Kərim və hədis tarixindən xüsusilə isə əl-Bərdicinin həyatından, təhsilindən, elmi fəaliyyətindən, nüfuzundan bəhs edilmiş, onun əsərləri geniş şəkildə təhlil edilmiş, müxtəlif əlyazma nümunələri monoqrafiyaya əlavə edilmişdir. İslam ilahiyyatının hədis sahəsində kifayət qədər aktual mövzuları əhatə edən altı əsərin müəllifi olan Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli) hicrətin 301-ci (m.914) ilinin ramazan ayında Bağdad şəhərində vəfat etmişdir.

**88.** F.ü.f.d. R.Rzayeva. Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri. Bakı, "Papirus NP" nəşriyyatı, 2016.

Kitabda dahi Nizami Gəncəvinin müasiri Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri ilk dəfə olaraq geniş ədəbi-mədəni kontekstdə və müasir elmi səviyyədə araşdırılmışdır. "Munisnamə"nin janr səciyyəsi və mənbələri tədqiq olunmuş, əsərə daxil olan süjetlərin təkamülü və yayılması zəngin ədəbi material əsasında nəzərdən keçirilmişdir. Bununla da "Munisnamə"nin ədəbi-tarixi dəyəri aydınlaşdırılmış, abidənin farsdilli ədəbiyyat tarixində yeri müəyyənləşdirilmişdir.

Monoqrafiya şərqşünaslar, filoloqlar, eləcə də klassik Şərq ədəbiyyatı ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**89.** Orta əsrlər Azərbaycan tarixinə aid ərəb mənbələrindən seçmələr. Tərcümə, qeyd və şərhlərin yazılması və tərtibi: t.ü.f.d. N.Bayramlı. Bakı, 2016.

Orta əsrlər Azərbaycan tarixinə aid ərəb mənbələrindən seçmələr: 1) Əbu Duləf ikinci risalə (məktub), 2) əl-istəxri. Kitab Məsalik əl-məmalik (Məmləkətlərin yolları kitabı) - çıxarışlar. 3) Şihab əd-Din ən-Nəsəvi. Sultan Cəlal əd-Din Mənkburnunun həyatının təsviri - çıxarışlar.

Adları çəkilən bu mənbələrin hər birində Azərbaycanın (həm şimalı, həm də cənubu) tarixi, coğrafiyası, milli tərkibi, yeraltı və yerüstü sərvətləri, tarixi-memarlıq abidələri, adət-ənənələri, mədəniyyəti və s. haqda çoxlu maraqlı və qiymətli məlumatlar vardır.

Qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilən mənbələrdən alınan çıxarışların tərcüməsi ərəbcə mətnlərlə tutuşdurulmaqla digər dillərdəki variantlar əsasında həyata keçirilmişdir. Məsələn, Əbu Duləfın "İkinci Risalə"si P.Q.Bulqakov və A.B.Xalidovun rus dilində nəşr etdirdikləri (P.Q.Bulqakov i A.B. Xalidov. Vtoraya zapiska Abu Dulafa. M, 1960), "Əbu Duləfın İkinci Risaləsi" kitabı və kitabda verilmiş ərəbcə orijinal mətn əsasında, eləcə də ən-Nəsəvinin "Sultan Mənkburnunun həyatının təsviri" əsərinin tərcüməsi akad. Z.M.Bünyadovun 1973-cü ildə Bakıda çap olunmuş "Jizneopisaniye Sultana Jalal ad-Dina Mankburn" kitabına istinadən mətnlə bağlı qeyd və şərhlər daxil olmaqla həyata keçirilmişdir.

Tərcümə medievist tarixçilər və geniş oxucu kütləsi üçün faydalı ola bilər.

**90.** T.ü.f.d. S. Talıblı. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Bakı, "Elm və təhsil", 2016.

Monoqrafiyada İİR hakimiyyətinin Qafqaz siyasətində Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda mövqeyi, eyni zamanda onun həlli istiqamətində göstərdiyi təşəbbüslər və atdığı addımlar maraqlı və əyani faktların qarşılıqlı müqayisəsi fonunda ortaya qoyulmuşdur.

**91.** T.ü.f.d. Ü.Əliyeva. XXI əsrin əvvəllərində ABŞ-Çin münasibətləri, monoqrafiya, "Elm və Təhsil", 2016.

Monoqrafiyada XXI əsrin əvvəllərində ABŞ və Çin arasında münasibətlər hərtərəfli tədqiq olunmuş, iki ölkə arasında iqtisadi və siyasi əlaqələr ətraflı, sistemli və müqayisəli şəkildə təhlil edilmişdir.

Əsərdə iki ölkə arasında münasibətlərin gizli və aşkar tərəfləri, maraqlarının toqquşduğu və uzlaşdığı sahələr araşdırılaraq, bütövlükdə münasibətlərin vəziyyəti işıqlandırılmışdır.

**92.** Edqar Qranvil Çar Rusiyasının Türkiyə siyasəti. Türk dilindən Azərbaycan dilinə tərcümə: f.ü.f.d. B.Osmanova. "Araz" nəşriyyatı, 2016.

Kitabda Edqar Granvillin 1915-ci ildə bilavasitə şahidi olduğu hadisələr, rus çarizminin Türkiyəni məhv etmək və torpaqlarını mənimsəmək məqsədilə qondarma "erməni məsələsi"ni ortaya atması və istədiyini həyata keçirmək üçün müxtəlif fitnəkarlıqlar törətməklə Avropa ölkələrinə təzyiq etməsindən, o dövrdə rus, erməni və Avropa mətbuatında nəşr olunmuş sənədlər əsasında geniş və tərəfsiz şəkildə bəhs olunur. Bir avropalı tərəfindən yazılan bu kitab faciələrin nəticəsinin deyil, səbəb və səbəbkarının üzə çıxarılması baxımından Azərbaycan oxucusu üçün həm ibrətamiz, həm də maraqlıdır.

**93.** Türk mətbuatında erməni məsələsi. Türk dilindən Azərbaycan dilinə tərcümə: E.Xəlilova. "Zərdabi" nəşriyyatı, 2016.

Bu kitabda ayrı-ayrı müəlliflərin türk mətbuatında çıxan məqalələri və çap olunmuş kitablardan "erməni məsələsinə" dair məlumatlar toplanmışdır. Bu məlumatlar ölkədəki ictimai-siyasi vəziyyət, Türkiyəni parçalamaq məqsədi ilə ölkənin şərqində ermənilərə muxtariyyət verilməsini vəd edən xarici dövlətlərin təhriki ilə ermənilərin üsyana qalxmaları və asayişi pozmaları, türklərə qarşı qanlı cinayətlər və qırğınlar törətmələri, verdikləri işgəncə və zülmlər, tarixi həqiqətlər və sübut olunmuş faktlar əsasında yazılmışdır.

**94.** T.ü.e.d. S. Tohidi. Азербайджанские погромы в Шемахе. 1918. На основе документов Чрезвычайной Следственной Комиссии. Moskva, "Stolisa".

Şamaxıda Azərbaycan qırğınları. 1918. Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında. Moskva, "Stolisa", 485 s.

Bu monoqrafiya 1918-ci il mart-iyul aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının 110 kəndində erməni-bolşevik hərbi qüvvələri tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı hadisələrinə həsr olunub. Bu hadisələr zamanı Şamaxı şəhərinin bütün yaşayış məhəllələri 13 məscidi ilə tamamilə yandırılmış, 18000-dən artıq dinc azərbaycanlı əhali, o cümlədən qadın, uşaq və qocalar qətlə yetirilmişdir. Monoqrafiya AXC hökuməti tərəfindən 1918-ci il 15 iyul tarixində yaradılan Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında yazılmış, erməni, rus-molokan və bolşeviklərin Şamaxı qırğınlarında rolu ayrıca tədqiq olunmuşdur. Şirvanın qədim dövrlərdən başlayaraq 1918-ci ilə qədər tarixinə, eləcə də Şirvan ərazisinin

əhalisinin tarixinə həsr edilmiş ayrıca fəsillərdə bu qədim diyarın tarixi mənzərəsi yaradılmış, ermənilərin bu torpaqlara gəlmə əhali olduğu göstərilmişdir. 486 səhifədən ibarət olan monoqrafiyaya geniş informasiya-məlumat aparatı, tarixi şəkillər, Şamaxı şəhərinin və qəzasının 1918-ci il tarixi xəritəsi əlavə edilmişdir.

**95.** F.ü.e.d. prof. A.M.Abıyev. Şəxs adlarının ensiklopedik lüğəti. 2 cilddə, Bakı, "Təknur", 2016, I cild – 528 s.; II cild – 536 s.

Bu əsərdə əsasən azərbaycanca və türkcə olan şəxs adlarının ensiklopedik lüğəti verilmişdir. Yeri düşdükcə lüğətdə ərəb və fars adlarının da adı çəkilir və izahı verilir. Ensiklopedik lüğət ilk dəfə olaraq bu qədər geniş və əhatəli, yəni iki qalın cilddə izah edilir. Kitabda geniş müqəddimə (22 səhifə) və istifadə olunmuş mənbələr də verilmişdir. Ümumiyyətlə, iki cildlik şəxs adlarının izahlı ensiklopedik lüğətinin buraxılması ilk dəfədir ki, Azərbaycanda yerinə yetirilibdir.

**96.** Söhrab Sipehri. Suyun ayaq səsi. Redaktoru: Səhər Barami. Fars dilindən tərcümə edən: Məsiağa Məhəmmədi. Tehran, 2016

Tanınmış şərqşünas və tərcüməçi, AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu İran filologiyası şöbəsinin müdiri Məsiağa Məhəmmədinin görkəmli İran şairi Söhrab Sipehrinin yaradıcılığından etdiyi tərcümələrdən ibarət "Suyun ayaq səsi" adlı kitab Tehrandakı "Təkderəxt" nəşriyyatında Azərbaycan dilində ərəb əlifbasında çap edilib.

Nəşrə Söhrab Sipehri yaradıcılığının bütün mərhələlərini əks etdirən seçmə şeirlərlə bərabər, məşhur "Suyun ayaq səsi" poemasının fars dilindən tərcüməsi də daxil edilib.

Məsiağa Məhəmmədi kitaba geniş ön söz də yazaraq, şair olmaqla yanaşı, həm də istedadlı bir rəssam kimi tanınan Söhrab Sipehrinin həyat və yaradıcılığı, poeziyasının özünəməxsus cəhətləri, XX əsr modernist İran şeirinin inkişafında onun rolu və xidmətləri barədə oxuculara ətraflı məlumat verib.

Min nüsxə tirajla işıq üzü görmüş kitabı Güney Azərbaycanın tanınmış şairi Səid Muğanlı nəşrə hazırlayıb, redaktoru Səhər Barani, rəssamı Səid Şeyxbəgludur.

**97.** C.ü.f.d. R. Abbasov. Azərbaycan çinşünaslığı. Monoqrafiya, Bakı, 2016, "Mütərcim", 324 s.

R.İ.Abbasovun müəllifi olduğu “Azərbaycan çinşünaslığı” adlı kitabda Azərbaycanda Çin dilinin tədrisinin tarixi, Konfutsi İnstitutunun fəaliyyətinin nümunəsi olaraq, Çin dili üzrə ilk milli dərsliyin yaradılmasından bəhs olunur. Əsərdə həmçinin Azərbaycan və Çin Xalq Respublikası arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın nəticələrinə həsr olunmuş elmi seminarların əsas materialları təqdim olunmuşdur. Kitabda Azərbaycanın Böyük İpək yolunun bərpası üzrə layihədə Azərbaycanın iştirakının perspektivlərinə xüsusi diqqət yetirilmişdir.

**98.** T.ü.f.d. Ə.H.Şəfiyeva. Seyid Həsən Tağızadə və İranın modernləşməsi. Bakı, “Araz” nəşriyyatı, 2016, 274 s.

Monoqrafiya XIX əsrin II yarısı, XX əsrin son rübünə qədər İranda modernləşdirmə uğrunda aparılan hərəkata, modernləşdirmə cərəyanlarına, eyni zamanda İranın görkəmli siyasi, ictimai və dövlət xadimi Seyid Həsən Tağızadənin öz ölkəsinin modernləşməsi prosesində roluna, bu prosesin başlıca məqamlarına və xüsusiyyətlərinə həsr olunmuşdur. Monoqrafiyada Seyid Həsən Tağızadənin şəxsiyyəti, elmi fəaliyyəti, ictimai düşüncələri və ideologiyası geniş tədqiq edilmişdir.

Kitab tarixçilər, həmçinin müasir Şərqin sosial-mədəni tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**99.** Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş “Müasir şərqşünaslığın aktual problemləri” (Ziya Bünyadov qiraətləri) mövzusunda beynəlxalq konfrans. (16-17 oktyabr 2017-ci il) Bakı, “Elnar 2016”, 2017, 266 s.

**100.** Akademik Ş.M.Mustafayev. От сельджуков до османов. Этнополитические процессы в тюркской среде Малой Азии в XI-XV веках. Москва: ИВРАН – МИЦАИ, 2017 – 440 с. (monoqrafiya) Səlcuqilərdən Osmanlılara. XI-XV əsrlərdə Kiçik Asiya türk mühitində etnosiyasi proseslər.

Kitabda XI-XV əsrlərdə Kiçik Asiyada baş verən siyasi və sosial hadisələrin fonunda türk etnomədəni mühitinin formalaşması və təkamülü prosesləri tədqiq edilir. Səlcuq dövründə Anadoluda türk etnik birliyinin təşəkkülü, monqol işğalı nəticəsində Rum Səlcuq

dövlətinin süqutu və siyasi hakimiyyətin parçalanması, türk bəylikləri arasında hərbi-siyasi rəqabət və mübarizənin gedişi, Osmanlı dövlətinin yüksəlişi və bütün bu tarixi hadisələrin kontekstində türk kimliyinin inkişafı və türk şüurunun təkamül dinamikası araşdırılır.

**101.** İbn əl-Fəqih əl-Həmədani. Əxbar əl-buldən (Ölkələr haqqında məlumatlar). Ərəb dilindən çevirən, giriş hissəsi və şərhlərin müəllifi: t.ü.f.d. Fərda Əsədov. Bakı, "Adiloğlu" nəşriyyatı, 2017, 96 s.

Kitab X əsr tanınmış ərəb coğrafiyaşünası İbn əl-Fəqih əl-Həmədaninin "Əxbar əl-buldən" əsərinin 1923-cü ildə Məşhədin Astane-i Qüds-i Rəzəvi kitabxanasında aşkar edilmiş əlyazmasının türklərə aid iki fəslinin ərəb dilindən şərhli tərcüməsini əhatə edir. Giriş hissəsində bu əsərin orta əsr ərəb coğrafi ədəbiyyatında önəmi haqqında bəhs edilir. Əlyazmanın türklər haqqında məlumatları türk xalqlarının islamaqədərki tarixinin öyrənilməsində əhəmiyyəti baxımından dəyərləndirilir. Şərhlərdə geniş elmi ədəbiyyat əsasında bəzi mübahisəli məsələlərə aydınlıq gətirən nəticələr təqdim edilir. Əlavədə əlyazmanın aydın xəttat yazısı ilə köçürülmüş ərəb mətni təqdim edilir.

Kitab qədim türk tarixini araşdıran tədqiqatçılar, orta əsr ərəb mənbələrini öyrənən mətnşünaslar, vətənimizin və türklərin tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**102.** T.ü.f.d. Y.Hacıyeva. İran İslam İnqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər). Bakı, "Adiloğlu" nəşriyyatı, 2017, 306 s.

Kitabda 1979-2005-ci illərdə İran İslam Respublikası hakim qüvvələrinin Azərbaycan türkcəsini sıxışdırmaq və azərbaycanlıların milli şüurunu kosmopolitləşdirmək cəhdlərinə qarşı Cənubi Azərbaycan türklərinin mübarizəsinin tarixi araşdırılmışdır.

Müəllif gərgin ictimai-siyasi kataklizmlərin, sosial-mədəni təbəddülatların, panfarsist siyasi sistemin və ideologiyasının təsirinə məruz qalan cənubi azərbaycanlıların həm İran daxilində, həm də xaricdə Azərbaycan dilinin statusunun yüksəldilməsi və funksiyalarının genişləndirilməsi uğrunda mübarizəsinin tarixi şəraitə uyğun olaraq formalaşması prosesini tədqiq etmişdir. Elmi araşdırma milli məsələyə həsr edilmiş növbəti tədqiqat əsəri olaraq çoxaspektli dil

məsələsinin birbaşa bağlılığı ilk baxışdan aydın görünməyən digər aspektlər – iqtisadi, siyasi, hüquqi, dini, sosial, demoqrafik, regional və qlobal dəyişikliklər və s. nöqteyi-nəzərdən araşdırılması baxımından da əhəmiyyətlidir.

**103.** Mirzə Müslüm Qüdsi İrəvani və onun "Divan"ı. (Farscadan tərcümə edən: f.ü.f.d. Şəmsi Pənahoğlu) Bakı, 2017, 196 s.

Torpaqlarımızın 20 %-dən çoxunun işğal altında olduğu, ölkəmizə qarşı hər cür gizli və açıq əsassız iddiaların irəli sürüldüyü, dövlətimizin və dövlətçiliyimizin günü-gündən möhkəmlənməsini heç cür sindirə bilməyən bədxahlarımızı bəzi aparıcı dünya dövlətlərinin ikili standartları ucbatından yerlərinə oturtmaqda və ərazi bütövlüyümüzü bərpa etməkdə çətinlik çəkdiyimiz bir vaxtda M.M.Q.İrəvaninin "Divan"ının yeganə nüsxəsinin ortaya çıxarılması, tərcüməsi və tədqiqi həm də İrəvan şəhərinin və tarixi "Çuxursəəd" vilayətinin milli türk kimliyinin minlərlə təkzibolunmaz faktlarından biri kimi əhəmiyyətlidir. Bu mənada adıgedən "Divan"ın tədqiqi mühüm ədəbi-bədii və mədəni hadisə olmaqla yanaşı, həm də siyasi mahiyyət daşıyır və bədnam qonşularımıza tutarlı bir cavabdır.

**104.** F.ü.f.d. Ş.Pənahoğlu. URMU dünyanı yandıran müharibədə. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017, 384 s.

I Dünya müharibəsi ərzində və ondan bir neçə il sonra İranın geniş əraziləri xarici hərbçilərin özbaşınalıq səhnəsi olduğuna görə məhəlli üsyanlar baş verirdi. Ancaq bu dövrdə Urmuda baş vermiş fəlakətlərin şiddəti və bəlaların inanılmazlığı baxımından onları ölkənin başqa bölgələrində baş verənlərlə müqayisə etmək mümkün deyildir. Həmin dövrdə İran Xarici İşlər Nazirliyinin Urmu İdarəsinin rəisi olmuş və bu hadisələri öz gözləri ilə görmüş Rəhmətulla xan Mütəmədülvüzaranın xatirələri buna canlı şahiddir.

**105.** Hüseyn Əlizadə (Barış Mərəndi). "21 Azər" soyqırımı (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar). Fars dilindən tərcümə edən: Saleh Dostəliyev. "Elm və təhsil" nəşriyyatı, Bakı, 2017, 376 s.

Oxuculara təqdim olunan kitab Pəhləvi rejimi dövründə İranda öz milli və mədəni hüquqlarını qorumaq uğrunda mübarizəyə qalxmış

və Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə 12 dekabr (şəmsi təqvimi ilə "21 Azər" günü) 1945-ci il tarixində Milli Hökuməti qurmuş xalqımıza və onun vətənpərvər övladlarına qarşı 1946-47-ci illərdə rejim tərəfindən soyuqqanlılıqla və qəddarlıqla törədilən kütləvi qırğınlar, qətl və qarətlərin tarixi təhlilinə həsr edilib. Bu günə qədər az məlum olan, elmi ədəbiyyatda kifayət qədər işıqlandırılmayan, sözün əsl mənasında soyqırım mahiyyəti daşıyan bu olaylar haqqında məlumat toplamaq məqsədi ilə müəllif hadisə iştirakçıları və şahidlərinin xatirələrindən, uzun bir dövr ərzində çap edilmiş müxtəlif və çoxlu sayda mətbuat orqanları səhifələrindəki materiallardan, həmin hadisələri əks etdirən gizli hərbi və polis raportlarından 1941-1946-cı illərdə Cənubi Azərbaycanda milli-demokratik hərəkata həsr edilmiş elmi-tədqiqat əsərlərindən istifadə etmişdir. Kitab tarixçi alimlər, tələbələr və xalqımızın tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**106.** F.ü.f.d. G.Verdiyeva. Fars dilinin söz yaradıcılığında ərəb məsdərlərinin rolu. Bakı, 2017, 160 s.

Tədqiqat fars dilinin leksikasında geniş yer tutan ərəb alınma sözlərinin (I və II bab ərəb məsdərlərinin modelləri üzrə) fars dilinə nüfuz etməsi yolları və onların bu dilin söz yaradıcılığında oynadığı rola həsr olunmuşdur. Əsər giriş, üç fəsil, nəticə, iki əlavə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Qeyd etmək lazımdır ki, fars dilində işlənən ərəb alınmaları, xüsusən də birinci və ikinci bab ərəb məsdər modelləri fars dilinin lüğət tərkibinə daxil olduqdan sonra orada bir növ seyrçi rolunda çıxış etməmiş, əksinə, bu dilin zənginləşdirilməsinə güclü təkan vermişdir. Tədqiqatı məhz bu zənginləşməni, bu inkişafı əhatəli əks etdirən ilkin araşdırma hesab etmək olar.

**107.** İ.ü.f.d. Ə.Rəhimli (Bije). Cənubi Azərbaycan: düşüncələr, problemlər. Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2017, 400 s.

Oxuculara təqdim olunan bu toplu AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi Əkrəm Rəhimlinin (Bije) son 17 ildə yazdığı məqalə, müsahibə və rəylərindən seçmələrdir. Məqalələrdə Cənubi Azərbaycanda baş vermiş olayların elmi-siyasi və tarixi-ədəbi səpkidə şərhi verilir.

Kitab tarixçi alimlər, tələbələr və Cənubi Azərbaycanın müasir durumu ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**108.** F.ü.f.d. Т.Садыгов. Сопоставление определенного артикля, слитных местоимений с именами и предлогами, а также употребление имен в сопряженной конструкции в арабском языке и в иврите. Тбилиси, 2017, 152 с.

Ərəb və ibri dillərində müəyyənlik artiklın isimlərlə və önlüklərlə işlənən bitişən əvəzliklərin, həmçinin təyini söz birləşməsinin müqayisəli şəkildə istifadə olunması.

Hazırkı kitab iki qohum dillər olan ərəb və ibri dillərinin müqayisəsinə həsr olunub. Müqayisə zamanı əsas məqsəd isimlərin (və ya sözlərin) morfoloji və sintaksis baxımından təhlilini aparmaq, həmçinin bu əsərdə isimlərin müəyyənlik halda olan zaman baş verən dəyişikliklərini (vurğuların yerdəyişməsi, hərəkələrin dəyişikliyi və s.) göstərmək idi.

**109.** F.ü.f.d. M.Həmidov. Mihail Nuaymenin Poetikası ve Şiirleri; Ankara Universiteti Dil və Tarix-Coğrafiya Fakültəsi, Kitabın elmi redaktoru professor Rahmi Er, Doğu Dilləri və Ədəbiyyatları nəşriyyatı, Ankara, Bizim büro yayın evi, 2017, 254 s.

Monoqrafiyada müasir ərəb ədəbiyyatının inkişafında istər nəzəri, istərsə də praktiki olaraq öz töhfəsini vermiş Mixail Nuaymənin poetik yaradıcılığı tədqiq olunmuşdur.

Ədəbi şəxsiyyəti müxtəlif mədəniyyətlərin təsiri nəticəsində formalaşan M.Nuaymənin nəzəri və praktiki görüşləri fərqli ədəbi-fəlsəfi cərəyanlarla müqayisəli şəkildə işlənmiş, şeir sənəti ilə bağlı ədəbi-tənqidi görüşlərinin, nəzəri fikirlərinin onun öz şeirlərində hansı səviyyədə əks olunduğunun yaradıcılığından nümunələr əsasında tədqiq olunaraq aşkar edilməsi və bununla da tənqidçi Nuaymə ilə şair Nuaymə arasında oxşar və fərqli cəhətlərin üzə çıxarılaraq müəyyənləşdirilməsi bu tədqiqatın əsas elmi yeniliyidir.

Monoqrafiyada klassik ərəb ədəbiyyatı cizgisindən uzaqlaşan Nuaymənin ədəbiyyatın məqsədi, qayəsi mövzusundakı yenilikçi ideyaları araşdırılmış, poeziya sənətində fəlsəfi mövzuların işlənməsinin nə qədər uğurlu alındığı poetik təhlillər əsasında göstərilmişdir.

**110.** İlah.ü.f.d. M.Babaşlı (həmmüəlliflərlə: filologiya üzrə fəlsəfə doktoru Abdin Uveys Yunis, filologiya üzrə fəlsəfə doktoru Qafar

Ocaqlı, filologiya üzrə fəlsəfə doktoru Anar Eyvazov). Ət-tariq iləl-Arabiyyə. Qeyri-ərəblərə ərəb dilinin tədrisi. Qeyri-ərəb dili ixtisası tələbələri üçün 6 hissədən ibarət dərs vəsaiti, II hissə, Qafqaz Universiteti, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2017, 146 s.

Filologiya, tarix, beynəlxalq münasibətlər, həmçinin digər Şərq ölkələri üzrə regionşünaslıq kimi qeyri-ərəb dili ixtisaslarında əlavə dil olaraq öyrənən tələbələr üçün nəzərdə tutulmuş altı hissədən ibarət "ət-Tariq iləl-arabiyyə" adlı dərs vəsaitinin II hissəsi on iki dərsi əhatə edir. Dərs vəsaiti ərəb dilində sadə və orta çətinlikli müasir mətnləri lüğət vasitəsilə oxuyub başa düşmək, tərcümə etmək, şifahi nitq vərdişləri qazandırmaq məqsədini daşıyır. Sadədən mürəkkəbə doğru prinsipinə uyğun olaraq hazırlanmışdır. Kitabda dilin mənimsənilməsini asanlaşdırmaq üçün şəkillərdən geniş şəkildə istifadə edilmişdir.

Dərs vəsaitindən ərəb dili ixtisasında təhsil alan tələbələrlə yanaşı, dil kurslarında və müstəqil şəkildə ərəb dilini öyrənənlər də faydalana bilər.

**111.** F.ü.f.d. Ə.S.Musarza oğlu. Ərəb dilinin dialektləri və İraq dialekti ilə İraq-türkman dili arasında əlaqə. Bakı, 2017, 216 səh.

Monoqrafiya müasir ərəb aləmində mövcud dil situasiyası, ərəb dilinin dialektləri və xüsusilə də ərəb dilinin İraq dialekti və İraq-türkman dili ilə əlaqəsi kimi mürəkkəb bir mövzuya həsr olunmuşdur. Əsər "ərəb və türkman xalqlarının yanaşı yaşamasında dil əlaqələrinin, eləcə də müasir ərəb dünyasında gerçək dil mənzərəsinin öyrənilməsi" kontekstində mühüm əhəmiyyət kəsb edir. Burada ərəb dilinin İraq dialektinin şərq qrupu dialektləri içərisində mövqeyi, İraq dialektinin formalaşmasında ekstrolinqvistik faktorlar və onun sözügedən dialektin müasir vəziyyətinə təsiri, ədəbi dil və dialektlərin perspektiv inkişafı məsələləri öyrənilir, İraq türkmanları, onların dili, tarixi və mədəniyyəti haqqında məlumat verilir, İraq-türkman dilində alınmalar və onun ərəb dili ilə əlaqəsi məsələsi tədqiq olunur.

**112.** T.ü.e.d., prof. S.R.Tohidi. Azərbaycan tarixi. 11-ci siniflər üçün dərslik. Bakı, 2017, 207 s.

**113.** T.ü.e.d., prof. S.R.Tohidi. 1918-ci il Göyçay, Cavad, Ərəş. Azərbaycan qırğınları sənədlərdə. Bakı, 2017, 424 s.

Bu nəşr 1918-ci ilin iyul ayında Azərbaycan Parlamenti tərəfindən yaradılan Fövqəladə Tədqiqat Komissiyasının bütün Zaqafqaziya ərazisində yaşayan müsəlman əhalisinə və onların mülklərinə qarşı Birinci Dünya müharibəsinin ilk dönəmi zamanı törədilən zorakılıq, talan və soyğunçuluq faktlarının araşdırılması məqsədilə topladığı sənədlər toplusudur. Topluya FTK materiallarının bir hissəsi: 1918-ci ilin mart-iyun aylarında Azərbaycanın üç qəzası - Göyçay, Cavad, Ərəş ərazisində erməni-bolşevik silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən zorakılıq, talan və soyğunçuluğa aid sənədlər daxil edilmişdir.

Ermənilərin həmin qəzaların dinc müsəlman əhalisinə qarşı törətdikləri vəhşilik və qəddarlıq haqqında çoxsaylı faktlar ölkənin bütün ərazisində dinc azərbaycanlı əhalinin məqsədyönlü kütləvi məhv edilməsi planının mövcud olmasına işarə edir. Topluya, həmçinin məsələnin tarixinə dair elmi oçerk, ətraflı köməkçi informasiya apparatı, fotoşəkillər və sözügedən qəzaların xüsusi məzmunlu xəritələri daxildir.

**114.** “Azərbaycan” qəzeti. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1945-1946-cı illər, Təbriz), (Tərtibçi: t.ü.f.d. Bayramzadə Səməd Zülfəli oğlu ) I hissə. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2017, 292 səh.

“Azərbaycan” qəzetinin ilk sayı 5 sentyabr 1945-ci il tarixində Azərbaycan Demokrat Firqəsinin rəsmi mətbu orqanı kimi çap edilərək xalq arasında yayılmış və Azərbaycanda milli-demokratik hərəkatın süqutunadək (12 dekabr 1946-cı il) 370 sayı dərc edilmişdir. Qəzetin sonuncu sayı 11 dekabr 1946-cı ildə nəşr edilmişdir.

Qəzet öz səhifələrində Azərbaycan xalqının tarixini və mədəniyyətini, istək və arzularını, uğrunda mübarizə apardığı müqəddəs məqsədi, İran hakimiyyətinin ölkəni uçuruma aparmasını, fəlakət və bədbəxtliklərin səbəblərini, İran xalqlarının demokratiya və azadlıq tələblərini, eyni zamanda da xalqın iradəsi ilə yaradılmış Azərbaycan Milli Hökumətinin ictimai, iqtisadi, siyasi və mədəni sahələr üzrə həyata keçirdiyi islahatları, Azərbaycan cəmiyyətinin demokratik əsaslar üzərində qurulub möhkəmləndirilməsi sahəsində fəaliyyətini, bütün İran miqyasında demokratik hüquqlar uğrunda mübarizəsini hər bir sayında çox aydın bir şəkildə əks etdirmişdir.

**115.** "Şərq filologiyası məsələləri" toplusu (X buraxılış). "Araz" nəşriyyatı, Bakı, 2017, 438 s.

Şərq filologiyası məsələləri toplusu Şərqşünaslıq İnstitutu əməkdaşlarının, doktorant və dissertantlarının bu sahədə olan araşdırmalarını təqdim edir. Topluda ərəb, fars, türk və uzaq Şərq xalqları filologiyasına dair məqalələr toplanıb.

**116.** "Azərbaycan şərqşünaslığı" №1 (15) 2017.

Jurnalın bu sayında ərəb məhcər ədibi Əmin ər-Reyhaniyə həsr olunmuş yazılar, Seyid Cəfər Pişəvəri, Məhəmməd Əli Cinnah, Mahatma Qandi, İsmayıl bəy Qaspıralı kimi şəxsiyyətlərlə əlaqədar məqalələr, Azərbaycan Respublikasında islam həmrəyliyinin ideoloji-siyasi əsasları, Azərbaycanda Şərq və Qərb mədəniyyətlərinin sintezi problemi və s. mövzularda materiallar dərc edilib. Bu sayda həmçinin Şərqşünaslıq İnstitutunda çap olunan son kitablar, keçirilən tədbirlər barədə məlumatlar təqdim edilib.

# KONFRANS, SİMPOZİUM VƏ TƏDBİRLƏR

***Qeyd olunan illər ərzində institut tərəfindən keçirilən aşağıdakı konfrans və simpoziumları respublikamızın elmi həyatı üçün mühüm hadisə hesab etmək olar:***

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr olunmuş iclas, 6 may 2008**

İclasda institutun direktoru, f.ü.e.d., prof. G.B.Baxşəliyeva, Din və ictimai fikir tarixi şöbəsinin müdiri fəl.ü.f.d. E.Y.Həsənova, i.ü.f.d. Ə.R.Bije və başqaları çıxış etmiş, ulu öndərin Azərbaycan elminin inkişafındakı rolundan danışmışlar.

**Görkəmli ədəbiyyatşünas alim akademik H.Araslının 100 illiyinə həsr olunmuş sessiya (Nizami adına Ədəbiyyat Muzeyi ilə birlikdə), 11 mart 2009**

Elmi sessiyada böyük alimin Azərbaycan ədəbiyyatının inkişafı sahəsindəki xidmətlərinə dair məruzə və çıxışlar dinlənilmişdir.

**T.ü.e.d. S.Ə.Rüstəmova-Tohidinin "Mart 1918. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə" adlı kitabının təqdimatı, 22 aprel 2009**

Təqdimat mərasimində institutun direktoru, f.ü.e.d., prof. G.B.Baxşəliyeva, müəllif t.ü.e.d. S.Ə.Rüstəmova-Tohidi, Milli Arxiv İdarəsinin rəisi A.Paşayev, Ədəbiyyat Muzeyinin direktoru, müxbir üzv R.B.Hüseynov, müxbir üzv N.Cəfərov, ABŞ-ın Prinson Universitetinin professoru Maykl Reynold və b. çıxış etmiş, kitabın əhəmiyyəti haqqında danışmışlar.

**Seyid Cəfər Pişəvərinin xatirəsinə həsr olunmuş tədbir, 26 avqust 2009**

Şərqşünaslıq İnstitutunun Dünya Azərbaycanlıları Konqresi ilə birlikdə keçirilən tədbirində xalqımızın tanınmış mütəfəkkir ziyalısı

inqilabçı-demokrat Seyid Cəfər Pişəvərinin ictimai-siyasi fəaliyyətinə dair məruzələr dinlənilmişdir.

**Görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın 70 illiyinə həsr olunmuş "Ərəb filologiyası sahəsində gənc alimlərin ən yaxşı elmi-tədqiqat əsəri" adlı müsabiqə, 8 oktyabr 2009**

Şərqşünaslıq İnstitutunun Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə keçirdiyi bu müsabiqəyə 15 nəfər gənc ərəbşünas öz elmi əsərlərini təqdim etmişdir. Həmin əsərlərdən üçü qalib seçildi. Bu əsərlər əsasən gənc alimlərin dissertasiya işləri, diplom işləri və kitablarından ibarət idi. 8 oktyabr 2009-cu il tarixində keçirilən iclasda professor Aida İmanquliyevanın Azərbaycan elminin inkişafı sahəsində xidmətləri qeyd olunmuş, müsabiqə iştirakçıları mükafatlandırılmışdır. İnstitutun direktoru f.ü.e.d., professor G.B.Baxşəliyeva öz çıxışı zamanı bildirmişdir ki, müsabiqənin keçirilməsi professor Aida xanım İmanquliyevanın xatirəsinə, onun şərqşünaslıq elmindəki və Azərbaycan ictimai fikrindəki roluna ehtiramdır. Eyni zamanda, bu tədbir gənc alimləri gələcəkdə daha ciddi elmi tədqiqatlar aparmağa təşviq edir.

**"Müasir Şərqin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli" mövzusuna elmi konfrans, 17-18 mart 2010**

Mart ayının 17-18-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkil etdiyi "Müasir Şərqin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli" adlı ümumrespublika elmi-nəzəri konfrans keçirilmişdir. AMEA Rəyasət Heyətinin binasında keçirilmiş plenar iclasda millət vəkili, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyeva şərqşünaslıq elminin çox geniş profilli olduğunu qeyd edərək, bu sahədə klassik dövrlə bağlı tədqiqatlarla yanaşı, Şərq ölkələrinin müasir inkişafının, sosial-iqtisadi və mədəni həyatının araşdırıldığını da söyləmişdir.

Ölkəmizin müstəqilliyinin ilk illərində siyasi, sosial-iqtisadi böhran içində olduğunu xatırladan G.B.Baxşəliyeva, ümummilli lider Heydər Əliyevin qayıdışından sonra bütün bu hallara son qoyuldu-

ğunu, siyasi sabitliyin yarandığını, iqtisadi inkişaf üçün mühit yaradıldığını qeyd etmişdir. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında əldə etdiyi iqtisadi uğurlarla dünya ölkələrinə bir nümunədir. Daha sonra öz işini institutda "Müasir Şərqin sosial-iqtisadi inkişafı və Azərbaycanın inkişaf modeli", "Qloballaşma və Şərq ölkələrinin sosial-siyasi inkişafı", "Qloballaşma və Şərq ölkələrinin iqtisadi inkişafı" kimi bölmələrdə davam etdirən konfransda "Azərbaycanda rəqabət qabiliyyətli inkişaf modelinin formalaşmasında dövlətin rolu", "Müasir Türkiyədə ictimai-siyasi vəziyyət, millətçilik və islam", "Ümumdünya sosial-mədəni prosesi ilə müasir Azərbaycanda ictimai-dini vəziyyət arasında qarşılıqlı əlaqə" və s. kimi aktuallığı ilə seçilən mövzularda məruzələr dinlənilmiş, praktik baxımdan da maraq doğura biləcək müzakirələr aparılmışdır.

**"Əhməd Zəki Vəlidi Toğan - 120" mövzusunda beynəlxalq elmi konfrans, 30 aprel 2010**

Müasir türk tarixşünaslığının banilərindən biri sayılan görkəmli başqırd professoru Əhməd Zəki Vəlidi Toğanın 120 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində aprel ayının 30-da Bakıda AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Azərbaycan Milli Kitabxanası, TÜRKSOY və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə beynəlxalq elmi konfrans keçirilmişdir.

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyeva konfransda "Prof. Dr. Əhməd Zəki Vəlidi Toğanın həyatı və elmi fəaliyyəti" mövzusunda geniş məruzə etmişdir. TÜRKSOY-un baş katibinin müavini Fırat Purtaş 17 illik fəaliyyəti olan bu təşkilatın 2010-cu ili Toğan ili elan etmək qərarını bir il öncə məhz Bakıda verdiyini bildirdi. Türkiyə Milli Kitabxanasının direktoru Tuncel Acar "Əhməd Zəki Vəlidi Toğanın həyatı və fikri mücadiləsi" mövzusunda məruzə etmişdir. Onun tarixdə qoyduğu izlərin əbədiliyini, tarix elmində yaratdığı əsərlərin ölümsüzlüyünü qeyd edən T.Acar, Toğanın türkə aid bütün dəyərləri öyrənmək və öyrətmək istəyən qəhrəman

alim olduğunu söylədi. AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi Mirzə Ənsərli "Prof. Dr. Əhməd Zəki Vəlidi Toğanın həyatı və elmi fəaliyyətinin Azərbaycanda öyrənilməsi" adlı məruzə ilə çıxış etmişdir. Tədbirdə həmçinin AMEA-nın müxbir üzvü Tofiq Hacıyev, Qazaxıstanın Tarix və Etnoqrafiya İnstitutunun əməkdaşı tarix elmləri namizədi Altun Ualtayeva, Əhməd Zəki Vəlidi Toğan adına Başqırdıstan Milli Kitabxanasının Əlyazmalar və nadir kitablar şöbəsinin müdiri İldar Kireyev, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları, t.ü.e.d. Solmaz Rüstəmova-Tohidi və t.ü.f.d. Bəşarət Bəşirova Əhməd Zəki Vəlidi Toğan barəsində nitq söyləmişlər.

### "Şeyx Məhəmməd Xiyabani hərəkatı – 90" mövzusunda elmi konfrans, 9 iyun 2010



Azərbaycan xalqının böyük oğlu Şeyx Məhəmməd Xiyabaninin adı ilə bağlı olan "Xiyabani Hərəkatı"nın 90 illiyi münasibətilə iyunun 9-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Şeyx Məhəmməd Xiyabani hərəkatı – 90" mövzusunda elmi konfrans keçirilmişdir. İnstitutun direktoru, millət vəkili, filologiya elmləri dok-

toru, professor Gövhər Baxşəliyeva öz məruzəsində 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında baş vermiş xalq hərəkatından, Azərbaycan Demokratik Partiyası və partiyada Xiyabaninin fəaliyyətindən, onun məqsəd və hədəfindən söhbət açdıqdan sonra Xiyabani şəxsiyyətinin ruhaniliklə yanaşı, inqilabi-demokratik, böyük, mütəfəkkir və vətənpərvər cəhətləri üzərində dayanmış və bu keyfiyyətlərin hərəkatın baş verməsinə və gedişinə göstərdiyi təsiri şərh etmişdir. Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, i.ü.f.d. Əkrəm Rəhimli "Şeyx Məhəmməd Xiyabani hərəkatı və onun Güney Azərbaycanın azadlıq hərəkatında yeri" mövzusunda məruzə etmişdir. Ə.Rəhimli bildirdi ki, 1920-ci ilin aprelində başlayıb həmin ilin sentyabrında məğlub edilməsinə baxmayaraq, Xiyabani hərəkatı Güney Azərbaycanda milli-azadlıq hərəkatının və demokratik mübarizənin gələcəyi üçün şanlı iz və ibrət dərsləri qoyub getmişdir.

### "Heydər Əliyev və Şərq" mövzusunda elmi konfrans, 6 may 2011

Konfransı giriş sözü ilə açan institutun direktoru, millət vəkili, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyeva qeyd etmişdir ki, dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin müstəqil Azərbaycanın dövlət quruculuğu, xarici və daxili siyasəti haqqında fikirləri, ideya və düşüncələri ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəldilmişdir.

Daha sonra institutun böyük elmi işçisi t.ü.f.d. İ.Əsədovun "Heydər Əliyevin xarici siyasətində ərəb ölkələri və islam konfransı təşkilatı", şöbə müdiri f.ü.f.d. X.Quliyeva-Qafqazlının "Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələrinin inkişafında Heydər Əliyev mərhələsi", elmi işçi S.Talıblının "İran İslam Respublikası ilə qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin qurulması və inkişafı (1993-2003-cü illər)" mövzusunda məruzələri və çıxışlar dinlənilmişdir.

**"Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans, 1-2 iyun 2011**

Elmi konfransı giriş sözü ilə açan direktor, f.ü.e.d., professor G.Baxşəliyeva bildirdi ki, Şərqşünaslıq İnstitutu ilə Rumıniyanın Babeş-Bolyai Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutu arasında elmi əməkdaşlığa dair saziş imzalanıb və konfrans da bu çərçivədə keçirilir. Daha sonra Babeş-Bolyai Universitetinin rektoru, professor Andrey Marqa, həmin Universitetin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru, professor Təhsin Cəmil məruzə ilə çıxış etdilər.

İki gün davam edən konfransda dünyanın bir çox ölkələrindən gəlmiş alimlər Şərq xalqlarının dil, ədəbiyyat, mədəniyyət, iqtisadiyyat, fəlsəfə və ictimai fikrinə dair elmi məruzələrlə çıxış etmişlər.

**"Məhəmmədhüseyn Şəhriyar: ədəbi təsir və əlaqələr" mövzusunda beynəlxalq elmi konfrans, 7 dekabr 2011**



Dekabrın 7-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə XX əsr Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndələrindən olan Məhəmmədhüseyn Şəhriyarın ana-

dan olmasının 105 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir. "Məhəmmədhüseyn Şəhriyar: ədəbi təsir və əlaqələr" mövzusunda konfransın işində Azərbaycan alimləri ilə yanaşı, İran və İraqdan olan tədqiqatçılar da iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyeva konfrans iştirakçılarını salamlayaraq konfransın Azərbaycan və bütövlükdə Şərq poeziyasının ən nəhəng simalarından biri, qüdrətli söz ustadı Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 105 illiyinə həsr olunduğunu qeyd etmişdir: "Şəhriyarın poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin canlı aynasıdır. Onun ölməz irsi nəinki Şərq, ümumən dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisidir. Ecazkar poeziyası ilə ürəkləri fəth etmiş şair geniş kütlələrin sonsuz məhəbbətini qazanmışdır. Onun şeirləri bir çox dillərə tərcümə olunaraq, insanların ruhunu oxşamışdır".

G.Baxşəliyeva insanpərvərlik, vətənpərvərlik və xəlqiliyin Şəhriyar yaradıcılığının ana xəttini təşkil etdiyini qeyd edərək, Şəhriyar poeziyasının sənətkarlıq baxımından da yüksələn xətlə inkişaf etdiyini və biz azərbaycanlılara şairi xüsusi sevdirən onun anadilli poeziyasına hopmuş milli ruhun poetik ifadəsinin olduğunu söyləmişdir.

Daha sonra məruzələrə başlanılmışdır. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Nüşabə Araslı "Şəhriyar və klassik Şərq şeiri", Təbrizdən konfransa təşrif buyurmuş araşdırmaçı-yazar Behruz İmani "Heydərbaba məktəbi və onun dünya ədəbiyyatında yeri", AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədi "Şəhriyar və XX əsr İran ədəbi mühiti", İrandan Zəncan Universitetinin müəllimi Müctəba Şüai "Şəhriyarın fars divanı haqqında bir neçə söz", Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Esmira Fuad "Şəhriyar və Türkiyə", ADPU-nun professoru, filologiya elmləri doktoru Elman Quliyev "Tarixi proseslərin ədəbi dilə təsiri", İraqın Kərkük şəhərindən araşdırmaçı-yazar Məhəmməd Mehdi Bayat "Heydərbabaya salam" poe-

masının İraq türkmanları arasında əks-sədası", AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nüşabə Əlizadə "Şəhriyar poeziyası tərcümələrdə", AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli "Şəhriyar və "Varlıq" dərgisi" mövzularında məruzələrində Şəhriyar poeziyasından söhbət açmışlar.

Məruzələrdən sonra tədbirdə iştirak edən Xalq şairi, Şərqşünaslıq İnstitutunun əməkdaşı Söhrab Tahir, İran alimlərindən Əli Haşimi ürək sözlərini söyləmişlər.

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş elmi sessiya, 4 may 2012**

Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünü AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi də böyük ehtiramla qeyd etmişdir. Mayın 4-də Şərqşünaslıq İnstitutunda bu münasibətlə elmi sessiya keçirildi. İnstitutun direktoru, millət vəkili, professor Gövhər Baxşəliyeva çıxışında ulu öndərin Azərbaycan xalqının həyatında oynadığı böyük roldan danışdı: "Heydər Əliyev Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir. Azərbaycanın tarixinin 40 ili ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər xalqımızın tarixinə gördüyü misilsiz işlərlə böyük qurucu şəxsiyyət kimi düşüb. Onun həm sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycan xalqına xidmətləri əvəzsizdir. Mən onu ən böyük azərbaycanlı, ən böyük vətənpərvər hesab edirəm".

G.B.Baxşəliyeva Heydər Əliyevin ölkənin həyatının bütün sahələrinə, o cümlədən elmə böyük diqqət yetirdiyini söylədi. İnstitutun rəhbəri bu gün də ulu öndərin yolunun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd etdi.

Daha sonra institutun əməkdaşlarından filologiya üzrə fəlsəfə doktorları Cabbar Cəlilov, Xalidə Quliyeva-Qafqazlı, tarix üzrə fəlsəfə doktorları Vidadi Mustafayev və İsmayıl Əsədov məruzə edərək, ulu öndərin Azərbaycan xalqının həyatında və elmimizin inkişafında müstəsna xidmətlərindən bəhs etmişlər.

## Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş "Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı" mövzusunda beynəlxalq elmi simpozium, 7-8 may 2012



Mayın 7-8-də AMEA Rəyasət Heyətinin və AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş "Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı" mövzusunda beynəlxalq elmi simpozium keçirilmişdir. Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik Mahmud Kərimov açmışdır.

Rusiya Elmlər Akademiyası Şərq Əlyazmaları İnstitutunun direktor müavini, professor Stanislav Prozorov təmsil etdiyi institutun rəhbərliyi və kollektivi adından simpoziuma ünvanlanan məktubu oxumuşdur.

Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor, millət vəkili Gövhər Baxşəliyeva "Akademik Ziya Bünyadovun həyat və yaradıcılıq yolu" mövzusunda məruzə etmişdir. Məruzəçi Sovet İttifaqı Qəhrəmanı, Dövlət mükafatı laureatı, Azərbaycan şərqşünaslıq və tarix elminin korifeyi, akademik Ziya Musa oğlu Bünyadovun həyat və yaradıcı-

lığının parlaq bir ömrün güzgüsü olaraq zəngin yaradıcılıq və qəhrəmanlıq yolunu əks etdirdiyini vurğulamışdır.

Simpozium öz işini "Qədim və Orta əsrlərdə Qafqaz", "Yaxın Şərq və Orta Asiya tarixi və mənbəşünaslığı", "Qafqaz, Yaxın Şərq və Mərkəzi Asiyada elm, mədəniyyət, sənət və ədəbiyyatın tarixi", "Orta əsrlərdə Şərq və Azərbaycan tarixi və mədəniyyəti" adlı bölmələrdə davam etdirmiş, Şərq xalqlarının tarix və mədəniyyətinə dair 100-dən artıq məruzə dinlənilmişdir.

**Görkəmli şərqşünas alim, professor Aida xanım İmanquliyevanın həyat və yaradıcılığına həsr olunmuş elmi sessiya, 12 oktyabr 2012**

Böyük alimin təvəllüdünün 73-cü ildönümünə həsr olunmuş tədbiri giriş sözü ilə Şərqşünaslıq İnstitutunun direktoru, f.ü.e.d., professor G.B.Baxşəliyeva açmışdır. Aida xanımın elmi və təşkilati fəaliyyətindən danışan Gövhər xanım onun məhcər ədəbiyyatı sahəsində tədqiqatlarından danışmış, böyük alimin tərcümələrinin hər zaman böyük məhəbbətlə qarşılandığını qeyd etmişdir: "Aida İmanquliyeva ərəb ədəbiyyatşünaslığı sahəsində bir məktəb yaratmış alimdir. Aida xanımın o vaxt açdığı elmi cığırlar indi də davam etdirilir. Onun əsərləri bu gün ərəb aləmində geniş yayılıb. Aida xanım əsərlərində öz dövrünü bir neçə onillik qabaqlayaraq, Şərqlə Qərb arasında qarşılıqlı təsiri gözəl əks etdirib. Professor A.İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi".

Elmi sessiyada çıxış edən f.ü.e.d., prof. V.A.Cəfərov, fəl.ü.f.d., şöbə müdiri E.Həsənova, f.ü.f.d. B.Əzizəliyeva, t.ü.f.d. B.Bəşirova, t.ü.f.d. S.Süleymanova və başqaları Aida İmanquliyevanın dünya Şərqşünaslıq mərkəzlərində böyük nüfuza malik olmalarından, onun elmi yaradıcılığının özəlliklərindən bəhs etmiş, böyük alimlə bağlı xatirələrini danışmışlar.

**Heydər Əliyevin 90 illiyinə həsr olunmuş elmi konfrans, 6 may 2013**



Mayın 6-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illiyinə həsr olunmuş "Müstəqil Azərbaycanın Şərq siyasəti" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru, professor Gövhər Baxşəliyeva "Müstəqil Azərbaycanın xarici Şərq siyasətini müəyyənləşdirən lider" mövzusunda məruzə etmişdir. Müstəqilliyimizin ilk illərində dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulmasının da Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən G.Baxşəliyeva, ulu öndərin ilk günlərdən, hələ Milli Məclisin sədri seçilərkən xarici siyasətin başlıca vəzifə və prioritetlərini müəyyənləşdirdiyini qeyd etmişdir. Gövhər Baxşəliyeva Heydər Əliyevin Şərq dünyası, eyni zamanda onların rəhbərləri ilə əlaqələri hələ 70-ci illərdən qurmağa, formalaşdırmağa başladığını, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə –

mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatdığını vurğulamışdır.

Daha sonra Şərqşünaslıq İnstitutu Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru İsmayıl Əsədov "Heydər Əliyevin siyasi fəaliyyətində Yaxın Şərq mövzusu", Şərq-Qərb şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev "Heydər Əliyev və İpək yolu", İran filologiyası şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru Sənan İbrahimov "Azərbaycan-İran siyasi, iqtisadi və mədəni əlaqələri (1993-2003-cü illər)", Cənubi Azərbaycan şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Bije "Heydər Əliyev və Cənubi Azərbaycan", Mərkəzi Asiya və Uzaq Şərq şöbəsinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Rafiq Abbasov "Heydər Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafında rolu", Cənubi Azərbaycan şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı "Müstəqillik illərində Azərbaycan-Pakistan münasibətləri", İran tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi Saleh Dostəliyev "Azərbaycan-İran münasibətlərində Heydər Əliyev siyasətinin davamı" mövzusunda məruzələr etmişlər.

**"Türk dünyasını işıqlandıranlar: M.Akif Ərsoy, Hüseyn Cavid" mövzusunda beynəlxalq elmi konfrans, 16-17 may 2013**

Mayın 16-17-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, Qafqaz Universiteti və Mehmed Akif Ərsoy fikir və sənət vəqfinin təşkilatçılığı ilə "Türk dünyasını işıqlandıranlar: M.Akif Ərsoy, Hüseyn Cavid" adlı beynəlxalq elmi konfrans keçirilmişdir.

Konfransın işində Azərbaycan və Türkiyədən millət vəkilləri, rəsmi dövlət qurumlarının nümayəndələri, ictimai xadimlər, 12 ölkədən, o cümlədən Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Misir, Makedoniya, Serbiya, Rusiya və s. dövlətlərdən 100-dən çox alim iştirak etmişdir.

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor Gövhər Baxşəliyeva XX əsrin əvvəllərində Azərbaycan və Türkiyə mədəni həyatına əsərləri ilə mö-




hürünü vuran şairlər arasında fikirləri və əsərləri ilə millətin yolunu işıqlandıran və qəlbində taxt quran iki böyük sənətkarın olduğunu vurğulamışdır: "Bunlardan biri türk "İstiqlal şairi" Mehmed Akif, digəri isə Azərbaycan ədəbiyyatında romantizm cərəyanının banisi Hüseyn Caviddir". G.Baxşəliyeva ümummilli lider Heydər Əliyevin söylədiyi "Bir millət – iki dövlət" sözlərinin bir bariz nümunə kimi konfransın həsr olunduğu iki qardaş şairin həyat və fəaliyyətində də öz əksini tapdığını, Mehmed Akifin də doğumundan ta ölümünə qədər bütün həyatı və fəaliyyəti boyunca Cavidlə bənzər tale yaşadığını qeyd etmişdir.

**Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları. Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans, 27-28 iyun 2013**

İyunun 27-28-də AMEA-da görkəmli şərqşünas alim, akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir.

AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli akademik Vasim Məmmədəliyevin Azərbaycan Şərqşünaslıq elmi tarixində xüsusi yer tutan çox görkəmli alim olduğunu, Mirzə Kazım bəydən başlanan uzun, şərəfli yol keçən bu elmin tarixində onun özünəməxsus yeni



məktəb yaratdığını, yeni tarixi mərhələ olduğunu qeyd etmiş və alimin şərqşünaslıq elminə gətirdiyi yeniliklərin bir neçə aspektindən danışmışdır. Akademik İsa Həbibbəyli akademik Vasim Məmmədəliyevin digər alimlərdən universal dünyagörüşünə akademik və çoxcəhətli elmi-pedaqoji fəaliyyətə malik olması ilə fərqləndiyini qeyd etmişdir.

Sonra Milli Məclisin deputatı, Şərqşünaslıq İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru, professor Gövhər Baxşəliyeva çıxış etmişdir.

Konfrans öz işini AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda bölmələrdə davam etdirdi. Konfransda 300-dən artıq məruzəçi, o cümlədən Türkiyə, Rusiya, İran, Qazaxıstan, Türkmənistan və Özbəkistandan 25 alim iştirak etmişdir.

**"Türkiyə Cümhuriyyəti - 90" mövzusunda beynəlxalq elmi konfrans, 28 oktyabr 2013**

Oktyabrın 28-də Türkiyə Cümhuriyyətinin elan olunmasının 90 illiyi münasibətilə AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Qafqaz Universitetinin birgə təşkil etdiyi "Türkiyə Cümhuriyyəti – 90" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı, akademik




Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva Türkiyə Cümhuriyyətinin yaranmasından danışaraq, bu dövlətin keçdiyi uğurlu yoldan, əldə etdiyi nailiyyətlərdən bəhs etmişdir. G.B.Baxşəliyeva Atatürkün müstəqil və müasir bir hüquqi dövlət qurmağı qarşısına məqsəd qoyduğunu və onun yaratdığı dövlətin bu gün bölgənin ən qüdrətli ölkəsinə çevrildiyini qeyd etmişdir.

Qafqaz Universitetinin rektoru, professor Əhməd Sanıc Türkiyə Cümhuriyyətinin keçdiyi şanlı yola nəzər salaraq deyib: "Atatürk Türkiyəyə demokratiyanı gətirmiş, o dönəmlərdə məsələni insanlara anlatmağa çalışmış, bu yola qarşı olanlara baxmayaraq, gözəl cümhuriyyət qurmuşdur. Bu gün müsəlman aləmində Türkiyə ən güclü dövlətdirsə, buna görə Atatürkün qurduğu cümhuriyyətə borcluyuq".

Ə.Sanıc Türkiyəyə qardaş dövlət Azərbaycanın da müstəqilliyini əldə etdiyi zamandan bəri qısa müddətdə böyük uğurlar qazandığını qeyd etmişdir.

Konfrans öz işini bölmə iclaslarında davam etdirmişdir.

Daha sonra çıxış edənlər Cümhuriyyətin keçdiyi 90 illik şərəfli yoldan, türk xalqının azadlıq mübarizəsindən bəhs etmiş, güclü Azərbaycan və Türkiyənin bölgədə sülhün təminatçısı olduğunu vur-

ğulamışlar. Plenar iclasda institutun direktoru f.ü.e.d., prof. G.B.Baxşəliyeva “Türkiyə Cümhuriyyətinin elan edilməsi bəşər tarixinin ən önəmli hadisələrindən biri kimi” mövzusunda, şöbə müdiri fəl.ü.f.d. E.Həsənova “Müasir Türkiyədə Atatürkçülüyün cümhuriyyətçilik prinsipləri haqqında” mövzusunda, şöbə müdiri, i.ü.e.d. D.Vəliyev “Türkiyə Cümhuriyyətinin iqtisadi inkişaf modelinin təkamülü” mövzusunda və başqaları məruzə etmişlər.

### “Qondarma “Erməni Soyqırımı” və tarixi həqiqətlər” mövzusunda elmi sessiya, 23 aprel 2014

Sessiyada Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirinin mədəniyyət və turizm üzrə müşaviri Seyid Əhməd Arslan iştirak etmişdir. Sessiyanı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva “erməni soyqırımı”nın uydurma olduğunu, əsl həqiqətin ermənilərin ötən əsrin müxtəlif dövrlərində azərbaycanlılara qarşı soyqırımı, talanları həyata keçirməsi barədə dünya ictimaiyyətinə çatdırmağın mühüm olduğunu bildirmişdir. G.B.Baxşəliyeva bütün bu həqiqətləri üzə çıxaran faktları aşkarlayaraq geniş ictimaiyyətə çatdırmaq sahəsində Şərqşünaslıq İnstitutunda aparılan işlərdən danışmışdır.



Daha sonra Şərqşünaslıq İnstitutu Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin baş elmi işçisi, iqtisadiyyat üzrə elmlər doktoru İnqilab Əlibəyov, Cənubi Azərbaycan tarixi şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Bije, Şərq-Qərb şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev, Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova, Din və ictimai fikir tarixi şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Esmeralda Həsənova 1918-ci ildə Cənubi Azərbaycandakı ermənilərin törətdiyi soyqırımı haqqında məruzələr etmişlər.

Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirinin mədəniyyət və turizm üzrə müşaviri Seyid Əhməd Arslan çıxış etmiş, ermənilərin qondarma soyqırımını dünya ictimaiyyətinə tanıtdırmaq cəhdlərindən danışmış, Türkiyə və Azərbaycan dövlətlərinin bu təbliğata qarşı apardığı fəaliyyətdən, atılan addımlardan söz açmışdır. Sessiyadakı elmi məruzə və çıxışları çox yüksək dəyərləndirən diplomat, tədbiri təşkil etdiyinə görə Şərqşünaslıq İnstitutuna təşəkkürünü bildirmişdir.

**“Heydər Əliyev və türkdilli xalqların inteqrasiyası” mövzusunda elmi konfrans, 7 may 2014**

Konfransı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva qloballaşan dünyamızda inteqrasiya proseslərinin getdikcə daha böyük vüsət aldığını qeyd edərək, xalqlar və ölkələrin sürətlə bir-birinə yaxınlaşdığını, hətta lokal və regional problemlərin belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxarıldığını bildirmişdir. Türkdilli xalqların əməkdaşlığının uğurlarından danışan G.Baxşəliyeva ulu öndər Heydər Əliyevin türk dünyasının problemlərinə daim diqqət ayırdığını xüsusi vurğulamışdır. Məhz Heydər Əliyevin türk xalqlarının inteqrasiyasına yönəlmiş böyük siyasətinin nəticəsi kimi türkdilli xalqları birləşdirən bir sıra layihələr TÜRKSOY, TürkPA, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası və s. bu qəbildən olan təşkilatların adını vurğulamışdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA, İpək Yolu, TANAP, TAP və s. layihələrin bu gün həyata keçirilməsinin Heydər Əliyev tərəfindən vaxtında aparılan böyük, uzaqgörən siyasətin məntiqi nəticəsi olduğunu bildirmişdir.



Daha sonra Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyevin "Heydər Əliyev və türk dünyasının qlobal iqtisadiyyata inteqrasiyası", institutun Mərkəzi Asiya və Uzaq Şərq ölkələri şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Təranə Həşimovanın "Türk xalqlarının müasir mədəni-ədəbi əlaqələri və Heydər Əliyev" mövzusunda və s. məruzələr dinlənilmiş, sonda məruzələr ətrafında müzakirələr aparılmışdır.

**M.Ə.Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və M.Ə.Rəsulzadə" mövzusunda elmi konfrans, 21 may 2014**

Konfransı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü ərəfəsində bu respublikanın banilərindən biri olan Məhəmməd Əmin Rəsulzadəyə həsr olunmuş elmi konfransın təşkilini Prezident İlham Əliyevin M.Ə.Rəsulzadənin 130 illik yubileyi haqqında Sərəncamı ilə əlaqələndirmişdir.

Xalqımızın müstəqillik ideyalarının gerçəkləşməsində, milli dövlət qurulmasında, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xid-



mətlər göstərmiş və siyasi publisistika ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim M.Ə.Rəsulzadənin XX əsrin əvvəllərində Azərbaycanın müstəqilliyi tarixində şərəfli iz qoyduğunu, 100 ildən artıq sürən rus işğalına son qoyaraq, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olduğunu və 23 ay ərzində ona uğurla rəhbərlik etdiyini söyləyən Gövhər Baxşəliyeva məhz həmin dövrdə dövlətçiliyimizin atributlarının yaradılmasını, əsas demokratik normaların bərqərar olunmasını, xalq hakimiyyətinin qurulmasını, insan hüquqlarının, millətindən, dilindən, dinindən asılı olmayaraq insanların bərabərliyinin, söz və yığıncaq azadlığının dövlətçiliyin önəmli prinsipləri kimi irəli sürülməsini vurğulamışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri Firdovsiyə Əhmədova "Azərbaycan dövlətçiliyi tarixində M.Ə.Rəsulzadənin yeri və rolu", Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin baş elmi işçisi, tarix üzrə elmlər doktoru Solmaz Rüstəmova-Tohidi "M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri kimi" mövzusunda məruzələr etmişlər. Sonda məruzələr ətrafında müzakirə aparılmışdır.

**Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiya, 11 iyun 2014**

Sessiyanı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor Gövhər Baxşəliyeva Naxçıvan torpağının yetişdirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynadığını söyləyərək, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını xatırlatmışdır. Bu Sərəncama əsasən dövlət səviyyəsində qeyd olunan tədbirlər sırasında Azərbaycan Milli Elmlər Akademiyasının da üzərinə düşən vəzifələri xatırladan G.Baxşəliyeva şərqşünas alimlərin də Naxçıvanın tarixi, bu torpağın yetişdirdiyi görkəmli elm və mədəniyyət nümayəndələrinin əsərləri ilə bağlı apardıqları tədqiqatları elmi ictimaiyyətlə paylaşmaq istəyində olduqlarını və bu məqsədlə də Şərqşünaslıq İnstitutunun Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirdiyini bildirmişdir.

Sonra G.B.Baxşəliyeva çıxış üçün sözü AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə verib. Naxçıvanın Azərbaycanın ictimai həyatında mühüm rol oynadığını söyləyən İ.Həbibbəyli ulu



öndər Heydər Əliyevin təşəbbüsü ilə AMEA-nın Naxçıvan bölməsinin yaradılmasını xatırladaraq, bu addımın elmimizdə yeni-yeni möhtəşəm əsərlərin ərsəyə gəlməsinə təkan verdiyini bildirmişdir. Naxçıvanın tarixi, qədim abidələri, burada aparılan arxeoloji qazıntılar barədə söz açan İ.Həbibbəyli bu sahədə maraqlı faktları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Sessiyada ilk məruzəni "Orta əsrlər ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar" mövzusunda Şərqşünaslıq İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru, professor Gövhər Baxşəliyeva etmişdir.

Daha sonra Şərqşünaslıq İnstitutunun direktor müavini, tarix üzrə elmlər doktoru Şahin Mustafayev "XVI yüzilliyin sonunda Osmanlı sənədlərinə görə Naxçıvan" mövzusunda məruzəsində ilk olaraq tarixi mənbələrə əsasən Naxçıvanın ümumi tarixindən danışmışdır.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Cəmilə Sadıqova və böyük elmi işçi, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədovun "Leksikoqrafiya sahəsində Fəxrəddin Hinduşah Naxçıvani və Məhəmməd bin Hünduşah Naxçıvaninin xidmətləri" mövzusunda məruzəsini dinləyicilərə V.Məmmədov çatdırmışdır.

**İran Mədəniyyət Mərkəzi, Şərqşünaslıq İnstitutu və AMEA Nizami adına Ədəbiyyat İnstitutunun birgə təşkil etdiyi "Söz mülkünün Şəhriyarı" adlı beynəlxalq tədbir, 17 sentyabr 2014**

Ölməz şairin xatirə gününə həsr olunmuş tədbiri AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva açdı. Məhəmmədhüseyn Şəhriyarın Azərbaycan və İran poeziyasının ən nəhəng simalarından biri, fəxri, qüdrətli söz ustadı olduğunu söyləyən G.Baxşəliyeva onun ölməz irsinin nəinki Şərq, dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisi olduğunu söyləmişdir.

G.B.Baxşəliyeva Şəhriyar poeziyasını bu qədər insanlara sevdirən, onu populyarlaşdıran, dillərdə əzbər edən səbəbin ilk növbədə onun şerinin fikir zənginliyi, bədii saflığı və səmimiyyəti olduğunu



söylədi. Çıxışda Şəhriyarın yaradıcılığının həmişə tədqiqatçıların diqqət mərkəzində olduğu qeyd edilərək, ayrı-ayrı vaxtlarda Ə.Ataş, Q.Beqdeli, H.Billuri, Böyük Nikəndiş, B.Budaqov, Əliməmməd Əbülfəzl, Cəmşid Əlizadə, İsa Həbibbəyli, Həsənəli Məhəmmədi, Əhməd Kaviyanpur, H.Qasımov, E.Quliyev, Barfiruş, Məhəmmədbağır Nəcəfzadə, Mübəyyin Məhəmmədhüseyn, Zilli Məniçöhr, Hüseyn Münzəvi, B.Nəbiyev, Fəthi Nüsrətullah, N.Rizvanov, Y.Şeyda, E.Şükürova, E.Quliyev və digərlərinin Şəhriyarın həyat və yaradıcılığı haqda dəyərli əsərlər yazdığı nəzərə çatdırılmışdır.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxışında Şəhriyarı dünya ədəbiyyatının görkəmli sənətkarlarından biri kimi dəyərləndirmişdir: "Məhəmmədhüseyn Şəhriyar türk-müsəlman dünyası ədəbiyyatının zəngin xəzinəsinə qiymətli əsərlər vermiş sənətkarların sırasında dayanır. İ.Həbibbəyli ümummilli lider Heydər Əliyevin Şəhriyar irsinə böyük rəğbət göstərdiyini qeyd edərək, böyük rəhbərin şairin 90 illiyində imzaladığı sərəncamın ona dövlət səviyyəsində ehtiramının canlı göstəricisi olduğunu bildirmişdir.

**AMEA Rəyasət Heyəti və Şərqşünaslıq İnstitutu tərəfindən hazırlanmış görkəmli şərqşünas alim Aida İmanquliyevanın 75 illiyinə həsr edilmiş "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans, 10-11 oktyabr 2014**




Konfransda Azərbaycan alimləri ilə yanaşı, Türkiyə, Rusiya, Misir, Özbəkistan, Gürcüstan və digər ölkələrdən nümayəndələr də iştirak ediblər.

Konfransın birinci plenar iclasında AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli alimin keçdiyi həyat yolundan və bu illərdə onun şərqşünaslıq elminə verdiyi böyük töhfələrdən söz açıb. Bildirilib ki, Aida İmanquliyeva XX əsr Azərbaycan şərqşünaslıq elminin ən görkəmli nümayəndələrindən biri olub, bütün ömrünü bu sahəyə həsr edib və çox böyük uğurlar qazanıb. O, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru, professor olmuşdur. Görkəmli alim həm keçmiş sovet, həm də dünya məkanında ilk dəfə məhcər ərəb ədəbiyyatını sistemli şəkildə tədqiq edərək fundamental əsərlər yazıb.

Konfransda Rusiya Elmlər Akademiyası rəyasət heyətinin üzvü, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun direktoru akademik

Aleksandr Kudelin "Professor Aida İmanquliyevanın tədqiqatlarının problematikası (alimin anadan olmasının 75 illiyinə)" mövzusunda məruzə ilə çıxış edib. Rusiyalı akademik bildirib ki, Aida İmanquliyeva Şərq ruhuna və Qərb zəkasına dərindən yiyələnmiş bir şəxsiyyət idi.



Misirin Ayn əş-Şəms Universitetinin ərəb dili və ədəbiyyatı kafedrasının müdiri, professor Tarik Çələbi "Şərqşünas Aida İmanquliyevanın mədəniyyətlərarası əlaqələrin yaranması və ədəbi tənqid sahəsindəki xidmətləri" mövzusunda məruzəsində görkəmli alimin ərəb mədəniyyəti və ədəbiyyatını Azərbaycan şərqşünaslıq məktəbinə tanıtmaq sahəsində müstəsna xidmətlərindən danışıb, onun məhcər ədəbiyyatına həsr olunan "Yeni ərəb ədəbiyyatının korifeyləri" əsərinin əhəmiyyətini xüsusi qeyd edib. Misirli professor bildirib ki, məruzəsinin mövzusu da məhz bu əsərdə bir tərəfdən ərəb ədibi ilə yaşadığı Qərb mühiti arasında mədəni əlaqələrin qurulması, digər tərəfdən isə ərəb ədəbiyyatı ilə tanışlıq və kitabda verilən olduqca mühüm məlumatların azərbaycanlı mütəxəssislərə çatdırılmasına həsr edilib.

Konfransda Bakı Dövlət Universitetinin (BDU) ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyevin "Aida İmanquliyeva Azərbaycan şərqşünaslığının ən görkəmli nümayəndələrindən

biri kimi" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, zəngin ənənələrə malik Azərbaycan şərqşünaslığının ən görkəmli nümayəndələrindən olan professor Aida İmanquliyeva özündən sonra zəngin elmi irs qoyub, fundamental tədqiqatları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda dünya şərqşünaslığını zənginləşdirib və inkişaf etdirib.

Konfransın ikinci plenar iclasında AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli "Görkəmli şərqşünas alim Aida İmanquliyeva haqqında söz" mövzusunda məruzə ilə çıxış edib. Akademik bildirib ki, professor Aida İmanquliyeva Azərbaycanda şərqşünaslıq tədqiqatlarının istiqamətini ilk dəfə ardıcıl və sistemli şəkildə ədəbiyyatşünaslıq səmtinə yönəldib, bu istiqamətdə tədqiqatlar aparıb. Onun ərəb ədəbiyyatına həsr edilən fundamental və dərin ümumiləşdirməyə malik elmi əsərləri Azərbaycan şərqşünaslıq elmini zənginləşdirən və yeni istiqamətlər açan tədqiqatlar kimi böyük əhəmiyyətə malikdir.

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva "Görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın şərqşünaslıq elminin inkişafında rolu" mövzusunda məruzəsində alimin Azərbaycan şərqşünaslıq elminin inkişafındakı xidmətlərindən söz açıb.

İclasda Misirin Ayn əş-Şəms Universitetinin professoru İslam əl-Şərqavi, Rusiyalı alim Vyaçeslav Axmadulin, Özbəkistan Elmlər Akademiyasının əməkdaşı Burobiyə Rəcəbova, Türkiyənin Kastamonu Universitetinin nümayəndələri Gültən Küçükbasmacı, Şərifə Uzun, Fatma Zəhra Pattabanoğlu və digərlərinin mövzu ilə bağlı məruzələri dinlənilib.

Konfrans işini oktyabrın 11-də yeddi bölmədə "Professor Aida İmanquliyevanın elmi irsi və şərqşünaslıq elminin inkişaf yolları", "Şərq ədəbiyyatında ənənə və novatorluq", "Ədəbi əlaqələr", "Mühacirət ədəbiyyatı", "Tərcümə nəzəriyyəsi", "Ədəbi mənbəşünaslıq", "Şərq dilçiliyi" davam etdirib.

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ümumi yığıncaq, 6 may 2015



Mayın 6-da AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycan xalqının ümummilli lideri, ulu öndər, müasir Azərbaycanın banisi və qurucusu Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ümumi yığıncaq keçirilmişdir. Millət vəkili, institutun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva çıxışında Heydər Əliyevin Azərbaycan xalqının inkişafında müstəsna xidmətlərindən danışmışdır. Azərbaycan tarixinin 40 ilinin ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu və ulu öndərin xalqımızın tarixinə gördüyü misilsiz işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi düşdüyünü vurğulamışdır. Müstəqil Azərbaycanın rəhbərliyinə xalqın tələbi ilə respublikanın ən çətin vaxtında gələn Heydər Əliyevin qısa müddətdə ictimai asayişin bərpasına nail olduğunu deyən Gövhər Baxşəliyeva, ulu öndərin xalqda gələcəyə böyük inam yaratdığını, qısa bir zamanda ölkəmizin yüksək iqtisadi inkişafının əsasını qoyduğunu, regionda lider dövlətə çevirdiyini qeyd etmişdir.

G.B.Baxşəliyeva Heydər Əliyevin ölkənin həyatının bütün sahələrinə, o cümlədən elmə böyük diqqət yetirdiyini söyləmişdir. Ulu

öndərin ikinci dəfə hakimiyyətə qayıdanda, 1993-cü ildə məhz birinci görüşünü Elmlər Akademiyasında Azərbaycan ziyalıları ilə keçirdiyini xatırladan Gövhər xanım, onun həmin görüşdə söylədiyi bu sözləri xatırlatmışdır: "Elmlər Akademiyası Azərbaycan xalqının bir neçə nəsli tərəfindən yaradılmış milli sərvətidir, biz onu qoruyub yaşatmalıyıq".

G.B.Baxşəliyeva bu gün də ulu öndərin yolunun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd etmiş və ölkədə gedən nəhəng quruculuq işlərinin, gündən-günə güclənən iqtisadiyyatımızın, sürətlə abadlaşan və inkişaf edən şəhər və rayonlarımızın, mədəniyyətə, elmə, səhiyyəyə göstərilən qayğının bunun əyani təsdiqi olduğunu bildirmişdir.

Sonra Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev, Ərəb filologiyası şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Vilayət Cəfərov, Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Bije, institutun Həmkarlar Təşkilatının sədri, hüquq üzrə fəlsəfə doktoru Soltanəli Mirzəzadə çıxış edərək, ulu öndərin Azərbaycan xalqının həyatında və elmimizin inkişafında müstəsna xidmətlərindən söz açmışlar.

**Çanaqqala zəfərinin 100 illiyinə həsr olunmuş elmi konfrans, 13 may 2015**

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu mayın 13-də Çanaqqala zəfərinin 100 illliyinə həsr olunmuş elmi konfrans keçirmişdir. AMEA-nın əsas binasının 2-ci mərtəbəsindəki konfrans zalında təşkil olunmuş konfransın mövzusu "Çanaqqala zəfəri: 1915-ci il I Dünya müharibəsinin təlatümləri və Osmanlı imperiyası" mövzusunda olmuşdur.

Konfransı giriş sözü ilə açan millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva Çanaqqala savaşının qardaş türk xalqının qələbə, hünər və rəşadət tarixinin ən parlaq səhifəsi olduğunu qeyd etmişdir.

Daha sonra millət vəkili, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış etmişdir. Çanaqqala hadisələrinin türk xalqlarının



tarixində əhəmiyyətindən danışan İ.Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu zəfərin 100 illiyi münasibətilə Türkiyədə keçirilmiş təntənəli mərasimdə iştirakının bu önəmli tarixi qələbənin Azərbaycan xalqı üçün nə qədər böyük əhəmiyyət daşımasının göstəricisi olduğunu söyləmişdir.

Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun çıxış edərək, Çanaqqala zəfərinin türk xalqının tarixindəki mühüm əhəmiyyətindən danışmışdır. Səfir tək Çanaqqala hadisələrini izləməklə həmin savaşın gerçəkliyini anlamağın mümkünsüz olduğunu deyərək, bunun üçün türk tarixinə daha öncəki illərdən nəzər salmağın vacibliyini vurğulamış və bu istiqamətdə baş verən hadisələrdən də söz açmışdır.

AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini, müxbir üzv Şahin Mustafayev Çanaqqala zəfərini Anadolu tarixinin öncəki əsrlərdə böyük zəfərləri fonunda nəzərdən keçirərək 1915-ci ildəki qələbənin əhəmiyyətini onu artıq zəifləmiş, süqut edən Osmanlı dövlətinin qazanması ilə əlaqələndirmişdir.

Sonra Çanaqqala hadisələrini əks etdirən tarixi kadrlar nümayiş etdirilmişdir.

Konfransda AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri t.ü.e.d. İradə Bağırova, Şərqşünaslıq İnstitu-

tunun əməkdaşı Hüseyn Günəşli, institutun baş elmi işçisi t.ü.e.d. Solmaz Rüstəmova-Tohidi, böyük elmi işçisi f.ü.f.d. Səriyyə Gündoğdu məruzələrlə çıxış etmişlər.

Konfransın sonunda tədbir iştirakçıları Şərqşünaslıq İnstitutunda türk tarixinə və ermənilərin Şimali və Cənubi Azərbaycanda azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlarına aid nəşr edilmiş kitabların sərgisini izləmişlər.

**Görkəmli şərqşünas alim, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun ingilis dilində çap olunmuş "Xarəzmşahlar-Anuştəqinilər dövləti. 1097-1231" kitabının təqdimat mərasimi, 14 may 2015**

AMEA Milli Azərbaycan Tarixi Muzeyində 2015-ci il mayın 14-də görkəmli şərqşünas alim, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun ingilis dilində çap olunmuş "Xarəzmşahlar-Anuştəqinilər dövləti. 1097-1231" kitabının təqdimat mərasimi keçirilmişdir. Tədbir



Milli Azərbaycan Tarixi Muzeyi, Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi ilə birlikdə təşkil olunmuşdur. Akademik Ziya Bünyadovun fundamental tədqiqat əsərlərindən biri olan bu kitab YUNESCO-nun Beynəlxalq Mərkəzi Asiya Tədqiqatlar İnstitutu tərəfindən ingilis dilinə tərcümə olunub və çapa hazırlanmışdır. Kitab 2015-ci ildə AMEA-nın müxbir üzvü Şahin Mustafayev və İngiltərə şərqşünası Tomos Velsfordun elmi redaktəsi ilə nəşr edilmişdir.

Təqdimat mərasiminə tanınmış şərqşünas alimlər, tarixçilər, Azərbaycan Respublikasında akkreditə olunmuş səfirliklərin media nümayəndələri və s. iştirak etmişlər.

Mərasimdə muzeyin direktoru akademik Nailə Vəlixanlı, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli və bir çox elm adamları çıxış edərək Ziya Bünyadovun görkəmli şəxsiyyət və şərşqşünas alim kimi fəaliyyəti, şəxsi keyfiyyətləri barəsində ətraflı danışmışlar.

Daha sonra şərqşünas alimə həsr olunmuş “Akademik Ziya Bünyadovun missiyası” sənədli filmi nümayiş olunmuşdur.

AMEA-nın müxbir üzvü Şahin Mustafayev öz çıxışında kitabın tərcüməsi və çapını təşkil etmiş Beynəlxalq Mərkəzi Asiya Tədqiqatlar İnstitutunun fəaliyyəti, türk xalqlarının tədqiqinə institutun töhfəsi barəsində danışmış və müvafiq prezentasiyanı təqdim etmişdir. Akademik Ziya Bünyadovun “Xarəzmşahlar- Anuştəqinilər dövləti. 1097-1231” adlı kitabın ingilis dilində çap olunmasının Azərbaycan elminin dünya ictimaiyyətinə tanıdılmasında mühüm əhəmiyyətə malik olması xüsusilə vurğulanmışdır.

Tədbirdə çıxış edən AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva Ziya Bünyadovun şərqşünaslıq elmində yeri və rolundan danışmışdır. Azərbaycan tarixini saxtalaşdıranlara qarşı inadlı mübarizə aparmış Z.M.Bünyadovun elmi əsərləri tariximizin neçə-neçə qaranlıq səhifəsinin açılmasında mühüm rol oynamışdır.

Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Şerzod Fayziyev Urgənc şəhərinin fəxri vətəndaşı olmuş Ziya Bünyadovun Azərbaycan - Özbəkistan dostluq münasibətlərində yeri və rolu barəsində çıxış etmişdir.

## AMEA-nın 70 illiyinə həsr olunmuş elmi sessiya, 18 noyabr 2015

Noyabrın 18-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 70 illiyinə həsr olunmuş elmi sessiya keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyi ilə əlaqədar tədbirlərin keçirildiyini xatırladaraq, Şərqşünaslıq İnsti-



tutunun da bu mövzuda elmi sessiya keçirdiyini bildirmişdir. G.B.Baxşəliyeva Azərbaycan elminin 70 ildə AMEA-da mərkəzləşdirilmiş, sistemləşdirilmiş şəkildə böyük inkişaf yolu keçdiyini söyləyərək, alimlərimizin dünya elminə böyük töhfələr verdiyini xatırlatmış və şərqşünaslıq elminin də bu dövrdə böyük inkişaf yolu keçərək dünya səviyyəsinə çıxdığını qeyd etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin Akademiyaya daim diqqət və qayğı göstərdiyini deyən Gövhər xanım, dövlət başçısının noyabrın 9-da AMEA-nın 70 illiyinə həsr olunmuş ümumi yığıncaqda çıxışını və orada verdiyi tövsiyələri də xatırlatmışdır.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədov sessiyada "Elm tariximizdə Azərbaycan Milli Elmlər Akademiyası" mövzusunda məruzə etmişdir.

Məruzəçi 70 yaşlı elm məbədindən söz açmazdan öncə çoxəsrlik elm tariximizə nəzər salaraq, əsrlər boyu Azərbaycan elminin yaşadığı şanlı məqamları xatırlatmış, görkəmli alimlərimizdən söz açmışdır. Məruzədə daha sonra 1945-ci ildə yaradılan Azərbaycan Milli Elmlər Akademiyasının 70 ildə keçdiyi şərəfli yoldan, əldə olunan nailiyyətlərdən bəhs edilmişdir. V.Məmmədov sonda AMEA-nın əldə

etdiyi uğurlarda müstəsna payı olan institutlardan birinin də akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun olduğunu qeyd edərək, Akademiyanın fəaliyyətinin ötən 70 ilinin 57-də şərqşünas alimlərin Azərbaycan elminin inkişafına böyük töhfələr verdiyini, Azərbaycan şərqşünaslıq elmini dünya şərqşünaslığı səviyyəsinə qaldırdıqlarını vurğulamışdır.

Sonra sessiya iştirakçılarının sualları cavablandırılaraq, məruzə ətrafında fikir mübadiləsi aparılmışdır. Şərqşünasıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev, Din və ictimai fikir tarixi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Esmeralda Həsənova və başqaları Azərbaycan Milli Elmlər Akademiyasının inkişaf yolunda şərqşünas alimlərin xidmətlərindən söz açmışlar.

### "21 Azər - 70" mövzusunda elmi кonfrans, 2 dekabr 2015

Dekabrın 2-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə 1941-1946-cı illərdə İran xalqlarının və cənubi azərbaycanlıların milli-demokratik hərəkat tarixinə həsr olunmuş "21 Azər – 70" mövzusunda elmi konfrans keçirilmişdir.



AMEA-nın əsas binasında təşkil olunmuş tədbiri giriş sözü ilə açan millət vəkili, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Gövhər Baxşəliyeva 21 Azər hərəkatının Yaxın və Orta Şərqdə milli-demokratik köklərə söykənən, əsrin ən mütərəqqi hərəkatlarından biri olduğunu və Azərbaycan xalqının tarixində şanlı bir səhifə açdığını qeyd etmişdir.

AMEA İctimai Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Nərgiz Axundova çıxışında 21 Azər hərəkatının Azərbaycan xalqının tarixində mühüm yer tutduğunu və Şərqşünaslıq İnstitutunda bu mövzu ilə bağlı aparılan tədqiqatları yüksək qiymətləndirdiyini vurğulamışdır.

Konfransda AMEA Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri t.ü.f.d. Səməd Bayramzadə "Azərbaycan Demokrat Firqəsinin yaranması və fəaliyyəti barədə bəzi mülahizələr", aparıcı elmi işçisi, i.ü.f.d. Əkrəm Rəhimli "21 Azər XX əsr Güney Azərbaycan xalq hərəkatının zirvəsidir", İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri t.ü.f.d. Vidadi Mustafayev "Cənubi Azərbaycanda 1941-1946-cı illər milli-demokratik hərəkat ərəfəsində iqtisadi və sosial-siyasi vəziyyət haqqında bəzi qeydlər" və həmin şöbənin baş elmi işçisi, t.ü.e.d. Solmaz Rüstəmova-Tohidi "21 Azər hərəkatının ilkin tarixi-siyasi şərtləri" adlı məruzələrlə çıxış etmişlər.

AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, f.ü.e.d. İslam Qəribli "21 Azər hərəkatının İran və Azərbaycan bədii ədəbiyyatında əksi" mövzusunda məruzəsində 1941-1946-cı illərdə Güneydə yaranan ədəbiyyatın forma-məzmun və ideyaca özəlliklərindən söz açmış və daha çox milli özünüdərk və özünütəsdiq məfkurəsinə söykənməklə yaranan 1941-1946-cı illər ədəbiyyatının inkişafını iki mərhələdə nəzərdən keçirmişdir.

Sonda məruzələr ətrafında çıxışlar olmuşdur. Millət vəkilləri Arif Rəhimzadə, Fərəc Quliyev və digər çıxış edənlər konfransın işini yüksək dəyərləndirmişlər.

## Görkəmli Türkiyə yazıçısı və dramaturqu Haldun Tanerin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiya, 14 dekabr 2015




Dekabrın 14-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli Türkiyə yazıçısı və dramaturqu Haldun Tanerin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiya keçirilmişdir.

Sessiyanın işini giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva türk ədəbiyyatı tarixində yazıçı, dramaturq, publisist, sənətşünas kimi tanınan Haldun Tanerin Cümhuriyyət dövrü türk ədəbiyyatının ən öndə gələn, tanınmış ziyalılarından biri olduğunu qeyd etmişdir. Haldun Tanerin yazdığı əsərlər bu gün də istər mövzu, istər janr cəhətdən öz aktuallığını itirmir və bunun nəticəsidir ki, onun anadan olmasının 100 illiyi beynəlxalq aləmdə qeyd olunur.

Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Xalidə Qafqazlı sessiyada "Haldun Tanerin yaradıcılıq yolu" mövzusunda məruzə etmişdir.

Şərqşünasıq İnstitutunun Türk filologiyası şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Sədaqət Qasımlı "Haldun Tanerin hekayə yaradıcılığı" mövzusunda məruzə etmişdir.

İnstitutun Türk filologiyası şöbəsinin kiçik elmi işçisi Xanım Abdullayeva "Haldun Tanerin dramaturgiyasına dair bəzi mülahizələr" mövzusunda məruzə etmişdir.

**Böyükağa Hüseynovun 90 illiyinə həsr olunan elmi sessiya, 7 mart 2016**

Martın 7-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda AMEA-nın müxbir üzvü, professor Böyükağa Hüseynovun anadan olmasının 90 illiyinə həsr olunmuş elmi sessiya keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan AMEA Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva Böyükağa Hüseynovun tək Azərbaycanda deyil, yaşadığı dövrdə bütövlükdə keçmiş Sovet şərqşünaslıq elmində xüsusi yeri olan bir şəxsiyyət olduğunu qeyd etmiş, bu böyük alimin Azərbaycan Elmlər Akademiyasının şərqşünaslıq üzrə ilk müxbir üzvü olduğunu bildirmişdir. Şərqşünaslıq İnstitutunun direktor müavini və İran filologiyası şöbəsinin müdiri olmuş Böyükağa Hüseynovun istər elmi yaradıcılıq, istərsə də elmi-təşkilati fəaliyyətini yüksək dəyərləndirən G.Baxşəliyeva, onun fəaliyyəti dövründə institutda görülən mühüm işləri xatırlatmışdır.

Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsinin hazırkı müdiri, filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədi "Böyükağa Hü-



seynovun həyatı və elmi-ictimai fəaliyyəti" mövzusunda məruzə etmişdir. Məruzəsində görkəmli alimin elmi və ictimai fəaliyyətinə ilk addımlarından son günlərinədək nəzər salan M.Məhəmmədi onun yaradıcılığının çoxşaxəli olduğunu qeyd etmiş, "Mütərəqqi İran poeziyasında sovet mövzusu" adlı namizədlik, "XX əsr İran poeziyasında ənənə və novatorluq" mövzusunda doktorluq dissertasiyası, bu mövzularda nəşr olunan və digər monoqrafiya və kitabları haqqında ətraflı məlumat vermişdir.

Daha sonra BDU İlahiyyət fakültəsinin dekanı akademik Vasim Məmmədəliyev, millət vəkili, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rəfael Hüseynov, AMEA Memarlıq və İncəsənət İnstitutunun direktor müavini sənətşünaslıq üzrə elmlər doktoru Kübra Əliyeva, AMEA Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, tarix üzrə elmlər doktoru Solmaz Rüstəmova-Tohidi, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Beynəlxalq əlaqələr və komparativistika şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Şəfəq Əlibəyli çıxış edərək, Böyükağa Hüseynov haqqında xatirələrini danışmışlar.

Tədbirin sonunda görkəmli alim Böyükağa Hüseynova həsr olunmuş film nümayiş etdirilmişdir.

### "Cənubi Azərbaycan: 1918-ci il soyqırımı" kitabının təqdimatı, 30 mart 2016

Martın 30-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin elmi işçisi Həsən Səfərinin "Cənubi Azərbaycan: 1918-ci il soyqırımı" adlı kitabının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva XX əsrin əvvəllərində ermənilərin təkcə bu gün Ermənistan adlanan ərazidə deyil, Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı etnik təmizləmə, qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirdiklərini, bu illər ərzində on minlərlə dinc azərbaycanlı əhalini – qa-



dını, uşağı, qocanı yalnız milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirdiklərini söyləmişdir.

Tədbirdə çıxış edən AMEA İctimai Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Nərgiz Axundova təqdim olunan kitabın əhəmiyyətini vurğulayaraq, bu əsərin rus, ingilis, fars və başqa dillərə tərcümə edilərək bütün dünyaya yayılmasının vacibliyini qeyd etmişdir.

Tədbirdə Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev, Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru Əkrəm Bije, "Cənubi Azərbaycan: 1918-ci il soyqırımı" kitabının müəllifi Həsən Səfəri çıxış etmişlər.

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş tədbir, 6 may 2016**

Mayın 6-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyi qeyd edildi. İnstitutun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva tədbirdə çıxış edərək, ümummilli liderin Azərbaycan xalqının müstəqilliyi, dövlətçiliyimizin inkişafı yolunda göstərdiyi xidmətlərdən söz açaraq Azərbaycanın müstəqilliyinin

bərpası, ölkəmizdə siyasi sabitliyin yaranması, Azərbaycan ideologiyasının yaranması və inkişafı, respublikamızın dünya birliyinə inteqrasiyası, nail olduğu yüksək iqtisadi inkişafın ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmişdir.

Ulu öndərin sovetlər dövründə respublikamıza rəhbərlik etdiyi illərdə gördüyü işlərdən söz açan Gövhər xanım, onun müstəqilliyin ilk ağır illərində hakimiyyətə qayıdıb böyük müdrikliyi ilə, apardığı uğurlu daxili və xarici siyasəti sayəsində ölkəmizi bütün çətinliklərdən xilas edərək inkişafının əsasını qoyduğunu, Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət qurduğunu söyləmişdir.

Sonra institut əməkdaşlarından f.ü.e.d. Vilayət Cəfərov, f.ü.f.d. Laura Orucova, f.ü.f.d. Əmir Qasımlı və başqaları çıxış edərək, müstəqil Azərbaycan dövlətinin əsasını qoymuş ulu öndərin suveren Azərbaycanın inkişafı yolunda göstərdiyi xidmətlərdən söz açmışlar.

**Görkəmli şərqşünas Əbdülkərim Əlizadənin 110 illik yubileyinə həsr olunmuş ümumi yığıncaq, 16 may 2016**

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu mayın 16-da institutun ilk direktoru, görkəmli şərqşünas alim, akademik Əbdülkərim Əlizadənin anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley tədbiri keçirmişdir.



AMEA-nın əsas binasında keçirilən tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva akademik Əbdülkərim Əlizadənin institutun ilk direktoru olduğunu qeyd edərək, görkəmli alimin həm də Azərbaycan mətnşünaslığının banisi hesab olunduğunu söyləmişdir. Məhz Əbdülkərim Əlizadənin rəhbərliyi altında ilk dəfə mətnşünaslıq sahəsində iş başlanılmışdır.

G.Baxşəliyeva Nizaminin "İsgəndərnamə" poemasının "Şərəfnamə" hissəsinin elmi-tənqidi mətnini yüksək elmi səviyyədə hazırladığı üçün Ə.Əlizadəyə və əsərin redaktoru professor Y.E.Bertelsə Nizaminin 800 illik yubileyi münasibəti ilə 1948-ci ildə SSRİ Dövlət Mükafatı verilməsini xatırlatmışdır.

Sonra Milli Məclisin deputatı, AMEA-nın vitse-prezidenti, AMEA Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxış edərək akademik Əbdülkərim Əlizadəni bir universal alim kimi dəyərləndirdi.

Sonra AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev "Akademik Əbdülkərim Əlizadə və Azərbaycan şərqşünaslığı", Şərqşünaslıq İnstitutunun Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, f.ü.e.d., prof. Mehdi Kazımov "Akademik Əbdülkərim Əlizadə mətnşünas alim kimi", AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi t.ü.e.d., prof. Şahin Fərzəliyev "Akademik Əbdülkərim Əlizadə necə varsa" mövzusunda məruzə etdilər.

**"Yaxın Şərq böhranı: XXI əsrin çağırışları və Müstəqil Azərbaycan" mövzusunda elmi konfrans, 25 oktyabr 2016**

Oktyabrın 25-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş "Yaxın Şərq böhranı: XXI əsrin çağırışları və Müstəqil Azərbaycan" mövzusunda elmi konfrans keçirilib.

Konfransda Liviya, İraq, İordaniya, Səudiyyə Ərəbistanı, Qətər, Türkiyə və Misirin diplomatik nümayəndələri iştirak ediblər.



Konfransı giriş sözü ilə açan Milli Məclisin deputatı, Şərqşünaslıq İnstitutunun direktoru, müxbir üzv Gövhər Baxşəliyeva çıxışında bu günlərdə müstəqil Azərbaycan Respublikasının tarixində əlamətdar bir günün qeyd edildiyini söyləyib, Azərbaycanın ən nüfuzlu təşkilatlara üzv olduğunu, bütün dünya ölkələri ilə tarazlaşdırılmış, ölçülübbiçilmiş siyasət yürütdüyünü bildirib.

Sonra xarici ölkə diplomatlarından İraq konsulu Abdul Hakim Əlyas, İordaniyanın konsulu Səd əl-Ğəzəli və Türkiyə səfirliyinin əməkdaşı Meral Parlas çıxış edərək Yaxın Şərq böhranının bölgə ölkələrinə təsiri və bu dövlətlərin həmin böhrandan çıxmaq istiqamətində gördüyü işlərdən danışıblar.

Sonra konfransda məruzələr başlanıb. Şərqşünaslıq İnstitutunun direktor müavini, müxbir üzv Şahin Mustafayev "Yaxın Şərq böhranı və Türkiyənin daxili və xarici siyasətinin əsas istiqamətləri", Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Fərda Əsədov "İraq və Suriya böhranının vahid tarixi-siyasi kökləri", institutun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Vidadi Mustafayev "Yaxın Şərq və İran" mövzusunda məruzə ediblər.

## Gənc türkoloqların beynəlxalq elmi konfransı, 21 noyabr 2016



Noyabrın 21-22-də AMEA-nın Rəyasət Heyətinin, akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun və Gənc Alim və Mütəxəssislər Şurasının təşkilatçılığı ilə I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər" mövzusunda gənc türkoloqların beynəlxalq elmi konfransı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin I Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncamı əsasında keçirilən tədbirlər sırasında baş tutan konfransın plenar iclası noyabrın 21-də olub. Konfransı giriş sözü ilə açan AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva 90 il öncə keçirilmiş I Türkoloji Qurultayın XX yüzillikdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşdüyünü qeyd edib. Türk xalqlarının mədəni inteqrasiyasında xüsusi və mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultayın böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ar-

dıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığını bildirib. Belə ki, məhz bu mötəbər məclisdə keçmiş Sovetlər Birliyi məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edilib, latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanıb.

Qurultayın keçmiş SSRİ məkanında türkologiyanın inkişafına böyük təkan verdiyini söyləyən G.Baxşəliyeva 1958-ci ildə yaradılan Şərqşünaslıq İnstitutunda bu sahədə əldə edilən uğurlardan danışıb. İnstitutun türkologiya sahəsində SSRİ-də ən öncül yerlərdən birini tutduğunu qeyd edən Gövhər xanım, Türkiyə ədəbiyyatı üzrə dissertasiya müdafiələrinin məhz Şərqşünaslıq İnstitutunda keçirildiyini vurğulayıb. İnstitutda türkologiya sahəsində çap olunmuş kitablardan söz açan G.Baxşəliyeva, böyük türk dastanı "Saltuknamə"nin dilimizə tərcüməsini, Haldun Tanerin, Mehmet Akif Ərsoyun və digər görkəmli türk ədiblərinin yaradıcılığına aid monoqrafiyaları, Osmanlı tarixinə aid əsərləri, Gəncə, Qarabağ, Naxçıvan, İrəvan, Lori, Ərdəbilə aid Osmanlı vergi dəftərlərini xüsusi vurğulayıb.

AMEA-nın vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli çıxış edərək, I Türkoloji Qurultayın və 90 il sonra bu əlamətdar hadisəyə həsr olunan tədbirlərin əhəmiyyətini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin I Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncamı əsasında keçirilən tədbirlər barədə ətraflı danışan İ.Həbibbəyli ölkəmizdən xaricdə, o cümlədən Tatarıstanda, Qazaxıstanda, Macarıstanda, Türkiyədə keçirilən tədbirləri xüsusi qeyd edib. Hazırda dünya miqyasında türkologiyada yeni oyanış dövrü olduğunu söyləyən İ.Həbibbəyli Macarıstanda son dövrdə bu sahədə əhəmiyyətli işlər görüldüyünü, Almaniyada sahənin dirçəlişdə olmasını, Polşada türkoloji tədqiqatların güclənməsini, Bolqarıstanda təşəbbüs göstərildiyini, Balkan ölkələrində bu sahəyə meyillərin artdığını vurğulayıb.

İ.Həbibbəyli Şərqşünaslıq İnstitutunun keçirdiyi gənc türkoloqların beynəlxalq elmi konfransının I Türkoloji Qurultayın ruhunu müasir dövrə çatdırdığını və gələcəyə apardığını deyib.

AMEA-nın İctimai Elmlər bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Nərgiz Axundova I Türkoloji Qurultayın önəmindən danışaraq, o dövrdəki görkəmli alimlərin səylərinin hədər getmədiyini, bugünkü Azərbaycan türkologiyasında da onun nəticələrinin göründüyünü qeyd edib. Azərbaycan türkologiyasının dünya səviyyəsinə çatdığını deyən N.Axundova, gənc türkoloqlara hazırkı konfransda, eləcə də gələcək tədqiqatlarında uğurlar arzulayıb.

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev türkologiyanın türk xalqlarının bütün milli-mənəvi, mədəni, intellektual inkişafını əhatə edən kompleks bir elm olduğunu deyərək, mənəvi varlığımızın qorunmasında gənc türkoloqların da böyük payı olacağını bildirib.

Tədbirdə çıxış edən Özbəkistan Turan Elmlər Akademiyasının həqiqi üzvü, Səmərqənd Universitetinin professoru Səxavət Ociyev, AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri, f.ü.f.d. Famin Salmanov I Türkoloji Qurultayın əhəmiyyətindən danışaraq, Gənc türkoloqların beynəlxalq elmi konfransının iştirakçılarına uğurlar arzulayıblar.

Konfrans öz işini Şərqşünaslıq İnstitutunda keçirilən 4 bölmə üzrə (“Türk dillərinin tarixi”; “Türk xalqlarının ədəbiyyatı”; “Türk xalqlarının tarixi və mənbəşünaslığı, türk xalqlarının arxeologiya və etnoqrafiyası”; “Türk xalqlarının iqtisadiyyatı, türk xalqlarının fəlsəfəsinin və mədəniyyətşünaslığının aktual problemləri”) iclaslarda davam etdirib.

### Şərqşünaslıq İnstitutunda “İslam Həmrəyliyi İli” ilə bağlı seminar, 18 yanvar 2017

2017-ci il Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamı ilə “İslam Həmrəyliyi İli” elan edilmişdir. Yanvarın 18-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirilən elmi seminarın mövzusu da “İslam Həmrəyliyi İli” ilə bağlı olmuşdur.

Seminarda əsas məruzəçi institutun Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Fərda Əsədov olmuşdur. Məruzəçi Azərbaycanın bir müsəlman ölkəsi olmaqla yanaşı,



bir dünyəvi dövlət olmasının onun modern müsəlman ölkəsi kimi tanınmasına əsas verdiyini söyləmişdir. F.Əsədov bütün ənənəvi dinlərə hörmətlə yanaşılan və ümumbəşəri dəyərlərə söykənən Azərbaycanın müasir və dünyəvi müsəlman ölkəsi nümunəsi olduğunu qeyd etmişdir.

F.Əsədovun Səudiyyə Ərəbistanının İslam İşləri Nazirliyinin nümayəndələri ilə görüşlərində müsəlmən ölkələrinin qarşısında duran təhlükələr və problemlər müzakirə edilmişdir.

**Şərqşünaslıq İnstitutunun kollektivi Ziya Bünyadovun xatirəsini anmışdır, 24 fevral 2017**

Fevralın 24-də AMEA Şərqşünaslıq İnstitutunun kollektivi Fəxri Xiyabanda 20 il öncə – 1997-ci il fevralın 21-də amansızcasına qətlə yetirilmiş görkəmli şərqşünas alim, vaxtilə AMEA-nın vitse-prezidenti, AMEA Şərqşünaslıq İnstitutunun direktoru vəzifələrində çalışmış akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun xatirəsini anmış, məzarı üzərinə əklillər qoyub, gül dəstələri düzmüşdür.

Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva anım mərasimində Azərbaycan şərqşünaslıq və tarix elminin korifeyi Ziya Bünyadovun keçdiyi zəngin və mənalı həyat yolundan, qoyduğu böyük elmi irsdən, yaratdığı elmi məktəbdən danışmış, həmin məktəbin yetirmələrinin böyük alimin yolunu layiqincə davam etdirdiklərini qeyd etmişdir.

## Şərqşünaslıq İnstitutunda "Azərbaycanda İslam Həmrəyliyi İli – birlik və inkişaf naminə sülhməramlı missiya" mövzusunda elmi konfrans, 19 aprel 2017




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı 10 yanvar 2017-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmişdir.

Bu Sərəncamın icrası ilə əlaqədar AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu aprelin 19-da "Azərbaycanda İslam Həmrəyliyi İli – birlik və inkişaf naminə sülhməramlı missiya" mövzusunda elmi konfrans keçirmişdir. Konfransda bir sıra Şərq ölkələrinin səfirləri də iştirak etmişdir.

Konfransı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva "İslam Həmrəyliyi İli" elan edilməsini islami dəyərlərin və bütövlükdə müsəlman aləminin böyük təəssübkeşi Prezident İlham Əliyev tərəfindən zamanında verilmiş çox gərəkli, uzaqgörən ictimai-siyasi bir qərar kimi dəyərləndirərək, Şərqşünaslıq İnstitutu tərəfindən bu konfransın təşkilinin də şərqşünas alimlərimizin bu sahədə bilik və təcrübələrinin paylaşılması üçün əhəmiyyətli bir addım olduğunu bildirmişdir.

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Nərgiz Axundova çıxışında islamda başqa dinlərə ehtiram olduğuna diqqət çəkərək, islam daxilində qarşılıqlı münasibətlərdə də mənəvi dəyərlərin rolunu qeyd etmişdir.

Konfransda AMEA Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə, İordaniyanın Azərbaycandakı səfirinin müavini Saad Ğazal, İran İslam Respublikasının Azərbaycandakı səfirinin müavini Həsən Qoli çıxış edərək islam dünyasında həmrəyliyin yaradılmasında Azərbaycan dövlətinin rolunu vurğulamış və Şərqşünaslıq İnstitutunun keçirdiyi konfransı da bu sahədə görülən işlərin elmi cəhətdən dəyərləndirilməsində mühüm addım kimi qiymətləndirmişlər.

**Şərqşünaslıq İnstitutunda Əmin ər-Reyhaninin 140 illiyi, 14 iyun 2017**

İyunun 14-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda tanınmış ərəb məhcər ədibi Əmin ər-Reyhaninin anadan olmasının 140 illiyi münasibətilə elmi sessiya keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru G.B.Baxşəliyeva qeyd etmişdir ki, məhcər ədəbiyyatının görkəmli



nümayəndəsi Əmin ər-Reyhani istər ərəb ədəbiyyatşünaslığında, istərsə də dünya şərqşünaslığında adı daima hörmətlə çəkilən şəxsiyyətlərdəndir. Təsadüfi deyil ki, Azərbaycan alimi, professor Aida İmanquliyeva onun adını ərəb məhcər ədəbiyyatının Mixail Nuaymə, Cübran Xəlil Cübran kimi korifeyləri ilə bir sırada çəkmişdir. G.Baxşəliyeva, ümumiyyətlə, ərəb məhcər ədəbiyyatını sistemli şəkildə keçmiş Sovetlər məkanında ilk tədqiq edən alimin məhz Aida İmanquliyeva olduğunu xatırladaraq, görkəmli alimin tədqiqatlarının əsasən bu sahə ilə bağlı olduğunu qeyd etmiş və onun məhz Əmin ər-Reyhaniyə həsr olunmuş tədqiqatlarından söz açmışdır. G.Baxşəliyeva bu gün də Aida İmanquliyeva məktəbinin Şərqşünaslıq İnstitutunda davam etdirildiyini və ərəb məhcər ədəbiyyatına aid tədqiqatların aparıldığını, dissertasiyaların, monoqrafiyaların yazıldığını, məhcər ədiblərinin əsərlərinin tərcümə edilərək çap edildiyini vurğulamışdır.

Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin böyük elmi işçisi, f.ü.f.d. Fatma Məcidova "Əmin ər-Reyhani yaradıcılığında Ərəb Şərqi", f.ü.e.d. Vilayət Cəfərov "Əmin ər-Reyhaninin İraq təəssüratları", Şərq-Qərb şöbəsinin böyük elmi işçiləri f.ü.f.d. Mahir Həmidov "Əmin ər-Reyhaninin "Ərəb baharı" anlayışı və onun sosial-fəlsəfi mahiyyəti", Xuraman Əliyeva "Aida İmanquliyeva Şərq-Qərb ədəbi əlaqələrinin tədqiqatçısı kimi" mövzularında məruzə etmişlər.

### Şərqşünaslıq İnstitutunda qocaman alim Əkrəm Rəhimlinin 85 illik yubileyi qeyd edilmişdir, 22 sentyabr 2017

Sentyabrın 22-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli Cənubi Azərbaycanşünas alim, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Rəhimlinin 85 illik yubileyi ilə əlaqədar elmi sessiya keçirilmişdir.

Tədbir çərçivəsində AMEA-nın əsas binasının 2-ci mərtəbəsindəki foyede Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin əsərlərindən, o cümlədən yubilyar Əkrəm Rəhimlinin kitablarından ibarət sərgi təşkil olunmuşdur.

Tədbiri giriş sözü ilə açan AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva

İnstitutun qocaman alimi, Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi Əkrəm Rəhimlinin Şərqşünaslıq elmimizdə mühüm yeri, Türkiyə iqtisadiyyatı və Cənubi Azərbaycan tarixi üzrə dəyərli araşdırmaları olan bir tədqiqatçı olduğunu söylədi. G.Baxşəliyeva Ə.Rəhimlinin yüksək intellekt sahibi, təcrübəli tədqiqatçı, prinsipial mövqeyi, dərin məntiqi və özünəməxsus dəst-xətti ilə tanınan alim olduğunu vurğulayaraq, onun tutduğu yolun xalqa sədaqətlə xidmət etmək, gənc nəslə elmin sirlərini öyrətmək, özündən sonra tarixin səhifəsinə çevriləcək qiymətli əsərlər yazmaq, mənəvi dəyərləri maddiyyatdan üstün tutmaq yolu olduğunu bildirmişdi.

Sonra Ə.Rəhimliyə həsr edilmiş filmin nümayişi oldu.

### “Müasir Şərqşünaslığın Aktual Problemləri” (“Ziya Bünyadov Qiraətləri”) adlı beynəlxalq konfrans, 16-17 oktyabr 2017

Oktyabrın 16-da AMEA-nın Əsas binasında bu qurumun Rəyasət Heyəti, akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyinin birgə təşkilatçılığı ilə “Müasir şərqşünaslığın aktual problemləri” (“Ziya Bünyadov qiraətləri”) mövzusunda beynəlxalq konfrans işə başlamışdır.



Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoymuşlar.

Sonra konfrans iştirakçıları akademik Ziya Bünyadovun məzarını ziyarət edib, qəbirüstü abidəsi önünə güllər qoymuşlar.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək konfransın Azərbaycanın görkəmli tarixçisi və şərqşünas alimi, tanınmış ictimai xadim, Dövlət mükafatı laureatı, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun xatirəsinə həsr olunduğunu vurğulamışdır.

Daha sonra Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "Ölümsüzlüyə qovuşan ömür" mövzusunda məruzəsini təqdim edərək bildirib ki, Z.Bünyadov orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınıb, elmi ictimaiyyətin və geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Konfransda AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, akademik Şahin Mustafayev, Rusiya Elmlər Akademiyasının (REA) A.M.Qorkiy adına Dünya Ədəbiyyatı İnstitutunun direktoru, akademik Aleksandr Kudelin, REA-nın Şərq Əlyazmaları İnstitutunun direktoru, professor İrina Popova, Türkiyənin Nəcməddin Ərbakan Universitetinin professoru Əhməd Taşğın və başqaları çıxış edərək Z.M.Bünyadovun elmi irsi, həyatı və şəxsiyyəti barədə fikirlərini səsləndirmişlər.

# İNSTİTUTUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**2009-2018-ci illərdə institut beynəlxalq əlaqələri genişləndirilmiş, dünya elm məkanına inteqrasiya istiqamətində ciddi addımlar atılmışdır. Belə ki, göstərilən illər ərzində institutun əməkdaşları 350 dəfədən artıq xarici ölkələrdə beynəlxalq elmi konfranslarda Azərbaycan elmini uğurla təmsil etmişlər.**

1991-2016-cı illər ərzində institut əməkdaşları Azərbaycan şərqşünaslığını bir çox beynəlxalq konqres, konfrans və simpoziumlarda, o cümlədən şərqşünasların XXIV, XXV, XXIX, XXXI, XXXII və XXXVII beynəlxalq konfranslarında (AFR, SSRİ, Avstraliya, Fransa, Yaponiya, Rusiya), Türk Tarix Qurumunun son on üç konqresində (Ankara, 1966-1999) və s. təmsil etmiş, Almaniya, Çin, Cənubi Koreya, Avstriya, Böyük Britaniya, Fransa, Türkiyə, Rusiya, İran, Misir, Malaziya, İsrail, Hindistan, Hollandiya, Amerika Birləşmiş Ştatları, Özbəkistan, Qırğızıstan və s. ölkələrdə keçirilən şərqşünaslığın müxtəlif problemlərinə həsr edilmiş konfrans və simpoziumlarda iştirak etmişlər.

İnstitutun hazırda Türkiyə, Almaniya, Hollandiya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası və s. ölkələrinin universitet və elmi mərkəzləri, habelə Türk Tarix Qurumu ilə sıx elmi əlaqələri vardır. Həmçinin institut UNESCO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir. İnstitut bir sıra mühüm beynəlxalq elmi konfrans və simpoziumların təşkilatçısı olmuşdur: Şərqşünasların II Ümumittifaq elmi konfransı (Bakı, 1982), Mustafa Kamal Atatürkün anadan olmasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans (Bakı, 1991), Hollandiyanın Utrext Universiteti ilə birlikdə "Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar" mövzusunda beynəlxalq elmi konfrans (Bakı 1997), Türkiyə Respublikasının yaranmasının 75 illiyinə həsr olunmuş beynəlxalq konfrans (Bakı, 1998), Osmanlı

dövlətinin yaranmasının 700 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans (Bakı, 1999), Böyük İran şairləri Hafiz Şirazi və Sədi Şiraziyə həsr olunmuş beynəlxalq elmi-ədəbi konfranslar (Bakı, 2002; Bakı, 2003), Mirzə Kazım bəyin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans (UNESCO ilə birlikdə, Bakı, 2003), "Qloballaşma və islam" mövzusunda beynəlxalq elmi konfranslar (Bakı, 2004; Bakı, 2005), "İranda Məşrutə inqilabı-100" adlı beynəlxalq elmi konfrans (Bakı, 2005), "Şərq və Qərb arasında dialoq" mövzusunda beynəlxalq elmi konfrans (Rumıniyanın Kluj-Naboka şəhəri, 2010), "Şərq xalqlarının Bakı qurultayı - 1920: tarix və reallıqlar" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2010), "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2011), Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş "Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı" mövzusunda beynəlxalq elmi simpozium (Bakı, 2012), "Nizami Gəncəvi və Şərq ədəbiyyatları" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2012), "Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2013), akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş "Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2013), "Türkiyə Cümhuriyyəti-90" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2013), AMEA Rəyasət Heyəti və Şərqşünaslıq İnstitutu tərəfindən hazırlanmış görkəmli şərqşünas alim Aida İmanquliyevanın 75 illiyinə həsr edilmiş "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 10-11 oktyabr 2014), AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və AMEA Gənc alim və Mütəxəssislər Şurasının birgə təşkilatçılığı ilə I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş gənc türkoloqların "Müasir Türkoloji tədqiqatlar: problem və perspektivlər" mövzusunda beynəlxalq elmi konfransı (21 noyabr 2016), "Müasir Şərqşünaslığın Aktual Problemləri" (Ziya Bünyadov Qiraətləri) adlı beynəlxalq konfrans (16-17 oktyabr 2017).

**Bu illər ərzində akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda bir çox xarici qonaqlarla görüşlər də keçirilmişdir:**

26 noyabr 1997-ci il Fransa milli Şərq dilləri və mədəniyyətləri İnstitutunun "Fars ədəbiyyatı" şöbəsinin müdiri doktor Kristof Balay ilə görüş keçirilmişdir. Elmi seminarda "Müasir İran ədəbiyyatının genezisi" adlı məruzəsi dinlənilmişdir.

5 mart 2003-cü ildə Misir Mədəniyyət Mərkəzinin sədri cənab Saleh Məşəl, Çin Sosial elmlər akademiyasının Şərqi Avropa, Rusiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru professor Li Jingjie, İran ədibləri və mədəniyyət xadimlərindən ibarət nümayəndə heyəti ilə görüşlər təşkil edilmişdir.

25 oktyabr 2007-ci il Misir Azərbaycan Parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş keçirilmişdir.

7 noyabr 2007-ci il Almaniyanın Gerda Henkel adına fondunun Mərkəzi Asiya nümayəndəliyinin rəhbəri ilə görüş keçirilmişdir.

4 may 2009-cu il Azərbaycanda səfərdə olan alman şərqşünas alimi, Hamburq şəhərində fəaliyyət göstərən tanınmış tarixçi və türkoloq professor Udo Ştaynbax akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. Görüş zamanı Udo Ştaynbax institutun elmi fəaliyyəti ilə tanış olmuş, müdiriyyətlə əməkdaşlıq məsələlərini müzakirə etmişdir.

25 may 2009-cu il CXR-nın ölkəmizdəki səfiri Çjan Yannian AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuş, elmi sahədə əməkdaşlıq məsələlərinə dair müzakirələr aparmışdır. Direktor f.ü.e.d., professor G.B.Baxşəliyeva çinli qonağa Azərbaycan şərqşünaslıq elminin ənənələrindən danışmış və institutda elmi araşdırmaların aparıldığı istiqamətlərdən söz açmışdır.

21 oktyabr 2009-cu il Səudiyyə Ərəbistanının yeni təyin olunmuş səfiri Fəhd bin Əli əd-Dusəri ilə institutda görüş keçirilmiş, qonağa institutda aparılan ərəb ölkələrinin tarix, ədəbiyyat və mədəniyyətinə dair tədqiqatlar barəsində məlumat verilmiş, elmi əməkdaşlığın perspektivlərinə dair bir sıra razılıqlar əldə olunmuşdur. Səfir Fəhd bin Əli əd-Dusəri görüş zamanı Şərqşünaslıq İnstitutunun qeyri-ərəb

ölkələrində ərəb dilinin tədqiqi sahəsində nümunəvi bir mərkəz olduğunu qeyd etmişdir.

23 oktyabr 2009-cu il Misir Ərəb Respublikasının Ayn Əş-Şəms Universitetinin qeyri-ərəblərə ərəb dilinin tədrisi mərkəzinin şöbə müdiri, professor Tariq Çələbi ilə görüş keçirilmişdir. İnstitutun direktoru qonağa institutda Yaxın və Orta Şərq xalqlarının dil, ədəbiyyat, tarix, fəlsəfə və iqtisadiyyatına dair tədqiqat aparıldığı barədə məlumat vermişdir. Görüş zamanı elmi əlaqələrin yaradılmasının hər iki tərəf üçün faydalı olacağı qeyd olunmuşdur.

12 dekabr 2009-cu il MƏR-nın Azərbaycan Respublikasındakı səfiri Sabir Mənsur ilə institutda görüş keçirilmişdir. Söhbət zamanı səfir Misirdə də Azərbaycan mədəniyyəti və tarixinin öyrənilməsi ilə məşğul olan alimlər qrupunun olduğunu bildirmişdir.

İnstitutun direktoru f.ü.e.d., prof. G.B.Baxşəliyeva səfirə məlumat vermişdir ki, institutda 40-dan çox alim-ərəbşünas ərəb ədəbiyyatı, ərəb dünyası, o cümlədən Misir mədəniyyəti və tarixi, həmçinin qədim ərəb yazıları və islamşünaslıq ilə məşğul olur. Görüş zamanı qarşılıqlı elmi səfərlərə zərurətin olduğu vurğulanmışdır.

24 fevral 2010-cu ildə Mərakeşin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Həssan Hami ilə görüş keçirilmişdir.

4 mart 2010-cu ildə Liviyanın Azərbaycandakı səfiri Saad Mustafa Mücbirlə görüş keçirilmişdir.

28 iyun 2012-ci ildə AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda tanınmış türkoloq alim, Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin anası, tarix elmləri doktoru, professor Giuli Alasaniya və tanınmış Liviya ictimai xadim və alimi, doktor Fəridə Alaki ilə görüş keçirilmişdir.

Bundan sonra AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə özəl Gürcüstan Universiteti arasında memorandum imzalandı. Memorandumu Azərbaycan tərəfindən Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva, Gürcüstan tərəfindən özəl Gürcüstan Universitetinin təsisçisi Giuli Alasaniya imzaladılar.

Sonra professor Giuli Alasaniya görüşdə iştirak edən şərqşünas alimlərlə ürək sözlərini bölüşdü, onlara Gürcüstandakı elmin hazırkı

vəziyyəti və əldə edilən nailiyyətlərdən, o cümlədən şərqşünaslıq sahəsində görülən işlərdən danışdı.

8 oktyabr 2012-ci ildə Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmiş İndoneziyanın Xarici İşlər Nazirliyinin nümayəndəsi, həmin ölkənin parlamentlərarası birliyinin sədr müavini, Qadın Məsələləri Komitəsinin rəhbəri Nurhayati Ali Asseqaf AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. Onu İndoneziyanın Azərbaycandakı səfirliyinin müşaviri Aqus Trimartono müşayiət edib. N.A.Assqeqaf Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor Gövhər Baxşəliyeva və institutun Mərkəzi Asiya və Uzaq Şərq ölkələri şöbəsinin əməkdaşları ilə görüşmüşdür.

N.A.Asseqaf ölkəmizdə Şərqin öyrənilməsinə də böyük marağı olduğunu qeyd edərək, Şərqşünaslıq İnstitutuna gəlib bu işlərlə tanış olmasından məmnunluğunu bildirmişdir.

17 oktyabr 2012-ci ildə Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət mərkəzinin yeni təyin olunmuş rəhbəri Mustafa Moavad Əbdul-Tavab Əbu-Ziəd AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur.

Mustafa Moavad Əbdul-Tavab Əbu-Ziəd ölkəsinin elm-təhsil müəssisələri ilə Şərqşünaslıq İnstitutu arasında əlaqələrin yaradılması və genişlənməsində maraqlı olduğunu söyləyərək, bu işdə rəhbərlik etdiyi mərkəzin hərtərəfli köməklik göstərməyə hazır olduğunu bildirmişdir.

1 noyabr 2012-ci ildə Qafqaz Universitetinin rektoru, prof. dr. Əhməd Sanıc və həmin universitetin Pedaqogika fakültəsinin dekanı, dosent Erdal Karaman AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Onlar Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor Gövhər Baxşəliyeva ilə görüşmüşlər. Görüşdə bu iki elm və təhsil müəssisəsi arasında əlaqələrin genişlənməsi perspektivləri müzakirə olunmuş və birgə elmi tədbirlərin keçirilməsi ilə bağlı konkret ilk addımlar atılmışdır.

1 aprel 2013-cü ildə Qahirə Universitetinin professoru ilə görüş keçirilmişdir.

Aprelin 1-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Misirin Qahirə Universitetinin professoru, həmin uni-

versitetin Tarixi Araşdırmalar Mərkəzinin müdiri doktor Vacih Abdussadeq Musa Atiqlə görüş keçirilmişdir. Misirli qonaq ilk öncə Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor Gövhər Baxşəliyeva ilə görüşmüşdür. Doktor Vacih Abdussadeq Musa Atiq təmsil etdiyi universitetin Azərbaycanın elm və təhsil müəssisələri ilə, ilk növbədə də Şərqşünaslıq İnstitutu ilə əlaqələrinin inkişaf etdirilməsində, eləcə də bütövlükdə iki ölkə arasında mədəni əlaqələrdə yeni səhifələrin açılmasında maraqlı olduğunu söyləmişdir.

Gövhər Baxşəliyeva qonağa rəhbərlik etdiyi institutun Misirin elm-təhsil müəssisələri, kitabxanaları ilə əlaqələrindən, şərqşünas alimlərin həmin ölkəyə elmi səfərlərindən söz açmışdır. Gövhər xanım həmçinin institutda ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, ərəb dilçiliyi və ədəbiyyatı ilə bağlı, eləcə də dinşünaslıq sahəsində aparılan tədqiqatlardan danışmışdır.

18 mart 2014-cü ildə İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin yeni təyin olunmuş sədri İbrahim İbrahimi ölkəmizdə iranşünaslıq sahəsində aparılan tədqiqatlarla yaxından tanış olmaq və qarşılıqlı elmi əlaqələrin genişlənməsi perspektivlərini müzakirə etmək məqsədilə AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. İnstitutun direktoru və direktor müavini ilə görüşən İbrahim İbrahimi rəhbərlik etdiyi təşkilatla Şərqşünaslıq İnstitutu arasındakı əlaqələrin genişlənməsi istiqamətində fikirlərini paylaşmışdır. Qonağa Şərqşünaslıq İnstitutunda iranşünaslıq sahəsində aparılan tədqiqatlar barədə məlumat verilmiş və iki təşkilat arasında əvvəlki elmi əlaqələrdən danışılmışdır. Görüşdə Azərbaycanda və İranda birgə elmi tədbirlərin təşkili, alimlərin təcrübə mübadiləsi, müştərək elmi nəşrlərin hazırlanması və s. istiqamətdə əməkdaşlığın aparılması perspektivləri müzakirə olunmuşdur.

4 iyun 2014-cü ildə AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda şərqşünaslığın aktual problemləri ilə əlaqədar "Orientalistika" elmi-nəzəri seminarının növbəti məşğələsi keçirilib. Seminarda Türkiyənin Biləcik Şeyx Edəbali Universitetinin dosenti, dr. Vədat Turğut "Orta əsrlər Şərq cəmiyyətində vəqflərin yeri və

mahiyyəti" mövzusunda məruzə edib. Sonra məruzə ətrafında fikir mübadiləsi aparılıb, Vədat Turğut seminar iştirakçılarının suallarını cavablandırıb.

9 iyun 2014-cü ildə Səudiyyə Ərəbistanının Şura Məclisinin üzvləri, başda Məclisin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Abdullah ən-Nasir olmaqla, AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Səudiyyəli parlamentariləri Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Müsaid bin İbrahim əs-Süleym müşayiət etmişdir. Qonaqlar ilk olaraq Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva ilə görüşmüşlər. G.B.Baxşəliyeva institutda ərəbşünaslıq və islamşünaslıq sahələrində aparılan tədqiqatlardan danışaraq qonaqları son zamanlar bu sahədə nəşr olunmuş ən mühüm əsərlərlə tanış etmişdir. Şərqşünaslıq İnstitutunda olmalarından məmnun olduqlarını dilə gətirən Abdullah ən-Nasir ölkələrimiz arasında mehriban dostluq münasibətləri fonunda elmi əlaqələrin də genişlənəcəyinə ümidini bildirmişdir.

27 avqust 2014-cü ildə Təbriz Universitetinin bir qrup müəllimi AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Onları İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi müşayiət etmişdir. Təbrizli müəllimlər institutun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə görüşmüşlər. O, qonaqlara Şərqşünaslıq İnstitutunun tarixindən bəhs etmiş, institutda iranşünaslıq sahəsində aparılan tədqiqatlar barədə məlumat vermişdir.

İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi rəhbərlik etdiyi Mərkəzin Şərqşünaslıq İnstitutu ilə əməkdaşlığından məmnunluğunu bildirərək, bu sahədə gələcək perspektivlərdən danışmışdır. Təbriz Universitetinin müəllimlərindən tanınmış ədib dr. Fərşbafian, iqtisadçı dr. Ağacani, coğrafiyaşünas dr. Nikcuh, Təbriz Universiteti Muzeyinin müdiri, tarixçi dr. Əbdullahi təmsil etdikləri ali məktəbin Şərqşünaslıq İnstitutu ilə əməkdaşlıq etmək arzusunda olduğunu bildirmişlər. Təbriz Universitetində Azərbaycanşünaslıq Mərkəzinin fəaliyyət göstərdiyini bildirən qonaqlar Şərqşünaslıq İnstitutu ilə birgə elmi

tədbirlərin keçirilməsi, tələbələrə elmi dəstək göstərilməsi, kadr mübadiləsi, kitab nəşri və s. ilə bağlı əməkdaşlıq imkanlarından söz açmışlar. Görüşdə Təbriz Universiteti ilə Şərqşünaslıq İnstitutunun müştərək keçirə biləcəyi bir neçə elmi tədbir müzakirə olunmuşdur.

26 noyabr 2014-cü ildə Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Misir Mədəniyyət Mərkəzinin yeni təyin olunmuş sədri Əhməd Sami Elaydi AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda oldu. Misirli diplomat ilk olaraq institutun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə görüşdü. G.B.Baxşəliyeva qonağa Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq sahəsində, xüsusən də Misirlə bağlı aparılan tədqiqatlar barədə məlumat verdi və son zamanlar institutda bu sahədə nəşr olunmuş bir sıra kitabları təqdim etdi.

Görüşdə Şərqşünaslıq İnstitutu ilə Misir Mədəniyyət Mərkəzi, həmçinin Misirin elm və təhsil müəssisələri ilə əməkdaşlığının perspektivləri müzakirə edildi, birgə elmi tədbirlərin, elmi layihələrin həyata keçirilməsi, qarşılıqlı elmi kadr mübadiləsinin imkanlarından söz açıldı.

Əhməd Sami Elaydi daha sonra Şərqşünaslıq İnstitutunda çalışan ərəbşünas alimlərlə görüşdü. İnstitutun alimləri qonağa öz tədqiqatları barədə məlumat verdilər. Əhməd Sami Elaydi Azərbaycanda ərəbşünaslıq sahəsində aparılan tədqiqatları yüksək dəyərləndirdiyini bildirdi. O, özü ilə gətirdiyi ərəb dilində olan 5 mindən artıq kitabın elektron variantını Şərqşünaslıq İnstitutunun əməkdaşlarına hədiyyə etdi. Faydalı müzakirələr şəklində keçən görüşdə qarşılıqlı əməkdaşlıq perspektivlərindən söz açıldı.

8 aprel 2015-ci ildə Kuba Respublikasının Azərbaycandakı səfiri cənab Omar Medina Kintero AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. Səfir ilk olaraq institutun direktoru, AMEA-nın müxbir üzvü millət vəkili Gövhər Baxşəliyeva ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında əlaqələrdən söz açılaraq, səfirə Şərqşünaslıq İnstitutunun fəaliyyət istiqamətləri barədə məlumat verilmişdir.

Səfir daha sonra Şərqşünaslıq İnstitutunun kollektivi ilə görüşmüşdür. Omar Medina Kintero ölkəsinin tarixindən və hazırkı duru-

mundan bəhs edərək, ölkələrimiz arasında əlaqələrdən danışmışdır. Kubanın müsəlman əhalisindən də danışan səfir, ölkəsində Səudiyyə Ərəbistanı və Türkiyənin təşəbbüsü ilə iki məscidin inşa olunacağını da bildirmişdir. Sonda Omar Medina Kintero şərqşünas alimləri maraqlandıran suallara cavab vermişdir.

10 aprel 2015-ci ildə İran İslam Respublikasının Azad İslam Universitetinin rektoru, mədəniyyət və islami irşad nazirinin müşaviri Pərvin Dadəndiş AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. P.Dadəndiş millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında elmi, mədəni əlaqələrdən söz açılmış, Şərqşünaslıq İnstitutu ilə Azad İslam Universitetinin əməkdaşlıq perspektivləri müzakirə edilmişdir. Tərəflər arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandumun bağlanması qərara alınmış və yaxın vaxtlarda bu memorandumun hazırlanaraq imzalanması planlaşdırılmışdır.

13 may 2015-ci il Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun Şərqşünaslıq İnstitutunda olmuş, Çanaqqala zəfərinin 100 illiyinə həsr olunmuş elmi konfransda Çanaqqala zəfərinin türk xalqlarının tarixindəki mühüm əhəmiyyətindən danışmışdır. Səfir türk tarixinə daha öncəki illərdən nəzər salmağın vacibliyini vurğulamış və bu istiqamətdə baş verən hadisələrdən, o cümlədən ermənilərin Türkiyəyə qarşı heç bir əsli olmayan uydurma “erməni soyqırımı” iddiasından da söz açmışdır.

29 yanvar 2016-cı il İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olub. İ.İbrahimi Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

Görüşdə Azərbaycan və İran arasında elm, təhsil, mədəniyyət sahəsində əlaqələrdən söhbət aparılıb. Şərqşünaslıq İnstitutu ilə İran Mədəniyyət Mərkəzi arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində müzakirələr aparılmış və danışıqlar zamanı Azərbaycanda və İranda birgə təşkil oluna biləcək elmi tədbirlərin planlaşdı-

rılması, alimlərin qarşılıqlı səfərləri, Şərqşünaslıq İnstitutunda iranşünaslığa dair çap olunmuş kitabların təkrar nəşri və bu sahədə yeni elmi əsərlərin nəşr etdirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

5 fevral 2016-cı ildə AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu və İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə İran İslam İnqilabının 37-ci ildönümünə həsr olunan "İran müasir mərhələdə" mövzusunda dəyirmi masa keçirilmişdir. Şərqşünaslıq İnstitutunda keçirilən tədbiri giriş sözü ilə açan institutun direktoru, millət vəkili, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva Azərbaycan və İran arasında müxtəlif sahələrdə möhkəm əlaqələrin olduğunu qeyd edərək, bu əlaqələrin elmi, mədəni sahədə inkişafında şərqşünas alimlərin rolunu qeyd etmiş və Şərqşünaslıq İnstitutunda İran tarixi və iqtisadiyyatı, İran filologiyası, Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbələrində iranşünaslıqla bağlı çox dəyərli tədqiqatlar aparıldığını bildirmişdir.

İran İslam Respublikasının Azərbaycandakı səfiri Möhsün Pakayin tədbirdə çıxış edərək, müasir İran tarixinin ən böyük hadisəsinin İran İslam İnqilabı olduğunu demiş və bu inqilabın üç əsas şüarı – istiqlal, azadlıq və islam cümhuriyyətinin müasir İran tarixində təzahüründən geniş söz açmışdır.

Tədbirdə Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d. Vidadi Mustafayev İranın ən yeni tarixinə dair məruzə etmiş, İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi çıxış etmişdir.

11 may 2016-cı il Səudiyyə Ərəbistanının Kral Əbdüləziz adına fondunun baş direktoru doktor Fəhd Əbdüləziz əs-Səmmarinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. Fondun nümayəndə heyəti Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, AMEA-nın müxbir üzvü, f.ü.e.d., professor Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

Görüşdə qonaqları salamlayan G.Baxşəliyeva, onlara institutun tarixi, strukturu və elmi fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat vermişdir.

İnstitutla tanışlıqdan məmnun olduğunu bildirən doktor Fəhd Əbdüləziz bu elm müəssisəsində görülən işləri yüksək qiymətləndirmişdir.

Sonra qonaqlar institutun əməkdaşları ilə görüşmüşlər.

3 iyun 2016-cı ildə İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin Təhqiqatlar və Tədris Mərkəzinin sədri Hadi Süleymanpurun rəhbərlik etdiyi nümayəndə heyəti AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. Qonaqları İran İslam Respublikasının Azərbaycandakı səfiri Möhsün Pakayin və səfirliyin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi müşayiət etmişlər. Hadi Süleymanpurun rəhbərlik etdiyi nümayəndə heyəti Milli Məclisin deputatı, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə görüşmüşdür. Qonaqlara Şərqşünaslıq İnstitutunun elmi istiqamətləri barədə məlumat verilərək, iranşünaslıq sahəsində aparılan tədqiqatlardan, görkəmli alimlərimizin elmimizə bu sahədə verdikləri böyük töhfələrdən ətraflı danışılmışdır. Hadi Süleymanpur Azərbaycanın mədəniyyətlərin beşiyi olduğunu deyərək, hər iki ölkə xalqlarının müştərək irslərinin dünyaya tanıtdırılmasında qarşılıqlı əməkdaşlığın böyük faydasının olduğunu vurğulamışdır.

21 iyun 2016-cı ildə İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Nassar Habaşneh Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur.

Səfir Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, AMEA-nın müxbir üzvü, f.ü.e.d., professor Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

G.Baxşəliyeva səfirə institutun tarixi, strukturu və elmi fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat vermişdir. İnstitutun müxtəlif şöbələri üzrə aparılan aktual tədqiqat işlərindən danışan G.Baxşəliyeva ərəb ədiblərinin yaradıcılığı ilə bağlı aparılan tədqiqatları xüsusi qeyd etmişdir.

Ərəb ölkələrində baş verən hadisələrin Azərbaycan xalqı tərəfindən böyük ürək ağrısı ilə müşahidə edildiyini bildirən Gövhər xanım İordaniyanın bu hadisələrdən ağrısız ötüşməsinin aparılan düşünülmüş siyasətin bəhrəsi olduğunu qeyd etmişdir.

İnstitutla tanışlıqdan məmnun olduğunu bildirən səfir bu elm müəssisəsində görülən işləri yüksək qiymətləndirmişdir. Nassar Habaşneh bu görüşün qarşılıqlı əlaqələrin genişlənməsinin başlanğıcı olacağını söyləyərək, səmərəli əməkdaşlıq üçün üfüqlərin açıldığını qeyd etmişdir.

8 dekabr 2016-cı ildə Ərəb liqası ölkələri nəzdindəki Əlyazmalar İnstitutunun direktoru dr. Feysəl əl-Hafyan AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. O, əvvəlcə Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

G.Baxşəliyeva Azərbaycanın ərəb ölkələri ilə elmi, mədəni əlaqələrindən söz açaraq, bu əlaqələrin möhkəmlənməsində şərqşünas alimlərin mühüm rolunu qeyd etmişdir. Gövhər xanım Şərqşünaslıq İnstitutunda ərəb ölkələrininin tarixi, iqtisadiyyatı, ərəb dili və ədəbiyyatı ilə bağlı aparılan tədqiqatlardan, nəşr olunan kitablardan söz açıb, ərəb mənbələrində bir çox xalqların, o cümlədən Azərbaycanın tarixinə dair mühüm məlumatların olduğunu qeyd etmişdir.

Feysəl əl-Hafyan 1946-cı ildə yaradılmış Ərəb liqası ölkələri nəzdindəki Əlyazmalar İnstitutunun tarixindən danışıb, institutda 300 minə yaxın əlyazmanın və əlyazma surətlərinin saxlanıldığını bildirərək, onlar barədə məlumat vermişdir.

Görüşdə institutlar arasında əməkdaşlığın perspektivlərindən, qarşılıqlı kitab mübadiləsindən söz açılmışdır.

Daha sonra Feysəl əl-Hafyan Şərqşünaslıq İnstitutunda çalışan ərəbşünas alimlərlə görüşmüşdür. O, rəhbərlik etdiyi institutun fəaliyyəti, orada qorunan əlyazmalar barədə məlumat vermişdir. Daha sonra Şərqşünaslıq İnstitutunun əməkdaşları qonağı öz elmi işləri ilə məlumatlandırıblar. Sonda Feysəl əl-Hafyan ərəbşünas alimləri maraqlandıran sualları cavablandırmışdır.

6 fevral 2017-ci il İran İslam Respublikasından olan bir qrup alim və müəllim AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İns-

titutunda olmuşdur. Tehran Universitetinin Qafqaz Araşdırmaları Mərkəzinin müdiri Mehdi Hüseyninin rəhbərlik etdiyi qrupa fondun əməkdaşlarından Abid Noruzi, Şiva Əlizadə, həmçinin Şəhid Beheşti Universitetinin əməkdaşı Həmidreza Əzizi daxil idi. İranlı alimləri İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi müşayiət etmişdir.

Qafqaz Araşdırmaları Mərkəzinin müdiri Mehdi Hüseyni rəhbərlik etdiyi mərkəzin fəaliyyətindən söz açmış və Azərbaycanla İranın elm və təhsil müəssisələrinin, o cümlədən Qafqaz Araşdırmaları Mərkəzi ilə Şərqşünaslıq İnstitutunun elmi əməkdaşlığının hər iki tərəfə böyük fayda verə biləcəyini, alimlərin tədqiqat işlərinin səmərəliliyini artıracağını qeyd etmişdir.

12 aprel 2017-ci ildə İsrailin Hayfa Universitetinin Ərəb dili və ədəbiyyatı kafedrasının müəllimi Roy Vilojnıy və Britaniya İslam Araşdırmaları Mərkəzinin əməkdaşı, professor Yanis Eşots AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar.

Qonaqlar ilk olaraq Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva ilə görüşmüşlər. G.Baxşəliyeva institutda ərəbşünaslıq və digər sahələrdə aparılan tədqiqatlar barədə məlumat vermiş, qonaqları bu sahələrlə bağlı maraqlandıran sualları cavablandırmışdır. Roy Vilojnıy və Yanis Eşots da öz növbələrində təmsil etdikləri qurumlarda fəaliyyətləri ilə bağlı danışmışlar.

Daha sonra Roy Vilojnıy və Yanis Eşots Şərqşünaslıq İnstitutunun ərəbşünas alimləri ilə görüşüb. İnstitutun Ərəb filologiyası şöbəsinin müdiri f.ü.e.d. Vilayət Cəfərov qonaqlara şöbədə ərəb dili və ədəbiyyatı sahəsində görülən işlərdən danışmışdır. Görüşdə bu tədqiqatlarla bağlı maraqlı müzakirələr aparılmışdır.

31may 2017-ci ildə misirli alimlər dr. Əhməd Dərviş və Əhməd ət-Tarabik AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Onları Azərbaycandakı Misir Mədəniyyət Mərkəzinin sədri Əhməd Sami Elaydi müşayiət etmişdir.

Qahirə Universitetinin professoru, müqayisəli ədəbiyyat üzrə tanınmış mütəxəssis Əhməd Dərviş özünün Azərbaycan ədəbiyyatı və elmi ilə bağlı apardığı tədqiqatlardan danışmış, ərəb ölkələrində

böyük nüfuz qazanmış orta əsrlər azərbaycanlı ədib və alimlərindən söz açmışdır.

Tanınmış jurnalist, Misirdə Azərbaycanla bağlı saysız-hesabsız məqalələrin müəllifi Əhməd ət-Tarabik vətənində ölkəmizlə bağlı informasiya azlığının aradan qaldırılmasından bəhs etmişdir.

5 iyul 2017-ci ildə Səudiyyə Ərəbistanının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müsaid bin İbrahim əs-Süleym Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur.

Səfir Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, akademik Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

G.Baxşəliyeva səfirə institutun tarixi, strukturu və elmi fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat vermişdir. İnstitutun müxtəlif şöbələri üzrə aparılan aktual tədqiqat işlərindən danışan G.Baxşəliyeva ərəbşünaslıq sahəsində aparılan tədqiqatları xüsusi qeyd etmiş, bu sahədə nəşr olunan kitablar barədə ətraflı məlumat vermişdir. G.Baxşəliyeva Səudiyyə Ərəbistanının elm və təhsil müəssisələri ilə qarşlıqlı əməkdaşlığın hər iki tərəfə fayda verəcəyini söyləmişdir.

Müsaid bin İbrahim əs-Süleym institutda görülən işləri yüksək qiymətləndirmiş və bu görüşün qarşılıqlı əlaqələrin genişlənməsinin başlanğıcı olacağını söyləyərək, səmərəli əməkdaşlıq üçün səfirliyin hər cür dəstək göstərməyə hazır olduğunu qeyd etmişdir.

Müsaid bin İbrahim əs-Süleym daha sonra institutun ərəbşünas əməkdaşları ilə görüşmüşdür. Azərbaycan-Səudiyyə əlaqələrindən danışan səfir, elmi əlaqələrin genişləndirilməsinin də əhəmiyyətindən söz açmışdır. Sonra səfir şərqşünas alimləri maraqlandıran sualları cavablandırmışdır.

20 sentyabr 2017-ci ildə Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı səfirliyinin mədəniyyət attaşesi doktor Səid əl-Qidəm Şərqşünaslıq İnstitutunda olub.

Səid əl-Qidəm Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

G.Baxşəliyeva institutda ərəbşünaslıq sahəsində aparılan tədqiqatlardan söz açmışdır.

Daha sonra o, Səudiyyə Ərəbistanının Kral Əbdüləziz adına Tədqiqat və Arxiv fondu tərəfindən hədiyyə edilən və ölkəsinin mədəni həyatından bəhs edən kitabları Şərqşünaslıq İnstitutuna təqdim etmişdir.

Kitablara görə təşəkkürünü bildirən Gövhər Baxşəliyeva onların institutun ərəbşünas alimlərinin tədqiqat işləri üçün çox faydalı olacağını qeyd etmişdir.

Oktyabrın 16-17-də Bakıda keçirilmiş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda beynəlxalq elmi konfransın iştirakçılarından tanınmış alimlər - Rusiya Elmlər Akademiyasının A.M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun direktoru akademik Aleksandr Kudelin və Özbəkistan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun əməkdaşı professor Bəxtiyar Babacanov oktyabrın 18-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar.

Qonaqlar ilk olaraq AMEA Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva ilə görüşmüşlər. G.Baxşəliyeva qonaqlara institutda aparılan tədqiqatlar, nəşr olunan kitablar barədə ümumi məlumat vermiş, onlara institut haqqında məlumatları əks etdirən bukletlər, institutda çap olunan kitablar hədiyyə etmişdir.

Daha sonra A.Kudelin və B.Babacanov Şərqşünaslıq İnstitutunun əməkdaşları ilə görüşmüşdür. Qonaqları təqdim edən Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva Rusiya Elmlər Akademiyasının A.M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu ilə iki gün öncə bağlanmış əməkdaşlıq haqqında müqaviləni xatırlatmış və bu istiqamətdə görülməsi planlaşdırılan işlərdən söz açmışdır.

Özbəkistan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun əməkdaşı professor Bəxtiyar Babacanov da çıxışında ölkəsində şərqşünaslıq sahəsində aparılan tədqiqatlardan danışaraq qarşılıqlı əməkdaşlığın əhəmiyyətini qeyd etmiş və bu sahədə Ziya Bünyadov qiraətlərinin mühüm rol oynadığını vurğulamışdır.

Qonaqlar daha sonra Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən akademik Ziya Bünyadov kabinetində olmuş, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın həyat və yaradıcılıq yolunu əks

etdirən stendlə tanış olaraq, son illərdə institutda nəşr edilmiş monoqrafiyalara baxış keçirmişlər.

31 oktyabr 2017-ci ildə Birləşmiş Ərəb Əmirliklərində nəşr olunan gündəlik müstəqil siyasi qəzet "Əl-Fəcr"in baş redaktoru Şərif əl-Bassel AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. Bu elm müəssisəsi haqqında bir sıra yazılar hazırlamaq üçün məlumat və material əldə etmək istəyən Şərif əl-Bassel Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili akademik Gövhər Baxşəliyeva ilə görüşmüşdür.

G.Baxşəliyeva Azərbaycanın ərəb ölkələri ilə elmi, mədəni əlaqələrindən söz açaraq, bu əlaqələrin möhkəmlənməsində şərqşünas alimlərin mühüm rolunu qeyd etmişdir. Gövhər xanım Şərqşünaslıq İnstitutunda ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ərəb dili və ədəbiyyatı ilə bağlı aparılan tədqiqatlardan, nəşr olunan kitablardan söz açıb, ərəb mənbələrində bir çox xalqların, o cümlədən Azərbaycanın tarixinə dair mühüm məlumatların olduğunu qeyd etmişdir. İnstitut rəhbəri bu elmi müəssisədə çalışan 160-a yaxın alimin üçdə bir hissəsinin ərəbşünas olduğunu bildirmişdir.

Baş redaktorun suallarını cavablandıran G.Baxşəliyeva İnstitutda edilən müdafiələrdən, təşkil edilən tədbirlərdən, nəşr olunan kitablardan hansı sahədə və kimlərin faydalanmasından danışıb. Gövhər xanım bu yaxınlarda keçirilən və Şərqşünaslıq İnstitutunun təşkilatçılarından olduğu "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda beynəlxalq konfrans barəsində də ətraflı məlumat vermişdir.

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın elmi fəaliyyəti ilə yaxından maraqlanan Şərif əl-Bassel bununla bağlı lazımi məlumat və fotomaterialla da təmin edilmişdir. "Əl-Fəcr"in baş redaktoruna həmçinin Dağlıq Qarabağ hadisələri ilə bağlı ərəb dilində lazımi materiallar da təqdim edilmişdir.

4 oktyabr 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva "Radio France Internationale Radio Monte Carlo Doualiya"nın

müxbirinə müsahibə vermişdir. Fransa radiosunun ərəb verilişləri bölməsinin müxbiri Samira İbrahimin suallarını cavablandıran Gövhər Baxşəliyeva Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlar, özünün elmi və ictimai fəaliyyəti və digər mövzulardan da danışmışdır.

Gövhər Baxşəliyeva institutda əsasən ərəbşünaslıqla bağlı görülən işlər barədə ətraflı məlumat vermişdir. O, institutun Ərəb filologiyası, Ərəb ölkələri tarixi və iqtisadiyyatı, Din və ictimai fikir tarixi, Yazılı abidələrin tədqiq və nəşri və Şərq-Qərb şöbələrində bu sahədə tədqiqatların aparıldığını bildirmişdir.

Ərəb müqavimət ədəbiyyatı, Fələstin problemləri ilə də bağlı tədqiqatların aparıldığını söyləyən G.Baxşəliyeva özünün vaxtilə Suriya yazıçısı, bir vaxtlar Fələstində könüllü döyüşmüş Əbdülsəlam əl-Üceylinin əsərlərini tədqiq və tərcümə etdiyini diqqətə çatdırmışdır. O, yazıçının məhz Fələstin xalqına həsr olunmuş hekayələrindən etdiyi tərcümələri misal çəkmişdir. G.Baxşəliyeva bildirmişdir ki, vaxtilə Fələstin xalqının qaçqınlıq probleminə dair hekayələri tərcümə edərkən heç düşünmürdü ki, nə zamansa bu acı taleyi Azərbaycan xalqı da yaşayacaq, 1 milyondan çox azərbaycanlı ermənilər tərəfindən işğal edilən torpaqlarımızdan didərgin salınacaq.

Gövhər xanım özünün İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin rəhbəri kimi fəaliyyətindən də danışmış, təşkilatda dəfələrlə Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı, Xocalı soyqırımı ilə bağlı qətnamələr qəbul edildiyini diqqətə çatdırmışdır.

Samira İbrahimin Azərbaycan xalqının tolerantlığı ilə bağlı sualını da cavablandıran G.Baxşəliyeva tolerantlığın Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu, ölkəmizdə müsəlmanların, xristianların, yəhudilərin bir ailə kimi mehriban yaşadığını qeyd etmişdir.

# XARİCİ ÖLKƏLƏRİN AKADEMİK QURUMLARI İLƏ SAZİŞLƏR

1. 2000-ci ildə Misir Mədəniyyət Mərkəzinin direktoru Saleh Məşəl institutun qonağı olmuş, kollektivlə görüşmüş və sonda tərəflər arasında elmi əməkdaşlıq haqqında saziş imzalanmışdır.

2. 2008-ci ilin 24 dekabr tarixində akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Pakistanın Bəhriyyə Universiteti arasında elmi əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

3. 2010-cu ilin 17-18 iyun tarixində Rumıniyanın Kluj-Napoka şəhərində Rumıniyanın Babeş-Bolyai Universitetinin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu ilə akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

4. 2012-ci il iyunun 28-də Gürcüstan prezidenti Mixail Saakaşvilinin anası, tarix elmləri doktoru, professor Giuli Alasaniya və tanınmış Liviya ictimai xadimi və alim doktor Fəridə Alaki ilə görüş keçirilmişdir. Görüş zamanı AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə özəl Gürcüstan Universiteti arasında memorandum imzalanmışdır. Memorandumu Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva və özəl Gürcüstan Universitetinin təsisçisi Giuli Alasaniya imzalamışlar.



5. 2013-cü ilin fevral ayının 6-da AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə İtaliyanın Neapol Şərq Universiteti arasında qarşılıqlı anlaşma haqqında saziş imzalanıb. Sazişi Azərbaycan tərəfindən

Şərqşünaslıq İnstitutunun direktoru, f.ü.e.d., prof. G.Baxşəliyeva, İtaliya tərəfindən Universitetin prorektoru, professor Cüzeppe Kataldi imzalamışlar.

6. 2014-cü ilin yanvar ayının 17-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanmışdır.



7. 2014-cü il iyunun 11-də AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Niderlandın Amsterdam şəhərində yerləşən Beynəlxalq Sosial Tarix İnstitutu arasında əməkdaşlığa dair saziş imzalanmışdır. Şərqşünaslıq İnstitutunda keçirilən imzalanma mərasimində Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutunu həmin elmi müəssisənin Orta Şərq və Mərkəzi Asiya şöbəsinin rəhbəri, prof. dr. Turac Atabəki təmsil etmişdir.

8. 2015-ci ilin dekabr ayında AMEA-nın Şərqşünaslıq İnstitutu ilə Pakistanın Peşəvər Bənazir Bhutto Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

9. 22 dekabr 2015-ci il tarixində Tbilisi Dövlət Universiteti nəzdindəki Şərqşünaslıq İnstitutunun direktoru akademik Apolon Silaqadze və həmin universitetin professoru Nino Ejibadze AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Görüşdə Bakı və Tbilisinin şərqşünaslıq institutlarının arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilənin imzalanması razılığına gəlinmişdir.

10. 19 iyun 2015-ci il tarixində AMEA Şərqşünaslıq İnstitutu ilə Türkiyənin Ərciyəz Universiteti arasında müqavilə imzalanmışdır.

11. 14 aprel 2016-cı il tarixində AMEA Şərqşünaslıq İnstitutu ilə

Polşa EA Aralıq dənizi və Şərq mədəniyyətləri İnstitutu arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır.

12. 27 may 2016-cı il tarixində AMEA Şərqşünaslıq İnstitutu ilə Çin İctimai Elmlər Akademiyası arasında əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.

13. 23 noyabr 2016-cı il tarixində Şərqşünaslıq İnstitutu ilə Azərbaycan Dillər Universitetinin nəzdində Konfutsi İnstitutu arasında müqavilə imzalanmışdır.



14. 14 mart 2017-ci ildə Şərqşünaslıq İnstitutu və Çinin Qansu vilayətinin İctimai Elmlər Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır.

15. 16 oktyabr 2017-ci ildə AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Gürcüstanın İLİA Universiteti Şərqşünaslıq İnstitutu, Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları və Dünya Ədəbiyyatı institutları arasında elmi əməkdaşlığa dair memorandum imzalanmışdır.

# İNSTİTUTUN ALİMLƏRİNİN YÜKSƏK SƏVİYYƏLİ TƏLTİFLƏRİ

1. Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanı, SSRİ-nin "Qırmızı Bayraq", "Aleksandır Nevski", "II dərəcəli Vətən Müharibəsi", "Qırmızı Ulduz" ordenləri və medallarla təltif edilmişdir. 1993-cü ildə A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin elmi və şərhli nəşrinə görə "A.A.Bakıxanov" adına mükafata, elm və texnika sahəsində nailiyyətlərinə görə laureat, "Lenin ordeni", H.Z.Tağıyev adına mükafatı, "İstiqlal ordeni", Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

2. Akademik Ə.Ə.Əlizadə elmi xidmətlərinə görə SSRİ Dövlət mükafatına (1948), "Əməkdar elm xadimi" fəxri adına (1960), Azərbaycan SSR Dövlət mükafatına (1978) layiq görülmüş, "Qırmızı Əmək bayrağı", "Qafqazın müdafiəsi", "Böyük Vətən müharibəsində şərəfli əməyə görə", "Şərəf nişanı" orden və medalları ilə təltif olunmuşdur.

3. H.Araslı 1968-ci ildə Özbəkistanın, 1979-cu ildə Azərbaycanın əməkdar elm xadimi adına layiq görülmüşdür.

4. G.B.Baxşəliyeva "Qızıl qələm" mükafatı laureatıdır.

5. İnstitut alimlərindən bir nəfər Azərbaycan Dövlət mükafatına, üç nəfər H.Z.Tağıyev adına mükafata, bir nəfər A.A.Bakıxanov adına mükafata layiq görülmüşdür. Üç nəfərə Azərbaycanın əməkdar elm xadimi fəxri adı verilmişdir.

6. 2015-ci ildə AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun 5 elmi işçisi – f.ü.e.d., prof. Cəfərov Vilayət Abbasqulu oğlu, i.ü.e.d., prof. Əlibəyov İnqilab Vəlibəy oğlu, fəl.ü.f.d. Həsənova Esmeralda Yusub qızı, f.ü.f.d. Xalidə Quliyeva-Qafqazlı Cahangir qızı, f.ü.f.d., dosent Səlimova Səbinə Arif qızı AMEA İctimai Elmlər Bölməsinin fəxri fərmanı ilə təltif olunmuşlar.

Dekabrın 1-də Moskva şəhərində Xarici ədəbiyyat kitabxanasının böyük zalında "İlin kitabı: rusdilli məkanda islam və İran" birinci beynəlxalq müsabiqəsinin laureatlarının mükafatlandırılmasına həsr

olunmuş təntənəli toplantı keçirilmişdir. Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu, Rusiya Elmlər Akademiyasının İctimai Elmlər üzrə Elmi İnformasiya İnstitutu, İslam tədqiqatları fondu, Beynəlxalq iranşünaslıq fondu, İran kitab evi və Rusiyada İİR səfirliyinin nəzdində İran mədəniyyət mərkəzi tərəfindən təşkil olunmuş müsabiqəyə MDB ölkələrinin bütün şərqşünaslıq mərkəzlərindən təqribən yüz elmi iş təqdim olunmuşdur. Məşhur İran və Rusiya şərqşünaslarının daxil olduğu nüfuzlu münsiflər heyətinə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru görkəmli ərəbşünas alim, akademik V.V.Naumkin rəhbərlik edirdi. Münsiflər təqdim olunmuş bütün əsərlərdən 35 kitabı iki nominasiya: İran və İslam üzrə seçmişdilər. İran nominasiyasında azərbaycanlı alim, tanınmış şərqşünas-iranşünas, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, f.ü.e.d., prof. Mehdi Kazımovun kitabı fəxri üçüncü yeri tutmuşdur. Kitab orta əsrlər sufi fikrində böyük iz qoymuş ən görkəmli sufi müəlliflərindən olan Nəcm əd-Din Razinin "Mirsad əl-ibad min əl-məbdə ilə-l-mə`ad" (Allah bəndələrinin yolu başlanğıcdan qayıdışa qədər) əsərinin şərhli tərcüməsini əhatə edirdi. 1223-cü ildə yazılmış bu əsər tezliklə sufilər arasında, savadlı dairələrdə məşhurluq qazanmışdır. 5 fəsil və 40 yarımfəsildən ibarət əsər sufi nəzəriyyəsi və praktikasının kompleks məsələlərinə həsr olunmuşdur.

# ELMİ-TƏDQİQAT PROQRAMLARININ MÜSABİQƏSİNDƏ İŞTİRAK (Qrant və digər mükafatlar)

2000-ci ilin yanvar-aprel aylarında t.ü.f.d. Ş.Mustafayev YUNESKO-nun I illik qrantını qazanmış və qrantı ilə Oksford İslam Araşdırmaları Mərkəzində elmi-tədqiqat işi aparmışdır.

İnstitutun direktoru f.ü.e.d., prof. G.B.Baxşəliyeva tərəfindən təqdim olunmuş "Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən orta əsərlər və yeni dövr xəritələrinin Misir kitabxanalarında axtarışı və surətlərinin ölkəmizə gətirilməsi" layihəsi Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il üçün elan etdiyi I qrant layihələri müsabiqəsindən uğurla keçmişdir.

İnstitutun Gənc Alimlər Şurasının sədri, fəl.ü.f.d. R.Rzayeva Müstəqil Dövlətlər Birliyi üzv ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və Humanitar Əməkdaşlıq üzrə Şurasının təsdiq etdiyi və 2010-cu ildə Müstəqil Dövlətlər Birliyi üzv ölkələrinin gənc alimləri arasında keçirilən "Debütlər birliyi" beynəlxalq müsabiqəsində "Humanitar və ictimai elmlər" nominasiyasında Laureat (3-cü mükafat) olmuşdur.

2011-ci ildə institutun direktoru f.ü.e.d., professor G.B.Baxşəliyeva Elmi İnkişaf Fondunun ayırdığı qrant çərçivəsində iyun-iyul aylarında "Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xəritələrin axtarışı və gətirilməsi" layihəsi ilə əlaqədar Fransa və İspaniyada elmi ezamiyyətlərdə olmuşdur.

2012-ci ilin yanvar ayının 9-18 tarixlərində İnstitutun direktoru f.ü.e.d., professor G.B.Baxşəliyeva Elmin İnkişaf Fondunun qrant layihəsi ilə əlaqədar İngiltərədə (London, Oksford) elmi ezamiyyətdə olmuşdur.

2012-ci ildə Sevda Süleymanova Soros fondunun "Elmi səyahətlər" müsabiqəsinin qalibi olmuş və Türk Tarix Qurumunun konqresinə getmək üçün qrantla təltif edilmişdir.

Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı şöbəsinin müdiri t.ü.f.d. F.M. Əsədov ABŞ-ın "Fulbrayt" proqramı çərçivəsində 1 oktyabr

2012-ci il tarixindən 31 mart 2013-cü il tarixinədək “İpək yolu ticarətində ərəb xilafəti və Xəzər xaqanlığı arasında əlaqələr” mövzusunda tədqiqat aparmaq üçün ABŞ-a ezam olunmuşdur.

2014-cü ildə b.e.i, t.ü.f.d. Ələddin Məlikov AMEA Rəyasət Heyətinin qrant müsabiqəsində iştirak edərək 2-ci kateqoriya üzrə qalib seçilmiş və 1500 manat məbləğində pulla mükafatlandırılmışdır.

2015-ci ilin yanvar ayında AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi t.ü.f.d. Zülfiyyə Qəhrəman qızı Vəliyeva AR Prezidenti yanında Elmin İnkişaf Fondunun keçirdiyi “Qarabağ tədqiqatları” üzrə 7-ci mobillik qrantı” müsabiqəsində “1905-1920-ci illərdə Qarabağda ermənilər tərəfindən törədilən qırğınlar Osmanlı arxiv sənədlərində” adlı layihə ilə iştirak etmişdir. Layihə uğurla keçmişdir. Layihə əsasında Türkiyənin İstanbul şəhərində Baş Bakanlıq Arxivində bir ay (13 iyun -13 iyul 2015-ci il) tədqiqat aparılmış və başa çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun kompleks elmi-tədqiqat proqramları üzrə 2015-ci ildə elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-KETPL-2015-1(25)) qalib layihəsinin icrası 2017-ci ilin fevral ayında başlanılıb. “Cənubi Qafqaz və Azərbaycana dair Osmanlı vergi dəftərlərinin transliterasiyası, tərcüməsi və nəşri” AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu (rəhbər: Ş.M.Mustafayev, iştirakçılar Yaxşıxanım Nəsirova, Gülər Qafqazlı, icra müddəti 24 ay, maliyyələşdirilmə həcmi (manatla) - 150 000).

# İNSTİTUTUN KADR SİYASƏTİ

Hal-hazırda institutun 155 əməkdaşı var. Bunlardan 2 nəfəri akademik, 12 nəfəri elmlər doktoru, 56 nəfəri isə fəlsəfə doktorudur. İnstitut əməkdaşlarından 110 nəfəri elmi işçidir. İnstitutda kadr hazırlığı əsasən doktorantura və dissertantura, əməkdaşların staj keçmə və ezamiyyəyə göndərilməsi yolu ilə həyata keçirilir.

İnstitutun fəlsəfə doktorluğu üzrə 15 doktorantı və 25 dissertantı, elmlər doktorluğu üzrə 10 doktorantı və 8 dissertantı var. Doktorant və dissetantların əksəriyyəti institutun öz əməkdaşlarıdır. Onlar "Ümumu tarix", "Türk xalqları ədəbiyyatı", "Dinin tarixi və fəlsəfəsi", "Dünya iqtisadiyyatı", "Dinşünaslıq", "Beynəlxalq münasibətlər", "Sami dilləri", "Dünya ədəbiyyatı" (ərəb ədəbiyyatı), "İran dilləri", "Dünya ədəbiyyatı" (fars ədəbiyyatı), "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə təhsil alırlar.

# MONOQRAFİYA VƏ KİTABLAR




***Abbasov Əli Məmməd o.***

1. Nizami Gəncəvinin "İskəndərnamə" poeması. Bakı: "Elm", 1966 – 197 s.
2. Azərbaycan-Əfqan əlaqələri tarixindən. Bakı: "Elm", 1986 – 292 s.

***Abdullayev Əbdürəhman Məmməd o.***

1. Görkəmli maarifçi demokrat yazıçı Rəşidbəy Əfəndiyev. Bakı: "Znamya" nəşriyyatı, 1960 – 48 s.
2. Maarif pərvanəsi. Bakı: "Maarif", 1982. – 96 s.

***Abdullayev Zakir Zülfüqar o.***

1. Начало экспансии США в Иране. Москва: Изд-во вост. литературы, 1963 – 97 с.

2. Промышленность и зарождение рабочего класса Ирана. Баку: Изд-во АН АзССР, 1963 – 296 с.

3. Формирование рабочего класса Ирана. Баку: Изд-во АН АзССР, 1968 – 170 с.

4. Asiyada kollektiv təhlükəsizlik dövrün tələbidir. Bakı: “Azərnəşr”, 1974 – 74 s.

***Abıyev Aydın Müstəcəb o.***

1. Ömər Seyfəddinin həyatı və yaradıcılığı. Bakı: “Elm”, 1978 – 160 s.

2. Türk ədəbiyyatında satira: XIX əsrin axırları XX əsrin əvvəlləri. Bakı: “Elm”, 1991 – 172 s.

3. Bəktaşi lətifə və əhvalatları (Müqəddimə və tərcümə). Bakı: 1992 – 134 s.

4. Azərbaycan -türk şəxs adlarının izahlı lüğəti. Bakı: “Nərgiz”, 1998 – 188 s.

5. Bəzi satirik nəzirə və təhzillər. Bakı: “Ozan”, 1999 – 76 s.

6. Füzuli və Türkiyə poeziyası. Bakı: “Ozan”, 2002 – 280 s.

7. Şəxs adları lüğəti. Bakı: “Çıraq”, 2002 – 400 s.

8. Ziya Göyalp. Bakı: 2006, 4 ç.v.

9. Şəxs adları sözlüyü. Bakı: “Səda” nəşriyyatı, 2006 – 23, y ç.v.

10. Türkiyə ədəbiyyatı tarixi. I cild. II nəşr, Bakı: 2011

11. Həsənoğludan üzü bəri. Bakı: “Təknur” nəşriyyatı, 2012 – 10,5 ç.v.,

12. “Sərvəti-fünun” ədəbiyyatı. Bakı: “Təknur”, 2013.

***Ağayev Semyon Lvoviç***

1. Германский империализм в Иране (Веймарская республика, Третий рейх). – Москва: “Наука”, 1969 – 157 с.

2. Иран в период политического кризиса 1920-1925 г.г. (вопросы внешней политики). Москва: “Наука”, 1970 – 210 с.

3. Иран: внешняя политика и проблемы независимости 1925-1941 гг. Москва: “Наука”, 1971 – 360 с.

***Ağazadə Adışirin Ağa o.***

İran şairi Nima Yuşic. Bakı: “Elm”, 1971 –10 ç.v.

***Agahi Əbdülhüseyn Məmmədtağı o.***

1. Распространение идей марксизма-ленинизма в Иране. Баку: Изд-во АН Аз.ССР, 1961 – 252 с.

2. Из истории общественной и философской мысли в Иране. (Вторая половина XVII – первая четверть XIX в.). Баку: "Элм", 1971– 216 с.

***Alışanov Hüseyn Həsən o.***

Müasir kürd şairi Abdulla Qoranın poeziyası. Bakı: "Elm", 1969 – 133 s.

***Araslı Həmid Məmməd-Tağı o.***

1. Azərbaycan kitabı (Biblioqrafiya), I cild (1780-1920). Bakı: "Elm",1963 – 98 s.

2. Şairin həyatı (Nizami Gəncəvi haqqında). Bakı: 1967 – 188 s.

3. İmadəddin Nəsimi. Həyat və yaradıcılığı. Bakı: "Azərnəşr", 1972 – 74 s.

4. Xaqani Şirvani (Şairin həyatı və zəngin ədəbi irsi haqqında). Bakı: 1982 – 62 s.

***Axundov İskəndər Aslan o.***

Современная Турция: борьба против империализма. Баку: "Элм", 1977 – 198 с.

***Babayeva Nüşabə Rəşid q.***

Из истории общественно-политической мысли Южного Азербайджана (последняя четверть XIX-начало XX вв.). Баку: "Иршад", 1995 – 80 с.

***Bağırov Beytulla Süleyman o.***

Против фальсификации марксистско-ленинской философии в Иране (после Второй мировой войны). Баку: "Элм", 1978 – 151 с.

***Bağırov Yusif Əli o.***

Из истории советско-турецких отношений в 1920-1922 гг. Баку: Изд-во Ан Аз.ССР, 1965 – 144 с.

***Baxşəliyeva Gövhər Baxşəli q.***

1. Абд ас-Салам ал-Уджейли. Очерки жизни и творчества. Баку: “Элм”. 1989 – 106 с.

2. Əbülfərəc İsfahani. Bir Məcnun vardı. Ərəb dilindən tərcümə, ön söz və şərhlər. Bakı: “Yazıçı”, 1990 – 86 s.

3. Абу-л-Фарадж ал-Исфахани. Книга песен (Главы о Меджнуне и арабоязычных азерб. поэтах). /Филологический перевод с арабского, предисловие, исследования, комментарии и указатели. Баку: “Элм”, 1994 – 284 s.

4. “Книга песен” Абу-л-Фараджа ал-Исфахани и классическая азербайджанская литература. Баку: 1998 – 238 с.

5. İlahi eşq dastanları. Bakı: “Maarif”, 2001 – 380 s.

6. Hamıdan ucadır alimin yeri. Məqalələr, müsahibələr, rəylər. Bakı: “Nurlan”, 2003 – 322 s.

7. Əbu-l-Fərəc əl-İsfahani. Məcnun ləqəbli Qeys ibn Müləvvəh və ərəbdilli Azərbaycan şairləri haqqında hekayətlər. (Ərəbcədən filoloji tərcümə, müqəddimə, tədqiqat, şərhlər və göstəricilər G.B.Baxşəliyevanındır) Bakı: “Elm”, 2006 – 23,5 ç.v.

8. “Müasir Suriya hekayəsi”. Bakı: 2007 – 18 ç.v. (rus dilində).

9. Ölməzliyə aparan yol. (Ərəb dilindən tərcümə, tədqiqat, şərh və qeydlər G.B.Baxşəliyevanındır) Bakı: 2009.

10. Professor Aida İmanquliyevanın biblioqrafiyası (AMEA-nın Mərkəzi Elmi Kitabxanası ilə birlikdə). Bakı: 2009

11. Məqalələr, məruzələr, müsahibələr (40 ç.v). Bakı: 2011.

12. “Taufiq əl-Həkimin ədəbi görüşləri”. Bakı: “Elm”, 2012 – 508 səh.

***Babaşlı Məmmədəli Allahverdi o.***

1. Ərəbcə-azərbaycanca lüğət (siyasi, hərbi terminlər lüğəti və beynəlxalq təşkilat adları). Bakı: Qafqaz Universitetinin nəşriyyatı, 2012 – 284 s.

2. İmam Nəvəvinin “Riyazus-Salehin” müxtəsər kitabına yazılmış ön söz, şərhlər və sözlüyün tərtibi. Bakı: “Xəzər” nəşriyyatı, 2011 – 575 s.

3. İmam Qəzalinin “Qəlblərin kəşfi” əsərinin Azərbaycan dilinə tərcüməsi və lüğətin tərtibi, Fəlsəfi incilər seriyası. Bakı: “Şərq-Qərb” nəşriyyatı, 2011 – 600 s.

4. "Ərəbcə-azərbaycanca lüğət: siyasi, hərbi terminlər lüğəti və beynəlxalq təşkilat adları" (həmmüəllif). Bakı: Qafqaz Universitetinin nəşri, 2012 – 280 s.

***Bayramova Lalə Məzahir q.***

"Min bir gecə" ümumşərq ədəbiyyatının mədəni-tarixi abidəsi kimi. Bakı: "MBM" nəşriyyatı, 2009 – 12,5 ç.v

***Bayramzadə Səməd Zülfəli o.***

1. "Azərbaycan" qəzeti. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1945-1946-cı illər, Təbriz), I hissə (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 292 səh)

2. "21 Azər - 70". Fotoalbom. Bakı, "Araz" nəşriyyatı, 2015, 200 s.

Южный Азербайджан: от «21 азер» до «белой революции» в Иране (Экономическое и социально-политическое положение). «Тарагги», 2016, 335 с. Cənubi Azərbaycan: "21 Azər"dən İranda "ağ inqilab"a kimi (iqtisadi və sosial-siyasi vəziyyət).

***Bakıxanova Nigar Tofiq q.***

1. İngiliscə-ərəbcə-azərbaycanca iqtisadi lüğət. Bakı: "Elm", 2001 –128 s.

2. Əhməd Şövqinin dramaturgiyası. Bakı: "Elm", 2013.

***Bayramlı Nüşabə Kazım q.***

1. Abbasilər xilafəti xəlifə ən-Nasir dövründə. Bakı: "Nurlan", 2002 – 186 s.

2. Şihab əd-Din Muhamməd ən-Nəsəvi. Sultan Cəlal əd-Din Mənkburnunun həyatının təsviri. (Azərbaycanın XII-XIII əsrlər tarixinə aid çıxarışlar). Mətnin tərcüməsi, şərhlər və qeydlər bölməsi akademik Z.M.Bünyadovun eyni adlı kitabının tərcüməsi əsasında yazılmışdır. Bakı, "Mars-Print" nəşriyyatı , 2007-77 s.

***Bije (Rəhimli) Əkrəm Rəhim o.***

1. Sovet-Türkiyə iqtisadi münasibətləri (1923-1939-ci illər). Bakı: Azərb.SSR. EA nəşr., 1965 – 133 s.

2. Türkiyənin xarici ticarət siyasəti. Bakı: "Elm", 1989 – 105 s.

3. Güney Azərbaycanda milli-demokratik hərəkat. Bakı: "Meqa", 2003 – 208 s.

4. "Güney Azərbaycan milli-demokratik hərəkatı (1941-1946)". Kanada, 2005// Tehran (tərcümə), 2007.

5. "Parçalanmış millətin harayı" (ön söz və tərtibat). Bakı: 2007 – 655 s.

6. "Seyid Cəfər Pişəvəri. Zindan xatirələri". Bakı: "Bakı çap evi", 2014 – 127 s.

7. Azərbaycan Demokrat Firqəsi. İİR, Tehran: "Səs" nəşriyyatı, 2007.

8. Seyid Cəfər Pişəvəri. Həyatı və ictimai-siyasi fəaliyyəti. Bakı: "Nurlan" nəşriyyatı, 2009 – 25 ç.v.

9. Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı – 90. Bakı: "Bakı Çap Evi", 2011 – 232 səh.

10. S.C.Pişəvəri. Türkiyə, Trabzon: "Eser Ofset Matbaacılık" nəşriyyatı, 2013.

11. Məşəle-cavid. Tehran, 2013.

12. "Cənubi Azərbaycan: düşüncələr, problemlər". Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2017, 400 s.

***Billuri Hökümə İbrahim q.***

1. Развитие реалистической демократической поэзии Иранского Азербайджана (1945-1960 гг). Баку: "Элм", 1972 – 122 с.

2. Məmmədhüseyn Şəhriyar. Bakı: "Elm", 1984 – 156 s.

***Bünyadov Cəmil Ziya o.***

Восстание карматов. Баку: "Элм", 1988.-124 с.

***Bünyadov Ziya Musa o.***

1. Азербайджан в VII-IX вв. Баку: Изд-во АН АзССР, 1965 – 383 с.

2. Государство Атабеков Азербайджана (1136-1225 гг.). Баку: "Элм", 1978 – 270 с.

3. Azərbaycan Atabəylər dövləti (1136-1225). Bakı: "Elm", 1985 – 226 s.

4. Государство Хорезмшахов-ануштегинидов (1097-1231). Москва: "Наука", 1986 – 248 с.

5. Azərbaycan VII-IX əsrlərdə. Bakı: "Azərnəşr", 1989 – 335 s.

6. Qırmızı terror. Bakı: “Azərnəşr”, 1993 – 228 s.

7. Dinlər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı: “Azərbaycan” nəşriyyatı, 1997 – 228 s.

8. Ануштагин Хоразмшохлар давлати (1097-1231). Тошкент: “Гафур Гулом номидаги адабиёт ва санъат” нашриёти, 1998 – 256 с.

***Yazılı abidələrin şərhli tərcümə və nəşrləri***

1. Мхитар Гош. Албанская хроника./ Перевод с английского, предисловие.- Баку: Изд-во АН АзССР, 1960 – 33 с.

2. Обзор источников по истории Азербайджана. Источники арабские. Баку: Изд-во АН АзССР, 1964 – 36 с.

3. Абд-ар-Рашид ал-Бакуви. Китаб талхис ал-асар ва ‘аджа’ ибн ал-Малик ал-Каххар./ Перевод с арабского, издание текста, предисловие, примечания и приложения. Москва: “Наука”, 1971 – 208 с.

4. Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописания султана Джалал ад-Дина Манкбурны./ Перевод с арабского, предисловие, примечания. Баку: “Элм”, 1973 – 450 с.

5. Иоанн де Галонифонтибус. Сведения о народах Кавказа (1404 г.) (Из сочинения “Книга познания мира”)./ Перевод с английского, предисловие и примечания. Баку: “Элм”, 1980 – 42 с.

6. Садр ад-Дин Али ал-Хусайни. Ахбар ад-даулат ас-селджукиййа. – Перевод с арабского, введение. Москва: Гл.редакция Восточной литературы, 1980 – 272 с.

7. Бахрие Учок. Женщины правительницы в мусульманских государствах. Перевод с турецкого, от переводчика. Москва: “Наука”, 1982 – 175 с.

8. Абу-л-Касим аз-Захрави. Трактат о хирургии и инструментах. (Перевод с арабского). /АНСССР. Отд.истории АН АзССР. Респ.рукоп.фонд. Москва: “Наука”, 1983 – 317 с.

9. Йакут ал-Хамави. Му’джам ал-булдан: Сведения об Азербайджане ХЫЫ в. (Перевод с арабского совместно с П.К.Жузе, предиловие З.Б.). Баку: “Элм”, 1983 – Сс. 5-6.

10. Джалал ад-Дин Абд ар-Рахман ас-Суйути. Кашф ас-салсала ан васф аз-залзала. (Трактат о землетрясениях)./ Перевод с арабского

совместно с Д.А. Искендеровым, комментарии и примечания. Баку: “Элм”, 1983 – 78 с.

11. Хамдаллах Казвини. Нузхат ал-кулуб: Материалы по Азербайджану. Перевод с английского совместно с И.П.Петрушевским, предисловие З.Б. Баку: “Элм”, 1983 – 65 с.

12. Иоганн Шильтбергер. Путешествие по Европе, Азии и Африке с 1394 года по 1427. /Предисловие, примечания и комментарии. Баку: “Элм”, 1984 – Сс. 3-5.

13. Мухаммад ал-Халаби. Поход эмира Йашбека./ Перевод с арабского совместно с Т.Б.Гасановым, предисловие и примечания З.Б. Баку: “Элм”, 1985 – 97 с.

14. Füzuli M. Mətlə’ül-e’tiqad. (Füzuli dühasının işığı, qeydlər və şərhlər, ərəb dilindən tərcümə). Bakı: “Yazıçı”, 1987 – 101 s.

15. Абу Мухаммад Ахмад ибн А’сам ал- Куфи. Книга завоеваний: Извлечения по истории Азербайджана ВЫЫ-ЫХ вв./ Перевод с арабского, от переводчика, примечания. Баку: “Элм”, 1988 – 62 с.

16. Ибрахим Эфенди Печеви. История (Извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.)./ Перевод с турецкого, примечания. Баку: “Элм”, 1988 – 100 с.

17. Есаи Хасан-Джалалян. Краткая история страны Албанской./ Перевод с древнеармянского Т.И.Тер-Григоряна. Предисловие и подготовка к изданию З.Б. Баку: “Элм”, 1989 – 48 с.

18. Стихийные бедствия и экстремальные явления на Ближнем и Среднем Востоке (VII-XVII вв.). Составление. Баку: “Элм”, 1990 –136 с.

19. Qurani-Kərim. Bakı: “Azərnəşr”, 1991 – 960 s. (Ərəb dilindən şərhli tərcümə V.Məmmədəliyevlə birlikdə).

20. Аббас-Кули-ага Бакиханов. Гулистан-и Ирам. Редакция, комментарии, примечания и указатели. Баку: “Элм”, 1991 – 304 с.

21. Əbdürraşid əl-Bakuvi. “Abidələrin” xülasəsi və qüdrətli hökmdarın möcüzələri (Ərəb dilindən tərcümə, müqəddimə və şərhlər). Bakı: “Şur”, 1992 –174 s.

22. Əsirəddin Əbu Həyyan əl-Əndəlusi (XIV əsr). Kitab əl-idrak lilisan əl-ətrak (“Türk dillərini dərketmə kitabı”) (Ərəb dillərindən tərcümə). Bakı: “Azərnəşr”, 1992 –104 s.

23. Yesai Həsən Cəlalyan. Alban ölkəsinin qısa tarixi 1702-1722. Ön söz, müəllifi və nəşrə hazırlayan, rus dilindən tərcümə. Bakı: "İşıq", 1992 – 50 s.

24. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki. 1563-1600-cü illər. (Azərbaycan və qonşu ölkələrin tarixinə aid iqtibaslar). Osmanlı türk dilindən tərcümə, qeyd və şərhlər. Bakı: "Elm", 1992 – 42 s.

25. Solakzadə Mehmed. Tarix (Azərbaycan tarixinə aid iqtibaslar). Türk dilindən tərcümə. Bakı: "Elm", 1992 – 83 s.

26. Şai Nizaməddin (XIV əsr). Zəfərnamə (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar). /Türk dilindən tərcümə, ön söz, şərhlər və qeydlər. Bakı: "Elm", 1992 – 33 s.

27. Moisey Kalankatlı. Albaniya tarixi. Rus dilindən tərcümə, müqəddimə, qeydlər və şərhlər. Bakı: "Elm", 1993 – 288 s.

28. Mxitar Qoş. Alban salnaməsi. Rus və ingilis dillərindən müqayisəli tərcümə, müqəddimə, qeydlər və şərhlər. Bakı: "Elm", 1993 – 288 s.

29. Мустафа Бутбай. Воспоминания о Кавказе./ Перевод с турецкого, от переводчика. Махачкала: 1993 – 67 с.

30. Yaşar Yücel. Qazı Bürhanəddin Əhməd və dövləti (1344-1398). Türk dilindən tərcümə N. Vəlixanlı ilə birlikdə. Bakı: "Elm", 1994 – 194 s.

31. Əbu Məhəmməd Əhməd ibn Ə'sam əl-Kufi. Kitabəl-fütuh: VII-IX əsrlər Azərbaycan tarixinə aid iqtibaslar. (Ərəbcədən tərcümə, qeyd və şərhlər). Bakı: "Azərnəşr", 1995 – 80 s.

32. İzəddin ibn əl-Əsir. Əl-Kamil fi-t-tarix (Mükəmməl tarix) Ərəbcədən tərcümə, ön söz, qeydlər və şərhlər. Bakı: "Şur", 1996 – 192 s.

33. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, [osmanlıca] tərcümə, qeyd və əlavələr H. Məmmədovla birlikdə. Bakı: "Elm", 1996 – 184 s.

34. Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописания султана Джалал ад-Дина Манкбурны./ Перевод с арабского, предисловие, комментарии, издание критического текста, примечания и указатели. Москва: Восточная литература, РАН, 1996 – Сс. 291-370

35. Naxçıvan sancağının müfəssəl dəftəri. 9 məhərrəm 1140 (27 avqust 1727) Giriş və tərcümənin müəllifləri akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: "Sabah", 1997 – 329 s.

36. Fətəlixan Xoyski. Bakı: Şərq-Qərb, 1997 – 44 s. (M. Əliyevlə birlikdə).

37. Тадж ад-Дин ас-Салмани. Тарих-наме. /Перевод с турецкого, предисловие, примечания, указатели. Баку: "Элм", 1997 – 140 с.

38. Azərbaycan tarixi. Bakı: "Elm", 1998 – c. 2. S. 166-169; 356-398. Z.B.S. 186-192, 241-154. N. Vəlixanlı ilə birlikdə.

39. Bartold V.V. Müsəlman dünyası tarixində xəzəryanı vilayətlərin yeri. (Rus dilindən tərcümə, E.Ağayeva ilə birlikdə). Bakı: "Elm", 1999 – 160 s.

40. Azərbaycan VII-IX əsrlərdə. Bakı: "Pedaqogika", 2004 – 392 s.

41. Biblioqrafiya. Bakı: "Nurlan", 2004 – 112 s.

***Cəlilov Cabbar İsrafil o.***

Bektaşilik və onun ideya qaynaqları. Bakı, "Əli Nəşriyyat Evi", 2009 – 127 s.

***Cümşüdlü Ruhəngiz Aydın q.***

1. Sidqi İsmayılın hekayələri (ərəb dilindən tərcümə). Bakı: "Bakı Çap Evi" nəşriyyatı, 2011 – 150 səh.
2. Füzulinin ərəbcə poetik irsi. Bakı: 2013.

***Cəfərov Vilayət Abbasqulu o.***

1. Cəmil Sidqi əz-Zəhavi. Bakı: "Elm", 1984 – 60 s.
2. Curcu Zeydan. Fərqanə gəlini./ Ərəbcədən tərcümə, müqəddimə və izahlar. Bakı: "Gənclik", 1996 – 292 s.
3. Əli Qılıncı Zülfüqar. Bakı: "Çıraq", 2000 – 72 s.
4. İraqda neoklassik poeziya. Bakı: 1998 –156 s.
5. V.A.Cəfərov. Qürbətdə yaranan dostluq. Bakı: "Nurlan" – 8 ç.v.

***Cəfərzadə Əkrəm (Əkrəm Cəfər)***

Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə). Bakı: "Elm", 1977 – 417 s.

***Çeşmazər Mirqasım Mikayıl o.***

Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti: Cənubi Azərbaycan, 1945-1946-ci illər. Bakı: "Elm", 1986 – 160 s.

***Dadaşov Tofiq Paşa o.***

Просвещение в Турции в новейшее время (1923-1960). Москва: "Наука", 1972 –171 с.

***Dostəliyev Saleh Türbətəli o.***

1. "İran" məlumat kitabı. Bakı, "Bakı Çap Evi" nəşriyyatı, 2012 – 12,5 ç.v.

2. Hüseyn Əlizadə (Barış Mərəndi). "21 Azər" soyqırımı. (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar), (fars dilindən tərcümə). "Elm və təhsil" nəşriyyatı, Bakı – 2017, 376 s.

***Erhan Arıklı***

Ərdəbil livasının müfəssəl dəftəri. Bakı, "Nurlan", 2004 – 857 s.

***Eyvazov Aslan Qudassar o.***

Müasir türk ədəbi dilində sifətin müqayisə dərəcələri. Bakı: Azərb.SSR EA nəşr., 1967 – 93 s.

***Əfəndiyeva Nilufər Zakir q.***

Борьба турецкого народа против французских оккупантов на юге Анатолии. (1919-1921гг). Баку: Изд-во АН Аз.ССР, 1966 – 140 с.

***Əhmədov Əhməd Camal o.***

Rəşad Nurinin romanları. Bakı: Azərb.SSR EA nəşr., 1965 – 172 s.

***Əhmədov Şəmsi Pənah o.***

1. Mirzə Müslüm Qüdsi İrəvani və onun "Divan"ı. (Farscadan tərcümə) Bakı, 2017, 196 s.

2. URMU dünyanı yandıran müharibədə. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017, 384 s.

***Əhmədov Seymur Musarza o.***

Ərəb dilinin dialektləri və İraq dialekti ilə İraq-türkman dili arasında əlaqə. Bakı, 2017, 216 səh.

***Əhmədova Gülbəniz Həsən q.***

1. Салама Муса - идеолог египетского возрождения. Баку: "Иршад", 1991 –106 с.

2. M.S.Dağıstani-Əvacuği. Zeyn al-Makatib. Bakı: "Elm", 1994.

3. Müasir Misir ictimai fikrində sosial-mədəni tərəqqi problemi, Bakı, "Əli Nəşriyyat Evi", 2008,120 s.

***Ələsgərova Təyyibə Əliheydər q.***

Fars dilində sözdüzəldici omomorfemlər. Bakı: "Elm", 1972 – 209 s.

***Əkbərov Hikmət Əkbərməftun o.***

1. Qaynaqlar. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar (digər müəlliflərlə birgə). Bakı. 2005, 335 s.

2. Azərbaycana qarşı erməni təcavüzü ("Əl-udvanu -l-ərməni alə Əzərbaycən") (ərəb dilinə tərcümə). Bakı, "Elm" nəşriyyatı, 1993, 179 s.

***Əlibəyli Həsən Cahangir o.***

Иран и сопредельные страны Востока (1946-1978). Москва: "Наука", 1989 – 253 с.

***Əlibəyli Şəfəq Ənvər q.***

1. Антомы в персидском языке. Баку: "Элм", 1991 – 107 с.

2. Farsca-rusca-azərbaycanca müxtəsər lüğət. Bakı: "Nafta-Press" Nəşriyyatı, 2012 – 442 s.

3. Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər. Bakı: 2008 – 353 s.

***Əlibəyov İnqilab Vəlibəy o.***

1. Müasir Türkiyə. Bakı: "Elm", 1967 – 35 s.

2. Sovet İttifaqının inkişaf etməkdə olan ölkələrlə iqtisadi-texniki əməkdaşlığı. Bakı: "Azərnəşr", 1974 – 88 s.

3. Государственный капитализм в Турции. Москва: "Наука", 1966 – 243 с.

4. Иностранный капитал в Турции. Баку: "Элм", 2002 – 160 с.

5. Этатизм в Турции. Баку: "Элм", 1994 – 92 с.

6. İqtisadi tarix (prof. Q.Əbdülsəlimzadə ilə birlikdə). Bakı: "BBU" nəşriyyatı, 2008.

***Əliyev Faiq Qara o.***

Azərbaycan-ərəb ədəbi əlaqələri. – Bakı: "Yazıçı", 1987.- 221 s.

***Əliyev Həmid Zeynalabdin o.***

1. Müasir Türkiyədə xarici kapital. Bakı: Azərb.SSR EA nəşr.,1962 – 182 s.
2. Türkiyə Birinci Dünya müharibəsi dövründə. Bakı: "Elm", 1965 – 168 s.
3. Dünyanın ən böyük şəhərlərində. Bakı: "Gənclik", 1967 – 75 s.
4. Турция в период правления младотурок (1908-1918 гг). Москва: "Наука", 1972 – 388 с.
5. Беседа у карты Турции. Баку: "Маариф", 1973 –76 с.

***Əliyev Mənsur Mahmud o.***

Müasir İran ziyalıları (1945-1960-cı illər). Bakı: "Elm", 1979 –120 s.

***Əliyev Rafiq Yəhya o.***

1. Ислам в концепциях "Национального социализма": (Алжир, Египет, НДРЙ). Баку: "Элм", 1987 – 164 с.
2. Ислам, арабизм, социализм. Баку: "Элм", 1993 – 286 с.
3. Azərbaycanda təhsil, elm və mədəniyyət (İngilis dilində). Bakı: "İrşad", 1996.
4. İslam və Azərbaycan mədəniyyəti. Bakı: "İrşad", 1998 – 117 s.
5. İslamda ailə-nigah münasibətləri. Bakı: "İrşad", 1999 – 236 s.

***Əliyev Rüstəm Musa o.***

1. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı: "Elm", 1983 – 356 s.
2. Низами Гянджеви. Семь красавиц. / Пер. с перс. Баку: "Элм", 1983 – 259 с.
3. Низами Гянджеви. Сокровищница тайн. / Пер.с перс. Баку: "Элм", 1983 – 259 с.

4. Поэма о бессмертной любви. Баку: “Элм”, 1984 – 42 с.

5. Низами Гянджеви. Собрание сочинений. – В 5 Т. Москва: “Худ. Литература”, 1985-1986. – Т. 1 – 382 с.; Т. 2 – 474 с.; Т. 3 – 365 с.; Т.4 – 365 с.; Т.5 – 781 с.

6. Низами Гянджеви. Избранное. Сост. и комментарии. Баку: “Азернешр”, 1989 – 727 с.

7. Ölməz məhəbbət haqqında əfsanə. Bakı: “Yazıçı”, 1991 – 184 s.

8. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. /Türkcədən tərcümə. Bakı: “Azərnəşr”, 1991 – 229 s.

9. Абу-Бакр ибн Хосров ал-Устад. Мунисname./ Перевод с персидского. Баку: “Язычы”, 1991 – 584 с.

10. Низами Гянджеви. Лирика. / Сост. Баку: “Язычы”, 1991 – 308 с.

11. Низами Гянджеви. Собрание сочинений. – В 3-х т. Баку: “Азернешр”, 1991 – Т.1 – 851 с.; Т. 2 – 686 с.; Т. 3 – 753 с.

***Əlizadə Elmira Elmar q.***

Восстание зинджей в аббасидском халифате (869-883). Баку: “Элм”, 1986 – 94 с.

***Əlizadə Elmira Əbdül-Kərim q.***

Египетская новелла. Зарождение и формирование жанра. Москва: “Наука”, 1974 – 151 с.

***Əlizadə Əbdülkərim Əli o.***

1. Низами Гянджеви. Махзан-ул-асрар./ Научно-критический текст. Баку: Изд-во АН Азерб.ССР, 1960 – 20 п.л.

2. Мухаммад ибн Хиндушах Нахчивани. Дастур ал-катиб фи тайин ал-маратиб: (Руководство для писца при определении степеней). В 2-х т./ Крит.текст., предисл.и указ. Москва: “Наука”, Т. I. ч.. 1, 1964 – 586с.; Т. I. ч. 2, 1971 – 566 с.; Т. II, 1976 – 569 с.

3. Фазлуллах Рашид ад-Дин. Джами ат-таварих: (Сборник летописей). В 3-х т./ Критич.текст, предисл. Москва: “Наука”. Т.1.ч.1, 1968 – 588 с.; Т. 2.ч.1, 1980 – 7, 294 с. (староараб.паг.); Т. 3. Баку, 1957 – 361 с. (рус.текст), 727 (староараб. паг.)

***Əlizadə Aygün Əjdər q.***

1. Fəridəddin Əttarın "Təzkirətül-övliya" əsəri farsdilli sufi ədəbiyyatının mənbəyi kimi. Bakı, "Zərdabi" nəşriyyatı, 2014, 228 s.

2. Ərəbcə-azərbaycanca lüğət, Bakı, "Nurlan" nəşriyyatı, 2012, 2288 s. 2 cilddə.

***Əliyeva Ülkər Ceyhun q.***

ABŞ-Çin münasibətləri (XXI əsrin əvvəlləri). Bakı: 2014.

***Əlizadə Nüşabə Məmməd-Mübariz q.***

1. Bozorq Ələvinin Nəsri. Bakı: "Elm", 1989 – 146 s.

2. Sədi Şirazinin "Gülüstan" əsərinin tədrisi. Bakı: "Nurlan", 2003 – 410 s.

***Əminzadə Əhməd Əbdül-Məmməd o.***

1. Böyük Oktyabr sosialist inqilabının İranda demokratik fikrin inkişafına təsiri (1917-1925-ci illər). Bakı: Azerb.SSR EA nesr., 1964 – 228 s.

2. Azərbaycanda fəlsəfə və ictimai-siyasi fikir tarixindən (XVII-XVIII əsrlər və XIX əsrin birinci rübü). Bakı: "Elm", 1972 – 221 s.

***Əsədov Fərda Məhərrəm o.***

1. Арабские источники о тюрках в раннее средневековье. Баку: "Элм", 1993 – 204 с.

2. İbn əl-Fəqih əl-Həmədani. "Əxbar əl-buldən" (Ölkələr haqqında məlumatlar). Ərəb dilindən tərcümə, giriş hissəsi və şərhlərin müəllifi, Bakı: "Adiloğlu" nəşriyyatı, 2017, 96 s.

***Əsədov İsmayıl Əziz o.***

Yəmən Xalq Demokratik Respublikası. Bakı: "Elm", 1992 – 112 s.

***Əzimov Anar Böyükağa o.***

Ишракиййа и генезис современной западной философии. Баку: 2003 – 148 с.

***Hacıyev Əlibala Qüdrət o.***

1. Fərruxi Yəzdinin poeziyası. Bakı: Azərb.SSR EA nəşr.,1965 – 165 s.

2. Çar Rusiyası və İran müharibələrinin unudulmuş qəhrəmanları. Fars dilindən tərcümə. Bakı: 2004 – 440 s.

***Hacıyev Maqsud İbrahim o.***

Tat dilinin Qonaqkənd ləhcəsi. Bakı: "Elm", 1971 – 156 s.

***Hacıyeva Yeganə Əziz q.***

"İran İslam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər)". Bakı, "Adiloğlu" nəşriyyatı, 2017, 306 s.

***Hatəmi Hidayət Rza o.***

Mühacir İran qəzetlərinin müstəmləkəçilik və imperializm əleyhinə mübarizəsi. 1905-1911-ci illər İran inqilabı ərəfəsində. Bakı: Azərb.SSR EA nəşr.,1964 – 232 s.

***Həbibov Əvəz Məhəmməd o.***

Cənubi Azərbaycanda azadlıq hərəkatı (1914-1918-ci illər). Bakı: "Azərnəşr", 1988 – 116 s.

***Həsənov Tariel Bilal o.***

İraq kommunist partiyası milli istiqlaliyyat və demokratiya uğrunda mübarizədə: 1934-1963. Bakı: "Elm", 1985 – 152 s.

***Həmidov Mahir Balahəmid o.***

Mihail Nuaymenin Poetikası ve Şiirleri, Ankara Universiteti Dil və Tarix-Coğrafiya Fakültəsi, Kitabın elmi redaktoru professor Rahmi Er, Doğu Dilləri və Ədəbiyyatları nəşriyyatı, Ankara, Bizim büro yayın evi, 2017, 254 s.

***Həsənova Esmeralda Yusub q.***

1. Идеология буржуазного национализма в Турции в период младотурок (1908-1914. Баку: Изд-во АН Аз.ССР, 1966 – 162 с.

2. Идеи “Исламского социализма” в общественно-политической мысли Турции (1960-ые гг.). Баку: “Элм”,1994 – 164 с.

3. Лаицизм и ислам в республиканской Турции. Баку: “Нурлан”, 2002 – 198 с.

4. XX əsr Türkiyəsində din və islam mistisizmi – təsəvvüf sosiologiyası (ideya mənbələri, əsas problemləri, yeni meyillər). Bakı: 2006.

5. Социология религии и мусульманского мистицизма-тасаввуфа в Турции XX века (идейные истоки, основные проблемы, новые тенденции). Баку, “Əli Nəşriyyat evi”, 2006, 288 с.

***Həşimova Təranə Əzim q.***

Poeziya körpüsü. Bakı: “Qartal”, 2004 – 116 s.

***Hüseynov Böyükağa Murtuza o***

1. Mütərəqqi fars poeziyasında sovet mövzusu. Bakı: “Azərnəşr”, 1961 – 156 s.

2. Советская тема в прогрессивной персидской поэзии. Баку: Изд-во АН Аз.ССР, 1961 – 6 п.л.

3. XX əsr fars şerində ənənə və novatorluq. Bakı: “Elm”, 1975 – 340 s.

***Hüseynov Rafael Baba o.***

1. Hədəf gənclərdir. Bakı: “Azərnəşr”, 1983 – 98 s.

2. Vaxtdan uca. Bakı: “İşıq”, 1987 – 361 s.

3. Min ikinci gecə. Bakı: “İşıq”, 1988 – 408 s.

4. Məhsəti – necə varsa. Bakı: “Yazıçı”, 1989 – 336 s.

***Xəlilova Emiliya Səttar q.***

Rəşid İsmayılov o. Azərbaycan tarixi./ Müasir əlifbaya çevirmə və ön söz. Bakı: 1994 – 154 s.

***Xıdırov Cavanşir Vəli o.***

1. Kamal Tahir. Dövlət ana./ Türkcədən tərcümə və şərhlər. Bakı: Azərbaycan Ensiklopediyası, 1992 – 488 s.

2. Hökmdarlar. Bakı: “Yazıçı”, 1993 – 196 s.

3. İraq türkmanları. Bakı: “Azərnəşr”, 1993 – 104 s.
4. Şərqin tarixi abidələri. Bakı: “Adiloğlu”, 2004 – 369 s.
5. Məkkə. Bakı: “Nurlan” nəşriyyatı, 2005 – 6 ç.v.

***İbrahimov Sənan Məmmədəli o.***

1. Əsədi Tusi və Fəxri Gürgani. Bakı: “Ağrıdağ”, 2002 – 150 s.
2. Əsirəddin Əxsikəti. Bakı: “BDU” nəşr., 2003 – 150 s.
3. Fars dilli poeziyada “Azərbaycan səbki” və onun ideya – mövzu aspektləri. Bakı: “Ağrıdağ”, 2003 – 197 s.
4. Klassik Azərbaycan ədəbiyyatı ümumşərq kontekstində. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2006 – 272 s.
5. Suli Fəqihin “Yusif və Züleyxa” poeması XIII əsrin abidəsi kimi. Klassik ədəbiyyatda vəhdəti-vücud. Bakı: 2007 – 148 səh.
6. Hatif İsfahaninin həyatı və yaradıcılığı. Bakı: 2008 – 120 səh.
7. Mirzə Ələkbər xan Dehxoda. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2009 – 77 səh.
8. Divan ədəbiyyatı poetikası. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2009 – 89 səh.

***İbrahimov (Şahin) Tağı Əbdülqasım o.***

1. İran Kommunist partiyasının yaranması. Bakı: Azərb.SSR EA nəşr., 1963 – 261 s.
2. İranda siyasi cəmiyyətlərin və təşkilatların yaranması və fəaliyyəti (1858-1906 illər). Bakı: Azərb.SSR EA nəşr., 1967 – 187 s.
3. Birinci Dünya müharibəsi dövründə İranın Cənub və Qərb rayonlarında milli azadlıq hərəkatı. Bakı: “Elm”, 1981 – 120 s.
4. Qaşqaylar. Bakı: 1988 – 209 s.

***İmanquliyeva Aida Nəsir q.***

1. Ассоциация пера и Михаил Нуайме. Москва: “Наука”, 1975 – 146 с.
2. Cubran Xəlil Cubran. Bakı: “Elm”, 1975 – 71 s.
3. Корифеи новоарабской литературы. Баку: “Элм”, 1991 – 324 с.
4. “Qələmlər birliyi” və Mixail Nüaymə. Bakı: “Elm”, 2002-180 s.

5. Yeni ərəb ədəbiyyatı korifeyləri (XX əsrin əvvəllərində Şərq və Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqəsi probleminə dair). Bakı, "Elm", 2003-398 s.

6. Ə'aləm əl-ədəb əl-arabi əl-cədid. Bakı, 2006-271 s. (ərəb dilində)

7. Modern Arap Edebiyatının Usta Kalemleri (Cibran Halil Cibran – Emin er-Reyhani – Mihail Nuayme). İstanbul, 2007 – 380 s.

8. Məqalələr və tərcümələr (tərtib edəni, ön sözün və şərhlərin müəllifi f.e.d. V.Cəfərovdur) Bakı, 2010, 488 səh.

9. Вибрани статті. Київ, 2011 – 173 с.(ukrayna dilində)

10. Корифеи новоарабской литературы. Tiblisi, 2011 – 152 s. (gürcü dilində)

***İsmayılov Qədir Səlim o.***

Günəşi içənlərin türküsü: Nazım Hikmətin şeirləri, məqalələri, Azərbaycanda onun haqqında yazılan şeirlər, poemalar, məqalələr. Bakı: 2002 – 335 s.

***İsmayılzadə (Rəmzi) Cəfər Balami o.***

Yağma Cəndəqinin poeziyası. Bakı: "Elm", 1976 – 140 s.

***İskəndərli Cabir Ağa o.***

1. Джалал ад-Дин Абд ар-Рахман ас-Суйути. Касиф ас-салсала ан васф а-залзала (Трактат о землетресениях). Перевод с арабского, комментарии и примечания академика З.М.Буниятова и Д.А.Искендерова. Баку, 1983, 78 с.

2. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, 2005, 335 s.

3. Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər. Bakı, 2008 və Bakı, 2011, səh. 110.

***Kamal Müzhər Əhməd***

Национально-освободительное движение в Иракском Курдистане (1918-1932). Баку: Изд-во АН Аз.ССР, 1967 – 184 с.

***Kazımov Mehdi Davud o.***

1. "Хафт пейкар" Низами и традиция назире в персоязычной литературе XIV-XVI вв. Баку: "Элм", 1987 – 205 с.

2. Последователи Низами. Баку: "Элм", 1992 – 232 с.

3. Поэтическое наследие Джамали Табризи. Баку: "Элм", 1998 – 328 с.

4. Из истории суфийской мыслм. Баку: "Элм", 2001 – 184 с.

5. XX əsrin sonlarında fars poeziyası (rus dilində). Bakı: "Nafta Press", 2006 – 21 ç.v.

6. "Məhəmməd İbn Münəvvər" Əsrar ət-tövhid fi maqamat əş-şeyx Əbu Səid Əbu Əl-Xeyr". Bakı: 2010 – 33 ç.v.

7. Farsdilli ədəbiyyatın yeddi əsri. Bakı: "Nafta-Press" nəşriyyatı – 24 ç.v.

8. Наджм ад-Дин Рази. Мирсад ал-ибад мин ал-мабда ила-л-мад. «Нафта-Пресс», Баку, 2014

***Kərimov Qasım Məmməd o.***

Аль-Газали и суфизм.- Баку: "Элм", 1969.- 109 с

***Qasımova Sədaqət Əbdülrəhman q.***

Haldun Tanerin bədii nəsri. Bakı: "İrşad", 1994.-124 s.

Haldun Taner. Hekayələr. Türkcədən tərcümə. Bakı: "Yom Yayınları" nəşriyyatı, 2007 – 187 s.

***Qasımlı Əmir Teymur o.***

"Nəriman Nərimanov və Türk xalqları" – Bakı, "Nurlan", 2006, 160 s.

***Qasımlı İnci Təvəkkül q.***

"Taci-Ədəb". Əli ibn Hüseyn əl-Amasi Əlaəddin Çələbi. Bakı, "Zərdabi" nəşriyyatı, 2014, 292 s.

***Qəmbərov Məmmədhəsən Qəni o.***

Hafiz İbrahiminin poeziyası. Bakı: "Elm", 1978. -116 s.

***Quliyev Abbasəli Muxtar o. (Sarovlu)***

1. Əbdürrəhman Cami: (həyat və yaradıcılıq yolu). Bakı: Azərb.SSR EA nəşr., 1964 – 68 s.

2. Əbdürrəhman Caminin "Yusif və Züleyxa" poeması. Bakı: Azərb.SSR EA nəşr., 1969 –198 s.

***Quliyev Ağamir Ağası o.***

1. Hacı Zeynalabdin Şirvani. Bakı: "Elm", 1964 – 201 s.

2. Х.З.Ширвани. Рийаз аз-сийахат./ Критический текст, предисловие, примечания и указатели. Т. 1. Москва: "Наука", 1974 – 373 с.

3. Х.З.Ширвани. Рийаз аз-сийахат./ Критический текст, предисловие, примечания и указатели. Т. II. Москва: "Наука", 1974 – 407 с.

4. Х.З.Ширвани. Рийаз аз-сийахат./ Критический текст, предисловие, примечания и указатели. Т. III. Москва: "Наука", 1974 – 407 с.

***Quliyev Tərlan Aslan o.***

1. Əruz və qafiyəşünaslıq tarixi (VIII-XVI əsrlər). Bakı: 1988 – 180 s.

2. Azərbaycan şerinin qədim dövrü. Bakı: "Nurlan", 2001 – 44 s.

***Quliyev Elman Hilal o.***

1. Türk xalqları ədəbiyyatı. Bakı: "SBN" nəşriyyatı, 2009 – 25 ç.v.

2. Özbək ədəbiyyatı, Bakı: ADPU-nun nəşriyyatı, 2009 – 7 ç.v.

***Qəribli İslam Eynəli o.***

1. Şeyx Səfiəddin Ərdəbili. Qara məcmuə. (İ.Qəribli) – Bakı: "Cavidan", 2004 – 139 s.

2. S.Ə.Nəbati. Heyran xanım və X.Natəvanın seçilmiş əsərləri. Tərtib edəni, ön söz, lüğət şərh və müqəddimənin müəllifi. Bakı: 2006

3. İ.Qəribli (tərtibçi, ön söz və s.) M.Biriya, Əsərləri. 2008.

4. Ə.Q.Nabdil Oxtay. (Müqəddimə, şərhlər və əsərləri). Çapa hazırlayan: f.ü.f.d. İ.Ş.Qəribli, 2009 – 168 s.

***Quliyev Rəşid Təhməz o.***

"Nazim Hikmətin yaradıcılığında Şərq". Bakı: "Əli Nəşriyyat Evi", 2008 – 152 s.

***Quliyeva-Qafqazlı Xalidə Cahangir q.***

1. Qaracaoğlan. Bakı: "Elm", 1985 – 115 s.

2. Kitabi-Dədə Qorqud mövzusu türk ədəbiyyatşünaslığında. Bakı: 2008 – 175 s.

3. Qaracaoğlan. Bakı: "Əli Nəşriyyat Evi", 2009 – 108 s.

***Qurbanov Allahşükür Bəhlul o.***

Əbdülhəq Hamid. Bakı: "Elm", 1987 – 116 s.

***Mahmudov Malik Rüstəm o.***

Xətib Təbrizinin həyat və yaradıcılığı. Bakı: "Elm", 1972 – 205 s.

***Məcidova Fatma Arif q.***

Əmin ər-Reyhani yaradıcılığında ərəb şərqi. Bakı, "Zərdabi nəşriyyatı", 2014, 192 s.

***Məhəmmədi Abdulla Yaqub o.***

Ərəbcə-azərbaycanca qarşılıqlı atalar sözləri və zərbi məsəllər. Bakı: "Elm", 1978 – 264 s.

***Məhəmmədi Məsiağa Əhməd o.***

1. Qızılbaşlar tarixi./ Fars dilindən tərcümə və şərhlər. Bakı: "Azərbaycan" nəşr., 1993 – 48 s.

2. Saib Təbrizi və farsdilli poeziyada "Hind üslubu". Bakı: "Elm", 1994 – 187 s.

3. Yusif Qarabaği. "Yeddi bağ" /Fars dilindən tərcümə, ön söz və şərhlər. Bakı: "İrşad", 1997.- 87 s.

4. Sədi və Hafiz. Bakı: "Nurlan", 2004 – 74 s.

5. Tədqiqlər və tərcümələr. Bakı: "Nafta Press", 2004 – 220 s.

6. Rza Bərahəni: şeirlər, müsahibələr, araşdırma. Bakı: "Qanun" nəşriyyatı, 2009 – 76 s.

7. Şəms və Mövlana. Bakı: "Nurlan" nəşriyyatı, 2010 – 62 s

8. Söhrab Sipehri. Suyun ayaq səsi (şeirlər və poema). Fars dilindən tərcümə və ön söz. Bakı: "Mütərcim", 2010 – 58 s.

9. Güney Azərbaycan məsələləri. Bakı: "Bakı Çap Evi" nəşriyyatı, 2012 – 224 s.

10. Tərcümə çələngi. Bakı: "Nurlan" nəşriyyatı, 2012 – 312 s.

11. Şəms və Mövlana. Tehran: "Təkderəxt" nəşriyyatı, 2013. – 86 s.

***Məhərrəmov Tahir Əhməd o.***

1. Амир Хусрау Дихлави .Маджнун и Лейли./ Научно-критический текст. Москва: "Наука", 1965 – 291 с.

2. Əmir Xosrov Dəhləvi. Məcnun və Leyli. Bakı: "Elm", 1970 – 153 s.

3. Амир Хусрау Дихлави. Метла аль-анвар./ Научно-критический текст. Москва: "Наука", 1975 – 92 с.

4. Низами Ганджави. Хафт Пайкар./ Научно-критический текст. Москва: "Наука", 1987 – 29,11 п.л.

5. Nasir Xosrov. Səfərnamə. /Tərcümə və şərhlər. Bakı: "Elm", 1997 – 180 s.

6. Əşrəf Marağai. Həyat və yaradıcılığı. Bakı: "Elm", 2000 – 314 s.

***Məlikov Oqtay Süleyman o.***

Установление диктатуры Реза-шаха в Иране. Москва: Изд-во Вост. лит., 1961 –124 с.

***Məlikova Leyla Fuad q.***

Истоки и основные мировоззренческие аспекты бахаизма. Bakı, "Bakı Çap Evi" nəşriyyatı, 2011 – 199 s.

***Məmmədov Abutalıb Mütəllim o.***

1. Ислам и проблемы социально-культурного развития арабских стран. Баку: "Элм", 1986. –134 с.

2. Ziyarət. Bakı: "İrşad", 1990 – 27 s.

3. Hacı bələdçisi. Bakı: "İrşad", 1991 – 43 s.

4. Böyük övliyalar. /Tərcümə, ön söz, qeyd və şərhlər. Bakı: 1993 – 125 s.

5. Böyük övliyalar. /Tərcümə, ön söz, qeyd və şərhlər. Bakı: 1998 – 143 s.

6. İslamda əsas sosial-fəlsəfi anlamlar. Bakı: "NAFTA-PRESS", 2001 – 180 s.

7. İslamın ziyarət ibadətləri. Bakı: "İrşad", 2001 – 95 s.

8. İslam fundamentalizmi: mahiyyəti, əsas prinsipləri və təzahür formaları. Bakı: "Nurlan", 2004 – 110 s.

***Məmmədov Etibar Gülbala o.***

Турецкая карикатура. Баку: “Элм”, 1992 – 128 с.

***Məmmədov Hüsaməddin Məhyəddin o.***

1. İrəvan əyalətinin icmal dəftəri. Bakı: “Elm”, 1996 – 184 s.

2. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: “Sabah”, 1997 – 336 s.

3. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər. Bakı: “Elm”, 2000 – 576 s.

***Məmmədov Vüqar İnqilab o.***

1. Fars dili qrammatikası terminləri. Bakı: “Bakı Çap Evi”, 2010 – 136 s.

2. Şərqşünaslıq İnstitutunda fars dilçiliyi. Bakı: “Bakı Çap Evi”, 2013 – 56 s.

***Məmmədova Kamalə Asəf q.***

Nurçuluq: tarixi və müasir durumu. Bakı: “Əbilov, Zeynalov və oğulları”, 2003 –164 s.

***Məmmədova Kəminə Həvil q.***

XIII əsr farsdilli nəsri və Dəqaiqin “Bəxtiyarnamə” əsəri. Bakı: “MBM” nəşriyyatı, 2009

***Məmmədova Elmira Fikrət q.***

Osman Türkayın poetik irsi. Bakı, “Elm”, 2010 – 256 s.

***Məmmədov Elvüsal Nurullah o.***

1. Məhəmməd əl-Qəzali. Müsəlman əxlaqı / Azərbaycan dilinə tərcümə. Bakı: “CBS – Polygraphic Production”, 2012 – 352 s.

2. Casir Övdə. Şəriətin məqsədləri / tərcümə edən: E.N.Məmmədov. Bakı: “CBS – Polygraphic Production”, 2012 – 144 səh.

3. Taha Cabir əl-Ülvani. İslam tarixində çoxfikirlilik ədəb-ərkanı. Ərəb dilindən tərcümə. Bakı: “CBS – Polygraphic Production”, 2013.

***Minai Əli Nəsrulla o.***

Müasir İran qrafika sənətində poetik obrazlar. Bakı: Azərb. SSR EA nəşr., 1966 – 130 s.

***Mirzəzadə Çimnaz Hadı q.***

1. Ибн Фириште и его рифмованный глоссарий. Баку: “Элм”, 2000 – 275 с.

2. Топонимы Азербайджана в средневековых арабских географических источника. Баку: “Элм”, 1988 – 120 с.

3. Ərəbcə-türkcə mənzum anonim lüğət. Bakı: “Nurlan”, 2006 – 7 ç.v.

4. Hübeyiş Tiflisinin ərəbcə-farsca “Qanun əl-ədəb” lüğəti. Bakı: “Nurlan”, 2009.

***Mustafayev Şahin Məcid o.***

1. Восточная Анатолия: от Ак-Коюнлу к Османской империи. Москва: Вост.литература РАН, 1994 – 224 с.

2. Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax). Bakı: “Pedaqogika”, 2001 – 256 s.

3. Lori vilayətinin icmal dəftəri. Ön söz, mətnin tərtibi, tərcümə və qeydlərin müəllifi. Bakı: “Nurlan”, 2004 – 87 s.

4. Səlcuqilərdən osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: “Elm” nəşriyyatı, 2010 – 332 s.

5. “От сельджуков до османов. Этнополитические процессы в тюркской среде Малой Азии в XI-XV веках”. Москва: ИВРАН – МИЦАИ, 2017 – 440 с. (monoqrafiya) Səlcuqilərdən Osmanlılara. XI-XV əsrlərdə Kiçik Asiya türk mühitində etno-siyasi proseslər.

***Mustafayev Vidadi Kamal o.***

1. Cənubi Azərbaycan: milli şüur (XX əsrin I yarısı). Bakı: 1998 – 180 s.

2. Cənubi Azərbaycan: milli şüur (XX əsrin I yarısı). Köln: 2000 – 10,5 ç.v.

3. Cənubi Azərbaycan məsələsinin öyrənilməsi. Bakı: “Nurlan”, 2002 – 114 s.

4. İran İslam Respublikasında hakimiyyətdaxili münasibətlər (islahatçı-mühafizəkar qarşıdurması). Bakı: “Bakı Çap Evi”, 2010.

***Mürsəlov Ramiz Əlibala o.***

1. Идеологические аспекты политики неприсоединения. (На примере арабских стран). Баку: “Элм”. 1986 – 98 с.

2. Millətçilik təfəkkürü-birlik və parçalanma meyilləri. Bakı: “Elm”, 1994 – 175 s.

3. Müasir islam fundamentalizmi. Bakı: “Nurlan”, 2004 – 160 s.

4. İslam və müasir dövrün qlobal hadisələri. Bakı: 2008, 7,1 ç.v.

5. Müasir islamdaxili proseslər (Misir müəlliflərinin fikirləri əsasında). Bakı: “Bakı Çap Evi” Nəşriyyatı, 2010.

6. Mədinəyə hicrət və erkən müsəlman icmasının ideoloji və inzibati əsaslarının qoyulması. Bakı: “R.M.Kompani” nəşriyyatı, 2012 – 15,5 ç.v.

***Ələkbərova Kəmalə Əndəhət q.***

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatına türk dilinin təsiri. Bakı: 2010.

***Orucova Laura Məlik q.***

1. Az-Zandjani. Mabadiu fit-tasrif. Баку: “Элм”, 1977 – 147 s.

2. Словарь арабских лингвистических терминов. Баку: “Нурлан”, 2005 – 130 с.

***Osmanova Barat Rəhim q.***

“Maarif və mədəniyyət” jurnalında elmi araşdırmalar. Bakı: 2013.

***Rəbi-zadə Maşallah Mikayıl o.***

Развитие капиталистического предпринимательства в промышленности Ирана в 30-х годах XX в. Баку: “Элм”, 1970 – 111 с.

***Rəhimov Əbülfəz Həşim o.***

1. Абди-бек Ширази. Маджнун и Лайли. /Сост.текста и предисл. Москва: “Наука”, 1966 – 244 с.

2. Əbdi bəy Şirazi. Həyat və yaradıcılığı. Bakı: “Elm”, 1970 – 150 s.

3. Абди-бек Ширази. Доухат ал-азхар./Сост.текста и предисл. Москва: “Наука”, 1974 – 184 с.

4. Абди-бек Ширази. Роузат ас-сифат. /Сост.текста и предисл. Москва: “Наука”, 1974 – 192 с.

5. Абди-бек Ширази. Хафт ахтар./Сост.текста и предисл. Москва: “Наука”, 1974 – 250 с.

6. Абди-бек Ширази. Айин-и Искандари. /Сост.текста и предисл. Москва: "Наука", 1977 – 8 с., 142 с. (староараб. паг.)

7. Сахифат ал-ихлас. /Сост.текста и предисл. Москва: "Наука", 1979 – 167 с.

8. Абди -бек Ширази. Джаннат ал-асмар, Зинати ал-авраг, Абди-бек Ширази. Джоухари фард. /Сост.текста и предисл. Москва: "Наука", 1979 – 140 с.

9. Бадр Ширвани. Диван. / Подготовка текста. Москва: "Наука", 1985 – 580 с.

10. Абди-бек Ширази. Мазхар ал-асрар. /Сост.текста и предисл. Москва: "Наука", 1986 – 133 с.

11. Təzkireyi-Şah Təhmasib. /Fars dilindən tərcümə, müqqəddimə və şərhlər. Bakı: 1996.

12. Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi. Təkmillətül-axbar. (Səfəvi dövrü – Şah İsmail və Təhmasib dövrlərinin tarixi. Bakı: "Elm", 1996 – 200 s.

***Rəhimova Zümrüd Talış q.***

1. Müasir kürd şerində poema janrı. Bakı: "Elm", 1978 – 125 s.

2. Kürd şerində maarifçilik. Bakı: "Elm", 1994 –104 s.

3. Rüstəm Musa oğlu Əliyev. Biblioqrafiya. Bakı: "Elm", 2003 – 132 s.

4. Əzab (kürd yazıçılarının hekayələri). Bakı: "Sabah" nəşriyyatı, 2006 – 110 s.

5. Şirin və Fərhad. Bakı: "P.M.Kompani" nəşriyyatı, 2012 – 96 s.

***Ruindej Cabrail Baba o.***

Борьба иракского народа против Багдадского пакта (1954-1959 гг.). Баку: Изд-во АН Аз.ССР, 1966 – 121 с.

***Rüstəmova Zenfira Qulam q.***

Əsirəddin Əbu həyyan əl-Əndəlusi. Əd-durra əl-mudiyyə fi-l-luğa ət-Türkiyə. /Elmi-tənqidi mətn, tətqiqat. Bakı: "İrşad", 1998 – 128 s.

***Rüstəmova-Tohidi Solmaz Əli q.***

1. Kominternin Şərq siyasəti və İran. Bakı: 2001 – 507 s.

2. 1918-ci il azərbaycanlıların soyqırımı foto və sənədlərdə (rus, ingilis və türk dillərində). Bakı: 2012 – 208 s.

3. 1918-ci il Quba hadisələri - Azərbaycanın müsəlman əhalisinin kütləvi məhv edilməsi planlarının tərkib hissəsi kimi. Müsəlmanların soyqırımı sənədlərdə. Sənədlər toplusu. Bakı: 2010.

4. Mart 1918. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə. Bakı: 2009 – 42 ç.v Шамаха. 1918 март-июль. Азербайджанские погромы в документах (в 2-х томах). Составитель: С.А.Рустамова-Тохиди. Баку: 2013.

5. Azərbaycan və Gürcüstan kitabxana və arxivlərində saxlanılan ərəb qrafikalı qəzet və jurnalların birləşdirilmiş kataloqu (1875-1990-cı illər). Tehran: 2006 – 752 s. T.ü.e.d., prof. Solmaz-Rüstəmova Tohidi. Azərbaycan tarixi. 11-ci siniflər üçün dərslik. Bakı, 2017, 207 s.

6. T.ü.e.d., prof. Solmaz-Rüstəmova Tohidi. "1918-ci il Göyçay, Cavad, Ərəş. Azərbaycan qırğınları sənədlərdə". Bakı, 2017, 424 s.

***Saqdıqov Teymur Qocda o.***

"Сопоставление определенного артикля, слитных местоимений с именами и предлогами, а также употребление имен в сопряженной конструкции в арабском языке и в иврите". Тбилиси, 2017, 152 с.

***Sadıqova Cəmilə Əli q.***

Fars dilində şəxs əvəzlikləri (Tarixi aspektdə). Bakı: "Elm", 1975 – 180 s.

***Seyidov Raufbəy Əli o.***

1. Аграрный вопрос и крестьянское движение в Иране. (1950-1953 гг.). Баку: Изд-во АН Аз.ССР, 1963 – 200 с.

2. Иранская буржуазия в конце XIX-начале XX вв. Москва: "Наука", 1974 –274 с.

***Səlimova Səbinə Arif q.***

"Ərəb bədii nəsrində İlkin Abbasilər dövrünün təsviri". Bakı, "Araz", 2015, 274 s.

***Sumbatzadə Əlisöhbət Sumbat o.***

Промышленность Азербайджана в XIX в. Баку: Изд-во АН Азерб.ССР, 1964 – 501 с.

***Süleymanova Sevda Əli q.***

1. Car salnaməsi./ Ərəbcədən tərcümə, giriş, qeydlər və şərhlər. Bakı: "Səda", 1997. -145 s.
2. Qaynaqlar. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar- 335 s. (digər müəlliflərlə), Bakı, 2005.
3. Şimal-qərbi Azərbaycan tarixi. Bakı, 2011, 507 s. (digər müəlliflərə)

***Şabanov Farrux Şabanoviç.***

Государственный строй и правовая система в Турции в период Танзимата. Баку: Изд-во АН Аз.ССР, 1967 – 204 с.

***Şəmidə Əli İsmayıl o.***

1. Рабочее и профсоюзное движение в Иране (1941-1946 гг.). Баку: Изд-во АН Аз.ССР, 1961 – 180 с.
2. Рабочее и профсоюзное движение в Иране после второй мировой войны. 1946-1953 гг. Баку: "Элм", 1965 – 212 с.
3. Ленин и Иран. Баку: "Элм", 1970 – 78 с.
4. Бахрам Сирус. Баку: Изд-во АДП, 1973 – 10 п.л.
5. Гейдар Ами оглу. Баку: "Азернешр", 1973 – 72 с.

***Şəmsi Məmməd İskəndər o.***

Şərəfxan Bidlisinin "Şərəfnamə" əsəri kürd xalqının tarixi mənbələri kimi. Bakı: "Elm", 1972 – 144 s.

***Şükürova Rəhilə Muxtar q.***

Фазлаллах Рашид ад-Дин. Огуз-наме./Перевод с персидского, предисловие, комментарии, примечания и указатели. Баку: "Элм", 1987 – 127 с.

***Tağıyeva Şövkət Əziz-ağa q.***

1. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq mülkiyyəti formaları və torpaqdan istifadə qaydaları. Bakı: Azərb.SSR EA nəşr., 1964 – 247 s.

2. XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti. Bakı: "Elm", 1969 – 199 s.

3. 1920-ci il Təbriz üsyanı. Bakı: "Elm", 1990 – 148 s.

***Tixonov Nikolay Stepanoviç***

1. Десять лет плодотворного сотрудничества: К советско-иранским отношениям. Баку: "Элм", 1973 – 99 с.

2. Западногерманский капитал в Иране. Баку: "Элм", 1972 – 98 с.

***Verdiyeva Günay Vilayət q.***

Fars dilinin söz yaradıcılığında ərəb məsdərlərinin rolu, Bakı, 2017, 160 s.

***Vəkilov Cavanşir Mehdixan o.***

Azərbaycan Respublikası və İran: 40-cı illər. Mədəni əlaqələr. Bakı: "Elm", 1991 – 136 s.

***Vəlixanlı Nailə Məmmədəli q.***

1. IX-XII əsr Ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: "Elm", 1974 – 223 s.

2. Ибн Хордадбех. Книга путей и стран. Перевод с арабского, комментарии, исследование, указатели и карты. Баку: "Элм", 1986 – 427 с.

***Vəliyev Dünyamalı Əmir o.***

5. Государственные финансы и социально-экономическое развитие Турции. Ваку: "Элм", 1991.- 240 с.

6. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: 2008 – 428 s.

***Zahidi Abbas İsmayıl o.***

Müasir ərəb dilində türk mənşəli sözlər. Bakı: "Elm", 1977 – 148 s.

***Zamanova Elmira Emin q.***

Влияние марксистко-ленинской эстетики на развитие прогрессивной эстетической мысли в Турции. Баку: "Элм",1987 – 198 с.

***Zəkiyev Coşqun Ağa o.***

1. Əbdul Vahab əl-Əsvani. Hüseyn ibn Əli. Ərəb dilindən tərcümə. Bakı: "Nurlan", 2012 – 8 ç.v.

2. İmad əş-Şafei. Əshabi-Kəhf. Ərəb dilindən tərcümə. Bakı: "MA Kompani", 2013.

***Zərinəzadə Həsən Hüseynqulu o.***

Fars dilində Azərbaycan sözləri (Səfəvilər dövrü). Bakı: Azərb. SSR EA nəşr., 1962 – 436 s.

# MÜŞTƏRƏK ƏSƏRLƏR

1. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti (İsmayılzadə C.B., Babayev A.M.). Bakı: “Maarif”, 1966.- 219 s.

2. Ərəbcə-azərbaycanca lüğət. 4 cilddə. C.I (Məhəmmədi A.Y., Zahidi A.İ., Zərinəzadə H.). Bakı: “Elm”, 1972 – 525 s.

3.Müasir İran (Abdullayev Z.Z., Aqasi N). Bakı: “Azərnəşr”, 1976 – 192 s.

4. Абу Бакр ал-Кутби ал-Ахари. Тарих-и шейх Увейс /Пер. с персидского, предисловие и комментарии. (Кязымов М.Д., Пириев В.З.). Баку: “Элм”, 1984 – 150 с.

5. Ислам и современность. (Мамедов А., Гусейнов Г.). Баку: “Элм”,1985.

6.İslam və ərəb ölkələrində milli azadlıq hərəkatı. (Əliyev R.Y., Məmmədov A.M.). Bakı: “Elm”, 1986 – 75 s.

7. Хамдаллах Мустауфи Казвини. Зайл-и тарих-и гузида. / Перевод с персидского, предисловие, примечание и указатели. (Кязымов М.Д., Пириев В.З.). Баку: “Элм”, 1986 – 148 с.

8.Fars dilini tədqiq edən Azərbaycan alimləri (Sadıqova C. və Ələsgərova T.). Bakı: 1990 – 228 s.

9. Müasir ərəb şerində siyasi lirika (Cəfərov V., Qəmbərov M.). Bakı: “Elm”, 1990 –112 s.

10. Зайн Ад-Дин Ибн Хамдаллдх Казвини. Зайл-и тарих-и гузида./ Перевод с персидского, предисловие, примечание и указатели. (Кязымов М.Д., Пириев В.З.). Баку: “Элм”, 1990.-212 с.

11. Oğuz Kağan dastanı (Müqəddimə və tərcümə: Abiyev A.M., Rəsuli İ.). Bakı: 1992 – 40 s.

12. Azərbaycana qarşı erməni təcavüzu. /Ərəb dilində. (Həsənova X.H., Əkbərov H.Ə.). Bakı: 1993 – 180 s.

13. Hinduşah Naxçivani. Əs-Sihah əl-əcəmiyyə. Elmi-tənqidi mətn. (Sadıqova C. və Ələsgərova T.). Bakı: 1993 – 336 s.

14. Hüsaməddin Xoyi, Töhfeyi-hüsam. Elmi-tənqidi mətn, tədqiqat sözlükləri (Ələsgərova T., Sadıqova C.). Bakı: “Elm”, 1996 – 240 s.

15. İrəvan əyalətinin icmal dəftəri./ Araşdırma, tərcümə, qeyd və şərhlər. (Bünyadov Z.M., Məmmədov H.M.). Bakı: "Elm", 1996 – 184 s.

16. Naxçıvan sancağının müfəssəl dəftəri./ Araşdırma, tərcümə, qeyd və şərhlər. (Bünyadov Z.M., Məmmədov H.M.). Bakı: "Elm", 1997 – 336 s.

17. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı vilayətlərin yeri. /Rus dilindən tərcümə. (Ağayeva E.R., Bünyadov Z.M.). Bakı: "Elm", 1999 – 160 s.

18. Güney Azərbaycan (Bayramzadə S., Bije Ə., Tağıyeva S.). Bakı: "Orxan", 2000 – 516 s.

19. Müdərris Rəzəvi. Nəsirəddin Tusinin həyatı və əsərləri. /Fars dilindən tərcümə. (Məhəmmədi M., Mustafayev V.). Bakı: 2002 – 212 s.

20. Tədqiqatı daneşməndane Azərbaycan dər bareye zəbane farsi (Ələsgərova T., Sadıqova C.). Tehran: 1377 – 194 s.

21. 1920-ci illər Azərbaycan mətbuatında Türkiyə ədəbiyyatının tədqiqinə dair materiallar. (B.R.Osmanova, S.Ə.Qasımova). Bakı: "Nurlan", 2004 – 312 s

22. Развитие арабской филологии в Азербайджане. (Оруджева Л.М., Шихалибейли З.Э.). Баку: "Нурлан", 2004 – 108 с.

23. Mehmed Kamal Pilavoğlu. Mübarək günlərimiz. Azərbaycan türkcəsinə uyğunlaşdıran E.Fikrət qızı. Bakı: "Günəş" nəşriyyatı, 2005 – 80 s.

24. C.H.Mirzəzadə. Ərəbcə-türkcə mənzum anonim lüğət. Bakı: "Nurlan", 2006 – 7 ç.v.

25. Mehmed Kamal Pilavoğlu. Şəhidlər və qazilər. Azərbaycan türkcəsinə uyğunlaşdıran E.Fikrət qızı. Bakı: "Günəş" nəşriyyatı, 2006 – 132 s.

26. Mehmed Kamal Pilavoğlu. Uşaqlara peyğəmbərlər haqqında. Azərbaycan türkcəsinə uyğunlaşdıran E.Fikrət qızı. Bakı: "Günəş" nəşriyyatı, 2006 – 180 s.

27. Mehmet Kamal Pilavoğlu. Məhəmməd əleyhissəlam və onun nəsihətləri. Azərbaycan türkcəsinə uyğunlaşdıran E.Fikrət qızı. Bakı: "Günəş" nəşriyyatı, 2006 – 164 s.

28. Ebül-Hayri Rumi. Saltuknamə. I cild. Bakı: "Əli Nəşriyyat Evi", 2007 – 280 s. Türkcədən çevirən və nəşrə hazırlayanlar: f.e.n. S.Qasımlı, f.e.n. B.Osmanlı, E.Xəlilova.

29. Ebül-Hayri Rumi. Saltuknamə. II cild. Bakı: “Əli Nəşriyyat Evi”, 2007 – 200 s. Türkcədən çevirən və nəşrə hazırlayanlar: f.e.n. S.Qasımlı, f.e.n. B.Osmanlı, E.Xəlilova

30. S.Rüstəmova-Tohidi (digər müəlliflərlə). Tehran: “Qafqaz kataloqu”, 2007, Azərbaycan və Gürcüstan Respublikalarının kitabxanalarında saxlanılan fars, Azərbaycan, Osmanlı türkcəsi, kürd və ərəb dillərində dövrü mətbuatın birləşmiş kataloqu. Mətbuat araşdırmaları Mərkəzi Nəşriyyatı. Tehran: 2007 – 746 s. (ingilis və fars dillərində). Tərtibçilər: Turac Atabəki, Qrirol Beradze, Corc Sanikidze.

31. Mehmet Kamal Pilavoğlu. Böyük insan Həzrəti Əli. Azərbaycan türkcəsinə uyğunlaşdıran E.Fikrət qızı. Bakı: “Günəş” nəşriyyatı, 2008 – 220 s.

32. Ebül-Hayri-Rumi. Saltuknamə. III cild. Türk dilindən tərcümə edən və nəşrə hazırlayanlar: f.e.n. B.R.Osmanova, f.e.n. S.Ə.Qasımlı və E.S.Xəlilova, Bakı: 2008 – 12,5 ç.v.

33. Azərbaycan-latın-rusca-ərəbcə tibb terminləri lüğəti. Tərtib edənlər: f.ü.f.d. L.M.Orucova, f.ü.f.d. Z.Q.Rüstəmova

34. General-şərqşünas S.Ağabəyzadənin 140 illiyinə həsr olunmuş elmi-praktik konfransın materialları.

35. Azərbaycan-latın-rus-ərəb tibb terminləri lüğəti. Tərtib edənlər: f.e.n. L.M.Orucova, f.e.n. Z.Q.Rüstəmova. Bakı: 2008 – 22,5 ç.v.

36. C.X.Cubran. Qırılmış qanadlar (ərəb dilindən tərcümə edənlər: G.Baxşəliyeva və Ə.Məmmədova). Bakı: “Bakı Çap Evi”, 2010.

37. Müasir Şərq. Analitik informasiya bülleteni. № 1. Bakı: “Bakı Çap Evi”, 2010 – 70 s. (baş redaktor – f.e.d., prof. G.B.Baxşəliyeva, məsul redaktor – t.e.d. S.Ə.Rüstəmova-Tohidi).

38. İslam. Ensiklopedik lüğət. Tərtib edənlər: G.B.Baxşəliyeva, Ə.Abbasov. Bakı: “Elm”, 2013 – 702 səh.

39. İlah.ü.f.d. Məmmədəli Babaşlı (həmmüəlliflərlə filologiya üzrə fəlsəfə doktoru Abdin Uveys Yunis, filologiya üzrə fəlsəfə doktoru Qafar Ocaqlı, filologiya üzrə fəlsəfə doktoru Anar Eyvazov). “Ət-tariq iləl-Arabiyyə. Qeyri-ərəblərə ərəb dilinin tədrisi”, qeyri-ərəb dili ixtisası tələbələri üçün 6 hissədən ibarət dərs vəsaiti, II hissə, Qafqz Universiteti, Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2017, 146 s.

# MƏQALƏ TOPLULARI










1. İran və Türkiyə tarixi məsələləri. Вопросы истории Ирана и Турции. Баку: Изд-во АН Аз.ССР, 1959 – 150 с.

2. İran və Türkiyə tarixi məsələləri. Вопросы истории Ирана и Турции. Баку: Изд-во АН Аз.ССР, 1960 – 132 с.

3. Şərqşünaslıq İnstitutunun elmi əsərləri. Bakı: Az.SSR EA nəşr., 1960 – 132 s.

4. İran və Türkiyə tarixi məsələləri. Вопросы истории Ирана и Турции. – Баку: Изд-во АН Аз.ССР, 1962 – 86 с.

5. İran və Türkiyə tarixi məsələləri. Вопросы истории Ирана и Турции. – Баку: Изд-во АН Аз.ССР, 1963 – 120 с.

6. İran və Türkiyə tarixi məsələləri. Вопросы истории Ирана и Турции. – Баку: Изд-во АН Аз.ССР,1966 – 176 с.

7. İran filologiyası məsələləri. Вопросы иранской филологии. Вып. I. – Баку: “Элм”, 1966 – 310 s.

8. Böyük Oktyabr və Yaxın və Orta Şərq xalqlarının azadlıq mübarizəsi. Великий Октябрь и национально-освободительная борьба народов Ближнего и Среднего Востока. Баку: “Элм”, 1967 – 202 с.

9. Leninin ideyaları və Şərq xalqları mütərəqqi fikrinin inkişafı. Идеи Ленина и развитие прогрессивной мысли народов Востока (Иран, Турция, Ирак). Баку: “Элм”, 1970 – 193 с.

10. Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında. Bakı: “Elm”, 1970 – 250 .

11. Ərəb filologiyası məsələləri. Вопросы арабской филологии. Вып. I. Баку: “Элм”, 1971 – 173 s.

12. Türk filologiyası məsələləri. Вопросы турецкой филологии. Вып. I. Баку: “Элм”, 1971 – 175 с.

13. Türkiyə tarixi məsələləri. Вопросы истории Турции. Баку: “Элм”, 1972 –190 с.

14. İran filologiyası məsələləri. Вопросы иранской филологии. Вып. II. – Баку: “Элм”, 1973 – 276 s.

15. Ərəb filologiyası məsələləri. Вопросы арабской филологии. Вып. I. – Баку: 1973 –161 s.

16. Böyük Oktyabr və Yaxın və Orta Şərq xalqlarının azadlıq mübarizəsi. Великий Октябрь и национально-освободительная борьба народов Ближнего и Среднего Востока. Баку: 977 – 234 с

17. İran və Türkiyənin iqtisadi inkişaf məsələləri. Вопросы экономического развития Ирана и Турции. Баку: “Элм”, 1978 – 184 с.

18. Ərəb filologiyası məsələləri. Вопросы арабской филологии. Вып. III. Баку: 1979 –168 s.

19. Sovet Azərbaycanı və xarici Şərq. Bakı: “Elm”, 1980 – 144 s.

20. Türk filologiyası məsələləri. Вопросы турецкой филологии. Вып. II. Баку: Элм, 1980 – 136

21. İran və Türkiyə: tarix məsələləri. Bakı: “Elm”, 1986 – 164 s.

22. Şərq filologiyası məsələləri. Вопросы восточной филологии. Баку: “Элм”, 1986 – 172 с.

23. Актуальные проблемы современного ислама. Баку: “Элм”, 1986 – 258 с.

24. Турецкая республика./Справочник. Баку: Изд-во АН Аз.ССР,1986.-518 с.

25. Yaxın və Orta Şərq. Ближний и Средний Восток. Баку: “Элм”, 1986 – 248 с.

26. Şərq filologiyası məsələləri. Вопросы восточной филологии. Баку, “Элм”, 1987 – 248 с.

27. Müasir Türkiyənin aktual problemləri. Aktualğnıe problemı sovremennoy Turüii. Bakı: “Elm”, 1988 – 240 s.

28. Актуальные проблемы современного ислама. Баку: “Элм”, 1988 – 244 с.

29. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı: 1989 – 196 s.

30. Актуальные проблемы современного ислама. Баку: “Элм”, 1990 – 162 с.

31. Orta əsrlər Şərqi. Средневековый Восток. Bakı: “Elm”, 1993 – 228 s.

32. Şərqin aktual problemləri. Bakı: “Elm”, 1994 – 112 s.

33. Şərqin aktual problemləri. Tarix və müasirlik. Bakı: “Elm”, 1999 – 112 s.

34. Şərq filologiyası. Bakı: “Elm”, 2000 – 176 s.

35. Orta əsrlər Şərqi. Bakı: 2000 – 186 s.

36. Şərqin aktual problemləri. Tarix və müasirlik. Bakı: 2000 – 168 s.

37. Şərqin aktual problemləri. Tarix və müasirlik. Bakı: “Elm”, 2001 – 282 s.

38. Elmi araşdırmalar (IV buraxılış, №1-4). Bakı: “Nurlan”, 2002 – 246 s.

39. Böyük İran şairi Hafiz Şirazi. 14 noyabr 2001-ci ildə keçirilmiş beynəlxalq elmi-ədəbi konfransın materialları. Bakı: 2002 – 150 s.

40. Böyük İran şairi Sədi Şirazi. Bakı: 2003.

41. Şərqin aktual problemləri: tarix və müasirlik (akademik Z.M.Bünyadovun 80 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları). Bakı: “Nurlan”, 2003.

42. Elmi araşdırmalar (V buraxılış, №1-2). Bakı: “Nurlan” 2003 – 310 s.

43. Mirzə Kazımbəy-200. Beynəlxalq elmi konfransın materialları. Bakı: “Nurlan”, 11-12 iyun, 2003 – 129 s.

44. Orta əsrlər Şərq tarixi: qaynaqlar və araşdırmalar (akademik Z.M.Bünyadovun 80 illiyinə həsr olunmuş məqalələr toplusu). Bakı: “Nurlan”, 2003 – 188 s.

45. “Hikmət” elmi araşdırmalar məcmuəsi (№1). Bakı: “Əlhudə”, 2003 – 158 s.

46. Elmi araşdırmalar (IV buraxılış, №1-2). Bakı: “Nurlan” 2004 – 384 s.

47. Elmi araşdırmalar (VIII buraxılış, № 1-4).

48. Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr. (Beynəlxalq elmi konfransın materialları). Bakı: “Elm”, 2004 – 160 s.

49. Qloballaşma və islam. Elmi konfransın materialları. Bakı: “Nafta-Press”, 12-13 may 2004 – 46 s.

50. Rüstəm Əliyev fenomeni. Bakı: “Nurlan”, 2004 – 148 s.

51. “Hikmət” elmi araşdırmalar məcmuəsi (№2). Bakı: “Əlhudə”, 2004 – 190 s.

52. “Hikmət” elmi araşdırmalar məcmuəsi (№3). Bakı: “Əlhudə”, 2004 – 168 s.

53. “Hikmət” elmi araşdırmalar məcmuəsi (№4). Bakı: “Əlhudə”, 2004 – 156 s.

54. “Hikmət” elmi araşdırmalar toplusu, № 5-6. Bakı: “Əlhudə”, 2005 – 240 s.

55. “Hikmət” elmi araşdırmalar toplusu, № 7. Bakı: “Əlhudə”, 2005 – 156 s.

56. Şərq filologiyası məsələləri. II buraxılış. Bakı: 2006.

57. “Hikmət” elmi araşdırmalar toplusu, № 8. Bakı: “Nafta-Press”, 2006 – 178 s.

58. “Hikmət” elmi araşdırmalar toplusu, № 9. Bakı: “Nafta-Press”, 2006 – 168 s.

59. “Hikmət” elmi araşdırmalar toplusu, № 10, Bakı: “Nafta-Press”, 2007 – 174 s.

60. Şərq filologiyası məsələləri, IV buraxılış. Bakı: 2008 – 35,2 ç.v.

61. Şərq filologiyası məsələləri (məqalələr toplusu). Bakı: “Əli Nəşriyyat Evi”, 2009;

62. “Şərq filologiyası məsələləri” toplusu (X buraxılış), “Araz” nəşriyyatı, Bakı, 2017, 438 s.

63. “Azərbaycan şərqşünaslığı”, №1, Bakı: “Əli Nəşriyyat Evi”, 2009, 80 s.

64. “Azərbaycan şərqşünaslığı”, №2, Bakı: “Adiloğlu”, 2009, 80 s.

65. “Azərbaycan şərqşünaslığı”, №1(3), Bakı: “Bakı Çap Evi”, 2010, 80 s.

66. “Azərbaycan şərqşünaslığı”, №2 (4), Bakı: “Bakı Çap Evi”, 2010, 80 s.










67. “Elmi araşdırmalar” məcmuəsi. Bakı: 2011 – 30 ç.v. (Məcmuə tarix, politologiya, ilahiyyat, fəlsəfə, ədəbiyyatşünaslıq və dilçilik rubrikaları üzrə 100-dən çox məqaləni əhatə edir.

68. “Azərbaycan şərqşünaslığı”, №1 (5), Bakı: “Bakı Çap Evi”, 2011, 88 s.

69. “Azərbaycan şərqşünaslığı”, №2 (6), Bakı: “Bakı Çap Evi”, 2011, 72 s.

70. “Azərbaycan şərqşünaslığı”, №1 (7), Bakı: “R.M.Kompani”, 2012, 128 s.

71. “Azərbaycan şərqşünaslığı”, №2 (8), Bakı: “R.M.Kompani”, 2012, 104 s.

72. “Azərbaycan şərqşünaslığı”, №3(9), Bakı: “R.M.Kompani”, 2012, 104 s.

73. “Azərbaycan şərqşünaslığı”, №1 (10), Bakı: “M.A.Kompani”, 2013, 104 s.

74. “Azərbaycan şərqşünaslığı”, №1 (11), Bakı: “Zərdabi LTD”, 2014, 104 s.

75. “Azərbaycan şərqşünaslığı”, №2 (12), Bakı: “M.A.Kompani”, 2014, 104 s.

76. “Azərbaycan şərqşünaslığı”, №1 (13), Bakı: “Araz”, 2015, 104 s.

77. AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun bukleti, Bakı “Araz” MMC, 2015 112 s.

78. Orta əsrlər Şərqi: tarixşünaslığın və mənbəşünaslığın aktual məsələləri (Sovet İttifaqı Qəhrəmanı, akademik Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş məqalələr toplusu). Bakı, “Elm”, 2015, 380 s.

79. "Azərbaycan şərqşünaslığı", №1 (14), Bakı: "Araz", 2016, 128 s.

80. "Azərbaycan şərqşünaslığı" №1 (15), Bakı: "Elnar-2016" 2017, 96 s.

81. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" (Ziya Bünyadov qiraətləri) mövzusunda beynəlxalq konfrans. (16-17 oktyabr 2017-ci il), Bakı: "Elnar 2016", 2017, 266 s.

## KİTABIN İÇİNDƏKİLƏR

AMEA AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU 60 İLDƏ ....3
İRAN TARİXİ VƏ İQTİSADİYYATI ŞÖBƏSİ ....12
CƏNUBİ AZƏRBAYCAN ŞÖBƏSİ ....17
TÜRKİYƏ TARİXİ VƏ İQTİSADİYYATI ŞÖBƏSİ ....27
ƏRƏB ÖLKƏLƏRİ TARİXİ VƏ İQTİSADİYYATI ŞÖBƏSİ ....32
İRAN FİLOLOGİYASI ŞÖBƏSİ ....40
TÜRK FİLOLOGİYASI ŞÖBƏSİ ....45
ƏRƏB FİLOLOGİYASI ŞÖBƏSİ ....51
MƏNBƏŞÜNASLIQ VƏ YAZILI ABİDƏLƏRİN TƏDQİQİ VƏ NƏŞRİ ŞÖBƏSİ ....60
DİN VƏ İCTİMAİ FİKİR TARİXİ ŞÖBƏSİ ....69
ŞƏRQ-QƏRB ŞÖBƏSİ ....80
NƏŞRİYYAT VƏ ELMİ İNFORMASİYA TƏMİNATI ŞÖBƏSİ ....89
MƏRKƏZİ ASİYA VƏ UZAQ ŞƏRQ ÖLKƏLƏRİ ŞÖBƏSİ ....92
MƏRKƏZİ ASİYA ŞÖBƏSİ ....96
ASİYA SAKİT OKEAN REGİONU ÖLKƏLƏRİ ŞÖBƏSİ ....104
ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN ELMİ TƏDQİQAT İŞLƏRİ ....114
KONFRANS, SİMPOZİUM VƏ TƏDBİRLƏR ....154
İNSTİTUTUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ. ....203
XARİCİ ÖLKƏLƏRİN AKADEMİK QURUMLARI İLƏ SAZİŞLƏR ....220
İNSTİTUTUN ALİMLƏRİNİN YÜKSƏK SƏVİYYƏLİ TƏLTİFLƏRİ ....223
ELMİ-TƏDQİQAT PROQRAMLARININ MÜSABİQƏSİNDƏ İŞTİRAK ....225
İNSTİTUTUN KADR SİYASƏTİ ....227
MONOQRAFİYA VƏ KİTABLAR ....228
MÜŞTƏRƏK ƏSƏRLƏR ....259
MƏQALƏ TOPLULARI ....262

**AMEA AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

# 60 ildə

**AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**Ünvan:** Bakı şəhəri, Hüseyn Cavid prospekti, 117
**İndeks:** AZ 1143
**Tel.:** (+99412) 538 87 55;
**Fax:** (+99412) 510 97 21
**E-mail:** sharq@oriental.science.az

Çapa imzalanmışdır: 01.11.2018
Formatı: 60x90  1/16
Həcmi: 17 ç.v.
Sifariş: 28
Miqdarı: 500

«Papirus Nəşriyyat-Poliqrafiya» MMC-nin
mətbəəsində çap olunmuşdur.

Ünvan: Bakı şəhəri, Mətbuat prospekti 24.
Tel.: (+994 12) 510-75-36